**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**R.A.SƏFƏROV**

# D Ö V L Ə T
# Q U L L U Ğ U

***Dərs vəsaiti***

Azərbaycan Respublikası təhsil nazirinin 11.02. 2014-cü il tarixli 159 №-li əmri ilə qrif verilmişdir.

**BAKI - 2014**

**Elmi redaktor:** iqtisad elmləri doktoru, professor
**K.A.Şahbazov**

**Rəyçilər:** AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun aparıcı elmi işçisi, h.ü.f.d.
**Ə.H.Rzayev**

ADİU "İqtisadi hüquq" kafedrası, i.e.d., prof. **F.P.Rəhmanov**

AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "İnzibati idarəetmə" fakültəsinin dekanı dos. **E.H.Azadov**

ADİU "Menecment" kafedrası, i.e.n., dos.
**M.H.Məmmədov**

**Səfərov R.A. Dövlət qulluğu. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2014. - 228 s.**

**ISBN 978-9952-8241-5-5**

Kitabın strukturu Azərbaycan Dövlət İqtisad Universitetinin proqramına uygun hazırlandığından dərs vəsaiti kimi istifadəsi nəzərdə tutulmuşdur. Dərs vəsaitində dövlət qulluğunun ən çox iqtisadi aspektlərinə baxılmışdır.

Kitab ali məktəblərin bakalavr və magistr pillələrinin tələbələri üçün nəzərdə tutulmuşdur, ondan dövlət qulluğu sahəsində çalışanlar, eləcə də geniş oxucu kütləsi istifadə edə bilər.

© Səfərov R.A. - 2014
© İqtisad Universiteti - 2014

## MÜNDƏRİCAT

**GİRİŞ.................................................................. 7**

**I FƏSİL. DÖVLƏT QULLUĞU, ONUN MƏZMUNU VƏ TƏDQİQAT OBYEKTİ.............................................. 9**

1.1. Dövlət qulluğu anlayışı..................................... 9

1.2. Dövlətçilik sistemi və dövlət idarəetmə mexanizminin mahiyyəti..................................... 12

**II FƏSİL. AZƏRBAYCANDA DÖVLƏT QULLUĞU ƏNƏNƏLƏRİ VƏ ONUN TARİXİNƏ DAİR.................................... 18**

2.1. Azərbaycanda dövlətçilik tarixi və dövlətçilik siyasəti: "Siyasətnamə", "Əxlaqi-Nasir" və "Qabusnamə" əsərlərində məmurluq ənənələrinin inkişafı.............................................. **18**

2.2. Azərbaycanda orta əsrlərin dövlət quruluşu və məmurluq sistemi................................................. **24**

2.3. Səfəvilər dövründə Dövlət Şurasının formalaşması və saray qullugu............................ **30**

2.4. Azərbaycanın xanlıqlar dövründə idarəetmə sistemi və qulluq münasibətləri........................... **33**

2.5. Azərbaycanda rus məmurluğuna əsaslanan dövlət qulluğunun yaranması və formalaşdırılması mərhələləri............................. **41**

**III FƏSİL. KADRLARIN İDARƏ OLUNMASI STRATEGİYASI VƏ DÖVLƏT QULLUĞU.............................................. 53**

3.1. Dövlət qulluğu məsələləri və kadrların idarə olunması ........................................................... **53**

3.2. İşəgötürmədə ədalətlilik, şəffaflıq və rəqabət

prinsipləri........................................................... 58

3.3. Dövlət qulluğunda karyera və vəzifəyə əsaslanan model.................................................. 60
3.4. Kadrların idarə edilməsi mexanizminin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş sistemləri........................................................... 62

**IV FƏSİL. XXI ƏSRİN DÖVLƏT QULLUĞU STRATEGİYASI..................................** **65**
4.1. Polşa Dövlət Qulluğu Ofisində qəbul edilmiş prinsiplər ........................................................... 65
4.2. Avropa İttifaqı ölkələrinin dövlət qulluğu sistemində kadrların idarə olunması .................. 66
4.3. BMT-də "Dövlət sektorunun işi üçün kadr potensialının açılması" (2005-ci il) bölməsinin fəaliyyət proqramı............................................. 68
4.4. Azərbaycanda Dövlət Qulluğunun İdarəetmə Şurası ............................................................... 69

**V FƏSİL. QABAQCIL ÖLKƏLƏRDƏ DÖVLƏT QULLUĞU VƏ ONLARIN QISA XÜLASƏSİ...........................................** **75**
5.1. Amerika Birləşmiş Ştatlarında dövlət qulluğunun yaranması və inkişafı........................ 75
5.2. Böyük Britaniyada dövlət qulluğunun yaranması və inkişafı......................................................... 84
5.3. Fransada dövlət qulluğunun yaranması və inkişafı............................................................... 90
5.4. Almaniyada dövlət qulluğunun yaranması və inkişafı............................................................... 97
5.5. Rusiyada dövlət qulluğunun yaranması və inkişafı............................................................... 100

**VI FƏSİL. AZƏRBAYCANDA MÜASİR DÖVLƏT QULLUĞUNUN YARANMASI, ONUN VƏZİFƏLƏRİ VƏ PRİNSİPLƏRİ................................ 108**
6.1. Dövlət qulluğu haqqında ümumi müddəalar və onun əsas məqsədi............................................ **108**
6.2. Dövlət qulluğunun növləri və təsnifatı.............. **112**
6.3. Dövlət qulluğunun əsas vəzifələri...................... **115**
6.4. Dövlət qulluğunun təşkilinin əsasları və prinsipləri.......................................................... **116**

**VII FƏSİL. DÖVLƏT ORQANLARI VƏ ONLARIN TƏSNİFATI...................... 119**
7.1. Dövlət orqanı anlayışı......................................... **119**
7.2. Dövlət orqanlarının təsnifatı............................... **120**
7.3. Dövlət qulluğu vəzifəsinin anlayışı..................... **122**
7.4. Dövlət orqanlarında vəzifələrin təsnifatı............. **124**
7.5. İnzabati və yardımçı vəzifələrin təsnifatı............ **126**
7.6. İnzibati və yardımçı vəzifələrin ixtisas tələbləri.. **129**

**VIII FƏSİL. DÖVLƏT QULLUQÇULARI VƏ MƏMURLARI................................... 131**
8.1. Dövlət qulluqçusu anlayışı və onun andı............ **131**
8.2. Dövlət qulluqçularının ixtisas dərəcələri, ixtisas dərəcələrinin verilməsi və onlardan məhrum edilməsi............................................................ **134**
8.3. Dövlət qulluqçusunun əsas vəzifələri və hüquqları............................................................ **141**
8.4. Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər........ **145**

**IX FƏSİL. DÖVLƏT QULLUQÇULARININ SOSİAL MÜDAFİƏSİ VƏ TƏHSİLİNİN ARTIRILMASI............ 151**
9.1. Dövlət qulluqçuları üçün təminatlar.................... **151**

9.2. Dövlət qulluqçularının dövlət məvacibi.............. **152**
9.3. Dövlət qulluqçularının pensiya təminatı............. **156**
9.4. Dövlət qulluqçularının mükafatlandırılması: vəzifə maaşlarına əlavə haqqın, yerli əmsalların müəyyən edilməsi və təltif olunması qaydaları.... **156**
9.5. Dövlət qulluqçularının əlavə təhsili..................... **159**

**X FƏSİL. DÖVLƏT QULLUĞUNA QƏBULOLMA......................................** **161**
10.1. Dövlət qulluğuna qəbul edilmək hüququ və bu **161**
sahədə qoyulan məhdudiyyətlər......................... **162**
10.2. Dövlət qulluğuna qəbulolma qaydaları............... **164**
10.3. İnzibati vəzifələrin tutulması mexanizmi .......... **169**
10.4. Dövlət qulluğunun şərtləri.................................
10.5. Dövlət qulluqçularının fəaliyyətinin **170**
qiymətləndirilməsi.............................................

**XI FƏSİL. DÖVLƏT QULLUQÇULARININ ATTESTASİYASI VƏ İRƏLİ ÇƏKİLMƏK HÜQUQU......................** **172**
11.1. Dövlət qulluqçusunun attestasiyası.................. **172**
11.2. Dövlət qulluğunda irəli çəkilmək hüququ.......... **176**
11.3. Dövlət qulluğunda olmanın yaş həddi ...............
**XII FƏSİL. DÖVLƏT QULLUQÇULARININ MƏSULİYYƏTİ VƏ DÖVLƏT QULLUĞUNA XİTAM VERİLMƏSİ..** **177**
12.1. Dövlət qulluqçularının məsuliyyəti.................... **177**
12.2. Dövlət qulluğuna xitam verilməsi ..................... **185**

"Dövlət qulluğu" fənni üzrə testlər............................ **188**
"Dövlət qullugu fənni" üzrə testlərin cavabları........... **224**
**ƏDƏBİYYAT.........................................................** **225**

# GİRİŞ

Güclü dövlətçilik ənənələrinə, milli mental xüsusiyyətlərə malik olan xalqlar və millətlər zaman-zaman özünün formalaşma dövrünü keçmiş, tarixin sərt sınaqlarına sinə gərmiş və özlərinin milli dövlətçilik modellərini qurmuşlar. Azərbaycan xalqı da öz milli dövlətçilik quruculuğu yolunda müxtəlif vaxtlarda bəzi dövlətlər tərifindən işğala məruz qalsa da tarixin belə keçməkeşli sınaqları qarşısında heç vaxt büdrəməmişdir.

Dövlət qulluğu kitabında Azərbaycanda dövlət idarəçiliyininin yaranması və inkişafı tarixinə diqqət yetirilmiş, bu ərazilərdə mövcud olmuş dövlətlərin idarəçilik sistemi barəsində məlumatlar verilmiş, dövlət idarəçiliyinin məzmunu, dövlət idarəetmə mexanizminin mahiyyəti, Azərbaycanda dövlət qulluğu ənənələri, qabaqcıl ölkələrin dövlət qulluğu, ölkəmizdə müasir dövlət qulluğunun yaranması, dövlət orqanı və dövlət qulluqçusu anlayışı, dövlət qulluqçuları üçün təminatlar, dövlət qulluğuna qəbulolma qaydaları, inzibati vəzifələrin tutulması mexanizmi, dövlət qulluqçusunun attestasiyası, dövlət qulluqçularının məsuliyyəti açıqlanmışdır.

Dərs vəsaitinin yazılmasında müəllif Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun aparıcı elmi işçisi Əli Rzayevin və bir sıra başqa müəlliflərin hazırladıqları zəngin əsərlərindən istifadə etmişdir.

Hər bir sahədə olduğu kimi dövlət qulluğunda da ədəbiyyatların çox olması heç də əvvəl nəşr olunanların səviyyəsinə xələl gətirmir, əksinə, elm və təhsil sahəsində qarşılıqlı müqayisədən istifadə etməklə ədəbiyyatların elmilik, sahəvilik səviyyəsini yüksəltmək olar.

Bu kitab təbii ki, dövlət qulluğu kimi çox zəngin tədqiqat-

lar, araşdırmalar və təhlillər tələb edən bir sahənin bütün incəliklərini özündə əks etdirməmişdir və şərh olunan bölmələr də qüsursuz deyildir. Bu baxımdan müəllif dərs vəsaiti üzrə öz iradlarını, təklif və tövsiyələrini bildirəcək oxuculara əvvəlcədən öz minnətdarlığını bildirir.

Ümid edirik ki, dərs vəsaiti dövlət qulluğunun nəzəri və praktiki məsələlərini müstəqil öyrənənlər, o cümlədən tələbə və magistrlər üçün layiqli töhfə olacaqdır.

# I FƏSİL

# DÖVLƏT QULLUĞU, ONUN MƏZMUNU VƏ TƏDQİQAT OBYEKTİ

## 1.1. Dövlət qulluğu anlayışı

Tarixən dövlət və dövlətçilik ənənələri güclü olan toplumlar zamanın sınaqlarından həmişə ugurla keçərək ozlərinin milli varlıgını, mənliyini, maddi və mənəvi dəyərlərini qoruyub saxlaya bilmişlər. Belə tarixi ənənələri olmayan xalqlar və millətlər isə bir qayda olaraq, tarixin sərt döngələrində büdrəmişlər. Azərbaycan da tarixin çox sınaqlarına sinə gərmiş, yalnız güclü mənəviyyatı, yenilməz ruhu sayəsində əzəli torpaqlarının hüdudlarında qala bilmiş, fürsət düşdükcə öz dövlətini qurmağa səy göstərmişdir. Bu baxımdan Azərbaycanın dövlətçilik tarixini izləmək, müxtəlif dövrlərdə onun hansı formalarda qurulduğunu öyrənmək, Azərbaycanın bir sıra görkəmli dövlət xadimlərinin və mütəfəkkirlərinin bu sahədə gördükləri işləri və söylədikləri fikirləri təhlil etmək çox əhəmiyyətlidir.

Ancaq tariximizin dərinliklərinə varmadan da iftixarla qeyd edə bilərik ki, sovet imperiyasının dağılmasından Azərbaycan xalqı yetərincə bəhrələnmiş və öz müasir müstəqil dövlətini elan edərək qədim və zəngin dövlətçilik ənənələrini bərpa etmişdir. Öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı illər ərzində Azərbaycan beynəlxalq hüquq subyekti kimi dünya birliyinə üzv olmuş, bir sıra beynəlxalq təşkilatlara daxil olmuş, dünyada və regionda özünə layiqli yer tutmuş, demokratik, hüquqi, dünyəvi və unitar dövlət olaraq formalaşmışdır [1].

Azərbaycan suverenlik əldə etdikdən, müstəqilliyinin

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı: Ozan nəşriyyatı, 2004.- S.3

bərpasından sonra yeni-iqtisadi şəraitdə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna müvafiq keçid dövründə dövlət aparatının, dövlət idarəetmə sisteminin yenidən qurulması və dövlət qulluğunun formalaşması mərhələsinə başlanır. İslahatların həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin "Hüquqi islahatlar komissiyasının yaradılması haqqında" Sərəncamının (1996) və "Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissiyasının yaradılması haqqında" Fərmanının (1998) müstəsna rolu olmuşdur.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında ilk dəfə dövlət qulluğunun konstitusion əsasları (55, 56, 94.9 maddəri) təsbit edilir. Yeni Konstitusiya prinsipləri əsasında qəbul edilmiş "Dövlət qulluğu haqqında" AR Qanunu (2000-ci il) dövlət qulluğunun legitimliyini, onun hüquqi əsaslarını, dövlət qulluqçusunun statusunu və dövlət qulluğu keçmənin hüquqi mexanizmini və.s müəyyən etmişdir [1].

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu mühüm dövlət sənədidir və yeni əsrdə ölkəmizin idarə olunmasını, müstəqilliyimizin daha da möhkəmləndirilməsini, insanın, sıravi vətəndaşların rifahının yaxşılaşdırılmasını təmin edən kadr siyasəti yeridilməsinə, əhalinin geniş bir təbəqəsini təşkil edən dövlət qulluqçularının cəmiyyətdəki yerinin, onların hüquq və vəzifələrinin dəqiq müəyyənləşdirilməsinə xidmət göstərir [2].

**Dövlət qulluğu** inzibati hüququn mühüm kateqoriyalarından biri olmasına baxmayaraq, sovet dövründə öz normativ təsdiqini tapmamışdır. Bunun əsas köklərini keçmiş Sov.İKP rəhbərliyinin çar Rusiyası dövründə mövcud olmuş dövlət qulluğunu partiya rəhbərliyi müstəvisinə keçirərək partiya-kadr

---

[1] Rzayev Ə. Dövlət qulluğunun hüquqi əsasları. Bakı, "Elm", 2011.- S.7

[2] İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı: Ozan nəşriyyatı, 2004.- S.4

nomenklaturası prizmasından baxılmasında görmək olar. “Kadrlar hər şeyi həll edir” şüarı əsas götürülərək bu sahənin tənzimlənməsi qanunvericiliklə yox, partiya qərarları ilə həyata keçirilirdi.

Dövlət qulluğunun nəzəri cəhətdən tədqiqi 40-cı illərin sonlarında Studenikin S.S, Vlasov V.A. tərəfindən başlanmış, 60-cı illərdə Petrov Q.İ., Paxomov İ.N., Manoxin V.M. tərəfindən daha da intensivləşdirilmişdir.

Bunlar və digər nəzəriyyəçi alimlər dövlət qulluğu anlayışını «dövlətin funksiyalarının praktiki həyata keçirilməsi», «Sovet dövlət orqanlarında, dövlət müəssisələrində və idarələrində vəzifə başçılığının həyata keçirilməsi», «Kommunizm cəmiyyətini qurmaq məqsədi ilə sosial və iqtisadi prosesdə dövlət rəhbərliyinin təşkili və yerinə yetirilməsindən ibarət olub, xalq deputatları sovetinin tabeliyində olan dövlət aparatında vəzifəyə görə haqqı ödənilən fəaliyyət», «sosialist və kommunist cəmiyyətinin qurulması məqsədi ilə dövlətin vəzifə və funksiyalarının praktiki və bilavasitə həyata keçirilməsində dövlət orqanlarında və başqa dövlət idarələrində şəxsi heyətin və dövlət qulluqçularının özlərinin fəaliyyətinin təşkili və hüquqi tənzimlənməsində sovet sosialist dövlətinin fəaliyyətinin bir tərəfi» (və ya hissəsi) kimi baxılmışdır.

90-cı illərin əvvəllərində cəmiyyətdə başlamış demokratikləşmə prosesi dövlət qulluğuna da yeni prizmadan baxılmasına şərait yaratmışdır. Bu dövrdə keçmiş sovet respublikalarında dövlət qulluğu sahəsində islahatlar başlanmış və müvafiq qanunlar qəbul edilmişdir. Məsələn, Belorus Respublikasında 1993-cü ilin mart ayında «Dövlət aparatında qulluğun əsasları» qanunu, Ukrayna Respublikasında 1993-cü ilin dekabr ayında «Dövlət qulluğu haqqında» qanun, Rusiya Federasiyasında 1995-ci ilin iyul ayında «RF dövlət qulluğunun əsasları haqqında” qanun, Azərbaycan Respublikasında 21 iyul 2000-ci ildə qəbul olunmuş «Dövlət qulluğu haqqında» qanun qəbul olunmuşdur. Bu qanunlar dövlət qulluğunun hüquqi tənzimlən-

məsinin əsasını təşkil etmiş, sonrakı qəbul olunmuş normativ-hüquqi aktların mahiyyətini dəyişmiş, dövlət qulluğunun inkişafına təsir göstərmişdir [1].

Azərbaycanda dövlət quruluşuna, idarəçilik formasına, dövlət rejiminə uyğun dövlət qulluğunun modernləşməsində xarici ölkələrin təcrübəsindən, islahatların nəticəsindən istifadə edilmişdir. Axırıncı illərdə kadr siyasətinin təkmilləşdirilməsi dövlət qulluğunun modernləşməsi, dövlət qulluqçularının sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və başqa innovasiya tətbiq edilir.

«Dövlət qulluğu haqqında» AR qanununda **dövlət qulluğu** Azərbaycan Respublikası Konstitusiyası və digər qanunvericilik aktlarına uyğun olaraq, **dövlətin məqsədlərini və funksiyalarını həyata keçirmək sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsi kimi baxılır.**

Dövlət qulluğu çoxtərəfli olmaqla yanaşı dövlət hakimiyyətinin idarəetmə təsirini göstərən və dövlət idarəetməsinin daxili mahiyyətini açan geniş anlayışlardan biridir. Müasir dövrdə dövlət qulluğu dövlət siyasətinin, onun məqsəd və funksiyalarının reallaşmasında, onun suverenlik və müstəqilliyinin qorunub saxlanılmasında, dövlətçiliyin möhkəmləndirilməsində, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əsas mexanizm kimi çıxış edir.

Müxtəlif alimlər **«dövlət qulluğu»** anlayışını öz tədqiqat obyekti və peredmetlərindən asılı olaraq təhlil edirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun aparıcı elmi işçisi Ə.Rzayevin fikrincə, **dövlət qulluğu anlayışı dövlət hakimiyyəti orqanlarında qanunvericiliklə yaradılmış inzibati vəzifələri tutan, dövlətin məqsəd və funksiyalarını həyata keçirən, əməyi**

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı, "Elm", 2005.- S.8-10

**dövlət büdcəsindən ödənilən vətəndaşların peşəkar fəaliyyətidir.**

Müəllif Q.V. Atamançuk dövlət qulluğuna **«dövlət orqanlarında təsis edimiş dövlət vəzifələrinin bilavasitə icrası ilə dövlətin məqsəd və funksiyalarının həyata keçirilməsində vətəndaşların praktiki və peşəkar fəaliyyəti»** kimi baxır.

Beynəlxalq təcrübə göstərir ki, peşəkar dövlət qulluğunun yaradılması Amerika hüquqşünası, sonradan ABŞ Prezidenti olmuş V.Vilsonun konsepsiyası ilə əlaqədardır. Bu konsepsiyaya görə hər bir dövlətdə iki funksiya: siyasi və idarəetmə funksiyası olur. Siyasi funksiya ilə siyasi vəzifə tutan siyasi elita, idarəetmə ilə isə peşəkar dövlət qulluqçuları məşğul olur. Siyasi elita siyasəti formalaşdırır, dövlət qulluqçuları bu siyasəti həyata keçirir. Siyasi elita seçkilərdə qalib gəlmiş dövlət başçısı tərəfindən formalaşdırılır, idarəetmə ilə məşğul olan dövlət qulluqçuları isə işində qəbahətə yol verməyibsə peşəkar fəaliyyətini təqaüdə gedənə qədər seçkilərin nəticələrindən asılı olmayaraq, dövlət qulluğunda davam etdirirlər [1].

## 1.2. Dövlətçilik sistemi və dövlət idarəetmə mexanizminin mahiyyəti

Dövlət qulluğu **dövlətçilik sisteminin** elementləri – *dövlət, dövlət aparatı, dövlət idarəetməsi* ilə bir sırada durur, onlarla qarşılıqlı əlaqədə olur, onlara təsirdə özünü ifadə edə bilir, realizə olunur, təhlil edilir və qiymətləndirilir [2]. Ə.H.Rzayev göstərir ki, **dövlətçilik** dövlət təzahürlərinin – dövlət, dövlət hakimiyyyəti, dövlət aparatı, dövlət idarəetməsi və dövlət qulluğunun məcmusu olmaqla, onun elementləri qarşılıqlı təsir, qarşılıqlı əlaqə və qarşılıqlı asılılıqda vahid sistemi təşkil edir [3]. Dövlətçiliyin vahid sistemini təşkil edən dövlət

---

[1] Rzayev Ə. Dövlət qulluğunun hüquqi əsasları. Bakı, "Elm", 2011.- S.9-11

[2] Yenə orada, s.11

[3] Yenə orada, s. 31

təzahürlərinin anlayışlarına ayrı-ayrılıqda aydınlıq gətirək.

**Dövlət** (onun məqsəd və funksiyalarını yerinə yetirir) cəmiyyətin özünü xarici və daxili təhlükələrdən qorumaq üçün cəmiyyətin bütün üzvlərinin birgə maraqlarını ifadə edən zaman yaradılır. Dövlətin yaranması ilə insalar təbii hüquqlardan vətəndaş hüququna keçir, xalq yaranır.

Cəmiyyət onu idarə etmək üçün dövlətə hakimiyyət verir. **Dövlət hakimiyyəti** (avtoritar və gücünə əsaslanır) iqtisadi, ideoloji, təşkilati-hüquqi mexanizmlər vasitəsi ilə insanların, sosial qrupların, siniflərin fəaliyyətinə, davranışının xarekterinə və istiqamətinə təsir imkanları ilə xarakterizə olunan sosial münasibətləri formalaşdırır.

Dövlət hakimiyyəti funksiyalarına görə iki tərkib hissədən: **siyasi və inzibati** funksiyalardan ibarətdir.

**Siyasi hakimiyyə**t siyasi rəhbərlik – siyasi elita, **inzibati hakimiyyət** isə dövlət qulluğu vasitəsilə həyata keçirilir. Başqa sözlə siyasi hakimiyyət siyasi funksiya, inzibati hakimiyyət isə idarəetmə funksiyası daşıyır. Siyasi funksiyanı siyasi vəzifələr – dövlət vəzifələri tutan siyasi elita, idarəetmə funksiyasını isə inzibati vəzifələr tutan dövlət qulluqçuları həyata keçirir [1]. Dövlət öz səlahiyyətlərini həyata keçirmək üçün dövlət hakimiyyəti simasında hakimiyyətlərin bölgüsü prinsipi əsasında dövlət orqanları sistemindən ibarət **dövlət aparatını** (funksiya göstərməsini təmin edir) yaradır. Dövlət aparatının tərkib hissəsi olan idarəetmə aparatının bu və ya başqa həyat fəaliyyətinin idarə edilməsində öz strukturu, səlahiyyətləri və müstəsna hüququ olur.

**Dövlət idarəetməsi vasitəsilə** (onun əsas mexanizmi kimi çıxış edir) dövlət öz məqsəd və vəzifələrini reallaşdırır. Dövlət idarəetməsinin effektivliyi *dövlət mexanizminin* təkmil olmasından, bu mexanizmi yüksək səviyyədə və peşəkarlıqla idarə etməyi bacaran peşəkar dövlət qulluqçularından ibarət olmalıdır. Hazırda MDB-yə daxil olan Respublikalarda, o

---

[1] Wilson W. The Study of Administration/ 1887. Political Science Quarteriy, 496p

cümlədən Azərbaycanda qəbul olunmuş yeni konstitusiyalarda **«dövlət idarəetmə»** anlayışından yan keçilmişdir ki, bu da hüquq mütəxəssisləri arasında mübahisələr yaradan məsələlərdən biridir. Azərbaycan Respublikasının Konstitusiyasında dövlət hakmiyyətinin bölünməsi prinsipləri təsbit edilmişdir (7-ci maddə). Hakimiyyətin bölünməsi nəzəriyyəsi ideyasının hakimliyi dövlət aparatının aparıcı bölməsi olan «dövlət idarəetmə» orqanları «icra hakimiyyəti» subyektlərinə dəyişdirilməsi ilə nəticələnmişdir. Beləliklə, dövlət idarəetmə anlayışından imtina edilmiş, dövlət aparatı daxilində **əmək bölgüsü hakimiyyət bölgüsü** ilə əvəz olunmuşdur. Y.Kozlov bu kateqoriyalar arasında fərqi «bir terminin başqası ilə əvəz olunmasında» görür və bunu «terminoloji islahat» adlandırır.

Hüquq mütəxəssisləri «icra hakimiyyəti orqanını mahiyyətcə dövlət idarəetmə orqanı» hesab edir; İcra hakimiyyətini siyasi-hüquqi kateqoriya, idarəetmə işi, təşkilati-hüquqi kateqoriya olduğunu göstərirlər.

**İdarəetmə** qeyri-dövlət xarakterlidir, çünki o, dövlətdən, icra hakimiyyətindən əvvəl yaranmışdır. Bütün bunlara baxmayaraq, **dövlət idarəetməsi anlayışı** milli və xarici ölkələrin ədəbiyyatında və qanunvericilik aktlarında istifadə olunur [1].

Dövlət idarəçiliyi ilə dövlət idarəetməsi bir-birlərindən fərqli anlayışlardır. Belə ki, **dövlət idarəetməsi** rus dilində olan "государственное управление", **idarəçilik** isə "правление" sözünün azərbaycan dilinə tərcüməsidir.

**İdarəetmə** prosesdir, mexanizmdir, dinamikdir, nə etmə sualını cavablandırır və idarə edən subyektin idarə olunan obyektə qarşılıqlı əlaqəsini, təsirini göstərən mexanizmdir.

**İdarəçilik** formadır, statik vəziyyəti göstəririr, nə sualına cavab verir və özünü dövlətin üsul- idarəsində monarxiya, respublika idarəçilik formasında göstəririr.

Ə.H.Rzayev göstərir ki, dövlət qulluğu dövlət təzahürləri

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı "Elm", 2005.- S.4-6

(dövlət hakimiyyəti, dövlət aparatı, dövlət idarəetməsi) ilə qarşılıqlı təsirdə, qarşılıqlı əlaqədə olmaqla dövlətin suverenliyinə, bütövlüyünə və inkişafına yönəlmiş **dövlət mexanizmini** hərəkətə gətirən təsisat kimi vahid bir sistemi təşkil edir. Dövlət mexanizmini adi mexanizmə oxşatsaq, dövlət qulluğu bu mexanizmi hərəkətə gətirən və sükanı məqsədyönlü istiqamətə yönəldən peşəkar idarəedənə oxşatmaq olar.

Məlumdur ki, siyasi hakimiyyətin əsas bölməsi **dövlət mexanizmidir**. **Dövlət mexanizmi** dövlətin vəzifə və funksiyalarını həyata keçirmək üçün dövlət aparatının dəyişilməyə, inkişafa, təkmilləşməyə yönəlmiş hərəkət sistemidir.

**Dövlət mexanizmi** dövlət - dövlət aparatı – dövlət orqanı - dövlət vəzifəsi - dövlət qulluğu - dövlət qulluqçusu sxemi üzrə fəaliyyət göstərir.

Dövlət mexanizminin normal funksiya göstərməsi dövlət qulluğunun təşkilindən, dövlət qulluqçusunun fəaliyyətindən asılıdır. Ona görə də ölkədə müstəqilliyin ilk illərində dövlət qulluğunun təşkili, kadr siyasətində köklü dəyişikliklər aparılması təxirəsalınmaz problem kimi özünü qabarıq göstərirdi.

Məlum məsələdir ki, dövlət aparatına dinamizm vermək, dövlət-qulluq münasibətlərini tənzimləmək inzibati hüququn əsas sahəsi olan **dövlət qulluğunun funksiyalarına** daxildir. Dövlət qulluğu qaydaya salınmadan, dövlət aparatı idarəetmə sxemi, müəyyən təşkilati forma olaraq qalır. Belə ki, **dövlət vəzifəsi** dövlət aparatnı dövlət qulluğu ilə əlaqələndirən elementdir. Vəzifə tutulandan sonra fəaliyyətə başlayır, bununla da dövlət aparatı statikadan dinamikaya keçir [1]. Bunlar təbiidir, çünki dövlət öz məqsəd və funksiyalarını daimi həyata keçirmək üçün dövlət hakimiyyəti simasında dövlətin mürəkkəb strukturu və orda vətəndaşların peşəkar məşğul olduğu dövlət aparatını yaradır və funksiya göstərir. **Dövlət aparatı** “dövlət

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı, “Elm”, 2005.- S.3-4

orqanları sistemindən və onun ştatlı işçilərindən ibarətdir” [1].

Dövlət aparatı icra hakimiyyəti orqanlarının həyata keçirdiyi dövlət idarəetməsi vasitəsilə ictimai proseslərə, münasibətlərə, təzahürlərə, insanlarının davranışına, fəaliyyətinə məqsədyönlü, təşkilati və tənzimləyici təsir göstərir [2].

Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu **dövlət orqanıdır[3]. Dövlət qulluqçusu** “Dövlət qulluğu haqqında” Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır [4].

Dövlət mexanizmi sxeminə aid olan dövlət orqanı və dövlət qulluqçusu anlayışları digər fəsillərdə daha geniş şərh olunduğu üçün bunların üzərində çox dayanmırıq.

## Yoxlama üçün suallar:

1. *Dövlətçilik sisteminin elementləri;*
2. *Dövlət mexanizminin sxemi;*
3. *Dövlət aparatını dövlət qulluğu ilə əlaqələndirən element nədir;*
4. *Dövlət mexanizmi nədir;*
5. *Dövlət aparatının tərkibinə nələr daxildir;*
6. *İdarəetmə və idarəçilik anlayışlarının fərqli xüsusiyyətləri.*

---

[1] Лунев В.Е. Советский государственный аппарат. М., Знание, 1972.- С.3

[2] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı, “Elm”, 2005.- S.7

[3] Dövlət qulluğu haqqında sənədlər toplusu. Bakı - Qanun, 2009.- S.13

[4] Yenə orada, s.7

# II FƏSİL

# AZƏRBAYCANDA DÖVLƏT QULLUĞU ƏNƏNƏLƏRİ VƏ ONUN TARİXİNƏ DAİR

## 2.1. Azərbaycanda dövlətçilik tarixi və dövlətçilik siyasəti: "Siyasətnamə", "Əxlaqi-Nasir" və "Qabusnamə" əsərlərində məmurluq ənənələrinin inkişafı

Respublikamızda dövlət qulluğunun müasir tələblər səviyyəsində qurulması üçün son illərdə görülmüş işlərdən bəhs etməzdən əvvəl bir qədər keçmişə, bu sahədə Azərbaycanda mövcud olan ənənələrə, daha doğrusu, tarixən yaranmış təcrübəyə nəzər salmaq vacibdir.

Tarix boyu öz təbii sərvətlərinə və geostrateji mövqeyinə görə, bir çox qüdrətli dövlətlərin işğallarına məruz qalmış Azərbaycanda həyatın bütün sahələrində olduğu kimi, dövlətin idarə edilməsində də həmin dövlətlərin böyük təsiri nəzərə çarpır ki, bu da təbii sayılmalıdır. Azərbaycanda dövlət qulluğunun keçmişindən danışarkən ilk növbədə Azərbaycanın dövlətçilik tarixini izləməli, keçmiş dövrlərdən bəri onun hansı formalarda qurulduğunu göstərməliyik.

Azərbaycan ərazisində ən qədim dövrlərdən müxtəlif dövlətlərin yarandığı və bunların hər birinin öz idarəetmə sisteminin olduğu məlumdur. Belə ki, Azərbaycanda dövlət idarəçiliyinin yaranması və inkişafı tarixinə diqqət yetirdikdə bu ərazilərdə mövcud olmuş dövlətlərin necə yaranması, inkişafı, süqutu, eyni zamanda onların idarəçilik sistemi barəsində məlumatlar verilmişdir. Məlumatlardan aydın olur ki, bu dövlətlərin idarə olunmasında islam dövlətçilik formaları və prinsipləri əsas yer tutmuş, xüsusilə ərəb xilafəti dövründən başlayaraq XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalınadək bu təsir

çox güclü olmuşdur [1]. XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya tərəfindən işğalı ilə dövlət idarəçiliyinin rus məmurluğu ilə əlaqədar olan dövrü başlanır. Bu dövrdə ərəb üsul-idarəsi dövlət idarəetmə mexanizmindən sıxışdırılıb çıxarılır və onun yerini "Qulluq dərəcələri cədvəlinə" əsaslanan rus bürokratiyası tutur. Bu proses Azərbaycanda XX əsrin axırlarına qədər mövcud olmuşdur.

XX əsrin axırlarında Azərbaycanın öz müstəqilliyini elan etməsi ilə dövlət idarəçiliyində yeni mərhələnin əsası qoyulmuşdur.

Beləliklə, Azərbaycanda dövlətçilik ənənələrinin tarixinə diqqət yetirdikdə Azərbaycan ərazilərində mövcud olmuş dövlət idarəçiliyini aşağıdakı mərhələlərə bölmək olar:

I mərhələ islam üsul-idarəsinə əsaslan orta əsrlər dövrü

II mərhələ rus məmurluğu ilə əlaqədar olan dövr

III mərhələ müstəqillik dövrü

Hələ qədim dövrlərdən, xüsusilə orta əsrlərdən başlayaraq Şərqin, eləcə də Azərbaycanın bir sıra mütəfəkkirləri və görkəmli şəxsiyyətləri dövlət idarəçiliyi sahəsində çox əhəmiyyətli işlər görmüş və fikirlər söyləmişlər.

Dövlətçilik tarixi və dövlətçilik siyasəti məsələləri ilə qədim yazılı mənbələr arasında Xacə Nizamülmülkün **«Siyasətnamə»**, XIII əsrin böyük filosofu və astronomu Nəsirəddin Tusinin **"Əxlaqi-Nasir"** əsərlərini xüsusilə qeyd etmək lazımdır. Bu əsərlər Şərqin qədim dövlətçilik ənənələri əsasında yazılmış dərin fəlsəfi tədqiqatlar olaraq, bu gün də öz tarixi əhəmiyyətini itirməmişdir və dövlətin idarə olunması, o cümlədən dövlət qulluqçularının səciyyəvi xüsusiyyətləri barədə tövsiyələrdən və mükəmməl məlumatlardan ibarətdir. Nizami Gəncəvinin, Şah İsmayıl Xətainin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Kazımbəyin, Mirzə Fətəli Axundovun,

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı, 2004.- S. 6

Həsən bəy Zərdabinin, Əli bəy Hüseynzadənin, Nəriman Nərimanovun və başqalarının dövlətçiliyə dair fikirləri müəyyən elmi əsərlərdə qismən təhlil olunsa da, bilavasitə dövlət qulluğu baxımından geniş öyrənilməmişdir [1]. Göstərilən əsərlərdən Xl-XIl əsrlərdə Azərbaycanın da daxil olduğu Səlcuqlar dövlətində 30 il vəzirlik etmiş və əslində ölkəni idarə etmiş Nizamülmülkün 1091-ci ildə səlcuq sultanı Məlikşahın (1072-1092) tapşırığı ilə yazdığı "**Siyasətnamə**" əsərində ölkədə sabitlik və əmin-amanlığın mövcudluğu onun iqtisadi inkişafının əsas şərtlərindən biri kimi qiymətləndirilir. O zamanlar dövlət qulluğu olmadığı üçün əsərdə saray qulluğunun vəzifələri, funksiyaları ilə əlaqədar aşağıdakı fəsillərdə qiymətli fikirlər qeyd edilmişdir [2]:

1. **"Şahların şikayətə baxmaları, ədalət, mərhəmət və xeyirxahlıqları haqqında"** fəsildə padşahın ən azı həftədə iki gün sikayətə baxıb zalimlərə cəza verməsi, bilavasitə öz qulağı ilə rəiyyətin sözünü eşitməli olduğu bildirilir.

2. "**Sahibxəbər və ölkə dolandırmaq tədbirləri haqqında**" fəsilində ölkəni idarə etmək üçün xalqla ünsiyyətin vacibliyi və məmurların hansı xüsusiyyətlərə malik olması qeyd edilir. Məmurların davranışını öyrənmək və baş verən hadisələr barədə müntəzəm məlumat vermək üçün o vaxtlar sarayda **sahib-bərid** təyin olunurdu. Sahib-bərid ölkədə baş verən hadisələr barədə açıqdan-açığa məlumat toplayıb şaha xəbər çatdıran məmurlar rəisinə deyilirdi. **Sahib-xəbərlər** gizli işlədikləri halda, sahib-bəridlər açıq işləyirdilər.

3. **"Əmək haqqları"** ilə əlaqədar Nizamülmülk qeyd edir ki, məmurlara əmakhaqqı vaxtlı-vaxtında xəzinədən verilməlidir, onlar rahat, arxayın və ürəkdən işləməlidirlər ki, şah da baş verən hər təzə hadisəni bilib gözlənilmədən hər kəsin özünə

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı, 2004.- S. 7

[2] Nizamülmülk. Siyasətnamə. Bakı: Elm, 1987

layiq mükafat, cəza və ya qulaqburması versin. Əsərdə o dövrdə mövcud olan bəzi məmur vəzifələrinin xüsusiyyətləri və onlara verilən əsas tələblər də geniş şərh olunur.

4. **"Padşahın öz işləri barəsində alim və hikmət sahibləri ilə məşvərət etməsi haqqında"** fəslində deyilir ki, məsləhətləşmək iradənin möhkəmliyinə, ağılın kamilliyinə və uzaqgörənliyə dəlalət edər. Hər kəsin bir diləyi, hər adamın bir peşəsi olar, biri az bilər, biri çox; birinin elmi olar, lakin təcrübəsi olmaz, birinin həm elmi olar, həm də təcrübəsi.

"Ordu və xidmətçilərin ehtiyac və xahişləri haqqında", "İki işi bir adama tapşırmamaq, işsizlərə iş vermək, onları məhrum etməmək, pakdin və layiqli adamları irəli çəkib bədməzhəb, bədəqidə adamlara vəzifə tapşırmayıb, onları özündən uzaqlaşdırmaq haqqında", "Hicab əhli, ordu basçıları və sərkərdələrin rütbələri haqqında", "Cavab vermək, zülm edilmişlərin şikayətlərinə baxmaq, ədalətli qərar qəbul etmək haqqında" fəsilləri daha böyük maraq doğurur. "Siyasətnamə"də verilən bütün tövsiyələr rəvayətlərlə, misallarla şərh olunduğundan çox inandırıcı təsir bağışlayır.

Orta əsrlərin tanınmış filosofu və alimi Xacə Nəsirəddin Tusinin **"Əxlaqi-Nasir"** əsəri də çox qiymətlidir. Bu əsərdə dövlətin idarə olunması prinsipləri və qaydaları haqqında aşağıdakı fikirlər qeyd olunmuşdur[1]:

1. **"Başqa fəzilətlərə nisbətən ədalətin daha şərəfli olması, onun xüsusiyyətləri və növləri haqqında"** fəsildə göstərilir ki, "**ədalət**" sözünün mənası öz mənşəyi etibarı ilə "bərabərlik" və "tarazlıq" sözləri ilə bağlıdır. Nəsirəddin Tusi belə hesab edir ki, nizam-intizam olan işlərdə, hər yerdə ədalət özünü xüsusi bir şəkildə göstərər, əks təqdirdə qarma-qarışıqlıq və nizamsızlıq əmələ gələr.

N.Tusiyə görə, ədalət qüvvəsi böyük yaradanın insan zatında vəkilidir. Əgər bu qüvvə hakim mövqeyə keçib müva-

---

[1] N.Tusi. Əxlaqi-Nasir. Bakı: Elm nəşriyyatı, 1989.- S.16

zinət, tarazlıq və bərabərlik yaratsa, hər kəs öz haqqına çatar, artıqlıq nəticəsində əmələ gələn intizamsızlıq aradan qalxar.

2. **"Xidmətçiləri və qulları idarə etmtək qaydaları haqqında"** fəsildə göstərilir ki, qulluqçu seçərkən gərək əvvəlcə bir adamı yaxşı tanıyıb, onu tam yoxlamadan keçirib, xasiyyətinə bələd olduqdan sonra onu qulluqçu qəbul edəsən. Xidmətçilər yalnız o zaman ürəklə işləyərlər ki, özlərini iş sahibinə şərik bilib, qovulmaq, vəzifədən kənar edilməkdən qorxmasınlar.

3. **"ÖLKƏ şəhərləri idarəetmə qaydaları"** adlı hissəsində göstərilir ki, "hakim", "hökmdar" sözündə məqsəd o adamın böyük həşəmətə və ya məmləkətə sahib olması demək deyildir**.** O deməkdir ki, ölkədə onun haqlı hökmləri yerinə yetirilir, ola bilər zahirdə ona heç məhəl də qoymasınlar.

Nəsirəddin Tusiyə görə başçı (müqəddir) qayda-qanunu mühafizəyə çalışmalı, xalqı nizam-intizama dəvət etməlidir. Bunun üçün ona zamanın tələbinə, hökmünə uyğun olaraq qanunlarda lazımi dəyişikliklər aparmaq ixtiyarı verilməlidir. Dövlətin yalnız ədalət əsasında uzun müddət yaşaya bildiyini göstərən müəllif **ədalətin 3 şərti olduğunu** qeyd edir:

**Ədalətin birinci şərti** - xalqın müxtəlif təbəqələri arasında uyğunluq yaradılmasıdır.

**Ədalətin ikincı şərti** - şəhər əhalisinin vəziyyətinə və təbiətinə diqqət verilməsidir, yəni elə etmək lazımdır ki, hər biri ləyaqətinə və istedadına görə vəzifəyə təyin edilsin.

**Ədalətin üçüncü şərti** - hər sinfin arasında uyğunluq yaratdıqdan və hər adamın ləyaqət və istedadına görə rütbə verdikdən sonra, onlar arasında olan ümumi gəliri mühafizə etməyə, hər kəsə öz payına düşəni verməyə səy göstərilməli, burada haqqa və bu adamların xidmətinə fikir verilməlidir. Bundan sonra ümumi gəlirin mühafizə edilməsi dövlətin kəramətinin və buna bənzər şeylərin salamat qalmasına səbəb olur.

N.Tusi insanın sağlamlığının **dörd ünsür** (su, od, torpaq, hava) arasındakı tənasüblükdə olduğunu qeyd edərək, cəmiyyət

arasındakı uyğunluğu da **dörd sinif arasındakı** qarşılıqlı müvafiqliyə ayırırdı:

**Birinci ünsürü o,** qələm əhli adlandırır. Bunları təbiətdəki dörd ünsürdən biri – su ilə müqayisə edir.

**İkinci ünsür** qılınc əhlidir ki, (ordu, hərbçilər) dünyanın nizam-intizamı bunların varlığına bağlıdır və onlar od yerində olarlar.

**Üçüncü ünsür** müamilə əhlidir. Bunlar tacirlər, sənətkarlar, bac-xərac toplayanlardır ki, onları da hava ilə müqayisə edir.

**Dördüncü ünsür** ziraət (əkin-biçin) əhlidir ki, bunların əməyi olmadan insanın yaşaması mümkün deyildir və həmin sinif torpaq yerində sayılır və bunların arasındakı nisbət pozularsa, cəmiyyətdəki işlərin müvazinəti də pozular [1].

İkinci minilliyin ilk yüzilliyindən bu günə qədər nəinki Şərq aləmində, bütün dünyada ən populyar kitablardan biri olan **"Qabusnamə**" əsərində də insanın, o cümlədən saray məmurlarının mənəvi-əxlaqi xüsusiyyətləri barədə cox ibrətamiz fikirlər deyilmişdir.

Qeyd etmək lazımdır ki, ərəb xilafəti dövründən başlayaraq XIX əsrin əvvəllərinədək Azərbaycan ərazilərində mövcud olmuş dövlətlərin idarə olunmasında islam dövlətçilik formaları və prinsipləri əsas yer tutduğundan, bir sıra Şərq mənbələrində öz əksini tapmış və dövlət məmurlarının mənəvi xüsusiyyətləri barədə bu gün də öz əhəmiyyətini itirməyən fikirlər çox əhəmiyyətlidir.

İslamda idarəetmənin və dövlət qulluğunun təşkili, vəzifəli şəxslərin xüsusiyyətləri barədə aparılan tədqiqatlar maraq doğurur. Bu cəhətdən İsa Mühəmməd Sahh Ər-Reysin **İslam idrəetməsi və şəriətdə olan nəzarət üsulları** kitabı diqqəti cəlb edir. Kitabın "İslam idarəetmə sistemində dövlət vəzifəsi və vəzifəli şəxslərin hüquqları" bölməsində göstərilir ki,

---

[1] N.Tusi. Əxlaqi-Nasir. Bakı: Elm nəşriyyatı, 1989.- S.16

"dövlət vəzifəsi" məfhumu geniş məna daşıyır və müsəlmanların xəlifəsindən başlayaraq ən aşağı vəzifəyə qədər bütün vəzifələri əhatə edir. Quranda və hədislərdə **vəzifəli şəxslərin seçilməsi ilə** əlaqədar birincisi etibarlılıq, ikincisi biliklilik, üçüncüsü başçılara itaətkarlıq şərtləri irəli sürülür və vəzifəli şəxsin qarşısında oz nəfsini cilovlamağı bacarması kimi mənəvi tələb qoyulur.

"İslamda vəzifəli şəxslərin iş rejimi, mükafatlandırılması və cəzalandırılması formaları" adlı bölmədə göstərilir ki, vəzifəli şəxs bütünlüklə özünü ona tapşırılan işə həsr etməyi bacarmalıdır. Eyni zamanda, vəzifəyə təyin edilən şəxsin saflığı da mühüm rol oynayır.

Kitabda vəzifəli şəxsləri yaxşılığa çağıran, pislikdən çəkindirən və onun bir sıra şərtlərə - cavab verməli olduğu vacıb sayılır. Birincisi, bu şəxs hakim, əmir və ya başqa məsul adam tərəfindən bu işi görməyə təklif, tapşırıq almalıdır. Gördüyü işi dərk etməli, muxtar, yəni sərbəst olmalıdır. İkincisi, iman sahibi olmalıdır, yəni mömin olmalıdır. Üçüncüsü, bu işə qadir olmalıdır, bacarmasa, qüdrəti çatmasa, bu iş onun üçün vacib olmur. Dördüncüsü sözündə və işində düz olmalıdır, daha doğrusu, əmr etdiyi şeyləri özü də etməli, çəkindirdiyi şeylərdən özü də çəkinməlidir. Beşincisi, bu işi görməyə hakim tərəfindən izni olmalıdır [1].

## 2.2. Azərbaycanda orta əsrlərin dövlət quruluşu və məmurluq sistemi

Ərəb xilafətinin zəifləməsi nəticəsində Azərbaycanda IX-XI əsrlərdə yaranan feodal dövlətlərin - **Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər** dövlətlərinin dövründə idarəetmə sistemi feodal münasibətlərə əsaslanırdı.

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı, 2004.- S. 9-12

**Şirvanşahlar** dövləti mütləq hakimiyyət prinsipi əsasında idarə olunur, şahın hakimiyyəti varislərə keçir, əyalətləri şahzadələr idarə edir, inzibati və maliyyə işlərinə vəzir baxır, saraydakı işləri hacib tənzimləyirdi.

**Sacilər dövləti** IX əsrin 80-ci illərindən X əsrin 40-cı illərinədək, yəni yarım əsrdən çox bir tarixi dövr ərzində mövcud olmuşdur. Bu dövləti türk sülaləsi olan Sacilər (879-941) yaratmışdılar.

**Salarilər dövləti** X əsrin 40-cı illərinədən X əsrin 80-ci illərinədək, yəni 40 illik bir tarixi dövr ərzində mövcud olmuşdur. Bu dövləti türk sülaləsi olan Salarilər (941-981) yaratmışdılar.

**Rəvvadilər dövlətinin** əsası Təbriz, Marağa və Əhər hakimi olan Əbülhica tərəfindən 981-ci ildə axırıncı salari hökmdarı İbrahim ibn Mərzbanı taxtdan salması ilə qoyulmuşdur.

**Şəddadilər dovlətinin** əsası Məhəmməd ibn Şəddad tərəfindən 971-ci ildə Gəncənin işğal olunması ilə qoyulmuşdur.

Bu dövlətlərin (Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər) idarə olunması təxminən eyni idi. Burada dövlətin başçısı mülki və hərbi hakim olaraq əmir titulu daşıyırdı, hakimiyyəti varislərə keçirdi, vilayətləri onun təyin etdiyi naiblər idarə edirdilər. Bunlar şahzadələrdən və ya sülalə üzvlərindən ibarət olurdu. Əsas diqqət orduya verilirdi [1].

Səlcuq türklərinin hakimiyyəti altına keçən Azərbaycanda XII əsrin əvvəllərində daha bir güclü dövlət - **Atabəylər** dövləti (1136-1225) yaranmışdı. Atabəylər dövlətində feodal iyerarxiyasında atabəy-hökmdar birinci şəxs, vəzir-ikinci şəxs, böyük hacib-üçüncü şəxs hesab olunurdu.

**Vəzir** dövlət idarəetməsində Şah tərəfindən təyin olunur, divana başçılıq edir və dövlət başçısının birinci müşaviri sayılırdı. Vəzir yalnız hökmdarın qarşısında cavab verir, divan məmurlarını vəzifəyə təyin edir, dövlətin bütün maliyyə işlərinə, maaşa, təqaüdə, vergi sisteminə və xəzinəyə nəzarət edirdi.

---

[1] Azərbaycan tarixi. Bakı: Çıraq, 2009.- S. 206-211

**Böyük hacib** hökmdara aid olan məsələləri ona məruzə edir, onun tələblərinə qayğı göstərirdi. Saray məmurları onun göstərişlərini yerinə yetirməli idi və sarayda qoyduğu qayda – qanun gücünə malik idi. Hacib hökmdarın sərəncamını şifahi olaraq icra üçün vəzirə ötürürdü.

Atabəylərin canişinlərinin öz sarayı, hacibi olurdu. Vilayətə rəhbərliyi hökmdar tərəfindən təyin olunan **vali** yerinə yetirirdi. Vali məmurlara rəhbərlik edir, onları vəzifəyə təyin edir və rütbəsini artıra bilərdi. Vilayətdə ikinci vəzifə vəzir idi.

Şəhərləri vali adından şəhər rəisi idarə edirdi; ona kənd dairələri tabe idi. Şəhər rəisi yerli əyanlardan təyin olunurdu. O, məmurlarla əhali arasında vasitəçi idi.

Atabəylər dövlətində hökmdarın dəftərxanasının başçısı tuğrayi, hərbi iqtidara nəzarət edən sahibi-divan, əyalətlərə rəhbərlik edən valilər, iri şəhərləri idarə edən naiblər, vergi və rüsumları toplayan, ticarət qaydalarına nəzarət edən darğalar və başqaları idi[1].

Azərbaycanın orta əsrlərdə mövcud olan dövlətlərində dövlət quruluşu və idarə sisteminin tarixi də böyük maraq doğurur. Monqol istilasından sonra Azərbaycanda mövcud olan **Hülakü** dövlətində iki ənənəvi idarə sisteminin - yerli əhaliyə və köçəri monqollara məxsus olan sistemlərin qarşılıqlı təsiri nəticəsində tədricən vahid, təkmilləşmiş, inkişaf etmiş idarə sistemi meydana gəlmişdi. **Monqollar** hərbi sahədə öz üstünlüklərini qoruyub saxlasalar da, mülki idarədə və maliyyə sistemində yerli xüsusiyyətlər üstünlük təşkil edirdi. Monqollar özləri ilə bir sıra hərbi, mülki və s. anlayışlar da gətirmişdilər ki, onların bəzisi (bukavul, bəxşi, yurdçi, bəlarquçi və s.) vətəndaşlıq hüququ qazanmış, o dövrdə idarəetmə sistemində işlənmişdir.

**Hülakü** dövlətində ölkənin ali orqanı qurultay hesab

---

[1] Буниятов. Государство Атабеков Азербайджана. Баку: Элм, 1978- С.172-186

olunur və qurultayda *dövlətin başçısı - elxan* seçilir, vilayət hakimləri və mühüm dövlət məmurları təyin olunurdu. Bu *dövlətin ali idarə sistemində ikinci* yeri **naib əs-səltənət** tuturdu. **Naib əs-səltənət** elxanın mərkəzdə olmadığı vaxtlarda ölkənin idarəsi ilə məşğul olur, qalan vaxtlarda isə ölkənin vəziyyəti, mühüm hadisələr barədə elxana məlumat verir, onu real vəziyyətlə tanış edirdi. *İdarə sistemində ücüncü* yer ölkənin baş əmiri - əmirəl-üməra tuturdu. Hərbi və inzibati bölgü buna uyğunlaşdırılmışdı. İnzibati baxımdan vilayət hesab olunan ərazi hərbi baxımdan ölkə adlanırdı. Mərkəzi dövlət aparatı hərbi-inzibati əraziləri birləşdirən orqan əmarət (əmirlik) adlanır və bu orqanı baş əmir idarə edirdi. Baş əmir dövlətin dörd əsas əmirləri sırasından seçilir və elxan tərəfindən təsdiq olunurdu. **Əmarətə** *ölkə əmirliyi, tümən əmirliyi, minlik və yüzlük əmirlikləri, yarğu (məhkəmə) əmirliyi, eləcə də ali hərbi vəzifələr - inaq, bukavul, tavaçi, yasavul, bəlarquçi, bəxşi və s. daxil idi.*

**İnaqlar** hərbi məsləhəlçilər idi.

**Bukavullar** divandan ayrılmış ixracatı və yürüşlərdə əldə edilmiş qəniməti hərbi hissələr arasında bölür, ordu hissələrinin təminatı ilə məşğul olurdular.

**Tavaçilər** ümumi səfərbərliklə məşğul olurdular, yasavullar qoşun hissələrini döyüş meydanlarına aparıb, onları döyüşə hazır vəziyyətdə saxlamalı idilər.

**Yurdçilər** tərəfindən hökmdarın və hərbi hissələrin düşərgədə, yaylaq və qışlaqlarda yerləşdiyi məskənlər - yurdlar salınırdı.

**Bəlarquçi** qoşun hissələri çəkildikdən sonra öz dəstəsi ilə döyüş meydanlarında, yurdlarda qalıb itkin düşmüş, azmış adamları, mal-qaranı və əşyaları toplayıb sahiblərinə çatdırmalı idi.

**Bəxşilər** tərəfindən hərbi kargüzarlıq aparılırdı.

**Elxanilər döyründə** Azərbaycanda mülki idarəçilik **divan** sistemi üzrə aparılırdı. Mərkəzi dövlət aparatında 20-dən artıq divan mövcud idi. Həmin bölgələrdə mühasibat işləri 7

dəftər əsasında həyata keçirilirdi.

Mərkəzi divanlar vəzirlər tərəfindən idarə olunurdu. Vəzirlər ölkədə ümumi iqtisadi vəziyyəti nizamlamalı, tənəzzül və inkişafın səbəblərini müəyyənləşdirməli, maliyyə məsələlərini həll etməli və ilk növbədə səltənətin, şahzadələrin və onların ailə üzvlərinin təchizatını təmin etməli idilər. Vəzirlərin xüsusi köməkçiləri, müavinləri (naibi-vəzirət) vardı.

İxtisaslı divanlar təsərrüfatın müxtəlif sahələrini idarə edirdilər. Məsələn, **baş mustovfi** tərəfindən idarə olunan ***istifa divanı*** dövlət gəlirlərinin müəyyənləşdirilməsi, toplanması və xərclənməsi üzrə ümumi mühasibatı aparırdı. **Uluq bitikçi** ölkənin əmlak rəisi sayılırdı, dövlət sərvətlərinin cəmlənməsi və xərclənməsinə cavabdeh idi. **Münşi əl-məmalik** dövlət sənədlərinin tərtibi ilə məşğul olur və xarici dövlətlərlə əlaqələri tənzimləyirdi. **Dövlət xəzinələri** üç nəfər tərəfindən idarə olunurdu: **nazir** - dövlət xəzinəsinin məsrəflərinə, **müşrif** - xəzinənin gəlirlərinin toplanmasına cavabdeh idi. **Xazen (xəzinədar)** isə xəzinənin varidatını mühafizə edirdi. **İsfəhsalar** dövlətin təhlükəsizliyini təmin etməli, şəhərləri qorumalı, asayişə, dövlət qanunlarının düzgün icrasına nəzarət etməli idi. Bundan başqa, istifadəsiz qalmış torpaqların qeydə alınması və istifadəsi ilə məşğul olan **bayrat divanı**, tikinti işləri ilə məşğul olan **imarət divanı**, sənətkarlıq işləri ilə məşğul olan **məsas divanı** var idi. **Dövlətin ərazisi** *vilayətlərə*, onlar isə öz növbəsində *tümənlərə* bölünmüşdü. **Tümən** hərbi və inzibati bölgü baxımından eyni ərazini əhatə edirdi.

Azərbaycan müstəqil vilayət kimi **9 tümənə** ayrılmışdı. Onların hər biri ölkənin iri şəhərlərindən birinin adı ilə, məsələn, Təbriz tüməni, Ərdəbil tüməni, Naxçıvan tüməni, Qarabağ tüməni və s. adlanırdı. **Vilayətlərin idarəsi** hakimlərə həvalə olunmuşdu. Onların hamısında hərbi canişinlər mövcud idi. Mərkəzi dövlət aparatındakı bütün divanlar vilayətlər, daha sonra isə şəhərlər üzrə şaxələnirdi. Yuxarıda göstərdiyimiz mərkəzi orqanların nümayəndələri ilə yanaşı, mütəsərrif, şəhnə,

qələmi, müqənnə, müəddil, müəssil kimi vəzifəli məmurlar da mövcud idi. Vilayətlərdəki dövlət və səltənət torpaqlarının idarəsı muqatiəyə (icarəyə) verilirdi. İcarədarlar (müfəsərat) adətən 3 il müddətinə təyin olunurdu. Şəhnələr vilayətdə və şəhərlərdə asayişi qoruyurdular. Qələmi mərkəzi dövlət aparatındakı uluq bitikçi vəzifəsinə uyğun idi. Müqənnə vilayətlər üzrə dövlət torpaqlarının həcmini müəyyənləşdirir və bu barədə xüsusi kitablar – "Qanunnamə"lər tərtib edirdi. Kənd yerlərində bu işi mətəlliqan adlı məmurlar görürdülər. Mühəssillər yerlərdə dövlət vergilərinin toplanması və mərkəzi divana təhvili ilə məşğul olurdular. Kəndlərin idarəsi işi kənd rəislərinə həvalə edilmişdi. Ölkənin dini işlərinin idarəsi baş ruhani təşkilatının sərəncamında idi və ora elxanın xüsusi fərmanı ilə təyin olunan qazı əl-qüzat (qazılar qazısı) başçılıq edirdi. Vilayət və şəhərlərdə vilayət və şəhər qazıları mövcud idi. Bundan başqa, nahiyə və kənd qazıları da var idi.

Şəriət məhkəmələrində kargüzarlıq işləri darül-qəza adlanan orqanda aparılırdı. Katibin başçılıq etdiyi bu orqanda əmin (nəzarətçi), müvərrix (salnaməçi-mühafizəçi), müdir (müstəntiq), vəkil və başqa məmurlar çalışırdılar. Dini məhkəmələr öz fəaliyyətlərində müstəqil olub yalnız baş qazıya və elxanın özünə tabe idilər. Yarğu əmirlərinin şəriət məhkəmələrinin işinə qarışması qanunla qadağan olunmuşdu[1]. Paytaxtı Təbriz olan, Azərbaycanın cənub vilayətlərini əhatə edən **Qaraqoyunlu və Ağqoyunlu** dövlətləri bilavasitə padşahın və yaxud sultanın özü və onun mənsəb sahibləri tərəfindən idarə edilirdı. Bu iki dövlətin hökmdarları padşah titulu daşımışlar. Uzun Həsən özünün Osmanlı və Teymuri sultanları səviyyəsində hökmdar olduğunu qeyd etmək məqsədilə sultan titulunu qəbul etmişdi. Sülalə üzvlərindən və yaxud yüksək rütbəli əmirlərdən seçilən lələsi (atabəyi) şahzadənin yanında olurdu. Hakim sülalə üzvləri və ya yarımköçəri əyanlardan vaxtaşırı

[1] Azərbaycan tarixi. Bakı: Çıraq, 2009.- S. 277-286

təyin edilən baş sərkərdələr əmirül-üməra adlanırdı. Dövlət aparatında ikinci şəxsiyyət sədrəzəm (baş sədr) idi. O, bütün müsəlman ruhanilərinə rəhbərlik edirdi. Ağqoyunlunun sədrəzəmi daha böyük rol oynayırdı. Mərkəzi idarə aparatında mühüm mövqelərdən birini də dövlət gəlirlərini və maliyyə sistemini idarə edən baş vəzir tururdu. O, həmçinin xarici ölkələrlə əlaqələri nizamlayır, ali divana rəhbərlik edir və buna görə də sahib-divan adlanırdı.

Qaraqoyunlu və Ağqoyunlu saraylarında digər vəzifələr də eşikağası, qapıçı, möhürdar, xəzinədar, əmiraxur və s. var idi. Bundan başqa mənbələrdə münşi əl-məmalik, mustovfi, qazı əl-qüzat, divanbəyinin də adı çəkilir.

Ağqoyunlu qoşununda hökmdarın təminatında olan, müəyyən imtiyazlara malik qvardiya hissələri, bəy və xassə nökərləri var idi. Onlar əsasən hakimiyyət başında duran Ağqoyunlu tayfasının bayandur elinə mənsub idilər.

### 2.3. Səfəvilər dövründə Dövlət Şurasının formalaşması və saray qulluğu

Ağqoyunlu və Qaraqoyunlu dövlətlərindən sonra Azərbaycan ərazisində mühüm yer tutan **Səfəvilər** dövləti quruluş etibarilə onların ənənələrini davam etdirirdi. Dövlətin ilkin mərhələsində I İsmayılın dövründə sadəliyi ilə seçilən mərkəzi bürokratik idarə aparatı sonralar xeyli mürəkkəbləşmişdi. Səfəvilər dövründə idarəetmə aparatı aşağıdakı kimi idi:

- dövlət başçısı şah idi, onun yanında məşvərətçi səslə dövlət aparatında yüksək mövqe tutan şəxslərdən və Azərbaycan Şamlı, Rumlu, Ustaclı, Bayat, Qacar, Afşar, Şahsevən tayfalarının ən nüfuzlu əmirlərindən ibarət **Dövlət Şurası - Ali Məclis** fəaliyyət göstərirdi. Bu Şura 12 nəfərdən ibarət idi.

Səfəvi dövlətinin **ərazisi iki hissəyə** - divan vilayətlərinə və xassə vilayətlərinə, yəni dövlət torpaqlarına və şah ailəsinin mülklərinə bölünürdü. Bu bölgüyə uyğun olaraq, idarəçilik

üçün iki xüsusi qurum - divani-məmalik və divani-xassə mövcud idi. Bunlar Səfəvi dövlətinin əsas maliyyə müəssisələri sayılırdı. Onlar şah müvəkkilləri - vəzirlər tərəfindən idarə olunurdu. Bütün işlərdə şahın tamhüquqlu müavini vəkil idi və o, şahdan sonra ikinci şəxs sayılırdı. Bu vəzifədə ilk şəxs I İsmayılın tərbiyəçisi (lələsi) Hüseyn bəy Şamlı olmuşdur.

Səfəvi dövlətində **ordu** əsas rol oynadığına görə, onun idarə olunması da böyük əhəmiyyət daşıyırdı. Hərbi iş bütövlükdə azərbaycanlıların əlində olduğu üçün bu vəzifə Azərbaycan əyanlarının inhisarında idi və yığma qoşunların başçısı **əmirül-üməra** (xanlar xanı) adlanırdı. Azərbaycan tayfalarının döyüşçülərindən ibarət xüsusi hərbi dəstəyə isə qorçibaşı rəhbərlik edirdi.

**Vəzir** mülki idarəçiliyin ənənəvi başçısı idi. I Şah İsmayılın dövründə vəzirin nüfuzu böyük deyildi. Çünki dövlət idarəçiliyi işlərində hakim mövqeni vəkil və əmirül-ümərа tuturdular. Vəzirin vəzifəsi əsasən maliyyə əməliyyatları ilə məhdudlaşırdı.

**Dini təsisatın** başında sədr dururdu və vəqfləri idarə edirdi. Bəzən vəzir və sədr vəzifəsini eyni zamanda iki şəxs icra edirdi. Bunlar arasında vəzifə bölgüsü ərazi prinsipi üzrə həyata keçirilirdi.

**Maliyyə** idarəsinin başında mustovfi əl-məmalik dururdu. Bundan başqa vergi borcları üzrə xəzinədar da mövcud idi. Buna mustovfıyi-bəkayə deyilirdi.

**Naziri-buyutat** saray təsərrüfatı rəhbəri adlanırdı. Onun idarəçiliyində kitabxanalar, müxtəlif anbarlar, tövlələr, sikkəxana, cəbbəxana, eləcə də sarayda yerləşən tikiş, zərgərlik, dəmirçilik, bədii və digər emalatxanalar var idi. 0, saray mətbəxini də idarə edirdi.

Sarayda mühüm vəzifələrdən biri də Ərdəbil ordeni müridlərinin başçısı **xəlifət əl-xülafə** idi. O, şahın orden işləri üzrə müavini hesab olunurdu. Mərkəzi saray aparatında həmçinin baş təşrifat məmuru - eşikağası çalışırdı. O, tabeçiliyində olan böyük xidmətçilər ştatı - yavərlər, yasovullar, qapıçılar, carçılar

və başqaları olmaqla saray yığıncaqlarında və təntənələrində təşrifatı idarə edirdi.

**Mirşikarbaşı** şahın ov tədbirlərinin başçısı idi. **Mühtəsib əl-məmalik** (dövlət mühtəsibi) şəhər bazarlarını nəzarətdə saxlayan, əmtəələrə qiyməti təsdiq edən mərkəzi aparat məmuruna deyilirdi.

**Mərkəzi aparatda münşi əl-məmalik** - dövlət katibi, **müəyyar əl-məmalik**-pul işinə rəhbərlik edən, **möhürdar** – şahın möhürünü saxlayan, **miraxurbaşı** - mehtərlərin rəisi, **mehmandarbaşı** - xarici səfirlərin və qonaqların qəbuluna baxan rəis, süfrəçibaşı, halvaçıbaşı, münəccimbaşı və s. vəzifə sahibləri çalışırdı.

Səfəvilər dövründə Azərbaycan ərazisi şah canişinləri - **bəylərbəyilər tərəfindən idarə olunan vilayətlərə** bölünmüşdü. XVII əsrdə Səfəvilər dövlətində **13 bəylərbəylik** mövcud olmuşdur.

**Bəylərbəyilər** yalnız Azərbaycan hərbi əyanları tərəfindən təyin edilirdi. Onlar öz məmurları tərəfindən əhalidən yığılan vergiləri xəzinəyə göndərir və müəyyən miqdarda hərbi qüvvə saxlayırdılar. Onların daxili işlərdə böyük müstəqilliyi var idi.

Əyalət idarəçilik sistemi bir çox cəhətdən mərkəzi idarəçiliyə oxşar idi. Bəzi bəylərbəyilər o qədər güclü idilər ki, öz saraylarının zənginliyi baxımından şahı təqlid edirdilər. Qızılbaş əyanları bəylərbəyi, əmirül-üməra və hakim kimi vilayətləri çox vaxt irsi olaraq idarə edirdilər. Məsələn, Qarabağ və Astarabad Qacar tayfasının, Şirvan və Çuxursəd Ustaclı tayfasının nümayəndələri tərəfindən idarə olunurdu. Qulluq adamlarına məvacib daha çox titul, bəzi hallarda isə soyurqal verilməsi ilə həyata keçirilirdi. Bəzi vəzifəli şəxslərə rəiyyətdən vergi şəklində alınan daimi rüsum yığmaq hüququ verilmişdi. Qulluqçuların mükafatlandırılmasının geniş təcrübədən keçirilən formalarından biri düşüllük idi və bu dövlət idarəsi tərəfindən həyata keçirilən ödənclərin məlum faizi şəklində

tutulan məbləği bildirirdi.

XVII əsrin ikinci yarısı əsasən dinc inkişaf şəraiti ilə əlamətdar idi. Ölkə əvvəlki kimi **dörd iri vilayətdən** ibarət olub, şahın sərəncamı ilə təyin olunan *bəylərbəyilər* tərəfindən idarə olunurdu. **Bəylərbəyilərə** tabe vilayətlərin hakimləri *qolbəyi* adlanırdı. Daha kiçik inzibati vahidlərin hakimləri *sultan* titulunu daşıyırdılar və onlar yerli hakimiyyət orqanlarını müstəqil olaraq yaradırdılar. **Sultanlar** qolbəyilərə və bəzən də birbaşa bəylərbəyilərə tabe idi. **Xan** ali hərbi-inzibati mövqe tutan şəxs idi. Sultan və bəy xandan aşağı mövqedə dururdu [1].

## 2.4. Azərbaycanda xanlıqlar dövründə idarəetmə sistemi və qulluq münasibətləri

Azərbaycanın XVIII əsrdə mövcud ictimai-siyasi vəziyyəti ilə tanış olduqda, bu dövrdə ölkənin ayrı-ayrı xanlıqlara parçalanması və bu xanlıqların öz aralarında tez-tez müharibələr aparmasının şahidi oluruq.

Xanlıqların idarəetmə sistemi əslində əvvəlki formalardan çox da seçilmirdi. Xanlıqlar tipik feodal **dövləti** idi, xanlığı xan idarə edirdi, hakimiyyət **irsi olaraq xanın** varislərinə keçirdi və xanın yanında divan fəaliyyət göstərirdi. **Divanda** ölkənin idarə olunması məsələləri tez-tez müzakirə olunurdu. **Son söz xanın olsa da divanın** tərkibində olan bəylərin rəyi, habelə şəriət qaydaları və yerli adətlər nəzərə alınırdı.

Hər xanlıqda **dövlət aparatı** fəaliyyət göstərirdi. Xanın yaxın köməkçisi baş vəzir idi.

Azərbaycanın xanlıqlarında əhalinin sosial tərkibi üç qrupa bölünürdü: **1) imtiyazlı təbəqə; 2) din xadimləri və 3) vergi verənlər.**

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı, 2004.- S.18-21

Birinci təbəqəyə **xan (yaxud sərdar), bəylər, sultanlar və ağalar daxil idi.**

Azərbaycan xanlıqlarında **xan adı daşıyanlar iki qismə** bölünmüşdü: **birincisi,** xanlığın başında duran mütləq hakim idi; **ikincisi** isə Səfəvi şahları tərəfindən "xan" fəxri adları verilmiş xüsusi şəxslər daxil idi. Bu "xan"lar hakim olmasalar da böyük imtiyaz sahibləri idi. Lakin onlar varislik hüququna malik deyildirlər.

Xandan sonra ali silkin növbəti pilləsində **bəylər** dururdu. A.Bakıxanov yazır ki, "**bəy monqol dilində əmr edən**, hökm edən deməkdir...., bəy əmr edən hər hansı şəxsə verilən ümumi addır" [1].

**Bəy rütbəsini** ali silk nümayəndələrindən olan xanın övladları, qohumları, onların varisləri və həmçinin xidmətinə və ləyaqətinə görə layiq görülmüş şəxslər daşıyırdı [2].

Hakimiyyətin sonrakı pilləsində **sultan** dururdu. **Sultan** ərəbcə hökmdar deməkdir. Bu rütbə və yaxud yüksək vəzifə tutan bəylərə verilirdi. Sultan qədim rütbə kimi göstərilirdi. Onlar böyük hüquq və imtiyazlara malik olmaqla yanaşı xanın yanında yüksək mövqe tutrdular.

Əhalinin silki qurluşunda **ağaların** da xüsusi yeri vardı. Bu ad monqol dilindəndir. **Ağa** xan ailəsinə daxil olan şəxslərə deyilirdi. Məhz bu baxımdan onlar bəzən imtiyazlara malik idi və irsi bəylərə malik hüquqlardan istifadə edirdilər. Lakin onların mülkiyyət üzrə hüququ bəylərdən fərqlənirdi. Belə ki, ağalar xan tərəfindən kəndləri idarə etmək üçün təyin olunurdu. Bu vəzifə irsi və yaxud müvəqqəti ola bilərdi. Ağalar təyin olunduqları kəndlərin gəlirinin bir hissəsindən istifadə edir və kəndlilər onun gəlir mənbəyi idi. Ağalar və onların yaxınları hər cür vergi və mükəlləfiyyətlərdən azad edilmişdi [3].

---

[1] Вакыханов А. Сочинения. Записки, письма. Баку, «Элм», 1983.-С. 137

[2] Qarayev E. İrəvan xanlığı. 1747-1828. Bakı, "Avropa" nəşriyyatı 2010.-S.306

[3] Qarayev E. İrəvan xanlığı. 1747-1828. Bakı, "Avropa" nəşriyyatı 2010.-S

Xanlıqlar inzibati-ərazi quruluşu baxımından **mahallara,** mahallar isə **kəndlərə** bölünürdü. Mahalları **naiblər**, kəndləri isə **kəndxudalar** idarə edirdi.

**Naiblər** əsasən iri feodallardan təyin olunur, onlar yerlərdə məhkəmə işinə baxır, xan üçün döyüşçülər toplayır və qoşunlar üçün azuqə hazırlayırdılar.

**Kəndxudalar** naibə, **yüzbaşılar** isə kəndxudaya tabe olurdular.

Xanlıqlarda **məhkəmə** üç instansiyadan – **divan, şəriət və əsnaf** məhkəmələrindən ibarət idi.

**Divan məhkəməsi** təkcə xana tabe idi və daha təhlükəli cinayətlərə aid məsələlərə baxmaq üçün toplanırdı.

**Şəriət məhkəməsi** daha fəal idi. Burada cinayət xarakterli işlərə, habelə mülki işlərə baxılırdı.

**Əsnaf məhkəməsi** ustabaşıya tabe idi və onun elə bir mövqeyi yox idi. Çox vaxt əsnaf məhkəmələrində mühüm məsələlərin həllində ağsaqqallar da iştirak edirdilər [1].

Azərbaycan xanlıqlarında beş növ torpaq mülkiyyəti mövcud idi:

1. **Dövlət (xəzinə) torpaqları**. Belə torpaq mülkiyyəti "divani" adlanırdı. Lakin əvvəlki əsrlərdən fərqli olaraq XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarında dövlət torpaqları tədricən əvvəlki əhəmiyyətini itirərək bir növ xanın şəxsi mülkiyyətinə çevrilmişdi (yəni, xan ailəsinin torpaqları dövlət torpaqları olan divan ilə birləşərək artmışdır). Əksər hallarda divan torpaqları xanın razılığı ilə hər hansı şəxsə bu və ya digər xidmətinə görə **"tiul"** hüququnda istifadəyə verilirdi. Torpaqdan tiul hüququnda istifadə edən şəxs **"tiuldar"** adlanırdı.Tiul hüququ nəsldən nəslə keçmirdi. Çünki tiuldar öləndən sonra ona verilmiş sahələr yenidən xəzinəyə qaytarılırdı.

---

[1] Искендерова М. Бакинское ханство. Баку, 1999. S.307

2. Xan ailəsinə məxsus torpaq sahələri "**xalisə**" adlanırdı.

3. Ayrı-ayrı feodallara-mülkədarlara məxsus torpaq sahələri "**mülk**" torpaqları adlanırdı. Mülk şəxsi mülkiyyət olmaq etibarı ilə satıla və nəsildən-nəsilə keçə bilərdi.

4. Məscidlərin, pirlərin və bu kimi dini ocaqların ixtiyarında olan torpaqlar "**vəqf**" adlanırdı.

5. Kənd icmasına məxsus torpaq sahələri "**camaat torpağı**" adlandırılırdı [1].

1747-ci ilin iyun ayında Nadir şah afşar öldürüldükdən sonra Azərbaycan ərazilərində 20-yə yaxın müstəqil və yarım-müstəqil xanlıq təşəkkül tapdı [2]. Xanlıqlar dövrü Azərbaycanda 1747-1828-ci illəri əhatə etmişdir. Bu xanlıqlardan **Qarabag, İrəvan, Naxçıvan və Bakı** xanlıqlarının idarəetmə quruluşuna diqqət yetirək.

**Qarabağ xanlığında** xandan sonra ali silkin növbəti pilləsini bəylər və məliklər tuturdu. **Bəy və məlik** titulları irsən keçirdi. Lakin hər dəfə bu hüququ xan xüsusi fərmanla təsdiq etməli idi. **Məliklər** geniş məhkəmə və inzibati hüquqlara malik idilər. Qarabağ xanının yanında məşvərətçi orqan olan- **divan** fəaliyyət göstərirdi.

**Divan** xanın yaxınlarından və ali müsəlman din xadimlərindən təşkil edilmişdi. Divanda başlıca olaraq müharibə və sülh məsələləri, vergilərin bölüşdürülməsi, yeni vergilərin təyin edilməsi, mülki və cinayət işləri müzakirə edilirdi. Müzakirəyə çıxarılan hər hansı bir mühüm məsələ ilə bağlı son söz xana məxsus olsa da, bəzi hallarda xan divan üzvlərinin rəyi ilə hesablaşmalı olurdu. Digər xanlıqlara nisbətən Qarabağ xanlığında divan yüksək nüfuza malik idi. Qarabağ xanlığında **dövlət aparatı** da xeyli böyük olmuşdur. Xanın ən yaxın köməkçisi vəzir idi. Qarabağ xanlığında çöx zaman vəzirə uzun

---

[1] Əliyev F, Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərnəşr, 1996.- S.16-19

[2] Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, “Təhsil”, 2007.-S.215

illər “mirzə” deyirdilər.

Sarayda qalabəyi, eşikağası, xəzinəağası, ambardarağası, əmiraxur və başqa vəzifələr vardır.

**Mahalları** minbaşılar və məliklər, **kəndləri** isə darğalar, yüzbaşılar, kovxalar, kəndxudalar idarə edirdilər. Əslində “minbaşı” və “yüzbaşı” hərbi rütbələr idilər. Mahal naibləri həm inzibati, həm də məhkəmə hakimiyyətinə malik idilər. Kəndxudalar və kovxaları kənd icmaları seşirdi. Onların başlıca vəzifəsi icma üzərinə düşən vergiləri toplamaq, kəndlərdə asayişi təmin etmək idi [1].

**Darğalar** bazara nəzarət edərək ərzaq məhsullarının qiymətlərini təyin edir, mübahisəli məsələlərin həlli zamanı münsif kimi çıxış edirdilər. Darğalar formal olaraq polis hesab olunsalar da əslində bütün şəhərdə qayda-qanuna cavabdeh idilər. Şəriət qaydalarının əməl olunmasına da dargalar nəzarət edirdi. Darğaların qayda-qanunu pozanları cəzalandırmaq hüququ vardı [2].

Paytaxtı İrəvan şəhəri olan **İrəvan xanlığı** Azərbaycanın şimal-qərbində yerləşmişdir. İrəvan xanlığının ərazisi bir əyalət kimi XVI əsrdən Azərbaycan Səfəvlər dövlətinin inzibati-ərazi bölgüsünə daxil olan **Çuxursəd bəylərbəyliyinin** mərkəzi olmuşdur. Mərkəzi İrəvan şəhəri olan bu bəylərbəyliyə XVII əsrin əvvələrindən Naxçıvan və Maku əraziləri də daxil olmuşdu. İrəvanı Səfəvi şahlarının təyin etdiyi əvvəl ustaclı, sonra isə qacar tayfasından olan hakimlər idarə edirdi. 1736-cı ilin martında Nadir şah elan edildikdən sonra Şirvan, Qarabağ, Azərbaycan və Çuxursəd bəylərbəyliklərini ləvğ edib, əvəzində Azərbaycan vilayəti (mərkəzi Təbriz) yaratdı. **İrəvan əyaləti** 1747-ci ilə qədər onun yaratdığı dövlətin inzibati ərazilərindən olan Azərbaycan bəylərbəylinin tərkibinə qatıldı.

İrəvan xanlığı 1747-1797-cı illərdə müstəqil dövlət olmuş və 1797-1828-ci illərdə isə Cənubi Azərbaycanın tərkibinə

---

[1] Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, “Təhsil”, 2007.-S.198-201

[2] Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərnəşr, 1996.-S.58-59

daxil edilmişdir.

Dövlətin başçısı **xan** idi. Dövlət dili Azəri türkcəsində idi. Lakin rəsmi yazışmalarda fars dilindən də istifadə olunurdu. Bu xanlıq dövlət atributu sayılan öz ordusu, pul vahidi və sərhədləri olan feodal dövlət idi.

Xanın yanında məsləhətçi orqan olan **divan** fəaliyyət göstərirdi. Divan xan başda olmaqla yüksək vəzifəli şəxslərdən ibarət idi. Divanda daxili və xarici siyasət məsələləri həll olunurdu. İrəvan xanının yanında fəaliyyət göstərən divanda ən yüksək vəzifəni vəzir, xanın yaxın adamları və hər birinin müəyyən fəaliyyət sahəsi olan bir neçə mirzə və din xadimlərindən şeyx-ül-islam tuturdu. Divanın başçısı divanbəyi hesab olunurdu. O, xanın ən yaxın adamlarından və yaxud nüfuzlu rühanilərdən təyin olunurdu.

Xandan sonra ikinci böyük şəxs mərkəzi **vəzir** sıyılırdı. Vəzir mülki aparatın başçısı və xanın ən yaxın məsləhətçisi idi. Vəzir yüksək məvacib alırdı və bu məvacib xəzinədən ödənilirdi. Bundan başqa sarayda eşikağası, xəzinəağası, ambardar, sanduktar və s. vəzifələr vardı.

İrəvan xanlığında dövlət idarəetməsi bir neçə sahəyə bölünürdü və bu sahələrə xanın rəhbərliyi altında ayrı-ayrı şəxslər başçılıq edirdi.

**Birinci** sərdarın saray təsərrüfatı, xüsusilə şəxsi hərəmxanası idi.

**İkinci** hərbi sahə idi.

**Üçüncü** sahə maliyyə bölməsi idi.

**Dördüncü** sahə isə icraedici və yaxud polis idi [1].

İnzibati cəhətdən **naiblərin** idarə etdiyi İrəvan xanlığı **15 mahala** bölünürdü (Qırxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd, Saatlı, Talin, Seyidli-Azsaxlı, Sərdarabad, Karpi, Abaran, Dərəçiçək, Göyçə).

İrəvan xanlığında **dövlət (divan), xalisə (xana və ailə**

---

[1] Qarayev E. İrəvan xanlığı. 1747-1828. Bakı, "Avropa" nəşriyyatı 2010.- S.216-217

**üzvlərinə məxsus), mülk, vəqf  və cammat torpaq** mülkiyyəti formaları mövcud idi. Kəndlilər onlarca vergi verir və müxtəlif mükəlləfiyyətlər daşıyırdılar [1].

**Naxçıvan xanlığı** da tipik feodal dövləti olmuşdur. Xanlığın ərazisində baş vermiş feodal müharibələri, daxili saray çəkişmələri və xarici düşmənlərə qarşı mübarizə Naxçıvan xanlığının ərazi bölgüsündə də tez-tez dəyişikliyə məruz qalmasına gətirib çıxarırdı. Xanlıqlar dövründə Naxçıvan xanlığında iki cür idarəetmə sistemi mövcud olmuşdur.

Məlum olduğu kimi 1747-ci ildən 1797-ci ilə qədər Naxçıvan xanlığı müstəqil dövlət qurumu olmuşdur. Bu dövrdə xanlığın ali hakimi xan özü idi ki, qalan feodalların hamısı ona tabe idilər. Ona görə də bürokratik qanunvericilik aparatı tamamilə xanın əlində cəmləşmişdi.

Naxçıvan xanlığı 1797-1828-ci illərdə Cənubi Azərbaycanın tərkibinə daxil edildikdən sonra xanlığın idarə olunmasında  tamamilə başqa vəziyyət yarandı. Şahzadə Abbas Mirzənin Cənubi Azərbaycanı idarə etdiyi zaman "başqa xanlıqlarda  olduğu kimi Naxçıvan xanlığında da ilkin ödənci kim daha böyük məbləğdə ödəyirdisə, xanlıq ona verilirdi". Ona görə də xan hakimi mütləq hesab olunurdu. O yerli idarə orqanlarına istədiyi adamları təyin edə bilir, həm də xanlığı istədiyi kimi idarə edirdi. Naxçıvan xanları vergilərdən topladıqları gəlirərdən əlavə şah xəzinəsindən maaş da alırdı. Naxçıvan xanları Cənubi Azərbaycan şahlarını qane etməmiş, buna görə də şah və şahzadələr onlara etibar etmirdilər. Bu səbəbdən də Naxçıvan xanlığının idarə olunması üçün əksər hallarda kəngərli tayfalarından olan **iki nəfər feodal təyin olunurdu.** Xanlığın idarə edilməsi üçün feodallardan biri şah tərəfindən təyin edilirdi və **əsas hakim** hesab olunurdu, digəri isə **tayfaların rəisi** və kəngərli tayfasının vəkili hesab edilirdi. XIX əsrin əvvəllərində Naxçıvanın əsas hakimi Kəlbəli xan, tayfanın rəisi isə Lütfəli Sultan idi.

---

[1] Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, “Şərq-Qərb”, 2007.-S.13

Cənubi Azərbaycanın hakimiyyəti altına düşməzdən əvvəl 1747-1497-ci illərdə Naxçıvan xanlığı inzibati cəhətdən **mahallara** bölünmüşdü. Xanlığın mərkəzi şəhəri Naxçıvan idi. Cənubi Azərbaycanın hakimiyyəti illərində (1797-1828) buranın idarə olunmasını asanlaşdırmaq məqsədi ilə Cənubi Azərbaycanın hakimi təyin edilmiş şahzadə Abbas Mirzə Naxçıvan xanlığını **Naxçıvan və Ordubad dairələrinə** bölmüşdü. Həmin **dairələr** öz növbəsində mahallara bölünürdü. **Mahallar** isə kəndlərə bölünürdü.

**Mahalları mirzəbəyilər** idarə edirdi. **Mirzəbəyilərin** əsas vəzifəsi kənd təsərrüfatı ilə əlaqədar məsələləri və əhalidən vergilərin yığılması ilə alaqədar xanın əmrini yerinə yetirməkdən ibarət idi.

**Kəndləri isə kəndxudalar** idarə edirdi. Kəndxudaları kənd icmaları seçirdi və xan tərəfindən təsdiq edilirdi. Kəndxudalardan kəndlərdə baş vermiş hadisə və yeniliklər haqqında ardıcıl olaraq xan divanına məlumat verəcəkləri haqqında yazılı iltizam alırdılar.

Xanlıqda **polis idarəsi** iki nəfərə - **darga və əsasbaşıya** etibar edilirdi.

**Darğalara yüzbaşılar** və **onbaşılar** tabe idilər. Darğalar qayda-qanun yaradır, xüsusilə şəriət qanunlarının yerinə yetirilməsinə və bazarlara nəzarət edirdilər. Onlar bazarlarda qiymətləri təyin edir və baş vermiş mübahisələri yoluna qoyurdular. Darğaların qayda-qanunu pozanları cəzalandırmaq hüququ vardı. Darğalara xan tərəfindən maaş verilmirdi. Maaşın əvəzində onlara hər dükandan ayda gümüş pulla 15 qəpik almağa icazə verilirdi və ərzaq məhsullarını bazardan pulsuz alırdılar.

Digər polis rəisinin - **əsasbaşının** vəzifəsinə şəhərin və bazarın gecə vaxtı qorunması daxil idi. Əsasbaşı da maaş əvəzinə hər dükandan ayda gümüş pulla 15 qəpik almaq hüququna malik idi.

Xan özünün mülkü və polis işlərini **eşikağası** vasitəsilə həyata keçirirdi. Eşikağası xanın ən yaxın köməkçisi idi. Xanın

yanına gələnləri əvvəlcə eşikağası qəbul edir və məsləhət bildikdə onları xanın yanına aparırdı. Eşikağası mirbölüklərin, kəndxudaların və s. xanın hüzuruna buraxılıb-buraxılmamasını həll edirdi.

Vəzifəli şəxslər içərisində mirabların da özünəməxsus yeri var idi. Belə ki, onlar həm şəhərdə, həm də kəndlərdə suyun bölüşdürülməsinə nəzarət edirdilər [1].

Azərbaycanın ən kiçik xanlığı **Bakı xanlığı** olmuşdur. Bakı xanlığı bir şəhər olduğuna və şəhərin idarə olunması sadələşdirildiyinə görə, xüsusi inzibati aparat yaradılmasına ehtiyac olmamışdır. Bununla yanaşı, **Bakı xanlığında** qalabəyi, darğa və başqa şəhər məmurları vəzifələri var idi. Qalabəyi qalanın komendantı olaraq şəhərin baş polisi vəzifəsini yerinə yetirirdi və bütün şəhərdə asayişə cavabdeh idi. Bazar nəzarətçiləri vəzifəsini darğalar yerinə yetirirdilər. Onlar şəhərdə və bazarda qayda-qanuna, məhsulların qiymətlərinə nəzarət edir, müxtəlif mübahisələri həll edirdilər. Bakının dörd məhəlləsinin hər birinin öz kəndxudası var idi. O, məhəllədə qayda-qanuna nəzarət etməli, şəhər sakinlərindən vergi yığılmasında və s. işlərdə iştirak etməli idi. Naibə kömək edən bütün bu məmurlar divanın xeyrinə toplanmış vergidən haqq alırdılar.

## 2.5. Azərbaycanda rus məmurluğuna əsaslanan dövlət qulluğunun yaranması və formalaşdırılması mərhələləri

Azərbaycanda dövlət qulluğunun keçmişinə nəzər salarkən XIX əsrin əvvəllərindən Rusiyanın işğalı altına düşdükdən sonra tamamilə yeni bir mərhələnin başlandığını görürük. XIX əsrin əvvəllərində Rusiya tərəfindən zəbt edilən xanlıqlar ilk vaxtlar əvvəlki idarə sisteminin get-gedə məqbul hərəkət etmək imkanlarını tamamilə itirir, Rusiya generallarının tətbiq etdiyi **komendant üsul-idarəsinə** keçirdilər.

Şimali Azərbaycan xanlıqları rus qoşunlarına müqavi-

---

[1] Əliyev F., Əliyev M. Naxçıvan xanlığı. Bakı, Azərnəşr, 1996.-S.16-18

mət göstərmədiklərinə görə Qarabağ, Şəki və Şamaxı xanlıqlarında idarə sistemi olduğu kimi saxlanılmış, Gəncə, Bakı, Quba xanlıqları isə müqavimət göstərdiyi üçün onlarda **xan üsul-idarəsi ləğv** edilmişdi.

Əvvəlcə Şuşada "Müsəlman əyalətləri rəisliyi" yaradıldı. Bu idarəyə rus zabiti başçılıq edirdi. Sonra isə Komendant idarə üsulu yaradıldı. Bu qurumlarda Komendantlar mütləq hakim idilər. Onların təkcə ölüm hökmü vermək hüquqları yox idi. **Xanlıqlar və sultanlıqlar** ***əyalətlərə*** **və** ***dairələrə*** **çevrildi**, 6 əyalət – Bakı, Quba, Şəki, Şirvan, Qarabağ və Talış əyalətləri, 2 dairə - Yelizavetpol və Car-Balakən dairələri, 2 distansiya - Qazax və Şəmşəddil distansiyaları təşkil edilmişdi [1]. **Əyalətlər** mahallara bölünür, mahalların başında komendantların yerli bəylərdən təyin etdikləri mahal naibləri dururdular. Kəndləri isə kəndxudalar idarə edir. Onların hər birinin yanında bir neçə onbaşı və yasovul olurdu. Onlar dövlət xəzinəsindən maaş almır, yığdıqları vergilərin bir qismini özlərinə götürürdülər. Bəzi əyalətlərdə komendantlar tərəfindən sədrlik edən məhkəmələr yaradılmışdı. Onların iclasçıları bəylərdən seçilirdi, eyni zamanda, şəriət məhkəmələri də fəaliyyət göstərirdi. Bunlara qazılar başçılıq edirdi.

**1840-cı ildə çar Ön Qafqazda inzibati islahatlar barəsində** qanun verərək komendant idarə üsulunu ləğv etmiş, əyalətlərin yerinə **quberniyalar** və onların nəzdində mahallar əvəzinə **qəzalar** yaradılmışdı. Ön Qafqaz mərkəzi şəhəri Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və baş şəhəri Şamaxı olan Kaspi vilayətinə bölünmüşdü. Yelizavetpol-Balakən və Naxçıvan qəzalarından başqa Şimali Azərbaycan torpaqlarının hamısı Kaspi vilayətinin tərkibinə, Yelizavetopol-Balakən qəzaları isə Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edilmişdi. O zaman bütün azərbaycanlı məmurlar işdən kənar-

---

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.123-126

laşdırılaraq rus məmurları ilə əvəz edilmişdir. Yerli əyanların, bəylərin və kəndxudaların müəyyən imtiyazları saxlansa da bütövlükdə əsas məsələləri rus hərbi rejimi həll edirdi.

**Məhkəmə sistemi** də ümumrusiya qanunları əsasında fəaliyyət göstərən quberniya və qəza məhkəmələrinin ixtiyarına verilmişdi. Şəriət məhkəmələri isə yalnız kəbin-talaq işlərinə baxırdı. Sonrakı illərdə də çar Rusiyası bir sıra inzibati bölgü dəyişiklikləri aparmış və burada milli mənsubiyyəti nəzərə almamışdır.

XIX əsrin ortalarında Rusiya İmperiyasında genişlənməkdə olan inqilabi hərakatın təsiri neft sənayesinin sürətlə inkişaf etdiyi və fəhlə sinfinin güclü təşəkkül tapdıgı Bakı şəhərində də özünü göstərirdi. XX əsrin əvvəlləri inzibati polis aparatının yenidən qurulması, çarizmin ordu, jandarm, polis, məhkəmə sisteminin, ümumiyyətlə, bütün dövlət aparatının güclənməkdə olan sinfi və milli azadlıq hərəkatının boğulmasına yönəldilməsi ilə səciyyələnir. 1902-1903-cü illərdə Azərbaycanın bir çox şəhər və qəzalarında Rusiyada 1881-ci ildə qəbul olunmuş "Mühafizə haqqında əsasnamə" (buna "Müvəqqəti əsasnamə" də deyilirdi) tətbiq olunurdu. Bu əsasnamənin tətbiqi ilə ictimai qaydalara və asayişə zidd olan yığıncaq və toplantıların iştirakçıları 500 rubladək cərimə oluna və ya 3 aylıq müddətə həbs edilə bilərdilər.

1905-ci ilin fevralında Qafqazda canişinlik bərpa olunaraq ***qraf Vorontsov Daşkov*** canişin təyin edildi. 1905-ci ildə çar hökuməti fövqəladə səlahiyyət verilmiş müvəqqəti general-qubernator-təsisatı yaratdı və bir çox quberniyalarda hərbi vəziyyət elan etdi. Biri Yelizavetopol quberniyası ərazisində Zəngəzur, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarını, digəri isə başqa qəzaları əhatə edən 2 müvəqqəti general-qubernatorluq yaradıldı.

Əvvəlki quberniya aparatı saxlansa da o, qayda-qanun və dinclik yaratmaq üçün müvəqqəti general-qubernatora tabe edilmişdi, qalan işlərdə isə quberniya və qəza işləri quber-

natorun tabeliyində qalırdı.

1905-ci ilin sentyabrında Vorontsov-Daşkovun təqdim etdiyi ***"Bakı şəhəri və qəzasının idarəsi qaydaları" təsdiq olundu***. Bu qaydalara əsasən quberniya idarələrinin səlahiyyətləri azaldılaraq inzibati idarəçilik üzrə funksiyaları saxlanıldı.

1906-cı ildə Bakı şəhərində yeni bir təsisat **Bakı qradonaçalnikliyi** yaradıldı və ona qubernator səlahiyyətində olan qradonaçalnik başçılıq edirdi. Bunun yaradılmasında məqsəd Bakı şəhəri və ona bitişik neft-mədən və fabrik-zavod rayonlarının idarə edilməsində nəzarətin gücləndirilməsi idi. Qradonaçalniklik və onun idarəsi Bakı və Balaxanı-Sabunçu polismeystrliklərindən ibarət idi.

Qradonaçalnikin aparatında vəzifələrin əksəriyyətinə Tiflisdəki hökumət idarələrindən qulluqçular göndərilmiş, bəzi rəhbər vəzifəli məmurlar isə Peterburqdan təyin edilmişdi. Çünki canişinin xüsusi sərəncamı ilə azərbaycanlılar qradonaçalnikliyin aparatına buraxılmırdılar.

Rusiyada 1917-ci il oktyabr çevrilişindən sonra **oktyabrın 31-də Bakıda hakimiyyətin sovetlərin əlinə keçdiyi elan olundu** və Bakı Fəhlə Deputatları Sovetinin geniş iclasında Stepan Şaumyan Sovetin sədri seçildi və Leninin imzası ilə o, Rusiya Sovet hökumətinin Qafqazda fövqəladə komissarı təyin edildi. O zaman, hələ Qafqazda sovet hakimiyyəti qurulmamışdı. 1918-ci ildə Rusiya Sovet Respublikasında Müəssislər Məclisi buraxıldıqdan sonra aprelin 22-də Zaqafqaziya özünün istiqlalını elan edərək əslində Rusiyadan ayrıldı. Həmin il aprelin 25-də isə Stepan Şaumyanın sədrliyi altında Bakı Xalq Komissarları Şurası yaradıldı. Komissarların əksəriyyəti erməni daşnaklarından ibarət idi, onun tərkibinə cəmi üç azərbaycanlı - M.Əzizbəyov - qurberniya komissarı, N.Nərimanov - şəhər təsərrüfatı komissarı, M.Vəzirov - torpaq komissarı kimi daxil edilmişdi. Bakını RSFSR-in inzibati rayonlarından biri elan edən bu kommunanın ömrü uzun olmadı və iyulun 31-də süqut

etdi.

**1918-ci il mayın 28-də** Zaqafqaziya Demokratik Respublikası ləğv edilərək Tiflisdə Gürcüstanın, Ermənistanın və **Azərbaycanın istiqlaliyyəti elan edildi**. **M.Ə.Rəsulzadənin sədrlik** etdiyi Azərbaycan Milli Şurası Azərbaycan Demokratik Respublikasının ilk hökumətini təşkil etməyi şuranın üzvü, bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. Doqquz nəfərdən ibarət bu hökumətin üzvlərindən 4 nəfəri "Musavat" partiyasının üzvü, 3 nəfəri bitərəf, 1 nəfəri "Hümmət" partiyasının üzvü, 1 nəfəri isə sosialist idi. Bundan bir qədər sonra milli hökumətin ikinci kabineti yaradıldı və 12 nəfərdən ibarət bu hökumətə də Fətəli xan Xoyski rəhbərlik edirdi. 12 nazirdən 4 nəfəri hüquq elmləri doktoru, 3 nəfəri tibb elmləri doktoru, 1 nəfəri filologiya elmləri doktoru, 4 nəfəri mühəndis idi. 1918-ci ilin dekabrından sonra bu hökumətin tərkibi daha üç dəfə təzələnmiş, bunlardan üçünə F.Xoyski, axırıncı ikisinə isə N.Yusifbəyli sədrlik etmişdi. **1920-ci il aprelin 27-dək** davam etmiş Azərbaycan Demokratik Respublikası yerli kommunistlərin köməyi ilə yenidən Rusiyanın XI Qızıl Ordusu tərəfindən işğal edildi. Mövcud olduğu 23 ay müddətində Azərbaycanda milli dövlət quruculuğu və milli ordu yaradılması sahəsində, habelə digər sahələrdə böyük işlər görülməsinə baxmayaraq, bu dövlət yaşaya bilmədi və Azərbaycan yenidən Rusiyanın təsiri altına düşdü.

**Sovet hakimiyyətinin elan edildiyi 1920-ci il aprelin 28-də** Müvəqqəti İnqilab Komitəsi yeni hökumətin — Azərbaycan SSR Xalq Komissarları Sovetinin aşağıdakı tərkibini təsdiq etmişdi: Nəriman Nərimanov - XKS-nın sədri və xalq xarici işlər komissarı, Çingiz İldırım — xalq hərbi dəniz işləri komissarı, Həmid Sultanov - xalq daxili işlər komissarı, Əliheydər Qarayev - xalq, əmək və ədliyyə komissarı, Qəzənfər Musabəyov - xalq əkinçilik, ticarət, sənaye və ərzaq komissarı, Mirzə Davud Hüseynov - xalq maliyyə komissarı, Dadaş Bünyadzadə - xalq maarif və dövlət nəzarəti komissarı,

C.Vəzirov - xalq poçt, teleqraf və yollar komissarı, A.Əlimov - xalq səhiyyə və himayə komissarı.

Bu **Azərbaycan Sovet Hökumətinin** ilk kabineti idi. Sonralar onun tərkibi tez-tez dəyişilmiş, bütün komissarların təmsil olunduğu Kiçik Xalq Komissarları Soveti də yaradılmışdı. *Tezliklə Azərbaycanın hər yerində sovet hakimiyyəti elan edilərək yerli qəza, məntəqə və kənd inqilab komitələri yaradıldı.* Lakin sonradan 1920-ci il sentyabrın 30-da Moskvada RSFSR ilə Azərbaycan SSR arasında bağlanmış müqaviləyə görə əslində Azərbaycanın müstəqilliyindən əsər-əlamət qalmadı. Müqavilə Stalinin, Orconikidzenin və Mikoyanın müdaxiləsi nəticəsində əsl beynəlxalq müqavilə kimi deyil, ona oxşar yarımçıq bir müqavilə idi. Müqavilənin birinci maddəsində göstərilirdi ki, "Azərbaycan və Rusiya öz aralarında sıx hərbi və maliyyə-iqtisadi ittifaq bağlayırlar" və ikinci maddədə bildirilirdi ki, hər iki respublika hərbi orqanlarını, xalq təsərrüfatı, xarici ticarət, təchizat, dəmiryol və su nəqliyyatı, maliyyə, poçt və teleqraf orqanlarını ən qısa müddətdə birləşdirməlidirlər.

Azərbaycan İnqilab Komitəsi 1920-ci il iyunun 9-da verdiyi dekretlə Xalq Daxili İşlər Komissarlığı yaradaraq göstərirdi ki, Azərbaycan SSR-nin konstitusiyası işlənib hazırlanana qədər o, respublikanın ali inzibati orqanıdır və Azərbaycan İnqilab Komitəsi ölkənin inzibati idarəçiliyni onun vasitəsi ilə həyata keçirir. Komissarın vəzifələri yerlərdə hakimiyyətin təşkili, ölkənin bütün idarəetmə aparatının mərkəzləşdirilməsi, bütün yerli idarəetmə orqanlarına inzibati nəzarət edilməsindən ibarət idi.

1921-ci ilin yanvarında respublikada mövcud olan bütün təsərrüfat orqanlarının fəaliyyətini birləşdirən və ölkədə təsərrüfat quruculuğuna rəhbərlik edən **Ali İqtisadi Şura_yaradıldı**. Bu Şuranın sədri Mirzə Davud Hüseynov idi. Lakin bu Şura RSFSR-in müvafiq komissarlıqlarından asılı idi. Azərbaycanda yeni iqtisadi siyasət dövründə Xalq Təsərrüfatı Şurasının

səlahiyyətləri məhdudlaşmaqda davam edirdi.

İyirminci illərin hakimiyyət orqanlarına nəzər saldıqda görünür ki, bu dövrdə inqilab komitəsindən başqa yerlərdə yaradılmış **yoxsul komitələri** də geniş fəaliyyət göstərirdi. **1921-ci ilin fevralında Bakıda yoxsul komitələrinin** birinci Ümumazərbaycan qurultayı keçirilmiş və bu qurultay Ümumazərbaycan Sovetlər qurultayı üçün hazırlıq olmuşdu. Bundan sonra 1921-ci il aprel ayının ortalarında qəzalarda sovetlərə seçkilər keçirilərək sovet orqanları formalaşmaga başladı. 1921-ci il aprelin sonundan mayın əvvəlinədək Azərbaycanda 30 minə qədər deputatı olan təxminən 1400 kənd soveti seçilmişdi.

**Birinci Ümumazərbaycan sovetlər qurultayı** 1921-ci il mayın 19-da Azərbaycan SSR-in ilk Konstitusiyasını təsdiq etdi. Konstitusiya təsdiq edildikdən sonra onun tələbinə uyğun olaraq Azərbaycan inqilab Komitəsi ləğv edildi, qurultay sovetlərin qurultayları arasındakı dövrdə respublikanın ali qanunvericilik orqanı olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsini seçdi. Azərbaycan MİK 73 üzvdən və 26 üzvlüyə namizəddən ibarət idi. Bunlardan 51-i azərbaycanlı, 14-ü rus, 3-ü erməni, 2-si gürcü, 1 nəfəri yəhudi idi. **MİK-in mayın 21-də keçirilən birinci sessiyasında** 9 üzvdən və 3 nəfər namizəddən ibarət Rəyasət Heyəti seçildi və Azərbaycan kəndlilərinin nümayəndəsi olan M.H.Hacıyev Azərbaycan MİK-in sədri seçildi. Həmin sessiyada təsdiq edilən Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə 17 xalq komissarı daxil idi və N.Nərimanov Azərbaycan XKS sədri seçilmişdi.

Tarixdən bizə məlum olduğu kimi, Azərbaycan Sovet Sosialist Respublikasının bu nisbi müstəqilliyi çox davam etmədi, **1922-ci** ildə Zaqafqaziya Federasiyasının tərkibinə, **1924-cü ildə** isə SSRİ-nin tərkibinə daxil oldu.

1920-1930-cu illərdə SSRİ-nin hər yerində olduğu kimi Azərbaycanda da **rəhbərliyin inzibati-amirlik metodları** bərqərar olurdu. Bu dövrdə kütləvi kollektivləşmə həyata keçi-

rilmişdi. Azərbaycanda əsas hakimiyyət partiya təşkilatlarının əlində cəmləşsə də sovetlərin də rolunu artırmağa çalışırdılar.

Sovet orqanlarının təmizlənməsi adı altında 1928-ci ildə sovetlərdən 3 min nəfərdən cox işçi xaric edilmişdi. 1929-cu ildə aparılan yeni inzibati ərazi bölgüsü üzrə Azərbaycanda 15 qəza əvəzinə 8 mahal (Naxçıvan MSSR və DQMV-dən başqa) təşkil olunmuşdu. Dairələrin sayı 128-dən 62-yə endirilmişdi, kənd sovetlərinin sayı 190 olmuşdu. 1932-ci ildə isə dairələr də ləğv edilərək 47 rayon yaradıldı.

V.İ.Lenin Azərbaycanın müstəqilliyini tanımağı və Azərbaycanın RSFSR-in tərkibinə müstəqil dövlət şəklində daxil olacağını vəd etsə də, 1920-ci illərdə RSDFR Bakı Komitəsinin rəhbərliyində özünə möhkəm yer tutmuş Mikoyan və Sarkis kimi daşnak tör-töküntüləri Azərbaycanın milli kadrlarını və siyasi liderlərini hər vasitə ilə respublika rəhbərliyindən təcrid etməyə çalışır, Azərbaycanın siyasi xadimlərinə və ziyalılarına qarşı amansız təqib tədbirləri həyata keçirir, dövlət idarələrində milli kadrların yerləşməsinə qətiyyətlə mane olurdular.

Xüsusilə 1923-1924-cü illərdə bu məsələlərin həddindən artıq gərgin vəziyyət aldıgını görən N.Nərimanov kimi dövlət xadimi Sovet Rusiyasının onları aldatdığını dərk etdi və Azərbaycanın düşdüyü ağır vəziyyətdən çıxış yolu tapmaq üçün partiyanın Mərkəzi Komitəsinin Siyasi Bürosuna, Leninə və Stalinə məktublarla müraciət etməyə başladı.

N.Nərimanovun son illərə qədər Azərbaycan ictimaiyyətindən gizli saxlanılan **"Ucqarlarda inqilabizmin tarixinə dair" adlı məktubunda** dəhşətli faktlar göstərilirdi. N.Nərimanov həmin məktubunda göstərirdi ki, Mikoyan, Mirzoyan, Sarkis, Orconikidze kimi üzdəniraq partiya xadimlərinin yeritdiyi siyasət nəticəsində azərbaycanlı kadrlar dövlət idarələrində qulluğa yaxın buraxılmırlar. Məsələn, 1924-ci ildə Bakı Sovetinin məsul işçilərinin tərkibi təhlil edilərək gəstərilir ki, Bakı Sovetinin 500 nəfər üzvündən cəmi 200 nəfəri azərbaycanlıdır, Rəyasət Heyətində isə 10 nəfərdən 2-si, işlər

idarəsində 26 nəfərdən 4-ü, kommunal-təsərrüfat idarəsində 450 nəfərdən 20-si, su təchizatı şöbəsində 10 nəfərdən 1-i, səhiyyə şöbəsində 40 nəfərdən 2-si azərbaycanlıdır. Statistika şöbəsində bir nəfər də olsa azərbaycanlı yox idi, xalq təhsili şöbəsində 60 nəfərdən yalnız 7-si azərbaycanlı idi.

**1923-1932-ci illərdə Azərbaycan Kommunist Partiyasının rəhbərliyində** heç vaxt birinci şəxsin azərbaycanlı olmaması və Kirov kimi adamların respublikaya rəhbərlik etməsi nəticəsində milli kadrların sıxışdlrılması davam edirdi. Rəhbər partiya orqanlarında azərbaycanlılar azlıq təşkil edirdilər. Bura Moskva tərəfindən Q.K.Orconikidze, S.M.Kirov, Q.N.Kaminski, N.N.Kolosnikova, Y.L.Stasova göndərilmişdilər. Q.N.Kaminskidən sonra təxminən 5 il AK(b)P MK-nın birinci katibi S.M.Kirov olmuş, 1926-cı ildə birinci katib vəzifəsinin icrası Ə.H.Qarayev, H.A.Ağaverdiyev və L.Mirzoyandan ibarət katibliyə həvalə edilmişdir. 1929-cu ildən 1934-cü ilədək olan qısa bir dövrdə M.C.Bagırov birinci katib təsdiq edilənə qədər birinci üç katib - N.Gikalo, V.Polonski və Ruben (Rubenov) Moskva tərəfindən təyin edilmişdilər. N.Nərimanov sovet hakimiyyətinin ilk illərində mövcud olan partiya rəhbərliyinin əslində çarın müstəmləkəçilik siyasətindən fərqlənməyən siyasətinə öz məktublarında qəti etiraz etsə də bunun heç bir təsiri olmamışdır.

Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanda sonrakı otuzuncu illərdə də demək bu siyasət davam etdirilir, xüsusilə millətçilik, pantürkizm, musavatçılıq və s. adlar altında repressiyaya məruz qalanlar içərisində azərbaycanlı milli kadrlar çoxluq təşkil edirdi. Azərbaycan tarixində **otuz yeddinci il faciəsi** ilə yadda qalan bu dövrdə bir çox partiya və sovet işçiləri məhv edilmiş, bu repressiyanın ən böyük zərbəsi isə ziyalılarımıza dəymişdi. Təkcə 1937-ci ildə Azərbaycanda xalq düşməni adı ilə 29 min nəfər güllələnmiş və ya sürgün edilmiş adamın *əksəriyyəti ziyalılar idi.*

Otuzuncu illərin ortalarında Azərbaycandakı rəhbər

vəzifələrdə ermənilərin geniş təmsil olunması o zamankı respublika rəhbərliyinin bağışlanılmaz səhvlərindən idi. Məsələn, 51 rayonun 38-də daxili işlər şöbələrinin rəisləri erməni idi. Ümumiyyətlə, Daxili İşlər Komissarlığındakı müstəntiqlərin 80%-i erməni idi. Əfsuslar olsun ki, Moskvanın təsiri ilə bu vəziyyət sonralar da davam etmişdi.

Azərbaycanda dövlət idarəçiliyində çalışan milli kadrların artması 50-ci illərdən sonra bir qədər yaxşılaşsa da, hələ də mərkəzin təsiri ilə burada qeyri-azərbaycanlılar rəhbər vəzifələrdə üstünlük təşkil edirdilər. Xüsusilə dövlət təhlükəsizliyi orqanlarının rəhbərliyində və partiyanın Mərkəzi Komitəsinin aparatında bu, daha çox bilinirdi. 1932-ci ilədək azərbaycanlı kadrlara Mərkəzi Komtənin birinci katibi vəzifəsi etibar edilmişdisə, sonrakı illərdə sovet dövləti dağılanadək ikinci katib vəzifəsinə mütləq mərkəzin nümayəndəsi olan ruslar təyin olunurdu.

**1969-cu ildə cənab Heydər Əliyev** Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin rəhbərliyinə gəldikdən sonra dövlət idarəetmə orqanlarında ciddi işlər görulmüş, milli kadrların dövlət orqanlarında rəhbər vəzifələrə yerləşdirilməsi ilə dövlət quruculuğunda milli kadrlara olan münasibət dəyişmiş və dövlət idarəçiliyi inkişaf etdirilmişdir. Bu illərdə Azərbaycanda bir sıra yeni ali məktəblər açılmıs, 1970-ci illərdə 3500-dən çox azərbaycanlı gənc keçmiş SSRİ-nin 170-dən çox aparıcı ali məktəblərinə təhsil almağa göndərilmiş, respublikada hərbi kadrların yetişdirilməsi üçün C.Naxçıvanski adına hərbiləşdirilmiş məktəb açılmışdı.

Sovet dövründə partiya və sovet orqanlarında rəhbər vəzifələrdə işləyən qulluqçuların bir çoxu SSRİ Ali Sovetində və Azərbaycan SSR Ali Sovetində deputat kimi təmsil olunurdular. 1984-cü ildə SSRİ Ali Sovetinə keçirilmiş seçkilərdə Azərbaycandan 63 deputat təmsil olunmuşdu. 1985-ci ildə keçirilən seçkilərdə Azərbaycan SSR Ali Sovetinə 450, Naxçıvan MSSR Ali Sovetinə 110, vilayət, rayon, şəhər, qəsəbə və

kənd sovetlərinə 51479 deputat seçilmişdi. Azərbaycan SSR Ali Sovetinin 450 deputatının 65-i və yaxud 14,4%-i sovet orqanlarının işçiləri, 92-si və ya 20,4%-i partiya orqanlarının işçiləri, 4-ü və ya 0,9%-i həmkarlar ittifaqları və komsomol orqanlarının işçiləri, 25-i və ya 5,6%-i xalq təsərrüfatının bütün sahələrinin müəssisə rəhbərləri və mütəxəssisləri idi.

Xalq təsərrüfatında çalışan qulluqçuların sayı 1922-ci ildə 39 min, 1940-cı ildə 161 min, 1960-cı ildə 243 min, 1965-ci ildə 331 min, 1970-ci ildə 417 min, 1975-ci ildə 482 min, 1980-ci ildə 568 min, 1981-ci ildə isə 590 min nəfər olmuşdur.

Azərbaycanda müstəqillikdən əvvəlki dövrdə dövlət qulluğu sahəsində müəyyən ənənələr və praktika formalaşmışdı. Lakin bu formalaşmış partiya və sovet nomenklaturu 1988-ci ildən sonra məlum Qarabağ hadisələri ilə əlaqədar başlanan xaos və hərc-mərclik dövründə yaranmış yeni tarixi şəraitdə özünü doğrulda bilmədi. Hadisələrin inkişafı respublikada Mixail Qorbaçovun təyin etdiyi rəhbərliyin bacarıqsızlığı və zəifliyi ucbatından bir növ nəzarətdən çıxaraq idarəolunmaz şəkil aldı. 1990-cı ilin yanvar hadisələri, ondan sonra baş vermiş faciəli hadisələr - Azərbaycan kəndlərinin və şəhərlərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, Vəzirov və Mütəllibov rejimlərinin tutduqları xəyanətkar mövqe və Azərbaycan Xalq Cəbhəsinin ölkədə uzun illər yaranmış kadr potensialını səfərbər edə bilməməsi nəticəsində Azərbaycanda idarəetmə sistemi iflic vəziyyətinə düşdü. Belə bir şəraitdə xalqın etimadını tamamilə itirən bu qüvvələr xalq kütlələrinin təzyiqi nəticəsində hakimiyyətdən getməyə məcbur oldular. Ölkədə meydan və mitinq əhval-ruhiyyəsi iqtisadiyyatı daha da bərbad vəziyyətə saldı. Dövlətin idarə olunmasındakı səriştəsizlik respublikanın yeni-yeni ərazilərinin ermənilər tərəfindən işğal olunmasına şərait yaratdı, ölkədə dərəbəylik hökm sürməyə başladı [1].

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı, 2004.- S. 25-46

## Yoxlama üçün suallar:

1. *Azərbaycanda dövlətçilik tarixi və dövlətçilik siyasəti;*
2. *«Siyasətnamə» əsərində saray qulluğu;*
3. *«Əxlaqi-Nasir» əsərində məmurluq ənənələri;*
4. *«Qabusnamə» əsərində dövlətçilik ənənələrinin inkişafı;*
5. *Azərbaycanda orta əsrlərin məmurluq sistemi;*
6. *Səfəvilər dövründə saray qulluğu;*
7. *Azərbaycanda çar Rusiyası dövründə məmurluq;*
8. *Azərbaycanda sovet Rusiyası dövründə məmurluq;*
9. *1930-cu illərdə Azərbaycan ziyalılarına qarşı aparılan "soyqırım" siyasəti;*
10. *70-ci illərdə milli kadrların artırılması siyasəti və dövlət idarəçiliyinin inkişafı konsepsiyası.*

# III FƏSİL

# KADRLARIN İDARƏ OLUNMASI STRATEGİYASI VƏ DÖVLƏT QULLUĞU

## 3.1. Dövlət qulluğu məsələləri və kadrların idarə olunması

Dövlət orqanlarının səriştəli kadrlarla təmini dövlət səviyyəsində kadr siyasəti və kadr işinin düzgün təşkilindən olduqca asılıdır. Burada əsas yeri dövlət idarəetmə mexanizmini hərəkətə gətirən, dövlətin məqsəd və funksiyalarını peşəkar yerinə yetirən kadrlar tutur.

Elmi tədqiqatlarda və praktikada dövlət qulluğu sahəsində kadr siyasəti dövlət aparatının kadrlara tələbatını təmin etməklə dövlətin strategiyasını təşkil etdiyi göstərilir.

**Dövlət qulluğunda kadr siyasəti üç yolla** realizə olunur:

**Birinci,** dövlətə və cəmiyyətə qulluq üçün lazımi keyfiyyətlərə malik peşəkar dövlət qulluqçularını formalaşdırmaq;

**İkinci,** müasir kadr mexanizmi və texnologiyasını tətbiq etmək;

**Üçüncü,** dövlət orqanlarında kadr xidmətinin rolunu və məsuliyyətini artırmaq [1].

Hüquqşünas alimlər arasında **dövlət kadr siyasəti anlayışına** aşağıdakı fərqli baxışlar mövcud olmuşdu:

- dövlət aparatında vəzifələrə namizədlərin hazırlığı və seçimi, aparatın kadrlarla komplektləşdirilməsi, irəli çəkilməsi, yenidən hazırlığı, həvəsləndirilməsi, işçilərin təminatı, məsuliyyəti və həmçinin işdən azad olmağa yönəlmiş prinsiplər və onların əsasında aparılan tədbirlər

---

[1] Rzayev Ə. Dövlət qulluğunun hüquqi əsasları. Bakı, "Elm", 2011.- S. 423-424

sistemidir [1].

- dövlət qulluğuna yüksəkixtisaslı mütəxəssislərin cəlbi, təhkim edilməsi və tam uyğunluqla istifadə olunmasında onların öz vəzifə borclarını müvəffəqiyyətlə yerinə yetirməsi üçün öz peşəkarlıq potensialını reallaşdırmaq məqsədilə şərait yaradılmasında dövlət hakimiyyət orqanlarının səmərəli funksiya göstərməsidir və s [2].
- dövlət qulluğunda kadr siyasəti dövlətin ümumi siyasətinin tərkib hissəsi olmaqla, dövlət aparatını sistemli, planlı və uzun müddətə kadrlarla təmin etmək və onların işinə nəzarət mexanizmini həyata keçirmək üçün dövlət tərəfindən qəbul edilmiş siyasətdir [3].

Dövlətin kadr siyasətinin məqsəd, vəzifə və prinsiplərini praktiki realizə edən idarəetmə orqanlarının, kadr xidmətlərinin və vəzifəli şəxslərin fəaliyyəti **kadr işi** vasitəsilə həyata keçirilir. Kadr işi kadr siyasətinə nisbətən dar sahəni əhatə edir. O, dövlət aparatında kadrların formalaşması üçün konkret fəaliyyəti xarakterizə edir. Əgər kadr siyasətinin subyekti qismində xalq, dövlət durursa, kadr işinin subyekti qismində ayrı-ayrı dövlət orqanları və ya vəzifəli şəxslər durur. Kadr işinə aşağıdakılar daxildir: a) kadrlarla bilavasitə və mütəmadi iş aparmaq; b) kadrların seçilib yerləşdirilməsinə baxmaq; c) kadrların vaxtaşırı fəaliyyətini qiymətləndirmək; ç) onların hazırlığı, təhsilinin artırılması və yenidən hazırlığı ilə məşğul olmaq; d) ehtiyat kadrlarla mütəmadi iş aparmaq və s.

Kadr işinin əsas istiqamətlərinə aşağıdakılar aid edilir:

---

[1] Государственная служба (комплексный подход). Под. ред. А.В.Оболонского. Учебник. М.: Дело, 1999.- С.206-207

[2] Энциклопедический словарь работников кадровой службы. М.: Инфра-М, 1999.- С.296)

[3] Rzayev Ə. Dövlət qulluğunun hüquqi əsasları. Bakı "Elm", 2011.- S. 425

1) Dövlət qulluqçusunun şəxsi işinin aparılması (AR Prezidentinin 5 fevral 2007-ci il fərmanı ilə dövlət qulluqçusunun şəxsi işinin aparılması qaydaları təsdiq edilmişdir)

2) Dövlət qulluqçusunun Reyestrinin aparılması (AR Prezidentinin 21 iyul 2006-cı il fərmanı ilə dövlət qulluqçuları Reyestrinin aparılması qaydaları təsdiq edilmişdir)

3) Ehtiyat kadrların formalaşdırılması

Dövlət qulluğunda kadrların seçilməsi, yerləşdirilməsi, professional inkişafı və effektiv istifadəsi təşkilatın, idarəetmə aparatının struktur bölməsi olan **kadr xidməti** vasitəsi ilə həyata keçirilir [1]. Kadr xidmətinin strukturu onun fəaliyyətinin aşağıdakı əsas istiqamətlərindən formalaşır:

1) personalın formalaşması (komplektləşmə, öyrənilmə, hazırlıq, azad olunma);

2) personalın bölgüsü və paylanması (ilkin yerləşdirmə, professional adaptasiya, yerdəyişmə);

3) personalın istifadəsinə şəraitin yaradılması (əməyin mühafizəsi, tibbi və sosial təminatın təşkili, stimullaşdırma metodlarının hazrlanması);

4) idarəetmə strukturunun təkmilləşməsi, idarəetmə sisteminin, təşkilati layihələşmənin, formalaşma prosesinin idarə edilməsinin təhlilini həyata keçirmək [2].

Dövlət qulluğunda personalın idarə olunması – kadr siyasətinin hazırlanması, dövlət orqanlarında kadrların formalaşdırılması, dövlət qulluqçularının potensialının saxlanılması və istifadə edilməsini özündə birləşdirən yüksək peşəkar dövlət orqanı aparatının yaranma prosesi başa düşülür. Dövlət qulluğunda personalın idarə olunması subyektlərinə icra hakimiyyəti orqanı, dövlət orqanlarının kadr xidməti, obyektlərinə isə

---

[1] Rzayev Ə. Dövlət qulluğunun hüquqi əsasları. Bakı, "Elm", 2011.- S. 428-431

[2] Назаренко Н.Ю. Государственная служба Российской Федерации. Изд-во второе. М.: Экзамен, 2007.- С.117

dövlət qulluğu və dövlət qulluqçuları daxildir. Qeyd etmək lazımdır ki, "kadr anlayışı" personal anlayışı ilə üst-üstə düşmür. Personal geniş mənada dövlət qulluğunda bütün işləyənləri, dar mənada isə hüquqi vəziyyəti, professional əmək əlamətləri ümumi olan ayrı-ayrı kateqoriyalı işçiləri xarakterizə edir [1].

Kadrlar isə personalın əsas və aparıcı hissəsini təşkil edir və hər bir təşkilatın əsasını və mahiyyətini göstərir. Kadr üçün əsasən üç əlamət xarakterikdir: 1) işçinin nisbətən davamlı professional ixtisaslı, xüsusi hazırlığa malik olması; 2) onun mövcudluğu və həyat təminatının əsas mənbəyi, daimi xarakterial qulluq - əmək fəaliyyətidir; 3) əmək kollektivində işçinin fəaliyyəti və vəzifələrinin icrasına, faktiki işlədiyi təşkilatın funksiyasını realizə və təmin edən sosial vəzifə mövqeyinə malikdir [2].

Son illərdə dövlət qulluğu personalın idarə edilməsinin realizə olunması vasitəsi kimi **kadr texnologiyaları** anlayışından istifadə olunur. Kadr texnologiyaları (Yunanca – techne – məharət, ustalıq+logika) personalın statusuna və ya xüsusiyyətlərinə münasibətdə müəyyən hərəkətlərin, üsulların, əməliyyatların cəmi kimi baxılır. Kadr texnologiyası təşkilatın məqsədlərinə çatmağı təmin edən personalın kəmiyyət və keyfiyyət xüsusiyyətlərinin idarəetmə vasitəsi, dövlət qulluğu personalının idarə edilməsinin kompleks vəzifələri kimi başa düşülür.

Xarici ədəbiyyatlarda özəl bölmədə kadr texnologiyası yerinə kadr menecmenti istifadə edilir. Kadr menecmenti aşağıdakı vəzifələri yerinə yetirir:

- personalın ümumi idarə edilməsi;
- personalın seçilməsi;

---

[1] Rzayev Ə. Dövlət qulluğunun hüquqi əsasları. Bakı "Elm", 2011.- S.432

[2] Государственная служба: энциклопедический словарь. Под ред. В.К.Егорова., И.Н.Барцица. М.: РАГС, 2008.- С.152-153

- personala rəhbərlik;
- personalın əməyinin ödənilməsi;
- personala qayğı;
- işçilərin azad edilməsi;
- dövlət idarəetməsinin islahatlarında iştirakda qulluqçu və məmurların personalın idarəetmə şurası ilə əməkdaşlığı [1].

Ədəbiyyatlarda kadrların idarə edilməsinin ən azı **üç növü, yaxud modeli** mövcuddur:

- ***Birinci model*** kifayət qədər sadədir – burada kadrların idarə edilməsi şöbəsinin səlahiyyətləri olduqca azdır və o, yalnız **kadrlar qeydiyyatının aparılması i**lə məşğuldur.
- ***İkinci model*** işə götürənlər tərəfindən dövlət aparatının səmərəli fəaliyyəti üçün işçi qüvvəsinin sağlam olması, xəstəlik və işə çıxmamanın azalması və məhsuldarlığın artırılması zəruriliyinin olduğunun dərk edilməsi ilə yarandı. İşçilərin fiziki sağlamlığına diqqət **rifah modelinə** gətirib çıxardı – burada kadrların idarə edilməsi şöbələrinin üzərinə bir sıra vəzifələr, o cümlədən iş şəraitinin razılaşdırılması da düşür.
- **Üçüncü model** isə **işçinin qabiliyyətinin** üstün tutulmasıdır. Yeni texnologiyalar iş yerinin mahiyyətini dəyişdikcə və təhsilə dair tələblər səviyyəsini artırdıqca, kadr seçimində diqqət mərkəzi fiziki keyfiyyətlərdən əqli qabiliyyətlərə tərəf keçdi. Rəhbər işçilər və kadrların idarə edilməsinə cavabdeh olanlar ən yaxşı işçilərin cəlb edilməsi və işdə

[1] А.Волфь. Кадровый менеджмент в местных органах управления. Государственная служба на рубеже веков. Зарубежный опыт реферативных журналов. М.: РАГС, 1998.- С.72

saxlanılmasına marağı artırdılar. Belə yanaşma kadrların idarə edilməsində üçüncü modelin yaranması ilə nəticələndi [1].

## 3.2. İşəgötürmədə ədalətlilik, şəffaflıq və rəqabət prinsipləri

İşəgötürmə prosesində «ədalətlilik» və ya bərabər imkanlar əsas və vacib bir prinsipdir. Bu sadə məsələ deyildir. Söhbət ondan getmir ki, dövlət qulluğuna qəbul edilən şəxslər müsabiqədə ən yüksək bal toplamış olsunlar. Bəzən şərtlər qrup üzvlüyünə diqqətin yetirilməsini tələb edə bilər. Lakin bu məsələ daha çox tarazlıq və şəffaflıq məsələsidir. Buna görə də hazırda Azərbaycanda əsas diqqət işə qəbulun **şəffaflıq və rəqabət** prinsipləri əsasında aparılmasına yönəlir. Diqqətin yalnız qulluğa – işə qəbul prosesi ətrafında cəmləşməsi isə fəaliyyətin qiymətləndirilməsi və ya ali inzibati kadrların hazırlanması kimi digər vacib məsələlərə baxımsızlıqla nəticələnə bilər. Bu təfərrüatların vaxtında nəzərə alınması gələcəkdə yarana biləcək problemlərin qarşısının əvvəlcədən alınmasına imkan verər.

Dövlət qulluğunda əsas prinsiplərdən biri **vətəndaşlarla ədalətli davranış prinsipidir**. Bu o demək deyildir ki, dövlət qulluqçusu vətəndaşların hər biri ilə eyni tərzdə rəftar etməlidir. Vəziyyətdən və məsələlərin mahiyyətindən asılı olaraq, yanaşma da müvafiq qaydada olmalıdır. Lakin vətəndaşların maddi durumu onların problemlərinə yanaşmada müəyyənedici, həlledici amil olmamalıdır. Belə olarsa, deməli, biz üstünlüyü dövlət xidmətlərinin göstərilməsinə deyil, şəxsi maraqlara vermiş olarıq. Bu ictimai xarakter daşıyan xidmətlər üçün məqbul sayıla bilər. Lakin hər bir vətəndaşın yüksəkkeyfiyyətli ibtidai təhsil almaq, ətraf

---

[1] Ronald Yanq, Gülzar Quliyeva. Azərbaycanda kadrların idarə edilməsinə müasir yanaşma. İnsan inkişafı. TACİS layihəsi çərçivəsində. Bakı, 2005.- S.11-12

mühitdən istifadə etmək və s. xidmətlərdən bəhrələnmək hüququ vardır.

«Dövlət qulluğu haqqında» Qanuna nəzər saldıqda məlum olur ki, dövlət orqanlarında və başqa sahələrdə işləyənlərin öhdəlik və hüquqları fərqlidir və bu məsələlərin tənzimlənməsi üçün Əmək Məcəlləsi kifayət deyildir. Qanunla müəyyən edilmiş **öhdəlik və hüquqlar** aşağıdakı amilləri əks etdirir:

- Davranışda qərəzsizlik
- İctimai maraqlara üstünlük verilməsi
- Siyasi səbəblərə görə işdən azad edilməsindən müdafiə, çünki dövlət qulluqçuları çəkinmədən, obyektiv siyasi məsləhət vermək iqtidarında olmalıdırlar
- Siyasi və kommersiya fəaliyyətində iştirak etməmək
- Adətən, dövlət sektorunda mövcud olan aşağı məvacibin kompensasiya edilməsi üçün qeyri-pul mükafatlarının verilməsi.

İşəgötürmədə «ədalətlilik» və ya bərabər imkanlar sadə məsələ deyildir. Deborah Stounun siyasi qərar qəbuletmə bacarığı haqqında siyasi paradoksunda bu fundamental termin haqqında ən azı 8 məna əks olunur. Söhbət ondan getmir ki, dövlət qulluğuna qəbul edilən şəxslər müsabiqədə ən yüksək bal toplamış olsunlar. Burada göstərilir ki, bəzən şərtlər diqqətin qrup üzvlüyünə yetirilməsini tələb edə bilər. Lakin bu, adətən tarazlıq və şəffaflıq məsələsidir. Buna görə də hal-hazırda Azərbaycanda əsas diqqət qulluğa qəbulun şəffaflıq və rəqabət prinsipləri əsasında aparılmasına yetirilir. Lakin belə bir təhlükə də vardır ki, bu diqqət fəaliyyətin qiymətləndirilməsi və ya ali dövlət qulluğu anlayışının yaradılması kimi digər vacib məsələlərin baxımsız qalması ilə nəticələnə bilər [1].

---

[1] Ronald Yanq, Gülzar Quliyeva. Azərbaycanda kadrların idarə edilməsinə müasir yanaşma. İnsan inkişafı. TACİS layihəsi çərçivəsində. Bakı, 2005.- S.15-17

## 3.3. Dövlət qulluğunda karyera və vəzifəyə əsaslanan model

Bu mövzuya dair müxtəlif fikir və rəylər mövcuddur ki, bu da **karyera modeli ilə vəzifəyə əsaslanan model** arasında olan fərqdə əks olunur: [1]

**Karyera modeli** etiraf edir ki, dövlət və özəl sektorlar arasında dəstək və mütəxəssis heyəti mübadiləsi aparıla bilər, lakin dövlət qulluğunda yalnız təcrübə əsasında öyrənilə bilən xüsusi tapşırıqların yerinə yetirilməsi ilə məşğul olan əsas işçi heyəti var. Belə ki, əsas işçi heyəti gənc kadrlar arasında seçilir və ümumi müsabiqəyə əsaslanan imtahan və müsahibə sistemi vasitəsilə həyata keçirilir. Əsas işçi heyətinin karyeralarını dövlət orqanlarında inkişaf etdirmələri üçün şərait yaradılır. Həmçinin onlar üçün əhəmiyyətli sayda təlim kursları təşkil edilir. Bu modeldə orta və yüksək səviyyəli vəzifələrin tutulması üzrə kənardan işə qəbul daha məhduddur və səciyyəvi əlamətlərə malikdir.

**Vəzifəyə əsaslanan modeldə ("işin sistemləşdirilməsi" sistemi)** isə dövlət və özəl sektorlarda bütün səviyyələr üzrə iş olduqca oxşardır və bütün vakansiyalar haqqında kütləvi informasiya vasitələrində elan verilməlidir.

Karyera modeli çərçivəsində işə qəbul güclü mərkəzləşdirilmiş şəkildə həyata keçirilir. Bu sistem "ümumi icraçı" konsepsiyasına əsaslanır. Onların əmək haqları karyera sistemindəki mövcud dərəcələrə uyğundur, tutduqları vəzifə ilə birbaşa bağlı deyil. **Karyera sistemi** işçilərin ixtisası — əsaslı təsnifatıdır. Bu sistemdə vəzifə sistemindən fərqli olaraq, **işçi qiymətləndirilir.**

Vəzifəyə əsaslanan modeldə isə bu proses kifayət qədər

---

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.-S.12-14

qeyri-mərkəzləşdirilmişdir. Bu zaman işin məzmunu sistematik təhlil əsasında vəzifələrin iyerarxiyasına uyğun qiymətləndirilir. Əsas məsələ müqayisə oluna bilən işlərə görə bərabər əməkhaqqının ödənilməsidir. Hər bir səviyyə icranın yekunlarına və iş stajına görə müntəzəm ödəniş artımlarına əsaslanan hissələrə bölünür. Vəzifə sistemi **"mütəxəssis konsepsiyasına"** əsaslanır, yəni hər bir iş üçün xüsusi ixtisasa malik şəxs tələb olunur.

Hər iki modelin əsas xüsusiyyətləri aşağıda verilir:

| **Karyera sistemi** | **Vəzifəyə əsaslanan sistem** |
|---|---|
| Əmək müqaviləsi «Dövlət qulluğu haqqında» Qanunla tənzimlənir | Əmək müqaviləsi Əmək məcəlləsinə əsaslanır |
| Yalnız yüksək dərəcəli vəzifələrə təyin olunurlar | Bütün vəzifələr üzrə müsabiqə keçirilir |
| Ümumi bilik səviyyəsi üzrə tələblər (məs. hüquqşünas, mühəndis) | Konkret vəzifə üzrə konkret sahədə biliklər və bacarıqlar |
| Özəl sektorda iş stajı nadir hallarda nəzərə alınır | Özəl sektorda iş stajı yüksək qiymətləndirilir |
| Məqsədlərdən daha çox qaydalara riayət olunur | İş konkret məqsədlərə yönəlir |
| Xüsusi əhəmiyyət dəqiqlik, ədalət və qanunun aliliyinə verilir | Xüsusi əhəmiyyət müştəri xidmətlərinə və yeniliklərə verilir |
| Fəaliyyət prinsiplərinə riayətetmə | Fərdi fəaliyyətin müntəzəm və gərgin surətdə yoxlanılması |
| Xüsusi pensiya sistemləri | Xüsusi sxemlər yoxdur |
| Fransa, Almaniya, İspaniya, Rumıniya, Bolqarıs-tan | Hollandiya, Skandinaviya, Böyük Britaniya |

Vəziyyətdən asılı olaraq, ölkələr bir modeldən o biri modelə qoşula bilərlər və bu baş verir. Böyük Britaniya kimi bir ölkə karyera modelindən vəzifəyə əsaslanan modelə keçmişdir.

Hazırda Azərbaycanda vəzifəyə əsaslanan model tət-

biq olunur – bu o səbədən deyil ki, peşəkar karyera idarəetmə sistemi hələ ki, inkişaf etdirilməmişdir, ona görə ki, ənənəvi olaraq, yeni təyin olunmuş dövlət orqanlarının rəhbərləri tərəfindən burada çalışan işçilərin əksəriyyəti digərləri ilə əvəz olunur. «Dövlət qulluğu haqqında» yeni Qanun, əlbəttə ki, bunu xeyli çətinləşdirir, çünki bu cür hərəkətlər sistemdə qorxu yaratmaqla yanaşı, hər bir təşkilatın vacib hissəsini təşkil edən «institusional yaddaş»ı təhlükə altına qoyur.

Ölkədə hər iki sistemin elementləri ola bilər – məsələn, əsas karyera sistemi ilə yanaşı, texniki mütəxəssislərin işə qəbulu bazar prinsipləri əsasında həyata keçirilə bilər. Bu misal bizə göstərməlidir ki, dövlət qulluğu sistemlərinin əksəriyyətində müxtəlif növ əmək fəaliyyəti tapmaq olar və bunların bəziləri digərlərindən daha «əhəmiyyətlidir». Ümumiyyətlə, burada dörd kateqoriyanı ayırmaq olar:

1. İdarəetmə məsələlərinə dair məsləhətlər və dəyişikliklərin həyata keçirilməsi
2. Xidmətlərin idarə olunması
3. Müəyyən ixtisaslar üzrə mütəxəssislər
4. Texniki dəstək

Bunun nəticəsi kimi birinci kateqoriyalı məmurların işinin həssaslığı və məxfiliyini nəzərə alaraq, xüsusi iş şərtlərinin yalnız onlara aid edilməsi təklif oluna bilər. Bu mövqeyə görə başqa kadrların bacarıqlarına dair tələblər iqtisadiyyatın bütün sektorları üçün eynidir.

## 3.4. Kadrların idarə edilməsi mexanizminin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş sistemləri

Kadrların idarə edilməsi sisteminin yaradılması prosesində onun strukturunun formalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Təcrübədə kadrların idarə edilməsi mexanizminin **iki sistemi** bir-birindən fərqləndirilir:

**1. Mərkəzləşdirilmiş sistem**

**2. Qeyri-mərkəzləşdirilmiş sistem**

Kadrların idarə edilməsinin **mərkəzləşdirilmiş sistemində**, xüsusən də büdcəyə birbaşa təsir edən əmək ehtiyatlarının idarə olunması funksiyalarına mərkəzi səviyyədə nəzarət edilir. Hakimiyyət, adətən siyasəti formalaşdıran mərkəzi qurumla, qaydaların və təlimatların icrasına cavabdeh olan agentlik və əmək ödənişlərinin idarə edilməsi və büdcə nəzarətinə məsul olan maliyyə nəzarəti orqanı arasında bölünür. Vəzifələrin təkrarlanması istisna edilmədiyindən, sistem müəyyən nəzarət və tarazlama işlərini həyata keçirir və dövlət qulluğunun idarə olunması səlahiyyətinin geniş surətdə cəmlənməsinin qarşısını alır.

Bu sistemin **üstünlüyü** kadrların idarə edilməsi üzrə əsas qurumların birbaşa siyasi səlahiyyətlər üçün də məsuliyyət daşımasıdır.

Kadrların idarə edilməsinin mərkəzləşdirilmiş sisteminin bəzi **çatışmayan** cəhətləri də mövcuddur. O, tabe təşkilatların qərar qəbul etmə qabiliyyətlərini məhdudlaşdırır ki, bu da öz növbəsində mexanizmi passiv və qeyri-çevik edir.

Kadrların idarə edilməsinin **qeyri-mərkəzləşdirilmiş sistemi** əlaqədar rəhbərlərin kadrlarla bağlı bir çox məsələlərdə qərar qəbuletmə səlahiyyətlərini artıraraq, yalnız təlimatların müəyyən olunması və onların icrasına nəzarət funksiyalarını mərkəzə həvalə edir. Kadrların idarə edilməsi ilə bağlı məsələlərin əksər hissəsi (işə qəbul, daha yüksək vəzifəyə keçirilmə, dərəcələrin verilməsi, işçilərin planlaşdırılması və nəzarət, habelə treyninqin idarə olunması) nazirliklərin, yaxud agentliklərin kadrların idarə edilməsi idarələri tərəfindən həyata keçirilir. Bu halda mərkəzi qurumlar siyasi göstərişlər verir, təlimatlar hazırlayır. Bu siyasətin və qaydaların, keyfiyyətə nəzarətin icrası üçün məsləhət verir, yenilikçi təcrübələri yayır, departamentlərdə kadrların idarə edilməsi idarələrinin icrasına monitorinqi həyata keçirir.

Qeyri-mərkəzləşdirilmiş sistemin **əsas üstünlüyü** onun

nazirliklərdə və digər dövlət orqanlarında qərar qəbuletmə imkanının inkişaf etdirilməsinə imkan yaratmasıdır ki, bu da öz növbəsində dövlət orqanlarının yeni şəraitə uyğunlaşması prosesini sürətləndirir. Əməkhaqqı məsələlərini dövlət orqanlarının rəhbərləri müəyyənləşdirir.

Bu sistemin əsas çatışmayan cəhətləri ondan ibarətdir ki, o, dövlət qulluğunun güclü ənənələrinin olmasını və güclü kadrların idarəedilməsi sistemi ilə işə başlamağını tələb edir [1].

---

## Yoxlama üçün suallar:

1. *Kadrların idarə edilməsinin növləri;*
2. *İşəgötürmədə ədalətlilik, şəffaflıq və rəqabət prinsipləri;*
3. *Drobah Storunun «Siyasi paradoksu»;*
4. *Kadrların idarə olunmasında karyera modeli;*
5. *Kadrların idarə olunmasında vəzifəyə əsaslanan model;*
6. *Kadrların idarə edilməsi sistemində mərkəzləşdirilmiş sistem.*

---

[1] Ronald Yanq, Gülzar Quliyeva. Azərbaycanda kadrların idarə edilməsinə müasir yanaşma. İnsan inkişafı. TACİS layihəsi çərçivəsində. Bakı, 2005.- S.62-64

# IV FƏSİL

# XXI ƏSRİN DÖVLƏT QULLUĞU STRATEGİYASI

## 4.1. Polşa dövlət qulluğu ofisində qəbul edilmiş prinsiplər

Son onillikdə bir çox ölkələr bazar iqtisadiyyatının inkişaf etdirilməsi, eləcə də bu sistemin ictimaiyyətin maraqlarına xidmət etməsini təmin etmək üçün müvafiq səriştələrə və idarəetmə strukturlarına malik olan dövlət qulluqçularının formalaşdırılması məqsədilə yeni hökumət sisteminin yaradılması ilə üzləşmişdir.

2000-ci ildə Polşa Respublikasında təsis edilmiş Dövlət Qulluğu Ofisinin qarşısında duran əsas məqsəd dövlət xidmətlərinin keyfiyyətinin və səmərəliliyinin artırılması, dövlət qulluğu işçilərinin bilik səviyyəsini və səriştələrini təkmilləşdirmək yolu ilə Polşa və Avropada dövlət qulluğunun imicinin yüksəldilməsi, eləcə də dövlət qulluğuna lazımi səriştələrə malik şəxslərin cəlb edilməsindən ibarət idi. Polşa dövlət qulluğu sisteminin inkişafını tənzimləyən prinsiplər aşağıdakılardır: [1]

1. Liderlik, təşkilati strukturlar, rollar və öhdəliklər
2. Ədalətli seçim və işə qəbul
3. Mükafatlandırma və həvəsləndirmə
4. Kollektiv üzvləri arasında qarşılıqlı münasibətlər
5. Təlim və inkişaf
6. Fəaliyyətin idarə olunması
7. Ehtiyatların planlaşdırılması

---

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.19

8. Kadrların idarə olunması funksiyalarının inkişaf etdirilməsi

Birinci və sonuncu prinsip bir daha xatırladır ki, təkmilləşmə təkcə qanunlar və qaydalarla həyata keçirilə bilməz. Dəyişiklik yeni iş üsulu ilə rəhbərliyin və yeni sistemləri başa düşən və tətbiq edə bilən işçi heyətinin olmasını tələb edir.

Son vaxtlar bir çox ölkələrin dövlət qulluğu sistemləri öz kadr sistemlərini yenidən nəzərdən keçirmişlər. Məsələn, İrlandiyanı, Kanadanı və ABŞ-ı göstərmək olar.

## 4.2. Avropa İttifaqı ölkələrinin dövlət qulluğu sistemində kadrların idarə olunması

«Bençmarkinq», yəni «müqayisəli təhlil» qlobal dövlət idarəetməsində dəbdə olan ifadəyə çevrilib. O, sadəcə olaraq Siz gördüyünüz işi başqalrının gördüyü işlə, yaxud öz göstəricilərinizi başqalrı ilə müqayisə etmək deməkdir. «Bençmarkinq», yəni «müqayisəli təhlil» bütün dövlət təşkilatlarının özünü qiymətləndirməsinə xidmət edir [1].

Faktiki olaraq kadrların idarə olunmasına dair vahid model mövcud deyil, hər bir ölkənin öz ənənələri və incəlikləri vardır. Qlobal icmaların hökumət strukturlarında «müsbət təcrübə» kimi təbliğ etdiklərinin çoxu əslində onların öz ölkələrində bəlkə də, artıq köhnəlmişdir və həyat təcrübəsindən daha çox ritorikdir.

Əlbəttə ki, dövlət təyinatları etnik mənsubiyyət və dini şəbəkələrə yox, xidməti nailiyyətlərə əsaslanmalıdır. Lakin Belçika və Niderlandda, iki Avropa ölkəsi nümunəsində son vaxtlaradək dini və partiya amillərinin dövlət qulluğu təyinatları və strukturlarına təsiri çox güclü idi. Bu halda

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.22-23

sistem müəyyən qaydalara əsaslanır və onun şəffaf olmasından cüzi dəyişikliklərə ehtiyac duyur. Belə halda sosial reallıqları nəzərə alan konsensusun təminatı vacibdir.

Lakin Şimali İrlandiya kimi ölkələrdə ictimaiyyətdə obyektiv idarəçiliyin forması və ritorikası bu yaxınlaradək dini qurumlar tərəfindən kəskin surətdə tənqid edilirdi. Şimali İrlandiya misalında dövlətin himayəsi yəni, mənzillə təmin olunma və işə təyin edilmələr son on illiyə qədər Protestantların xeyrinə həll olunurdu.

İtaliya sistemində onilliklər boyu dövlət idarəçiliyi müəyyən dərəcədə müxtəlif güclü qrupların nəzarəti altında olmuşdur. Nəticə etibarilə mafiyanın özü bir sıra mühüm sahələrə açıq-aşkar nəzarət edirdi. Müharibədən sonrakı müddətdə Amerikanın nüfuzu güclü rol oynadı, lakin kommunizm rejiminin dağılması bu nüfuzu aradan qaldırdı və italyanlara sistemdə islahatlar aparılmasına ciddi cəhd göstərməyə imkan yaratdı. Britaniyalılar və fransızlar öz dövlət idarəçiliyinin aydın görünən bitərəfliyi və aşkarlığına xələl gətirən qeyri-rəsmi sistemləri təsvir etmək üçün xüsusi terminlər ixtira ediblər ki, bunlar ilk köklü islahatdan bir əsr sonra 1960 və 1970-ci illərdə Britaniyada ali dövlət qulluğunun əsasını təşkil edirdi. Fransız sisteminin qapalı olması nəticəsində yaranan neqativ hallar hazırda həmin ölkədə qaynar müzakirələrin mövzusuna çevrilmişdir.

Bir çox ölkələrdə yerli hökumətin təyinatları nəticəsində dövlət qulluğu sistemi bu yaxınlara qədər əhəmiyyətli dərəcədə siyasiləşmişdir.

Keçid dövrünü yaşayan ölkələrdə beynəlxalq qurumların icmallarından aydın görünür ki, bu tarix və bu gerçəkliklər inandırıcı və qol bağlayan təsəvvürlər zərurətdən irəli gələn əhəmiyyətli dəyişikliklərlə nəticələnə bilər.

## 4.3. BMT-də "Dövlət sektorunun işi üçün kadr potensialının açılması" (2005-ci il) bölməsinin fəaliyyət proqramı

Hazırda BMT-də özünün 2005-ci il «Dünya dövlət sektoruna dair hesabat»ı üçün dövlət sektorunda kadrların idarə edilməsinə dair «Dövlət sektorunun işi üçün kadr potensialının açılması» başlığı altında irimiqyaslı araşdırma aparılır. Araşdırma
çərçivəsində aşağıdakı altı sahədə təhlil aparılır: [1]

**1. Dəyişən dünyada dövlətin rolu**

Son iyirmi ildə dövlət bilavasitə kommersiya və digər fəaliyyətlərdən tənzimləmə və bəzi hallarda digər tədbirlərə keçdiyinə görə, dövlət qulluqçuları normativ bazanın yaradılması, müqavilələrin hazırlanması və idarə edilməsi, mübahisələrin həlli, əlaqələndirmə kimi sahələrdə yeni bacarıqlar əldə etmək məcburiyyəti ilə üzləşmişdilər.

**2. Kadrların idarə edilməsində mövcud olan meyillər və problemlər**

Bir çox inkişaf etmiş və inkifaş etməkdə olan ölkələr dövlət sektorunda böyük «beyin axını» problemi ilə üzləşir. Özəl sektorda daha cəlbedici məvacib və daha maraqlı iş dövlət qulluğu konsepsiyasında iftixar hissinin itirilməsi, bəzi ölkələrdə idarəetmə sistemlərində siyasiləşmə və tənəzzül, dövlət sektorunun nüfuzunun aşağı düşməsinə səbəb olmuşdur.

**3. Kadrların idarə edilməsi sistemində islahatlar**

Son illərdə bir çox inkişaf etmiş və inkifaş etməkdə olan müxtəlif mədəni, siyasi ənənələrə malik ölkələrdə dövlət sektorunda qulluğu tənzimləyən hüquqi bazanın möhkəmləndirilməsi ilə bağlı mühüm islahatlar keçirmişlər. Məqsəd, qulluq üzrə hüquqi baza vasitəsilə dövlət qulluğunda daha

[1] (htpp://www.unpan.org/dpepa_worldpareport_hr.asp)

yüksək səmərəlilik, tələblərə cavabvermə imkanları və cavabdehliyə nail olmaqdır.

Bu müddəa, dövlət qulluğunda karyera anlayışından dövlət qulluğunda və başqa sektorlarda iş arasında əsaslı fərqin olmamasına doğru istiqamətlənməni və məmurların yüksək vəzifələrə məhdud müddətli (və işin icrasından asılı) müqavilə əsasında təyin olunmasını nəzərdə tutur.

**4. Dövlət sektorunda dəyişikliklərin istiqamətləndirilməsi**

Problemlərin həllində və işçilərə qərar qəbuletmə səlahiyyətlərinin verilməsində və onların cavabdehliyində rəhbərlərin həlledici rolunun artırılması üçün dövlət qullugu mədəniyyəti dəyişilməlidir.

**5. Ən istedadlı kadrların işə qəbulu və işdə saxlanılması**

Ən istedadlı kadrların müəyyən hissəsini saxlamaq və inkişafı üçün dövlət qulluğunda kadr planlaşdırılması, qəbulu, təhsili, inkişafı və həvəsləndirilməsinə yönəlmiş siyasət qəbul edilməlidir. Başqa sektorlar tərəfindən rəqabət və qeyri-pullu mükafatlandırma əhəmiyyətini artırır (məsələn, karyera imkanları və işə maraq kimi amillər).

**6. İnsan kapitalının keyfiyyətinin artırılması**

Hər bir dövlət orqanında məmurların peşəkar inkişafının artırılmasına, fasiləsiz tədrisə, innovasiyaları və yeni yanaşmaları qəbul etmək qabiliyyətinə və işçilər arasında bilik əldə etməkdə maraq hissini artırmağa yönəlmiş təlim strategiyası olmalıdır.

## 4.4. Azərbaycanda Dövlət Qulluğunun İdarəetmə Şurası

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Respublikasının dövlət idarəedilməsi sistemində islahatların aparılması üzrə yaradılmış dövlət komissiyası 1999-cu ilin mart ayında tərtib etdiyi hesabatda islahat prosesini müşahidə etmək, bu sahədə görülən işləri istiqamətləndirmək və onlara nəzarət etmək məqsədilə icra orqa-

nının yaradılması zəruriliyini bildirmişdir. Belə bir orqanın olması lazımi qanun layihələrinin və təlimatların hazırlanması və onların icrasını asanlaşdıracaqdır. Keçid dövrünü yaşayan bir çox ölkələrdə bu cür məsələlərin həlli dövlət qulluğu agentliklərinə həvalə edilmişdir.

Azərbaycanda hazırda Dövlət Qulluğunun **İdarəetmə Şurası** mövcuddur ki, onun ilk iclası 2004-cü ilin aprel ayında keçirilmişdir.

Bildiyimiz kimi Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası istiqamətində atılan mühüm addımlardan biri dövlət qulluğu sahəsində aparılan islahatların nəticəsi olaraq, 2000-ci il 21 iyul tarixində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi olmuşdur. Bu qanunun qəbul edilməsi ilə Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulmuşdur. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu 1 sentyabr 2004-cü ildə qüvvəyə minmişdir.

Azərbaycan Respublikasında bu Qanunun tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ-metodiki təminatını, Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısını müəyyən etməyi Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası həyata keçirir. Şura 18 nəfər üzvdən ibarətdir. Şuranın 6 üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən, 6 üzvü Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən, 6 üzvü isə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təyin edilir. Şuranın səlahiyyətləri qanunla təsdiq edilən Əsasnamə ilə müəyyən edilir. [1] «Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası haqqında» Əsasnaməsi 29 mart 2002-ci il tarixdə təsdiq edilmişdir. Şura dövlət orqanı deyil və onun üzvləri öz səlahiyyətlərini ictimai əsaslarla

---

[1] Dövlət qulluğu haqqında sənədlər toplusu. Azərbaycan dilində. Bakı, Qanun-2009. - S.6

həyata keçirirlər.

Şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təmin edilir.

Onun **əsas vəzifəsi** isə müasir dövlət idarəetməsinin tələblərinə cavab verən, dövlət qulluğunun təşkilinin və fəaliyyət göstərməsinin təmin edilməsindən ibarətdir. **Şuranın iclasları** ildə altı dəfədən az olmayaraq keçiriləcək və qarşısına qoyulan vəzifələri öz iş reqlamentinə uyğun olaraq yerinə yetirəcəkdir. Şura vahid dövlət kadr siyasətinin formalaşdırılmasında, dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətinin və səmərəliliyinin təmin edilməsində, kadr təminatının proqnozlaşdırılmasında, dövlət hakimiyyəti orqanlarının dövlət qulluğu və kadr xidmətlərinin metodik işinin əlaqələndirilməsində, dövlət qulluqçularının şikayətlərinə baxılmasında, onların peşə hazırlığının və ixtisasının artırılması üçün təkliflər hazırlanmasında, dövlət qulluqçuları üçün qanunla müəyyən olunmuş məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarətin təşkilində iştirak edəcəkdir.

Şura öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün müvafiq dövlət hakimiyyəti orqanlarından zəruri materialları almaq, dövlət qulluğu ilə əlaqədar normativ hüquqi aktların və metodik göstərişlərin layihələrini hazırlamaq, dövlət qulluğunun səmərəli təşkilinin vəziyyətini təhlil etmək, dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqini öyrənib ümumiləşdirmək və bununla əlaqədar tədbirlər hazırlamaq hüququna malikdir. Əsasnamədə qeyd olunmuşdur ki, şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün respublika Prezidenti, Milli Məclisin və Konstitusiya Məhkəməsinin sədrləri tərəfindən təmin ediləcəkdir.

Təbiidir ki, şura üzvlərinin əksəriyyəti bilavasitə öz işlərində çalışdığına görə şurada kargüzarlıq işlərini aparmaq və

digər məsələləri həll etmək, cari və texniki işləri yerinə yetirmək üçün katiblik yaradılacaq, bu qurum ona həvalə olunmuş işləri yerinə yetirəcəkdir.

Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası aşağıdakı **əsas funksiyaları** həyata keçirir:

1. vahid dövlət kadr siyasətinin formalaşdırılmasında iştirak;
2. dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətinin və səmərəliliyinin təhlil edilməsi;
3. dövlət qulluğunun kadr təminatının proqnozlaşdırılması və planlaşdırılması işinin həyata keçirilməsi;
4. dövlət qulluğunun təşkili və həyata keçirilməsi ilə bağlı normativ hüquqi aktların və metodiki göstərişlərin layihələrinin hazırlanması və həmin sənədlərin hazırlanmasında dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin əlaqələndirilməsi;
5. dövlət hakimiyyəti orqanlarının dövlət qulluğu və kadr xidmətlərinin metodiki işinin əlaqələndirilməsi;
6. «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş hallarda dövlət qulluqçularının şikayətlərinə baxılması;
7. dövlət qulluqçularının peşə hazırlığı, təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçmə sahəsində işlərin təhlili və bununla bağlı təkliflərin hazırlanması;
8. dövlət qulluqçularına dair məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarət edilməsi;
9. dövlət qulluğunun təşkili və səmərəliliyinin artırılması məsələləri ilə əlaqədar beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak. [1]

"Dövlət qulluğu haqqında" Qanunda **Dövlət Qulluğunun İdarəetmə Şurasının öz funksiyalarını həyata keçirmək məqsədilə aşağıdakıların təmin edilməsi qeyd edilmişdir:**

---

[1] Dövlət qulluğu haqqında sənədlər toplusu. Azərbaycan dilində. Bakı, Qanun-2009. - S.63

1.1. müvafiq dövlət hakimiyyəti orqanlarından zəruri materialları sorğu edir və alır;

1.2. dövlət qulluğunun təşkili və həyata keçirilməsi ilə bağlı normativ hüquqi aktların və metodik göstərişlərin layihələrini hazırlayır, müvafiq dövlət hakimiyyəti orqanlarının nümayəndələrini, alimləri və mütəxəssisləri bu işə cəlb edir;

1.3. dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətini və səmərəliliyini təhlil edir;

1.4. əmək qanunvericiliyinin və dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi, o cümlədən əmək intizamının pozulması və əmək mübahisələri ilə bağlı vəziyyəti öyrənir və ümumiləşdirir;

1.5. dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin artırılması yollarını araşdırır və bununla bağlı tədbirlər (təkliflər) hazırlayır;

1.6. «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq, dövlət qulluqçularının şikayətlərinə baxır.

2. Şuranın fəaliyyətinə rəhbərliyi və işinin təşkilini Şuranın sədri həyata keçirir. Şuranın sədri onun tərkibindən Şura üzvlərinin sadə səs çoxluğu ilə seçilir.

3. Şuranın iclasları mütəmadi olaraq, lakin iki ayda bir dəfədən az olmayaraq keçirilir. Zərurət olduqda Şuranın fövqəladə iclasları çağırıla bilər. Şuranın iclasları onun üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın müzakirə etdiyi məsələlərə dair qərarları Şuranın iclasında iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı xüsusi rəyi olan Şuranın üzvü öz rəyini qəbul edilmiş qərara əlavə edə bilər.

4. Şura özünün Reqlamentini təsdiq edir.

5. Şurada kargüzarlığın təşkili məqsədi ilə katiblik yaradılır. Şuranın katibliyinin işini Şuranın iclasında Şura üzvlərinin sadə səs çoxluğu ilə seçilən katib təşkil edir. Katibliyin

fəaliyyəti dövlət büdcəsi hesabına maliyyələşdirilir.

6. «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsinə uyğun olaraq, Şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təmin edilir.

7. Şuranın üzvləri özlərinin fəaliyyətində müstəqildirlər. [1]

## Yoxlama üçün suallar:

1. *Polşa dövlət qulluğu ofisində qəbul edilmiş prinsiplər;*
2. *Avropa İttifaqı ölkələrinin dövlət qulluğu sistemində kadrların idarə olunması;*
3. *BMT-nin kadrların idarə edilməsinə dair 2005-ci il üçün hesabatı;*
4. *Azərbaycanda Dövlət Qulluğunun İdarəetmə Şurası: əsas funksiyaları, vəzifəsi və fəaliyyətinin təmin edilməsi.*

---

[1] Dövlət qulluğu haqqında sənədlər toplusu. Azərbaycan dilində. Bakı, Qanun-2009. - S.63-64

# V FƏSİL

# QABAQCIL ÖLKƏLƏRDƏ DÖVLƏT QULLUĞU VƏ ONLARIN QISA XÜLASƏSİ

## 5.1.Amerika Birləşmiş Ştatlarında dövlət qulluğunun yaranması və inkişafı

Amerika sivilizasiyası tarixi-mədəni, cografi və siyasi amillərin qovuşması nəticəsində formalaşdıgından, bu ölkədəki dövlət qulluğunun tarixi və təkamülü Avropa ölkələrindəkindən əhəmiyyətli dərəcədə fərqlənir. Amerikada dövlət qulluğunun bünövrəsinin yaradılması prosesinə start verilməsi, Britaniya hökumətinin özünün qeyri-məhdud mütləqiyyətini bərpa etmək istəyinin, kaloniyaların müstəqillik uğrunda mübarizəyə qovuşmasına gətirib çıxarması nəticəsində, əhalidə siyasi hakimiyyətin təbiətinin fundamental şəkildə yenidən dərk edilməsi ilə qoyulmuşdur.

Amerika bürokratiyasının spesifik xüsusiyyətinin qabarıq şəkildə nəzərə çarpan fərqləndirici cəhəti ondan ibarətdir ki, Amerikada bürokratiya, Avropa ölkələrindən fərqli olaraq, demokratiyadan sonra və onun bazasında meydana gəlmişdir. İlk əvvəllər ölkə rəhbərləri yerlərdə bütün hakimiyyət səlahiyyətlərini vətəndaş birliklərinə və seçilmiş şəxslərə həvalə edirdilər. Onlar sistemli dövlət qulluğundan imtina etməklə idarəçilik sistemini yaratmadan bu missiyanı həyata keçirmək niyyətində idilər. Lakin qısa müddətdə məlum oldu ki, seçilmiş şəxslər də daimi dövlət qulluqçuları kimi vəzifədən sui-istifadə hallarına yol verirlər, peşəkar inzibatçılardan imtina etmək isə işləri xaos vəziyyətinə gətirib çixarır. Nəticədə, konstitusiyada təyin edilən vəzifəli şəxslər haqqında "düzəlişlər" edildi.

ABŞ Konstitusiyasında dövlət qulluğunun yerlərdə qurulması, ştatlarda və yerli orqanların idarəetmə aparatında məmurların qulluq fəaliyyəti məsələlərinə toxunulmadığından,

bu funksiyalar ştatların və yerli özünü idarəetmə orqanlarının ixtiyarına verilmişdir.

Federal idarələrin şəxsi heyətinin qulluq fəaliyyətinin təşkilinə ABŞ-ın birinci prezidenti Vaşinqtonun «hüquq yaradıcılıq» fəaliyyəti xüsusi təsir etmiş, ştatlarda və yerli hakimiyyət orqanlarında dövlət qulluğunun yaranmasında böyük rol oynamışdır. O, administrasiyanı özülündən qurmaq imkanından istifadə edərək, Amerikada Respublika quruluşunun yarandığı ilk dövrlərdə uzun müddət ərzində köklü dəyişikliyə məruz qalmış, hazırda da təsirini itirməmişdir.

Dövlət aparatının fəaliyyətinin metodları, dövlət vəzifələrinə məmurların təyin olunması, həmçinin bürokratiyanın cəmiyyətdə yerinə və mahiyyətinə görə İngiltərə örnək götürülmüşdü. Kaloniya dövründə mövcud olmuş dövlət idarəetmə sisteminin təşkilat forması və fəaliyyətinin sinfi yönümlülüyü dəyişilməz qalmışdır.

ABŞ dövlətçiliyinin əsasını qoyanlar hesab edirdilər ki, cəmiyyətin taleyi idarə edənlərin şəxsi keyfiyyətindən asılı olmamalıdır, çünki "insanlar heç də mələk deyillər". Nəzərə alaq ki, onlar idarəetmədə "təbii aristokratiyanın" cəlb olunmasına üstünlük verirlər. Cəmiyyətdə mövcud olan ziddiyyətlərin aradan qaldırılması yollarını onlar bir tərəfdən hakimiyyətdən (və vəzifədən) sui-istifadə hallarını məhdudlaşdıran "əksliklər" sisteminin işə salınmasında, digər tərəfdən isə mənəvi dəyərlərə xüsusi əhəmiyyət verməklə ictimai mənafeyə qulluq etməyi hər şeydən üstün tutan şəxslərin rəhbər vəzifələrə təyin edilməsində görürdülər. Məmurlar tərəfindən **etik normalara** riayət olunması hələ o dövrdən ABŞ dövlətinin daim diqqət mərkəzində olmuşdur.

ABŞ-da dövlət qulluğunun təşəkkülü və inkişafı uzun bir yol keçmişdir. ABŞ tarixinin başlanğıc dövrlərində "patronaj" sistemi, sonralar "qalibə qənimət", peşəkar mülki qulluğun yaranmasının əsasını qoyan Pendelton qanunu (1883) ilə **"nailiyyətlər sistemi"** formalaşmış, hazırda isə müasir "Meri

sistemi" qüvvədədir.

Ümumilikdə, ABŞ-da dövlət qulluğu institutunun yaranması **üç mərhələyə** bölünür [1].

**I mərhələ** ABŞ-ın yaranmasından — XVIII əsrin ikinci yarısından XIX əsrin ortalarına qədərki dövrü əhatə edir. Bu mərhələdə dövlət qulluğunun qanunvericilik əsasları olmamış, (yəni ABŞ-da federal idarələrdə qulluq, dövlət orqanlarının kadrlarla komplektləşməsi, qulluq keçmə və s. qaydalarını müəyyən edən bir qanun belə yox idi) hər bir nazirlik özünün qəbul etdiyi normativ aktları rəhbər tutmuş, dövlət-qulluq münasibətləri **siyasi adətlərlə - patronaj** və «**qənimət sistemi**» ilə tənzimlənmişdir.

1829-cu ildə Endryu Ceksonun ABŞ-ın prezidenti seçilməsi ilə dövlət qulluğunda **"Victors spoils system",** yəni **"qənimət qalib gələnindir"** adlanan prinsip tətbiq edildi. Bu prinsipin mahiyyəti ondan ibarət idi ki, bütün inzibati vəzifələrin prezident seçki kompaniyasında qalib gəlmiş partiyanın nümayəndələri, bir sözlə, seçkilər zamanı fəallıq və faydalı xidmətlər göstərmiş dostlar və tanışlar arasında bölünməsi nəzərdə tutulmuşdur. «Dövlət aparatınm yuxarı eşelonuna: ali və yaxşı maaşlı vəzifələrə prezidentə sadiq və yaxın ətrafından təyin edilməsi adətləri yaranırdı. Bu üsulla dövlət vəzifələrinin komplektləşməsi praktikası **«patronaj sistemi»** adlandırılırdı. Beləliklə, **"peşəkarlıq"** amili **"sədaqətlilik"** amili ilə əvəz edildi.

XIX əsrin 20-30-cu illərində dövlət vəzifələrinə namizədlərin **siyasi xidmətlərinə** görə təyin olunması praktikası tətbiq edilməyə başlanmışdır.

Beləliklə, dövlət **qulluğunun formalaşması iki üsulla** aparılırdı: dövlət aparatının yuxarı eşelonuna, ali vəzifələrə - **patronaj yolu ilə,** qalan vəzifələrdə isə **«siyasi xidmətlər»**

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı, "Elm", 2005.- S.71

əsas götürülürdü. Bu isə məmurları hakim partiyanın fəal tərəfdarlarına çevirir, vəzifə almaq üçün seçki kompaniyasında istədiyi namizədin qələbə çalması üçün əlindən gələni etməsinə sövq edirdi. Amerika siyasi leksikonunda bu, **«qənimət sistemi»** adı almışdı. Bu sistem üç prinsipə əsaslanırdı:

1) Dövlət vəzifələrinin hamısı yalnız siyasi xidmətlərə görə təyin olunur;

2) Məmurların vaxtaşırı dəyişdirilməsi və qulluqda qalması tərəfdar olduğu partiyanın hakimiyyətdə qalma müddətindən asılı olurdu;

3) Dövlət aparatının formalaşmasında konqresin rolu güclənirdi.

ABŞ-ın dövlət qulluğu institutunun formalaşmasında **"qənimət"** sistemi üstün və çatışmayan cəhətləri ilə yadda qalmışdı.

**"Qənimət" sisteminin çatışmayan cəhətlərinə** vətəndaşların dövlət orqanlarına müraciət etdikdə bir çox hallarda səriştəsizlik, ümumi savadsızlıq və laqeydsizliklə də rastlaşmaları aid edilir.

**"Qənimət"** sisteminin üstün cəhətlərinə isə Ceksonun ideyası ilə inzibati əməliyyatların o dərəcədə sadələşdirilməsi idi ki, onları hər bir təhsilli adamın yerinə yetirə bilməsi və ABŞ dövlət qulluğunun ilk növbədə hansısa naməlum "yüksək dövlət maraqlarına" deyil, konkret olaraq hər bir vətəndaşın, "müştərinin" mənafeyinə yönəldilməsidir. Misal olaraq, Ceksonun təşəbbüsü ilə yaradılan və nəticədə vətəndaşlar tərəfindən yüksək razılıqla qarşılanan və o dövrdə ən güclü hökumət xidməti kimi formalaşan **pensiya xidmətini** göstərmək olar. 1833-cü ildə yaradılan pensiya xidməti sistemi müəyyən bir dövr keçdikdən sonra dünyanın ən iri dövlət departamentlərindən birinə çevrildi. Məlum olduğu kimi hazırda da Amerika dövləti digər ölkələrlə müqayisədə təsərrüfat işlərinə olduqca az müdaxilə edir. Bunun əsasında "müştərilərə" xidmət edən spesifik bürokratiyanı yaradan Cekson dövründə forma-

laşmış Amerika demokratiyasının təbiəti durur. Amerika bürokratiyasnın “müştərilik” xüsusiyyəti onu fərqləndirən başlıca amildir.

**II mərhələdə** Dövlət qulluğu institutu yaranır, dövlət-qulluq münasibətləri **Pendlton qanunu** - «nailiyyətlər sistemi» ilə tənzimlənir. Vətəndaş müharibəsindən dərhal sonra mülkü qulluğun **islahatları uğrunda hərəkət yaranır.** Buna səbəb XIX əsrdə ölkələrin sənaye və sosial inkişafının ümumi qanunauyğunluqlarının ciddi dəyişikliklər tələb etməsi və tədricən ABŞ-da “normal”, bəzi aspektlərdə isə qabaqcıl bürokratiyanın formalaşması idi.

Əvvəlcə islahatçılar dövlət qulluğunda «mənəvi təmizliyi» - rüşvətxorluqla mübarizəni, məmurların məsuliyyət hissinin artırılmasını və s. tələb edirdilər. Tezliklə yeni mərhələdə Böyük Britaniyada dövlət qulluğunda əldə edilmiş **«qənaətcillik» və «səmərəlilik»** təbliğatına başlanıldı. Qısa müddətdə islahatçılar mülkü qulluqda islahatların vacibliyini hər iki partiya liderinin öz seçki platformasına daxil etməyə inandırdılar.

Dövlət qulluğunda müsbətə doğru əhəmiyyətli dəyişikliklər 1883-cü ildə müəllifin adı ilə «**Pendelton Qanunu**» adlanan «Mülkü qulluq haqqında” Qanunun qəbul olunması ilə başlandı. Bu qanun dövlət qulluğunun yalnız «siyasi adətlərlə» təşkilinə son qoyan hüquqi əsas oldu.

Bu gün də qüvvədə olan bu qanun icra hakimiyyətinin federal orqanlarında «şəxsi heyətin komplektləşməsinin və federal bürokratiyanın qulluq fəaliyyətinin təşkilinin yeni prinsiplərini» formalaşdırdı. Bunlar:

- dövlət vəzifələri tutmaq üçün namizədlərin açıq müsabiqəsinin (test imtahanlarından) keçirilməsi və ölkədə (dünya təcrübəsində ilk dəfə) vahid vəzifə və məvacib sisteminin tətbiq edilməsi;
- siyasi səbəblərə görə məmurların azad olunmasına qadağa qoyulması;

- dövlət qulluqçularının siyasi bitərəfliliyidir.

**Pendelton qanununun** qəbul edilməsi ilə ölkədə müasir dövlət qulluğunun əsası qoyuldu və Amerika dövlət qulluğunda **“merit sistem”**, yəni **“nailiyyətlər sistemi”nin** tətbiq edilməsinə başlandı. Bu sistem Amerika dövlət qulluğunda güclü kök salmış “qənimət sisteminə” əhmiyyətli dərəcədə zərbə endirdi və bütün səviyyələrdə dövlət postlarını əvvəllər qulluqda olmayan insanların tutması adətini formalaşdırdı.

Bu qanunun çox hissəsi Böyük Britaniyada mülkü qulluğun yaradılmasının təşkilat prinsiplərinin oxşarı olmaqla, Amerika şəraitinə uyğunlaşdırılmışdır.

ABŞ-da dövlət-inhisarçı kapitalizm mərhələsində iqtisadiyyatın tənzimlənməsi üçün dövlət idarələrinin sayının kəskin artması, bu sahənin «ümumi hüquqla» tənzimlənməsinin mümkün olmadığını aşkarladı. «İnzibati hüququn» yaradılması gündəliyə gəldi. O dövrdə inzibati hüquq, dövlət idarəetməsinin prinsiplərinin hazırlanmasında ilkin əsaslar rolunu oynamışdır. Əgər Pendelton qanunu dövlət idarələrində vəzifələrin komplektləşmə yolları və bürokratik aparatın qulluq keçmə qaydalarını müəyyən edən hüquqi baza rolunu oynadısa, yeni dövlət idarəetmə orqanlarını yaradan və bu tənzimlənmə sahəsində vəzifəli şəxslərin hakimiyyət səlahiyyətlərinin hüdudlarını təyin etmək yolu ilə onların fəaliyyətinin ümumi prinsiplərini müəyyənləşdirən normativ aktlar bürokratiyanın fəaliyyətinin hüquqi mənbəyi rolunu oynayır.

Beləliklə, XX əsrin əvvəllərində dövlət qulluğu institutu **iki növ münasibətləri**: peşəkar dövlət qulluğunun təşkili gedişində yaranan və dövlət hakimiyyət orqanlarının öz səlahiyyətlərini həyata keçirmə prosesində yaranan münasibətləri tənzimləyən hüquqi normalardan ibarət «yekunlaşmış» hüquqi təsvirini tapır.

Onu da qeyd etmək lazımdır ki, ABŞ dövlət idarəetməsinin nəzəri əsaslarını 1887-ci ildə sonralar ABŞ prezidenti olmuş hüquq professoru Vudro Vilsonun **«siyasətin idarəet-**

**mədən ayrılması»** haqqında doktrinası təşkil etmişdir. Bu doktrinaya görə siyasi rəhbərlərin dəyişməsi idarəetmə aparatının fəaliyyətinə təsir etməməlidir.

1920-ci ildən sonra **«elmi idarəetmə»** və ya **«menecment»** adlanan özəl biznes prinsiplərinin tətbiqinə qədər siyasətin idarəetmədən ayrılması praktiki olaraq bu sahənin bütün mütəxəssislərinin başlıca prinsipləri olmuşdur.

Kapitalist müəssisələrində əməyin təşkilinin yaxşılaşdırılması və kapitalist səmərəli idarəetməyə təminat verilməsi məsələlərini kompleks həll etməyə ilkin səy göstərən «elmi idarəetmə» məktəbinin əsasını qoyan F.Teylor və b. olmuşlar.

«Elmi idarəetmə» məktəbinin özəl biznesdə möhkəmləndirilməsi dövlət idarələrində əməyin elmi təşkilinin tətbiqinə kömək etmişdir. Nazirlik və baş idarələrin rəhbərliyinə gətirilmiş özəl firmanın keçmiş başçıları adət olunmuş metodları dövlət idarələrinə keçirirlər. F.Teylorun, A.Fayolun və b. hazırladığı prinsipləri əsas götürərək Amerika dövlətşünasları imkan daxilində onların dövlət idarələrində tətbiq edilməsinə səy göstərirdilər. «Menecment» sahəsində nailiyyətlərin dövlət orqanlarına tətbiqində hüquqi və təşkilati mexanizmin olmaması onlardan «avtomatik» istifadə olunmasında problemlər yaratmışdır.

XX əsrdə ABŞ dövlət qulluğu zəruri tələblərdən irəli gələn islahatların həyata keçirilməsi ilə daim təkmilləşməyə doğru inkişaf edirdi. Həmin dövrdə aşağıdakı bir sıra yeni qanunlar qəbul edildi.

1939-cu ildə dövlət qulluqçularının **«siyasi davranışını»** müəyyən edən «Siyasi fəaliyyət haqqında» **Hetç qanunu** qəbul edilmişdir. Bu qanuna iki kateqoriya normalar daxildir [1]: 1) «siyasi kompaniyalarda» dövlət qulluqçusunun iştirakına qadağa qoyan və xidməti vəzifədən hər hansı siyasi partiyanın

---

[1] Государственная служба основных капиталистических стран. М., Наука, 1977.- С.39

xeyrinə çalışmağa qadağa qoyan normalar

2) Konstitusiyaya uyğun yaradılmış ABŞ hökumətini devirmək istəyən təşkilatın üzvü olmağa qadağa qoyan normalar.

Bu qanunun qəbulundan sonra on il müddətində Hetç qanunu dəfələrlə tənqidə məruz qalmış və qulluqçunun mülkü hüquqlarının məhdudlaşmasına qarşı iki dəfə Ali məhkəmədə baxılmışdır [1]. Hetç qanununun qəbul edildiyi dövrdən xeyli müddət keçdiyinə baxmayaraq qanun ləğv olunmamışdır, onun bir çox müddəaları hazırda da işləyir.

Amerika Dövlət aparatı son 20 ildə demokratikləşməyə doğru dəyişilib. 1958-ci ildə Konqresin qətnaməsi formasında ABŞ tarixində ilk dəfə olaraq **«qulluqçunun etika Kodeksi»** təsdiq edilmişdir. Hələ **C.Karter** dövründə başlanmış bürokratiyaya **«həssaslıq», «şəffaflıq»** yaratmaq proqramı dövlət aparatı ilə cəmiyyət arasında münasibətlərin dəyişilməsi prosesini stimullaşdırırdı. Vətəndaş passiv vergi ödəyicisindən, tədricən fəal kliyentə -dövlət xidmətinin iştirakçısına çevrildi.

Bürokratiyaya qarşı kəskin mübarizə aparan prezident R.Reyqanın ideyasına görə dövlət sektoru özəl sektora oxşar işləməli, dovlət qulluğu ilə vətəndaş münasibətləri bazar münasibətlərinə uyğunlaşdırılmalı idi. Bu «şəffaflıq» ideyasının, yəni insanların nəzarət altında dövlət qulluğunun həyata keçirilməsi cəmiyyətin xeyrinə oldu. Vətəndaşlara dövlət sənədləri ilə tanış olmaq, idarəetmə orqanlarının iclaslarında iştirak etmək hüququ verildi. Beləliklə, bürokratik sui-istifadə mənbələrindən biri olan «kabinet sirri» sarsıdıldı.

**III mərhələ:** ABŞ-da 1979-cu ildən **«Ali rəhbərlər xidməti»** (ARX) adlanan yeni institutun fəaliyyətə başlanması dövrünü əhatə edir [2]. Başqa məsələlərlə yanaşı ARX həm

---

[1] Оболонский А.В. Бюрократия для XX1 века? Моделы Государственной службы., М, Дело ,2002.- С.81

[2] Лобонов В.В. Служба высших руководителей в США/Государство и право.1996. № 6.- С.131-139

karyer və həm də siyasi təyinatlar üçün ehtiyat kadr hazırlamalı, inzibati heyətin keyfiyyətini yaxşılaşdırmalı, karyer qulluqçuları və siyasi təyinatlılar arasında gərginliyi azaltmalı və kadr heyətinin başqa funksiyalarının koordinasiyasını həyata keçirməli idi.

ARX-nin strukturunda ilk dəfə vəzifə tutmaq niyyətində olan namizədlərin idarəçilik qabiliyyəti səviyyəsini 3 üzvdən ibarət xüsusi komissiya qimətləndirir. Konkursdankənar alternativ yol – heyətin idarə edilməsi xidmətində işlənib hazırlanan tədris proqramlarında iştirak etməkdir. Yeni üzvlər üçün birillik sınaq müddəti məcburidir. Sistemə müəyyən çeviklik vermək üçün daimi təyinatlarla yanaşı *müvəqqəti və fövqəladə təyinatların* mümkünlüyü də nəzərdə tutulub.

**Müvəqqəti təyinatlar** xüsusi layihələr və ya vacib işlərin yerinə yetirilməsi zəruriliyi olduqda 3 ildən çox olmamaq şərti ilə rəsmiləşdirilir.

**Fövqəladə təyinatlar** xüsusi tələbat duyulduqda 18 ay müddətində təsdiqlənir. Eyni zamanda müvəqqəti və fövqəladə təyinatların ümumi həcmi bütün təyinatların 5%-dən çox ola bilməz.

**80-ci illərdə** keçirilmiş inzibati islahatlar nəticəsində heyətin idarə edilməsində Ali Rəhbərlər Xidmətinin bazasında paralel olaraq iki yeni struktur yaradılmışdır: [1]

1. Federal Kadrlar İdarəsi (Office of Personnel Management) – dövlət qulluğu sahəsində kadr siyasətini həyata keçirir.

2. "Nailiyyətlər sistemi"nin Müdafiəsi Şurası ("Merit Sistem" Protection Board) – dövlət qulluqçularının işə götürənlərlə əmək mübahisələri üzrə arbitraj funksiyasını yerinə yetirir.

1993-cü ildə ABŞ prezidenti Klintonun "dövlət idarəetmə sistemində yenidənqurma" islahatları hökumətin

---

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı. TACİS layihəsi çərçivəsində. Bakı, 2004. S.45

işinin səmərəliliyini və qənaətcilliyini təmin etməyə istiqamətləndirir. Yeddi il müddətinə kadr strukturu qaydaya salınır, köhnəlmiş proqram və idarələr ləğv edilir, bürokratik süründürməçiliyin aradan qaldırılmasında müəyyən işlər görülür.

Son illər müasir Amerika məmurluğunun fəaliyyətində ildən-ilə güclənməkdə olan "müştərilərə göstərilən dövlət xidmətləri" sistemi özünü büruzə verir, səmərəli hökumətin yaradılması üçün qoyulmuş bünövrə möhkəmlənməkdə və təkmilləşməkdədir.

## 5.2.Böyük Britaniyada dövlət qulluğunun yaranması və inkişafı

**Böyük Britaniyada** 1853-54-cü illərdə Nortkotun - Trevelyan parlamentə təqdim etdiyi «Daimi mülkü qulluğun təşkili haqqında» məruzədə patronaj sisteminin ləğvi və açıq müsabiqə imtahan sisteminin tətbiq edilməsi təklif olunurdu. Patronaj sistem tərəfdarlarının müqaviməti bu islahatların uzun müddət həyata keçməsinə mane olmuşdur. Məruzədə göstərilən tükliflər 15 ildən sonra 1870-ci ildə tətbiq edilmişdir. Böyük Britaniyada 100 il bundan əvvəl əsası qoyulmuş mülkü qulluq XX əsrin 70-ci illərinə qədər konstruktiv dəyişikliklərə məruz qalmamışdır.

Hələ İngiltərədə XVII əsrdən nazirliklərin mövcud olmasına baxmayaraq, vahid mərkəzləşdirilmiş inzibati sistem olmadığından vəzifəyə keçmə "patronaj" sistemi, yəni şəxsi himayədarlıq əsasında həyata keçirilirdi. Vəzifələr kral patentlərinə malik olan insanların şəxsi mülkiyyəti hesab olunur və satılır, bağışlanır, hətta irsən də ötürülürdü. Lakin məmurlar tərəfindən sui-istifadə hallarına demək olar ki, yol verilmirdi. Bunun aşağıdakı səbəbləri var idi:

1. məmurların səlahiyyətlərinin məhdudlaşdırılması
2. məmurların əksəriyyətinin aristokrat ailələrinə mənsub olmasından varlı təbəqəni təmsil etmələri

3. məmurların yüksək təhsilli olmaları ilə yanaşı, eyni zamanda vəzifəyə görə ödənişlərin verilməməsi və səlahiyyətlərinin yerinə yetirilməsinin "premial" (qeyri-mütəmadi) xarakter daşıması.

Beləliklə, dövlət qulluğu bir növ kral hakimiyyətinin və cəmiyyətin etibarını doğruldan "istedadlı şəxslər" tərəfindən həyata keçirilirdi.

**İngiltərədə** aparılan kadr siyasəti həmişə dövlət qulluğunda aparılan islahatlarla müşayiət olunur. İngiltərə üçün XX əsr böyük təşkilati-hüquqi islahatlar dövrü hesab olunur.

İngiltərədə başqa qərb ölkələrində qəbul olunmuş «Kütləvi və ya Dövlət qulluğu» anlayışından fərqli olaraq «Mülkü qulluq» (Civil Service) anlayışı istifadə olunur [1]. Bunun tarixi kökləri var: ingilis hüququnda məmurun "hakimiyyətin xidmətçisi" kimi tanınması qəbul edilmişdir.

İngiltərədə başqa ölkələrdən daha gec peşəkar dövlət qulluğu tətbiq olunub. İngilis idarəetmə sistemi iyerarxik və vahid mərkəzdən idarə olunan, Fransanm «ideal rasional bürokratiya» nümunəsinin alternatividir. Bu sistemdə qanunçuluq vahid kodekslə, «yuxarıdan aşağı» yox, «aşağıdan», yəni presedentlər əsasında - fərdi, birinci növbədə konkret iddia və işlərə görə məhkəmə qərarları əsasında təmin olunur.

XIX əsrdə İngiltərədə sənaye inqilabı və başqa reallıqlar Britaniya inzibati sistemində islahatların və peşəkar mülkü qulluğun yaranmasına təkan verdi. Bütün bunların əsasında **1854-cü ildə Nartkot-Trevelyanın** Parlamentə təqdim etdiyi məruzə islahatların başlanğıcı oldu [2]. **Staford Nortkot** o dövrdə baş nazir idi, **Çarlz Edvard Trevelyan** isə təqdim olunmuş məruzədə məşhur Ost-Hind kompaniyasının zəngin inzibatçılıq təcrübəsindən istifadə etmişdir.

---

[1] Peters B.G. The politiks of Bureaucracy. N.Y.L. 1984, Kamenka E. Bureaucracy. Oxford; Cambridge. 1989

[2] Оболонский Н.В. Эволюция государственной службы в Великобритании. Государство и Право, 1996, №6.-С.121

Məruzədə məşhur Ost-Hind kompaniyasının administrasiyasının təcrübəsinə əsaslanaraq, insanların peşəkarlıq keyfiyyətləri əsasında kompleksləşən yüksək ixtisaslı mülkü qulluğun yaranmasının lazımlığı göstərilirdi. Məruzədə patronaj sisteminin ləğv olunaraq onun mərkəzi imtahan komissiyasının müşayiəti altında keçirilən açıq müsabiqə imtahanları ilə əvəz olunması təklif olunurdu. Nartkot-Trevelyanın məruzəsi əsasında yaranan sistem XX əsrin ortalarına qədər fəaliyyət göstərmişdir [1]. Müəlliflər bütün dövlət qulluqçularını iki hissəyə - inzibati və texniki siniflərə bölməsini təklif edirdilər. Vəzifə irəliləyişində namizədlərin iş stajına yox, daha çox onların şəxsi keyfiyyətlərinə və peşə hazırlığına üstünlük verilməsi tövsiyə olunurdu. Eyni zamanda dövlət qulluğuna namizədlərin seçilməsində ümumi, hümanitar təhsilə üstünlük verilməsi təklif olunurdu.

Sonrakı islahatlar məsələsi **Lord Fultonun** rəhbərliyi altında 1966-cı ildə hökumət tərəfindən bu məqsədlə yaradılmış Komitənin «dövlət qulluğu haqqında» təqdim etdiyi məruzə ilə davam etmişdir. Məruzədə mülkü qulluğun strukturu, qulluqçuların seçilməsi, təhsili, irəli çəkilməsi və başqa geniş məsələlərə toxunulurdu. Məruzədə aşağıdakı əsas çatışmazlıqlar qeyd olunmurdu:

**Birinci,** iyerarxiyanın yüksək pilləsində lazımi ixtisaslaşma və peşəkarlığın olmaması; **ikinci,** çox iri siniflər sisteminin mövcudluğu; **üçüncü** çatışmazlıq - mütəxəssislərin siyasətin formalaşması və qərarların qəbulunda səlahiyyətlərinin və müvafiq məsuliyyətin olmaması; **dördüncü,** ixtisaslı menecer və inzibati sinfin üzvü olan çox az mülkü qulluqçu özünü işin təşkili, planlaşma, heyətə rəhbərlik, qərarların mümkün variantlarının müəyyən edilməsində qabiliyyətli hesab etməsi; **beşinci,** kadr idarəetmə problemlərinə çox az diqqət yetirilməsi.

---

[1] Оболонский Н.В. Эволюция государственной службы в Великобритании. Государство и Право, 1996, №6.-С.34-39

Komitə çatışmazlıqları göstərməklə yanaşı, Mülkü qulluqda köklü dəyişikliklərin mərkəzi ideyası kimi biznes təcrübəsini, yəni **«Menecer modelini»** qebul etməyi təklif etmişdir.

Komitənin təklifləri əsasında Mülkü qulluq üzrə Nazirlik, Kadr təhsilinin milli mərkəzi və əməyin elmi-təşkili sahəsində elmi-tədqiqat işləri aparmaq keyfiyyətində **Mülkü qulluq kolleci** yaradılmışdır. Komitə bütün böyük nazirliklərdə menecer məsələləri üzrə qulluq strukturu yaratmağı təklif etmişdir.

Mülkü qulluğun yenidənqurma planının əsasını ABŞ-da qəbul olunmuş, menecer modeli tutur. Məruzədə dövlət qulluğunun komplektləşməsində «Kasta», «Oksbric» xarakterinə əsas diqqət yetirilmişdir. İngiltərədə mülkü qulluğa dövlət rəhbərliyini həm ümumı səlahiyyətli orqanlar - Baş nazir və kabinet, parlament, həm də xüsusi səlahiyyətli orqanlar - mülkü qulluq üzrə Nazirlik, ayrı-ayı nazirlik və baş idarələr həyata keçirir.

Baş nazir rəsmi olaraq Mülkü qulluq üzrə Nazir vəzifəsini icra edir. Bu keyfiyyətdə Baş nazir dövlət aparatında ali vəzifələrə təyinat məsələlərini həll edir. Nazirliyə gündəlik rəhbərlik baş nazirin kabinet üzvü olan böyük nazirlərdən birinə tapşırılır. Rəsmi olaraq, Mülkü qulluq üzrə nazirliyə daxili rəhbərliyi **nazirliyin daimi katibi** aparır.

Mülkü qulluğa rəhbərlik eyni zamanda ayrı-ayrı nazirliklər səviyyəsində də həyata keçirilir. Nazirlikdə kadr idarələri öz idarələri çərçivəsində gündəlik kadr məsələləri ilə məşğul olur.

Fultonun dövlət qulluğundakı islahatları gözlənilən səmərəni vermədi. Bütün bunlar **M.Tetçerin** yeni islahatlar aparmasına səbəb oldu. M.Tetçer aparatın administrasiya mədəniyyətini dəyişmək və onu bazar münasibətlərinə oxşar etmək qərarına gələrək, 80-ci illərdə riskli olsa belə yeniliklər axtarmağa istiqamətləndirilmiş **həvəsləndirmə sistemi yaratmaq**

üçün islahatlar aparır. Bütün bunlar **M.Tetçerin "növbəti addımları"** adlı proqramı çərçivəsində həyata keçirilir [1]. Proqram 1988-ci ildə Tetçerin baş nazirliyinin üçüncü müddətində işə buraxıldı. Proqramın əsas məqsədi «yeni menecerizm», yəni dövlət qulluğu, təcrübəsində bazar mexanizmini və həvəsləndirməni tətbiq etmək idi. Bu məqsədlə a) hökumət strukturunu iki kateqoriyaya - mərkəzdə siyasəti formalaşdırmaq və yerlərdə bu qərarları icra etmək funksiyası daşıyan qurumlara bölmək;

b) qərarları icra edən qulluğu hətta özəlləşdirilə bilən yarımasılı qurumlarla dəyişdirmək;

c) əvvəllər bütün dövlət qulluğunda tətbiq edilən vahid tarif şəbəkəsini, vahid pensiya və imtiyazları yalnız mərkəzdə siyasəti formalaşdıran və bir neçə özəlləşmiş agentlik heyətinə şamil etmək.

Beləliklə dövlət qulluğunun əvvəlki vahid sistemi dağıdılır. Az miqdarda bilavasitə nazirlərin və daimi katiblərin, həmçinin yerdə qalan qulluq üçün iş sifarişçisi rolunu oynayan "mondorinlər"(narıngi) təbəqəsi saxlanıldı. Sərəncamverici departament «yarım hökumət təşkilatı və ya ixtisar olunmuş «Kuanqo» (quanqo) statusu aldı. Kontrakt münasibətlərinə girən **«Kuanqo»ya** öz işçilərinə maaş müəyyən edərkən dövlət qulluğu üçün qəbul edilmiş maaş şkalası ilə yox, «bazar mexanizminə» uyğun aparmaq hüquqları verildi. Bu dəyişikliklər imkan verdi ki, dövlət qulluğuna sərf olunan vəsait ixtisar olunsun. «Kuanqo» hökumət funksiyalarını dövlət orqanlarına nisbətən daha ucuz məsrəflə yerinə yetirir. Nəticədə, bazar rəqabəti qanunları hərəkətə başladı və bəzi ictimai xidmətlərin keyfiyyətlərinin artması və ucuzlaşması mənbəyi aşkarlandı [2].

---

[1] Оболонский Н.В. Эволюция государственной службы в Великобритании. Государство и Право, 1996, № 6.- С.121-130

[2] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.56-60

Beləliklə, İngiltərədə faktiki olaraq qulluğun keçirilməsi, istefa vermək, əməyin ödənilməsində vahid dövlət qulluğu mövcudluğunu itirdi. Ona çoxsaylı müxtəlif strukturlar, əmək münasibətləri, təminatları ödəmə şkalası, təqaüd təminatı, özəl bölməyə keçid şəraiti ilə əvəz edildi. Bazar stimulu qulluqçu üçün adi hal aldı, agentliklərin rəhbərləri biznesdə menecerlərə oxşar manevr imkanları əldə etdilər. Konkurs mexanizmi işləməyə başladı. Nəticədə, ənənəvi dövlət idarələrinin işinin funksional səmərəliliyi artmağa, bu və ya başqa dövlət funksiyalarının və göstərilən xidmətin dəyəri aşağı düşməyə başladı.

Dövlət qulluğunun əvvəlki strukturu ciddi iyerarxiyalı, vahid prinsipli idi. İslahatdan sonra **dövlət qulluğu iki hissəyə ayrılır**. **Yuxarı hissədə** çalışanlar üçün əvvəlki imtiyazlar saxlanılırdı, o biri hissə isə onlardan məhrum olmaqla təhlükə altında qalırdı. Başqa sözlə, aparat «mondorinlər» və proletarlara bölünür. M.Tetçerin vəzifədən getməsi ilə bu islahatların ideoloqu və ona rəhbərlik edən daimi katibi istefaya göndərilir və bununla «növbəti addımlar» proqramı dayandırılır.

Brita**n**iya Dövlət Qulluğu az sayda nəzərdə tutulmuş xüsusi və müvəqqəti vəzifələr üzrə siyasi təyinatların verilməsində də uzunmüddətli ənənəyə malikdir. Bu təcrübə yalnız 1964-cü ildə hakimiyyətə gələn Harold Uilsonun Leyboristlər Hökumətinin aparıcı daimi dövlət rəsmləri tərəfindən **siyasi müşavirələr** üçün bir sira vəzifələr yaratması ilə genişləndi (əks halda Leyboristlər Partiyasının planlarını boşa çıxara biləcəyi ehtimalı vardı). Həmin dövrdən Konservatorlar, eləcə də Leyboristlər hökumətləri hökumətin formalaşmasında siyasi müavirlərdən və aparıcı dövlət qulluqçularından istifadə edirlər, lakin ikinci qrup sayca daha çox olaraq üstünlük təşkil edirdi. Bu səbəbdən də aparıcı dövlət qulluqçularının müdafiəsi məqsədi ilə dövlət qulluğunun inkişafına dair bir sıra əhəmiyyətli məruzələr hazırlandı.

## 5.3.Fransada dövlət qulluğunun yaranması və inkişafı

**Fransada** dövlət qulluğu kökləri mütləqiyyət dövrünə, müəyyən mənada daha da dərinlərə gedən bürokratik sistemin milli əsasları üzərində inkişaf etmiş və möhkəmlənmiş etalon rolunu oynayır.

Fransa dövlət qulluğunun mahiyyəti - iyerarxik kasta və dövlətə sadiqlik ruhuna xas olan qapalı və hərtərəfli qanuniləşdirilmiş sistemdir. Fransada dövlətçilik konsepsiyasının yaradılmasına hələ qədim dövrlərdən ciddi mərkəzləşmə və mərkəzə tabelik prinsiplərinə üstünlük verilirdi. Ölkənin səmərəli qaydada paytaxtdan idarə edilməsinin əsas prinsiplərini orta əsrlər dövrünün fransız legistrləri nümünə olaraq, Qədim Roma imperiyasına xas olan quruluş modelindən götürmüşdülər. Mərkəzləşmə tendensiyasının tam həyata keçirilməsi və beləliklə, güclü mərkəzləşmiş hökumətin yaradılması XVII əsrdə XIV Lyudovikin hakimiyyəti illərində baş tutdu [1]. Napaleon isə bu tendensiyanı inkişaf etdirərək yerli idarəetməni nazirlərin tabeçiliyinə verdi, ölkə departamentlərə bölündü, onlara rəhbərlik mərkəzdən təyin olunmuş prefektlərə həvalə olundu [2]. Həmin vaxtlarda Napaleon kilsə üzərində də dövlət nəzarəti qurmaq məqsədilə Vatikan ilə razılıq aktı imzalamışdı. Eyni zamanda o güclü jandarmeriya yaratmış və Fransanın bütün şəhərlərinə polis komissarlarını təyin etmişdi. Napaleon dövlət aparatını və bürokratik sistemi qurarkən fransız cəmiyyətində iki nüfuzlu qurum olan – ordu və kilsənin əsas elementlərinin qovuşmasından istifadə etmişdir. Ona görə də o zamankı bürokratiya yarım hərbi formada olmaqla **üç əsas prinsip** üzərində qurulmuşdu:

---

[1] Кареев Н. История западной Европы в новое время. Т.2. СПБ:1904.- С.710-417

[2]Лависс и Рамбо. История XIX века. Т.1.М., 1905.- С.148

1. iyerarxiya
2. intizam
3. unifikasiya (qaydalara ciddi riayət)

Napaleon hesab edirdi ki, Fransada ictimai mənafeyə qulluq edən nümunəvi səmərəli məmurlar qurumu yaradılmalı və dövlət qulluğunun qapıları ən istedadlı adamlar üçün açıq və maneəsiz olmalıdır. Beləliklə, Napaleonun hakimiyyəti dövründə dövlət qulluğunun, inzibatçılığın möhkəm bünövrəsi qoyulmuş, Fransa dövlət idarəçiliyinin əsas institutları formalaşmış və bununla belə ciddi qaydalar üzərində qurulmuş rasional bürokratik sistemin hüquqi bazası yaradlmışdı.

Fransada 1964-cü ildə qəbul edilmiş "Dövlət qulluqçularının ümumi statusu haqqında" qanunla da mərkəzləşmə və iyerarxiya prinsipləri məmurluq fəaliyyətində **başlıca prinsiplər** kimi təsdiqləndi. Eynilə 1958-ci il Konstitusiyasında ölkə prezidenti **Şarl de Qollun** klassik düşüncələrinin təzahürü kimi məmurluğun siyasi hakimyyətə tabe olması bir daha öz əksini tapdı. Belə ki, 1958-ci ilin Konstitusiyasında məmurluğun Prezidentin və hökumətin tam nəzarəti altında olmasının təsbit edilməsi Beşinci Respublikanın mühüm əsaslarından biri olmuşdur [1].

Ölkə Prezidenti əsas vəzifələrə kadrların qoyulmasında qanunla müəyyənləşdirilmiş müstəsna səlahiyyətlərə malikdir. O, nazirlər tərəfindən təyin edilmiş məmurları təsdiq edir, dövlət **qulluğu sahəsində siyasətə** məsuliyyət daşıyır. Təcrübədə isə ictimai qulluq sahəsində islahatlar aparılması üzrə fəaliyyəti əlaqələndirmək üçün xüsusi idarələr yaradılır. Bu idarələrin və onların başında duranların adlarının müxtəlif olmasına baxmayaraq, praktiki olaraq eyni işlərlə məşğul olurlar. Onlar, eyni zamanda kütləvi qulluğa və inzibati islahatlara

---

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.63-64

daimi rəhbərlik səlahiyyətləri həyata keçirirlər.

Beşinci Respublikanın beşinci hökumətində bu xüsusi idarənin adı **İctimai Qulluq İşləri üzrə Dövlət Nazirliyi** idi. Yeddinci hökumətdə ikili vəzifə daşıyan - kütləvi qulluğu və inzibati islahatları həyata keçirən Baş nazir yanında dövlət katibliyi yaradılmışdı. 1973-cü il parlament seçkilərindən sonra yeni formalaşdırılmış hökumətdə məmurların səmərəli fəaliyyətinə nəzarət üçün İnzibati islahatlar üzrə Nazirlik yaranır. 1977-ci ildə idarəetmənin təşkili problemlərini Baş nazir yanında Dövlət qulluğu işləri üzrə dövlət katibi həyata keçirirdi. Sonralar isə bu məsələlərlə o qədər də böyük ştatı olmayan Administrasiya və dövlət qulluğunun Baş idarəsi məşğul olurdu. Bu idarə **kadr siyasəti** sahəsində əsas vəzifələri: əlaqələndirmə, ümumi və xüsusi statuslara əməl olunmasına nəzarət, mükafatlandırma, ümumi prinsiplərin müəyyən edilməsi, sahələrarası müsabiqənin keçirilməsi, administrasiyanın Milli məktəbinə və administrasiyanın dairə institutlarına hamilik etməklə həyata keçirir. Ümumiyyətlə, dövlət qulluğu Baş nazirin ümumi rəhbərliyi altında aparılır.

Orqanların adlarının tez-tez dəyişilməsinə baxmayaraq, Fransada kütləvi qulluğa rəhbərliyin əsas sxemi dəyişilməz qalır. Fransa kütləvi qulluğu qərb ölkələri arasında daha sabit və təşkilatlanmışdır.

Məmurluğun əsasnaməsinin nizama salınması və onların statusuna əməl etmələrinə nəzarət funksiyalarını həyata keçirmək üçün Baş nazirin departamentində xüsusi bölmə - Baş direktorluq mövcuddur. Direktorluq kütləvi qulluğa aid ümumi siyasətin ümumi istiqamətlərini hazırlayır.

Məmurların korporativ maraqlarının müdafiəsi ilə məsləhətçi orqanlar: mərkəzi dövlət qulluğunun Ali Şurası, texniki komitələr və b. məşğul olurlar. Bu kollegial orqanlar bərabərsaylı administrasiya nümayəndələrindən və həmkarlar təşkilatlarının məmur nümayəndələrindən prioritet əsasda təşkil olunurlar. Bu orqanların qərarları tövsiyə xarakteri daşıyır.

Dövlət qulluğunun maliyyə məsələlərinə bilavasitə və ya dolayı toxunan, bütün aktları məcburi qaydada yoxlayan **İqtisadiyyat və Maliyyə Nazirliyinin dövlət büdcə idarəsi** də faktiki olaraq administrasiya və dövlət qulluğunun baş idarəsi ilə birlikdə idarəetmə funksiyası həyata keçirir. Digər nazirliklərin bu sahədə fəaliyyəti əsasən təyinat, ştatlı işəqəbul, vəzifədə irəli çəkilmə, intizam tədbirləri, təqaüdə göndərmək və s. fərdi məsələlərin həlli ilə məhdudlaşır [1]. İctimai qulluq məsələlərini həyata keçirmək üçün Baş nazirin öz departamentində xüsusi bölmələri vardır. Departament - ictimai qulluq üzrə ümumi siyasətin əsas istiqamətlərini hazırlayır, ictimai qulluq üzrə ümumi statistik materiallar toplayır, ictimai qulluğun təşkilinin yaxşılaşdırılması məsələlərinə baxır, dövlət qulluğu ilə ictimai təşkilatların koordinasiyasını həyata keçirir.

**Fransada dövlət qulluğuna xas olan, uzun illər ərzində formalaşan "Karyera" konsepsiyasıdır.** Konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, bu sistemin şərtlərində dövlət məmurunun hüquqi statusu əhəmiyyətli dərəcədə ona iş təklif edənin, yəni dövlətin bilavasitə spesifik xüsusiyyətlərindən asılıdır. Ona görə də məmurluq fəaliyyəti əmək normaları ilə deyil, inzibati hüquq normaları ilə tənzimlənir və ilk dəfədən dövlət qulluğuna işə götürülənlər üçün ömürlərinin axırınadək dövlət məmuru olmaq şəraiti yaradılır. Fransada "Karyera" konsepsiyasının xeyli **üstünlükləri və çatışmazlıqları** vardır.

**Fransada "Karyera" konsepsiyasının üstünlükərinə** aşağıdakılar aid edilir:

1. Dövlət qulluğuna işə qəbul olunanlar üçün daimi iş qarantiyası yaranır
2. "Karyera nərdivanı pillələri ilə" tədricən vəzifədə irəliləmə şansını da əldə edirlər

[1] Государственная служба: политология. М., 1999.- С.211

3. Dövlət tərəfindən onlara himayədarlıq olunaraq, bir çox sosial və məişət problemlərinin həllində köməklik göstərilir.
4. Yüksək peşəkarlığı ilə fərqlənən məmurların itirilməməsi üçün dövlət tərəfindən onlara bir çox imtiyaz və güzəştlər nəzrdə tutulur.

**Fransada "Karyera" konsepsiyasının çatışmazlıqlarına isə** aşağıdakılar aid edilir:

a) belə sistem bir çox hallarda kadrlarda inersiyaya (hərəkətsizliyə) meyillidir;
b) kadrlarda operativlik və yüksək işgüzarlıq kimi xüsusiyyətlərin formalaşması az inkişaf edir;
c) bu sisitemdə məmurların vəzifəyə irəli çəkilməsində iş stajı onların işgüzar keyfiyyətlərindən üstün tutulur;
d) bir çox hallarda yüksək peşəkarlığa malik olan məmurların iş stajı çatmadığından müəyyən vəzifəni tuta bilməmələri dövlət orqanlarında məmur axınının artmasına səbəb olur. [1] Fransa dövlət qulluğunda **məmur və dövlət qulluqçusu** anlayışları bir birindən fərqləndirilir.

**Statuslu məmur o şəxsdir ki**, Fransa qanunvericiliyinə əsasən daimi dövlət qulluğu vəzifəsinə təyin edilməklə ştata götürülsün və inzibati iyerarxiya sistemində rütbə alsın.

**Dövlət qulluqçusu o şəxsdir ki**, onun əsas fəaliyyəti dövlətin mənafeyinə yönələn inzibati qulluqdur.

Beləliklə, aydın olur ki, bütün məmurlar, eyni zamanda dövlət qulluqçularıdır, bütün dövlət qulluqçuları isə heç də məmur deyillər. Məmurlardan fərqli olaraq digər, dövlət qulluqçularına ya müvəqqəti işçilər kimi və ya sistemə tam daxil edilməyənlər kimi baxırlar. Fransada onlar **4 kateqoriyaya** bölünürlər və aparatdakı fəaliyyətlərinə baxmayaraq,

---

[1] Гриней Б. Введение в науку управления. М., 1969.- С.61-62

onlar güzəşt və imtiyazlardan məhrumdurlar:

1) Saathesabı işçilər — adətən, konkret məsələlərin həllinə dair (tədqiqat işləri, tədris prosesi və s.) dövlət qulluğunu tariflərinə müvafiq müvəqqəti ödəniş əsasında bir ay ərzində 120 saatdan çox olmamaq şərti ilə qulluğa qəbul edilirlər;

2) müqavilə (kontrakt) əsasında götürülən işçilər; onlar adətən 3 illik müddətə götürülürlər (ehtiyac olduqda müqavilənin müddəti uzadıla bilər). Bir çox hallarda bunlar yardımçı vəzifələri tutan texniki işçilərdir;

3) Köməkçilər — bunlar müqaviləsiz, yəni inzibati rəhbərlərin birtərəfli qərarları (və ya səramcamı) əsaında müvəqqəti işin yerinə yetirilməsi üçün götürülürlər. Bu kateqoriya qulluqçuları isə konkursdankənar şərtlə qəbul edilirlər. Ona görə də onlar nə inzibati, nə də əmək qanunvericiliyi ilə müdafiə olunmurlar;

4) Məmur – stajorlar. Bunlar 6 aydan 2 ilədək olan sınaq müddətindən keçmək şərti ilə daimi vəzifəyə təyin edilirlər. Sınaq müddəti bitdikdə onlar test imtahanları verirlər. İmtahanın nəticələrinə görə onlar barədə üç variantdan biri tətbiq olunur: ya artıq məmur kimi ştata götürülür, ya onlar üçün sınaq müddəti uzadılır və yaxud onlar xaric edilir.

**Fransada "Karyera" konsepsiyası -** müsabiqə yolu ilə vəzifətutma daha əlverişli üsul sayılır. Ən yaxşı işçilər ümumi mədəni inkişaf və peşə biliyi səviyyəsinin aşkarlanması, sınaq seriyaları əsasmda seçilir.

Müsabiqənin hər bir vətəndaşa dövlət vəzifələrini tutmaq imkanı verməsi insan və vətəndaş hüquqları deklarasiyasında göstərilib.

Fransa qanunvericiliyinə əsasən **dövlət qulluğu vəzifələrinə buraxılış qaydaları beş şərt üzrə** həyata keçirilir:

- Fransa vətəndaşlığının olması
- Siyasi hüquqların olması
- Qanunlara riayət edilməsi

- Hərbi qulluqla bağlı qanunun tələblərinin yerinə yetirilməsi

- Vəzifənin tələblərinə uyğun fiziki sağlamlıq

Dövlət qulluğuna yeni qəbul olunanlar üçün tələb olunan vəzifə xüsusiyyətləri ilə onların hazırlıq səviyyəsi arasında münasibətə uyğun təhsil standartı qoyulur. Bütün vəzifələr iyerarxiya piramidası əsasında dörd sinifə: A,B,C və D bölünür.

A - sinfi üçün müsabiqə imtahanları namizədlərin geniş ümumi və texniki təhsilinin, onların intellektual səviyyəsinin və möhkəm xarakterinin olub-olmaması aşkar edilməlidir.

B - sinfinə daxil olan namizəd müsabiqə imtahanı vasitəsi ilə normativ aktların tələblərinə müvafiq olaraq, tabeçiliyində olan şəxslərin fəaliyyətini müəyyən etməyi, qiymətləndirmək və həll etmək bacarığını aydınlaşdırmalıdır. B qrupunun müsabiqə imtahanı «A» sinfinə nisbətən texniki xarakter daşıyır. Bununla belə bu sinif üçün də yüksək peşə və ümumi təhsilin olması tələb olunur.

C - sinfi üçün müsabiqə imtahanı namizəddə şəxsi təşəbbüsün, texniki-icra səriştəliyi olduğunu aydınlaşdırır.

D - sinfinə daxil olan kontingentdən aşağı təhsil səviyyəsi tələb olunduğundan, müsabiqə imtahanları ibtidai sinif həcmində təhsil səviyyəsindən kənara çıxmır.

Fransada müsabiqəni tənzimləyən üç qrup hüquqi aktlar mövcuddur. Onlara: qanunvericilik və digər normativ aktlar, kollektiv qərarlar və fərdi aktlar daxildir.

Qeyd etmək lazımdır ki, Fransada **dövlət qulluğuna qəbul üçün keçirilən müsabiqə müxtəlif variantlarda** keçirilir:

1. "xarici" (və ya "təhsil") xarakterli müsabiqə; variant dövlət qulluğuna ilk dəfə girənlər üçün nəzrdə tutulur

2. "daxili" (və ya "məmurlar müsabiqəsi") xarakterli müsabiqə; bu variant müəyyən iş stajına malik olan məmurların vəzifədə irəli çəkilməsi üçün keçirilir

3. "açıq müsabiqə" – hər iki variant şərtlərinin birləş-

məsi ilə keçirilir

Fransa **məmurluğunda struktur 4 kateqoriyaya** bölünür: **A, B, C və D**. Hər kateqoriyanın özünəməxsus səlahiyyət dairəsi, iyerarxiya səviyyəsi və müvafiq olaraq icra funksiyaları bölğü ilə müəyyənləşir.

**A kateqoriyası** – ali kateqoriya sayılır və magistr dərəcəsi olmaqla rəhbərlik mövqeyində inkişaf konsepsiyalarının hazırlanması və həyata keçirilməsi üzərində işləyən məmurları birləşdirir (attaşe, inzibati idarələrin rəhbərləri və s.)

**B kateqoriyasına** – bakalavr dərəcəsi olan orta səviyyə üzrə məmurlar daxildir (inzibati katiblər, nəzarətçilər və s.)

**C və D kateqoriyaları** – aşağı səviyyə üzrə (bu kateqoriyalar üçün yüksək magistr təhsili və ya ali təhsil tələb olunmur) paktiki olaraq icraçı funksiyalarını həyata keçirən məmurları birləşdirir. Son illərdə D kateqoriyasında məmurların say tərkibinin xeyli azalması ilə onun C kateqoriyasına birləşməsi tendensiyası müşahidə olunur. Nəticə etibarı ilə və praktik olaraq hazırda Fransada dövlət qulluğu demək olar ki, əsasən 3 kateqoriya üzrə bölünür - A, B, C [1].

## 5.4. Almaniyada dövlət qulluğunun yaranması və inkişafı

**Almaniya Federativ Respublikası da** Fransada olduğu kimi zəngin bürokratik ənənələri olan ölkədir. Alman məmurluğunun vətəni Prussiya hesab olunur. Prussiya məmurluğu I Fridrix-Vilhelmin 1728-ci ildə apardığı islahatlara əsasən formalaşıb. Onun apardığı islahatlar nəticəsində məmurların dövlətdə sosial vəziyyəti və vəzifələri müəyyən olundu, həmçinin dövlət qulluğu və bu qulluğa qəbul məsələləri müəyyən

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.65-68

sistem şəklinə düşdü. O zamanlar məmurlar zabit sıralarından seçilirdilər və onlar da hərbdəki qaydalara uyğun olaraq əmrləri düşünmədən yerinə yetirirdilər. Dövlət qulluğuna seçim **"şəxsi sədaqət və inam"** prinsipinə əsaslanırdı [1].

1873-cü ildə Almaniya imperiyası yaranandan dərhal sonra **«prus məmurluğu» ruhunu,** yəni "şəxsi sədaqət və inam" prinsipini özünün əsas cizgilərində saxlayan birinci məmurluq haqqında Qanun qəbul olundu [2]. Birinci dünya müharibəsindən sonra yaranmış **Veymar respublikasının** dövlət qulluğunda da "sədaqət və inam" prinsipinə əməl olunurdu, lakin əvvəlkindən fərqli olan başqa bir məzmunda, yəni "monarxa" və ya "imperiyaya sadiqlik" – "respublikaya sadiqlik"lə əvəz olunur.

Faşistlərin hakimiyyəti dövründə dövlət qulluğunda "şəxsi sədaqət prinsipi" yenidən bərpa olundu, lakin bir daha yenilənmiş məzmunda – "Hitlerə və faşist ideologiyasına sədaqət" məzmununda. Bu dəyişiklik 1933-cü ildə qəbul edilmiş qanunda öz əksinin tapmışdı. Eyni zamanda həmin qanunun mətnində məmurların faşist ideologiyasına bağlılığı rəsmiləşdirilmişdi.

İkinci dünya müharibəsindən sonrakı dövrdə 1953-cü ildə dövlət qulluğu haqqında qanunda "sədaqət" prinsipinin Veymar variantı yenidən bərpa olundu.

Almaniya məmurluq tarixində alman bürokratiyası üçün spesifik olan **"siyasi" və "fəxri"** məmurluq anlayışları da mövcuddur.

**"Siyasi" məmurlar** institutu rəsmi olaraq 1889-cu ildə yaradılmışdı. Siyasi məmurlar hökumətə və ayrı-ayrı nazirliklərə yaxın öz qulluq mövqeyinə görə siyasi fəaliyyətdən ayrı

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı, Elm, 2005.- S.259

[2] Пухт В. Немецкий солдат/Итоги второй мировой войны: Сб.статей. М., 1957.- С.43-44

qala bilmir, əməkdaşlarla əhatə edilən vəzifələr kateqoriyası siyahısına daxil olan məmurlara aid edilir. Bir sözlə, “siyasi”məmurlar bilavasitə və dolayısı olaraq siyasi fəaliyyətlə bağlı olanlardır. O zaman Almaniya dövlət qulluğunun belə bir ənənəsi hökm sürürdü ki, kabinet və onun platforması dəyişildikdə siyasətçilərə bağlı olan yüksək rütbəli məmurlar da sabiq hökumətlə eyni zamanda istefaya göndərilirlər.

**“Fəxri” məmurluq** spesifik alman ixtirasıdır. Bu kateqoriyaya fəxri vəzifəyə təyin olunan, əməkhaqqı və hər hansı bir imtiyaz almayan şəxslər daxildir. Adətən, bu gün vəzifə tutanlar şəxsən alman cəmiyyətində yüksək nüfuzlu adamlar olub və onlara bu yolda mənəvi üstünlük verilir. Onların fəaliyyəti daha çox ictimai xarakter daşıyır və ictimai əsaslarla hər hansı bir komitə və komissiyalarda iştirak edirlər[1].

Almaniyada dövlət qulluğunun müasir strukturuna nəzər salaq. Ölkə qanunvericiliyinə uyğun olaraq, **dövlət qulluğuna daxilolma aşağıdakı müddətlər üzrə** müəyyənləşdirilir:

- ömürlük;
- müəyyən müddətdə (müvəqqəti xidmət tələb olunduqda);
- sınaq müddətinə (ilk dəfə işə qəbul olunduqda);
- dövlət qulluğuna hazırlıq üçün.

“Dövlət qulluqçularının hüquqi vəziyyəti barədə” ümumi qanunla bütün **vəzifələr 4 səviyyəyə** bölünür:

- aşağı qulluq səviyyəsi (sadə qulluq)
- orta qulluq səviyyəsi (orta qulluq)
- yüksək qulluq səviyyəsi (məsul qulluq)
- ali qulluq səviyyəsi (ali qulluq)

Göstərilən 4 səviyyə üzrə qulluq vəzifələrinin hər birinə müxtəlif rütbələrin verilməsi ilə cəmi **16 sayda aşağıdakı rütbələr** mövcuddur.

---

[1] Гришковец А.А. Правовое обеспечение государственной службы. М., 1988.- С. 40

A1-A5- aşağı rütbələr (yardımçı – texniki heyət)

A6-A9- orta rütbələr (hökumət katibləri, ober katiblər, haupt katiblər)

A10-A13- I pillə ali rütbələr (hökumət müfəttişləri, regiruns-amtsmanlar)

A14-A16-II pillə ali rütbələr (ali hökumət müşavirləri) [1].

AFR qanunvericiliyinə müvafıq olaraq dövlət qulluğuna ümumi rəhbərliyi öz fəaliyyətini qanunlar çərçivəsində müstəqil aparan və buna tam məsuliyyət daşıyan Kadrlar üzrə Federal komitə həyata keçirir [2].

Komitə 7 daimi və 7 dəyişilən üzvlərdən təşkil olunur. Daimi ştatlı üzvlərə Federal hesablama palatasının sədri (komitənin sədri), Federal Daxili İşlər Nazirliyinin hüquq idarəsinin rəhbəri, komitənin qalan 5 daimi üzvünü və onlarm müavinlərini daxili işlər nazirinin təqdimatı əsasında 4 il müddətə Federal prezident təyin edir. Bununla yanaşı üç daimi üzvü və üç müavini aparıcı həmkarlar təşkilatı verir.

Komitənin vəzifələrinə ictimai qulluğa aid olan ümumi əsasnamələrin hazırlanmasına komək etmək, təhsilin, imtahanların dövlət qulluqçularının təhsilinin artmaması səviyyəsi haqqında təlimatlar hazırlanmasına kömək etmək, qulluqçuların prinsipial əhəmiyyətli şikayətlərinə baxmaq, dövlət qulluqçuları haqqında təlimatların tətbiqində çatışmazlıqları aradan qaldırmaq üçün təkliflər vermək, dövlət vəzifələri tutan namizədlər haqqında bütün mühüm məsələlərə baxmaq daxildir. Komitə öz fəaliyyəti barəsində hökuməti məlumatlandırmağa borcludur. Komitənin qərarları bütün dövlət qulluqçularına aid prinsipial xarakter daşıyırsa, onlar dərc olunmalıdır [3].

---

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.82

[2] Государственная служба: политология. М., 1999.- С.250

[3] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı, Elm, 2005.- S.260

## 5.5. Rusiyada dövlət qulluğunun yaranması və inkişafı

Rusiyanın dövlət qulluğunun tarixi olduqca zəngindir. Qədim dövr Rusiyasında dövlət idarəçiliyi və dövlət qulluğu **hərbi strukturla qarşılıqlı əlaqəli olması ilə yanaşı vassallıq prinsipləri** üzərində qurulmuşdu. Bunun əsas səbəbi həmin dövrdə Rusiya knyazlıqlara bölündüyündən dövlətin həm idarə olunmasında, həm də müdafiəsi məsələlərində **Böyük knyazın** onun sarayında yaşayan silahlı dəstələrdən təşkil olunmuş **drujinalara** arxalanması idi. Hər bir knyazlıq müstəqil ərazi vahidi kimi müstəqil qaydada da idarə olunurdu. Knyazlığın idarə edilməsinə inzibatçılar, hərbiçilər, maliyyəçilər və digər işçilər cəlb olunurdu. Müəyyən dövr keçdikdən sonra drujinaların hərbi fəaliyyətdən uzaqlaşması və idarəçiliyə cəlb olunması nəticəsində, onlarda idarəçilik təcrübəsi artdı və bu Rusiyada peşəkar dövlət qulluğunun yaranmasını zəruri etdi. Bununla, XII əsrin sonunda drujina idarəçiliyinin əvəzinə yeni sistemin formalaşması prosesi başlandı. Bu sistem yaranmaqda olan təbəqəyə – **zadəganlığa** əsaslanırdı [1].

Monqol-tatarların basqını ilə şimal-şərqi Rusiya əraziləri Qızıl Ordadan asılı vəziyyətə düşdülər. Hakimiyyətdə irsilik ənənələrinə son qoyuldu, lakin idarəçiliklə bağlı məsələlər tatar xanlarının verdikləri xüsusi sənədlər – **"yarlık"** əsasında knyazlara həvalə olundu [2]. Rusiyada idarəçilik fəaliyyətinin müstəqil peşəkar sahəyə ayrılması, dövlət qulluğunun yaranması və inkişafı hələ XV-XVII əsrlərdən mərkəzləşdirilmiş, dövlətin formalaşdırılması ilə sıx bağlı olmuşdur. O dövrün qanunları Əlahəzrətə qulluq etmək istəyən hər bir itaətkar şəxsin işinin

---

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.88-89

[2] Гербештейн С. Записки о московитских делах/ Новокомский П.Н. Книга о московитском посольстве. СПБ: 1098.- С.23-24

xarakterini və həcmini dəqiq müəyyənləşdirməklə yanaşı, bunlardan boyun qaçıran şəxsləri də ciddi cəzalandırırdı.

Böyük Pyotrun hakimiyyəti dövründə dövlət qullugu peşəkar fəaliyyətin xüsusi sahəsinə çevrildi. XVIII əsrin əvvəllərində "Ali hakimiyyətin prinsipləri" deyilən əmrlər daimi vəzifələrə çevrilir və 1722-ci il yanvarın 24-də Pyotr assambleyası tərəfindən **"Qulluq dərəcələri cədvəli"** (Fərmanını tam adı: "Bütün növ hərbi, mülki və saray vəzifələrinin dərəcələri (rütbələri) haqqında cədvəl" idi) təsdiq edilir. Bu sənəd hazırlanarkən İngiltərə, Venetsiya Respublikası, Danimarka, Polşa Krallığı, Prussiya, Fransa və İsveçin mövcud qanunları yaradıcılıqla öyrənilmişdi. Bu da, ilk dəfə nəinki səmərəli hərbi və mülki xidmətin yaradılmasına imkan vermiş, həm də bu sahdə bütün sonrakı islahatların möhkəm hüquqi bazası olmuşdu. "Qulluq dərəcələri cədvəli"nin ilkin variantında dərəcələrin deyil, vəzifələrin ardıcıllğı müəyyənləşdirilirdi. Burada rütbələr hələ göstərilmirdi.

Cədvəl isə mülki, hərbi və sarayyanı dövlət qulluğu üçün 3 iyerarxiya sistemini müəyyənləşdirməklə 14 sinfə bölünmüşdü. Hərbi dərəcələr öz növbəsində quru qoşunlarına, qvardiya, artilleriya və dəniz qoşunlarına bölünürdü.

Lakin Pyotrun qanununun məqsədi təkcə rus məmurlarının təsnifatını vermək deyildi. "Qulluq dərəcələri cədvəli"ndə bütün təbəqələrin nümayəndələri rəsmən dövlət qulluğuna buraxılsa da, əslində onun zadəganyönümlü xarakteri açıq-aydın ifadə olunurdu və hər vasitə ilə töycü verən təbəqələrin və raznoçinlərin dövlət aparatında qulluğa daxil olmasını və xidmətdə irəliləməsini çətinləşdirirdi. Belə siyasət zadəgan dövlət qulluqçularının üstün mövqeyini təmin etmək, onların başqa təbəqələr tərəfindən üstələnməsinə yol verməmək zərurətindən doğurdu. *XVIII əsrin 60-cı illərindən bütün kateqoriyalardan olan dövlət qulluqçularına daimi əməkhaqqı verilməsi dövlətlə məmurlar arasında qarşılıqlı munasibətlərin prinsipcə yeni forması oldu.*

Sabit və ya müvafiq dövlət rütbəsi olan bütün yuxarırütbəli məmurlar onlar üçün müəyyən edilmiş məbləğə tam uyğun olaraq maaş alırdılar. Xırda dəftərxana işçiləri isə özlərinin tam tabeliyində olanların sayını ştat cədvəli çərçivəsində müəyyən etmək və onların əməkhaqqını bacarıq və səylərinə görə təyin etmək hüququ olan rəhbərlərdən asılı idilər.

Məmurların mərkəzi hakimiyyətdən asılılığını gücləndirən amillərdən biri də pensiyanın təyin edilməsi idi. Pensiyanı almaq üçün istefaya gedən qulluqçu 15 yaşından başlayaraq ən azı 35 il xidmət etməli idi. Bu şərt az əhəmiyyət daşımırdı. Kiçik dəftərxana vəzifələrində 12-13 yaşlarında, bəzən də daha tez xidmət etməyə başlayırdılar.

"Qulluq dərəcələri cədvəli"nə XVIII əsrdən başlayaraq, XIX və XX əsrin əvvəllərində Rusiyada hakimiyyətdə olmuş ayrı-ayrı çarların hökmranlığı dövrlərində yenidən baxılır və əlavələr edilirdi.

**I Pavelin və Aleksandrın** dövründə **"rütbəvermə qaydaları"** adlı xüsusi fərman verildi. "Qulluq dərəcələri cədvəli" ilə xidmətə daxilolma və pillələr üzrə irəliləmə qaydaları da müəyyən edilmişdi.

XIX əsrin əvvəllərində 11 və 13-cü dərəcə vəzifələri ləğv edildiyindən vəzifələrin real mərtəbəsi 11 dərəcəli vəzifələrdən təşkil edilmişdi. Vəzifələr şəbəkəsi rütbələrlə qarşılıqlı əlaqədə idi. Buna uyğun olaraq **imtiyaz şkalasının 2 növü** var idi:

1. Vəzifələr üzrə
2. Rütbələr üzrə

**Məmura müraciətetmə forması da iyerarxiya cədvəlinə tabe edilmişdi**:

a) Cədvəlin 1-2-ci dərəcələrinə "Ваше высокопревосходительство"
b) Cədvəlin 3-4-cü dərəcələrinə "Ваше превосходительство"
c) Cədvəlin 5-ci dərəcələrinə "Ваше высокородие"
d) Cədvəlin 6-8-ci dərəcələrinə "Ваше высокоблагородие"
e) Cədvəlin 9-14-cü dərəcələrinə "Ваше благородие"

Sistemin çoxölçülüyünə və detallaşdırılmasına görə onun analoqu yox idi. Bütün məmurlar mundir taxır, qışda isə şinel geyinirdilər ki, bunlarla da onların harada xidmət etdiyini və hansı vəzifə tutduğunu müəyyən etmək olurdu. Mundirlərə xüsusi fərqləndirici cəhətləri vermək üçün **xüsusi formalı paltarın aşağıdakı 7 variantı mövcud idi** və hansı günlərdə hansı paltarın geyilməli olduğu da müəyyənləşdirilirdi:

a) parad geyimi
b) bayram geyimi
c) adi geyim
d) gündəlik geyim
e) xüsusi geyim
f) yol geyimi
g) yay geyimi

XIX əsrin ortalarında Rusiyada kapitalizmin sürətlə inkişaf etməyə başlaması idarəetmə sisteminin mahiyyətcə dəyişilməsini və dövlət qulluğunda islahatların keçirilməsini obyektiv zərurətə çevirdi. Belə təklif XIX əsrin əvvəllərində **M.Speranski tərəfindən edildi.** Lakin o, Rusiyanın məmurlar sinfinin mentalitetini nəzərə almadığından bu islahat proqramı Çarın yaxın ətrafı, əyanlar və zadəganlar tərəfindən kəskin qarşıdurma ilə üzləşdi. Nəticədə, **Nikolayın çarlığının** ilk on ilində Speranski ideyalarının tamamilə əleyhinə olan "Mülki qulluq haqqında" Nizamnamə təsdiq edildi.

Onun vaxtında dövlət bürokratik maşının bir çox pilləri yaradıldı. İlk dəfə müvafıq qanunvericilik kodifikasiya olundıı və mülki qulluq haqqında qanunlar toplusu qəbul edildi. Dövlət aparatında işləmək hüququ olan bütün şəxslər üç dərəcəyə bölündü: ali və orta məktəblərində elmi kursları bitirmiş səxslər,habelə öz təhsilini başa vura bilməyən şəxslər [1].

1835-ci ildə I Nikolay "14-cü sinifdən 15-ci siniflərə

[1] Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004.- S.90-92

qədər mülki qulluq vəzifələrinin təsviri haqqında" fərman imzaladı. Bu fərmanda Rusiya imperiyasında dövlət qulluguna qəbulun əsas şərtləri müəyyən edildi. Bu şərtlərin arasında mənşəyi, yaşı, təbəqəliyi və "vətəndaş şərəfi" şərtləri də var idi. Əlahəzrət imperatora xidmət etməkdə zadəgan nəsilləri, onların oğulları, habelə zabitlərin və fəxri vətəndaşlıq almış məmurların övladları, din xadimləri və başqaları üstünlük hüququna malik idilər. Dövlət qulluğuna 14 yaşından daxil olmağa icazə verilirdi, lakin əslində o, 16 yaşından hesablanırdı.

Dəftərxana qulluqçusu və məmuru vəzifəyə təyin edildikdən sonra əməkhaqqından, yemək və mənzil pullarından ibarət aylıq məvacib alırdı. İdarənin rəhbəri ştatdan asılı olmayaraq, iş üçün nə qədər adam tələb olunurdusa, o qədər işçi götürmək hüququna malik idi. Bu yolla qənaət edilən pullardan daha çox fərqlənənləri mükafatlandırmaq üçün istifadə oluna bilərdi. Hər bir qulluqçu dörd aya qədər məzuniyyət götürə bilərdi, o cümlədən, əməkhaqqı saxlanılmaqla iki ay məzuniyyət ala bilərdi. Dövlət qulluğunun üstün cəhətlərindən biri də pensiyalar idi. Bu pensiyalar yüksək olurdu və Rusiya imperiyasının sadə təbəqələri bunu heç xəyallarına da gətirə bilməzdilər. Pensiyalar "Mülki idarələr üzrə pensiyalar və birdəfəlik müavinətlər haqqında ümumi nizamnamə"yə uyğun təyin olunur və tənzimlənirdi.

Rusiyada dövlət qulluğunda dəyişikliklər **II Aleksandrın liberal islahatları** dövründə də həyata keçirildi. Bu islahatlar məmur iyerarxiyasının ali səviyyəsinin avtoritar deyil, liberal xarakter daşımasına istiqamətləndiyindən II Aleksandrın qətlə yetirilməsi ilə bu dəyişikliklər dərin kök salmağa macal tapmadı.

XX əsrin əvvəllərində **II Nikolayın çarlığı dövründə** dövlət qulluğunun islahatlrı yönündə yeni dalğa başlandı. İslahatların təşəbbüskarı dövlət idarəçiliyində əvvəlcə Yollara nəzarət naziri kimi, sonradan Maliyyə naziri kimi işləmiş, daha sonra isə Nazirlər Sovetinin sədri vəzifəsini tutan **S.Y.Vitte**

olmuşdu. O, maliyyə islahatlarının və sənayenin inkişafına dair bir çox tədbirlərin həyata keçirilməsinə nail oldu. Vittenin fəaliyyəti Rusiyanın tarixində imperiyanın süqutu ilə nəticələnən və 1917-ci il hadisələrinə gətirib çıxaran dövrə təsadüf etdi.

*1917-ci ildə dövlət qulluğu haqqında çarın manifest və fərmanlarının hüquqi əsasını təşkil edən, Pyotrun 200 il istifadə olunan "**Qulluq dərəcələri cədvəli**" **ləğv edildi.*** Bunun əvəzinə partiya mənsubiyyəti prinsiplərinə və kommunizm ideyalarına sədaqət prinsipi əsasında aşağıdan yuxarıya partiya, dövlət və ictimai təşkilatların bütün dərəcə və pillələrini əhatə edən kadrların seçilib yerləşdirilməsinin nomenklatur sistemi yarandı. Nazirlik və ya idarədə nomenklatur vəzifəyə hər hansı mütəxəssisi qəbul etmək üçün mütləq müvafiq partiya orqanının sanksiyası tələb olunurdu. Yuxarı dərəcəli məmurlar tamamilə partiya liderinin və onun ətrafının münasibətindən asılı idi. Dövlət aparatının təkcə aşağı pillələrinin məmurları deyil, əslində müəssisə və təşkilatların az-çox böyük rəhbərləri də çox ciddi partiya nəzarəti altında idilər. SSRİ-də bütün dövlət qulluqçuları inzibati idarə heyəti sayılırdı. Onların xalis idarəetmə işçilərindən fərqləndirmək cəhdi dövlət idarəetmə orqanı anlayışının mənasını tamamilə dəyişirdi [1].

Leninin ölümündən sonra hakimiyyətə gəlmiş **Stalin SSRİ-yə** rəhbərliyi dövründə dövlət qulluğunun prinsiplərini təkbaşına müəyyən etdi, idarəetmə kadrlarının seçilməsi, tərbiyələndirilməsi və yoxlanılmasının dəqiq mexanizmini yaratdı. Stalinin ölümü ilə sovet bürokratiyasının prinsiplərində bir çox dəyişikliklər baş verdi. Rəhbərin dəyişdirilməsinin yeni mexanizmi rəsmiləşdirildi. Cəza maşınının hərəkəti dayandırıldı və məmurlar sırasında formalaşmış “qorxu” hisslərinə son qoyuldu. Məmurlar geniş müstəqillik və sərbəstlik əldə etdilər.

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı: Ozan nəşriyyatı, 2004.- S.27-28

N.S.Xruşovun rəhbərliyi dövründə dövlət qulluğu mütəmadi olaraq nisbi liberallaşma istiqamətində addımlayırdı.

60-cı illərin ortalarında **L.İ.Brejnevin gəlişi** ilə dövlət qulluğunun liberallaşmasına son qoyuldu. Ölkədə partiya rəhbərliyinin güclənməsi ilə cəmiyyətin idarə olunmasında onun misilsiz rolu artmaqda idi. Nomenklatura vəzifələrinin siyahısı genişləndirildi və vəzifədə qalmaq müddətləri genişləndirildi.

80-ci illərin sonunda SSRİ-də dövlət qulluğu təsisatının hüquqi rəsmiləşdirilməsi başlandı. Buna səbəb isə 80-ci illərin ortalarına doğru ölkədə bütün sahələri əhatə edən dərin böhran yetişirdi, nomenklaturaya əsaslanan idarəetmə sistemi artıq öz mənfi tərəflərini büruzə verirdi. Cəmiyyətdə ciddi dəyişikliklər edilməsi məqsədi ilə **M.S.Qorbaçov** tərəfindən SSRİ-də "yenidənqurma" adlanan islahatlar kursu həyata keçirildi. Bu islahatlar isə SSRİ-nin dağılmasına və suveren, müstəqil dövlətlərin yaranmasına gətirib çıxartdı.

1995-ci ildə Rusiya Federasiyasında "Dövlət qulluğunun əsasları haqqında" Qanun qəbul edildi. Bu qanunla Rusiyada dövlət qulluğu anlayışının tərifi verildi, dövlət vəzifələrinin kateqoriyaları müəyyənləşdirildi, aparat işçilərinə verilən səriştəlilik tələblərinin siyahısı, onların statusu, vəzifələri və onlar üçün qoyulmuş məhdudiyyətlər göstərildi. Rusiyada bu qanun hazırlanarkən inqilabaqədərki Rusiyada olan təcrübəyə əsaslanaraq I Pyotrun "Qulluq dərəcələri cədvəli"nin bəzi müddəaları bərpa edildi. Bir çox anlayışlar Avropa ölkələrində, o cümlədən, Avstriya, İtaliya, AFR, Fransa və Finlandiyada müharibədən sonra dövlət idarəetməsində aparılmış islahatlar praktikasından götürüldü. Məhz bu ölkələrdə 40-50-ci illərdə dövlət qulluğu haqqında çərçivə qanunları qəbul edilmiş, sonradan dövlət qulluqçularının gəlirləri və pensiyaları, onların qulluq-keçmə qaydası haqqında əlavə qanunlar qəbul edilmişdi.

## Yoxlama üçün suallar:

1. *Amerika bürokratiyasında "Cekson demokratiyası" dövründə məmurluq;*
2. *Amerika dövlət qulluğunda "Qənimət sistemi" və Pensiya fondu;*
3. *"Nailiyyətlər sisteminin" tətbiqi, Pendlton qanunu;*
4. *XX əsr Amerika islahatları və Hetç qanunu;*
5. *Böyük Britaniya dövlət qulluğu institutunun inkişafında Nortkot-Trevelyan məruzəsi;*
6. *Böyük Britaniya dövlət qulluğunda Fulton məruzəsi və Tetçer proqramı;*
7. *Fransa dövlət idarəçiliyi sistemində monarxiya dövrünün xarakteristikası;*
8. *Fransa dövlət qulluğunda "Karyera konsepsiyası"nın məzmunu;*
9. *Almaniyada dövlət qulluğu "Siyasi və "fəxri" mə-murluğun mahiyyəti";*
10. *Almaniyada dövlət qulluqçularının ixtisas dərəcələri və pensiya təminatı;*
11. *Rusiyanın "Qulluq dərəcələri cədvəli"nin məzmunu, dəftərxana qulluqçusu və məmuru;*

# VI FƏSİL

# AZƏRBAYCANDA MÜASİR DÖVLƏT QULLUĞUNUN YARADILMASI, VƏZİFƏLƏRİ VƏ PRİNSİPLƏRİ

## 6.1. Dövlət qulluğu haqqında ümumi müddəalar və onun əsas məqsədi

Azərbaycanda dövlət müstəqilliyi əldə edildikdən sonra demokratik hüquqi dövlət quruculuğu sahəsində görülən işlərdən biri də müvafiq dövlət hakimiyyəti orqanlarının strukturunun təkmilləşdirilməsi və dövlət qulluğunun hüquqi bazasının yaradılması olmuşdur.

Yeni iqtisadi münasibətlərin formalaşması dövlət idarəetmə sistemində də köklü islahatlar aparılmasını tələb etdiyindən Azərbaycan Respublikasının Prezidenti ümummilli lider Heydər Əliyevin 29 dekabr 1998-ci il tarixli Fərmanı ilə Dövlət İdarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradılmışdır. Fərmanda göstərilmişdir ki, demokratikləşmə və bazar münasibətləri sahəsində islahatlar dövlət idarəçiliyinin səmərəliliyini artırmalı, iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən hüquqi baza yaradılmasını təmin etməlidir.

21 iyul 2000-ci ildə qəbul olunmuş və 2004-cü il sentyabrın 1-dən qüvvəyə minmiş "Dövlət qulluğu haqqında" Qanunun qəbul olunması da məhz həmin **məqsədi daşıyır** və qeyd etdiyimiz kimi, cəmiyyətimizin geniş bir təbəqəsinin hüquqlarını və vəzifələrini müəyyənləşdirir. Qanun bu sahədə mövcud olan bütün məsələləri və problemləri ümumi şəkildə tənzimləməklə bərabər, həm də Azərbaycanın tarixində bu qəbildən ilk mükəmməl sənəddir. Bu qanun hazırlanarkən dünyanın demokratik ölkələrinin qanunvericilik təcrübəsindən istifadə olunsa da, xalqımızın mentaliteti və milli dövlətçilik ənənələri

əsas götürülmüşdür. Belə geniş əhatəli qanunun icrası bir çox başqa qanunvericilik aktlarında da müvafiq dəyişikliklər edilməsini, onun həyata keçirilməsi və icrası mexanizminin yaradılmasını, bundan irəli gələn normativ hüquqi sənədlərin işlənib hazırlanmasını tələb edir.

Dövlət qulluğunun **məqsədi** Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətləri və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələləri tənzimləməkdir [1].

Qanun cəmi 6 fəsil və 35 maddədən ibarətdir. Qanun icra, qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara şamil edilir. Qanunda dövlət qulluğunun idarəetmə orqanlarının, dövlət qulluğunun əsas vəzifələrinin və prinsiplərinin nədən ibarət olduğu, dövlət orqanının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu olduğu göstərilir.

Yuxarıda qeyd edildiyi kimi, "Dövlət qulluğu haqqında" Qanunla əlaqədar normativ hüquqi sənədlər paketi genişdir və bu işin bütün aspektlərini əhatə edir. Bu aktlardan "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" 2001-ci il 22 iyun tarixli, "Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə 2002-ci il 29 mart tarixli, "Dövlət qulluqçularının icbari sığortası haqqında" 2002-ci il 30 aprel tarixli, "Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqqın təyin edilməsi haqqında" 2002-ci il 31 may tarixli, "Dövlət qulluqçularının vəzifə maaşlarına

---

[1] Dövlət qulluğu haqqında sənədlər toplusu. Azərbaycan dilində. Bakı: Qanun, 2009.- S.3

yerli əmsalların müəyyən edilməsi haqqında" 2002-ci il 31 may tarixli, "Dövlət qulluqçularının pensiya təminatı haqqında" 2004-cü il 1iyun tarixli Azərbaycan Respublikası qanunlarını və Azərbaycan Respublikası Prezidentinin "Dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və qəbul edilməsi qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 9 avqust tarixli, "Dövlət orqanlarında daimi dövlət qulluğuna qəbula dair Azərbaycan Respublikası adından verilən şəhadətnamənin nümunəsinin təsdiq edilməsi barədə" 2001-ci il 9 avqust tarixli, "3-cü dərəcə dövlət müşaviri və ondan yuxarı ixtisas dərəcələri almış dövlət qulluqçusuna verilən vəsiqənin təsvirinin və nümunəsinin təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsilə qəbul qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Sınaq müddəti ilə müvafiq dövlət orqanlarında dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin (kontraktının) nümunəsinin təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluğuna qəbul edilən şəxsin dövlət qulluğunda işləməsinin mümkün olub-olmamasının qabaqcadan yoxlanılması qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2001-ci il 3 sentyabr tarixli, "Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurasının üzvlərinin təyin edilməsi haqqında " 2001-cı il 1 oktyabr tarixli, "Dövlət orqanlarında dövlət qulluqçusunun vəzifədə qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi qaydalarının təsdiq edilməsi barədə" 2002-ci il 28 yanvar tarixli, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli, "İcra

hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrin Siyahısı"nın təsdiq edilməsi haqqında" 2003-cü il 22 oktyabr tarixli, "Dövlət qulluqçuları üçün bəzi təminatlar haqqında" 2003-cü il 23 oktyabr tarixli, "Qulluq üçün zəruri olan hallarda aylıq iş vaxtı norması 5 saatdan çox artırılanda işlədiyi hər saata görə dövlət qulluqçusuna ödənilən əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi qaydalarının təsdiq edilməsi barədə" 2003-cü il 23 oktyabr tarixli, habelə yuxarıda adları çəkilən qanunların tətbiqi haqqında 2000-ci il 29 dekabr, 2002-ci il 29 may, 5 iyul, 24 avqust, 6 dekabr, 2004-cü il 3 avqust tarixli fərmanları göstərmək lazımdır.

## 6.2. Dövlət qulluğunun növləri və təsnifatı

**Dövlət qulluğu** Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir.

Bu Qanun icra, qanunvericilik və məhkəmə hakimiyyətləri orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara **şamil edilir**.

Prokurorluq, ədliyyə, milli təhlükəsizlik, müdafiə, fövqəladə hallar, sərhəd xidməti, xüsusi dövlət mühafizə xidməti, miqrasiya xidməti, daxili işlər, gömrük, vergi, xarici işlər və feldyeger rabitəsi orqanlarında, Azərbaycan Respublikasının Mərkəzi Bankında dövlət qulluğunda çalışan şəxslərin dövlət qulluğu keçməsi bu Qanunun Azərbaycan Respublikası vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququna, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə, dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə və dövlət qulluğunun digər prinsiplərinə aid müddəaları nəzərə alınmaqla, Azərbaycan Respublikasının başqa qanunları ilə tənzimlənir və bu orqanlarda qulluq dövlət qullu-

ğunun **xüsusi növüdür**.

Bu orqanların (Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla) aparatlarında çalışan və hərbi və ya xüsusi rütbəsi olmayan şəxslərə (dövlət qulluqçusu olmayan işçilər – xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. istisna olmaqla) bu Qanun şamil edilir.

“Dövlət qulluğu haqqında” Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanun Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikası Milli Məclisinin deputatlarına, Azərbaycan Respublikasının Baş nazirinə və onun müavinlərinə, Azərbaycan Respublikası məhkəmələrinin hakimlərinə, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (Ombudsmana), Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavinlərinə, katibinə və üzvlərinə, Azərbaycan Respublikası Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə (başçılarına), Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və onun müavinlərinə, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, habelə hərbi qulluqçulara **şamil olunmur**.

Müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçilərinə "Dövlət qulluğu haqqında" Qanun şamil edilmir. Bu işçilərin əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir [1].

**Dövlət qulluğunun növləri dedikdə** müvafiq orqanların məqsəd və funksiylarına uyğunlaşmış, məzmununa görə ixti-

---

[1] Dövlət qulluğu haqqında sənədlər toplusu. Azərbaycan dilində. Bakı: Qanun, 2009.- S.3-4

saslaşma başa düşülür. Dövlət qulluğu çoxməqsədli funksional-fəaliyyət xarakterlidir. Dövlət qulluğunun çoxsaylı və müxtəlif vəzifə və funksiyalar yerinə yetirməsi, müxtəlif növ peşəkar dövlət-qulluq fəaliyyəti onun struktur differensiasiyası və ixtisaslaşma etməyə əsas verir.

Dövlət qulluğunu xüsusiyyətləri üzrə növlərə elmi əhatəliklə və gerçəkliklə ayırmağa imkan verən universal meyarlar tapmaq imkandan kənardır. Buna baxmayaraq, elmi ədəbiyyatlarda dövlət qulluğunun aşağıdakı **əlamətlərə görə təsnifatı** aparılır: [1]

1. dövlət qulluğunun fəaliyyyət dairəsi və səlahiyyətinə;
2. professional ixtisaslaşma və idarəetmə obyektinin xüsusiyyətlərinə;
3. dövlət hakimiyyət sistemində hüquqi statusuna və digər xüsusiyyətlərinə görə.

Dövlət qulluğu **ümumi dövlət qulluğu** və **xüsusi dövlət qulluğu növlərinə** bölünür.

**Ümumi dövlət qulluğuna** hakimiyyətin bölünmə prinsiplərinə uyğun olaraq, **Prezident dövlət qulluğu** (Prezidentin icra aparatı); **Parlament dövlət qulluğu** (Milli Məclis); **İcra hakimiyyəti dövlət qulluğu** idarəçiliyin müxtəlif fəaliyyət sahələri üzrə tənzimlənməsinə görə: **sosial müdafiə** (Mədəniyyət və Turizm, Təhsil, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu); **təsərrüfat iqtisadi** (İqtisadi İnkişaf və Sənaye Nazirliyi, Maliyyə Nazirliyi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi); **İstehsal və digər infrastrukturlar** (Nəqliyyat Nazirliyi, Dövlət Statistika Komitəsi); **Kənd təsərrüfatı** (K/T nazirliyi, Dövlət Torpaq Komitəsi) daxildir.

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.16-18

**Xüsusi dövlət qulluğuna – Diplomatik dövlət qulluğu** (Xarici İşlər Nazirliyi); **Vergi dövlət qulluğu** (Vergilər Nazirliyi); **Hüquq müdafiəsi dövlət qulluğu** (Ombudsman aparatı); **Nəzarət təftiş dövlət qulluğu** (Hesablama Palatası, Dövlət texniki nəzarət komitəsi); **Maliyyə-kredit dövlət qulluğu** (Mərkəzi Bank); **Məhkəmə orqanlarının aparatlarının dövlət qulluğu** (Konstitusiya məhkəməsi, bütün məhkəmələrin aparatları); **Hüquq-mühafizə dövlət qulluğu (**Daxili İşlər Nazirliyi**)** və s [1].

## 6.3. Dövlət qulluğunun əsas vəzifələri

"Dövlət qulluğu haqqında" Qanundan irəli gələn vəzifələrin həyata keçirilməsi və ölkəmizdə yeni əsrin kadrlarının formalaşdırılması üçün respublika rəhbərliyi tərəfindən bu məsələlərə böyük diqqət yetirilir və ciddi işlər aparılır. Bu sahədə işin əsas məqsədi respublikada kadrlarla iş proseslərinin düzgün tənzimlənməsi, son nəticədə bunun cəmiyyətin həyatına müsbət təsir göstərməsi, fəaliyyət qabiliyyətli dövlət qulluğunun və səmərəli kadr siyasətinin formalaşmasıdır. Bu isə sadə məsələ deyildir. Burada həm dövlət qulluğunun nəzəriyyəsi və təşkili, dövlət kadr siyasətinin və onun reallaşdırılması mexanizmi, həm də dövlət xidmətində çalışanların özünün idarə olunması məsələləri işlənib hazırlanmalıdır.

Hər bir ölkənin dövlət qulluğunu təşkil etməkdə, dövlət qulluqçularını hazırlamaqda öz yanaşma metodları vardır. Bu həmin ölkənin milli mentalitetindən, mədəniyyətindən, tarixindən, ənənələrindən, siyasi sistemindən və bir çox başqa amillərdən asılıdır. Ona görə də ölkəmizdə dövlət qulluğunun yenidən

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.16-18

təşkilində inkişaf etmiş ölkələrin, habelə qonşu dövlətlərin təcrübəsini diqqətlə öyrənməklə yanaşı, həm də onu öz reallıqlarımıza uyğunlaşdırmağı, bizim şəraitə uyğun tətbiq etməyi və müəyyən təkamül prosesini gözləməyi bacarmalıyıq.

Dövlət qulluğunun **əsas vəzifələri** aşağıdakılardır:

1. Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktları əsasında vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi;

2. dövlət orqanlarının səlahiyyəti hüdudlarında qərarların hazırlanması, qəbul edilməsi, icrası və icraya nəzarət edilməsi;

3. dövlət orqanlarının səmərəli fəaliyyətinin və dövlət qulluqçuları tərəfindən vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi [1].

## 6.4. Dövlət qulluğunun təşkilinin əsasları və prinsipləri

Dövlət qulluğunun praktiki təşkili və funksiya göstərməsi üçün ideya və müddəaları müəyyən edən prinsiplərə əsaslanır.

**Prinsipin** mənası qanunvericilikdə təsbit olunan, nəzəri və praktiki fəaliyyətdə tətbiq olunan, elmi mövqedən dərk və ifadə edilən, insanların həyat fəaliyyətində müəyyən qanunauyğunluq, münasibətlərin və qarşılıqlı əlaqələrin ifadəsidir.

Dövlət qulluğunun yaradılmasında **hüquq** və **təşkilati** prinsiplər mühüm əhəmiyyət daşıyır.

**Hüquq prinsipləri** konstitusiya və digər qanunvericilik aktlarında müəyyən olunur.

**Təşkilati prinsiplər** dövlət qulluğunun funksiya göstərilmə mexanizmində əks olunur.

---

[1] Dövlət qulluğu haqqında sənədlər toplusu. Azərbaycan dilində. Bakı: Qanun, 2009.- S.5

Bu prinsiplər qarşılıqlı əlaqədə olmaqla, ayrılıqda hər birinə əməl etməklə digərlərinin reallaşmasına kömək edir və əksinə hər hansı bir prinsipə əməl olunmazsa o, başqalarında mənfi hal yaradır.

Dövlət qulluğu aşağıdakı **prinsiplərə** əsaslanır:

1. qanunçuluq;

2. Azərbaycan Respublikasında qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyət hüdudlarının müəyyən edilməsi;

3. dövlət orqanlarına və dövlət qulluqçularına nəzarət və onların hesabat verməsi;

4. yuxarı dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı dövlət orqanları və vəzifəli şəxslər tərəfindən mütləq yerinə yetirilməsi (iyerarxiya və subardinasiya);

5. bütün vətəndaşların və vəzifəli şəxslərin dövlət qulluqçularının qanuni tələblərini icra etməyə və qanuni hərəkətlərini müdafiə etməyə borclu olması;

6. dövlət qulluğuna qəbulun şəffaflığı;

7. vətəndaşların dövlət qulluğuna müsabiqə və müsahibə əsasında qəbul edilməsi;

8. vətəndaşların öz qabiliyyətlərinə, xidməti nailiyyətlərinə və peşə hazırlığına uyğun olaraq dövlət qulluğunun hər hansı vəzifəsini tutmaqda hüquq bərabərliyi;

9. irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə, əmlak və qulluq vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai birliklərə mənsubiyyətindən, habelə qulluqçuların işgüzarlıq keyfiyyətlərinə aid olmayan başqa səbəblərdən asılı olmayaraq dövlət qulluqçularının hüquq bərabərliyi;

10. dövlət qulluqçularının potensialının səmərəli istifadəsi, xidməti və peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə onların rotasiyası;

11. dövlət qulluqçularının sosial və hüquqi müdafiəsi, on-

ların özləri və ailələri üçün ləyaqətli yaşayış səviyyəsinin təmin edilməsi;

12. qulluq borcunun yerinə yetirilməsi üçün dövlət qulluqçusunun cavabdehlik daşıması, eləcə də dövlət qulluqçusunun hərəkətlərinə görə dövlət orqanının cavabdehlik daşıması (vəzifə məsuliyyəti) [1].

Onu da qeyd etmək lazımdır ki, dövlət orqanlarında siyasi partiyaların və ictimai birliklərin strukturları yaradılmır. Dövlət qulluqçuları vəzifə borclarını yerinə yetirərkən Azərbaycan Respublikası Konstitusiyasını, qanunlarını və onlara müvafiq olaraq qəbul edilmiş digər qanunvericilik aktlarını rəhbər tuturlar və siyasi partiyaların və ictimai birliklərin qərarlarının onlara aidiyyatı yoxdur.

## Yoxlama üçün suallar:

1. *Dövlət qulluğu anlayışı;*
2. *Dövlət qulluğunun növləri;*
3. *Ümumi dövlət qulluğu;*
4. *Xüsusi dövlət qulluğu;*
5. *Dövlət qulluğunun əlamətlərə görə təsnifatı;*
6. *Dövlət qulluğunda hüquqi prinsiplər;*
7. *Dövlət qulluğunda təşkilati prinsiplər.*

---

[1] Dövlət qulluğu haqqında sənədlər toplusu. Azərbaycan dilində. Bakı: Qanun, 2009.- S.5-6

# VII FƏSİL

# DÖVLƏT ORQANLARI VƏ ONLARIN TƏSNİFATI

## 7.1. Dövlət orqanı anlayışı

Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda Azərbaycan Respublikasının məqsəd və funksiyalarını həyata keçirən, qanunvericiliyə uyğun olaraq yaradılmış və dövlət büdcəsindən maliyyələşdirilən dövlət qulluqçularının qurumu **dövlət orqanıdır**.

**Dövlət orqanının bölməsi** bu orqanın qanunvericilik aktlarında nəzərdə tutulmuş, yaxud müəyyən edilmiş qaydada təsis olunan elə struktur hissəsidir ki, özünə həvalə edilmiş funksiyalar çərçivəsində həmin orqanın səlahiyyətlərinin bir hissəsini həyata keçirir.

Dövlət aparatının əsas struktur elementi dövlət orqanı sayılır. **Dövlət orqanı** özünün daxili strukturu, müəyyən səlahiyyətləri olan özünəməxsus metodlarla fəaliyyət göstərən qanun əsasında yaradılan dövlət aparatının bir hissəsidir. Hər bir dövlət orqanı əvvəlcədən öz təyinatı, məqsədyönlüyü, konturu, struktur quruluşu, hüquqi tənzimlənməsi, maliyyələşməsi və funksiya göstərməsinin forma və metodları, qəbul etdiyi hüquqi aktların növləri və onların praktiki həyata keçməsini təmin edən üsullarla xarakterizə olunur, bir-birindən yerinə və səviyyəsinə, səlahiyyətlərinə, müvafiq təşkilati strukturunu əks etdirən hüquqi statusuna görə fərqlənir.

Dövlət orqanının strukturu iki elementdən: **vəzifə və "aparatda iş yerindən"** yaranır və onun funksiya göstərməsi mexanizminə xidmət edir. Vəzifə və "aparatda iş yeri" dövlət orqanı ilə şəxsiyyəti əlaqələndirən vasitə olmaqla, dövlət funksiyalarının həyata keçirilməsini reallaşdırır.

Qanunvericilikdə dövlət orqanlarının səlahiyyətlərinin

həyata keçirilməsinin təşkilati-hüquqi formaları (qərarların qəbulunda **təkbaşına və kollegial**) hüquqları göstərilir.

Mərkəzi icra hakimiyyəti orqanlarında – Nazirlik, dövlət şirkətlərinin, dövlət komitələrində səlahiyyətləri bir qayda olaraq **kollegial formada** (kollegiya iclaslarında) həyata keçirilir[1].

## 7.2. Dövlət orqanlarının təsnifatı

"Dövlət qulluğu haqqında" Qanunun Dövlət orqanları adlanan II fəslinin 8-ci maddəsində dövlət orqanlarının təsnifatı verilmişdir. Bu qanuna əsasən dövlət orqanları onların statusu, iyerarxiyası və yurisdiksiyası (ölkə, region və yerli səviyyədə) nəzərə alınmaqla **aşağıdakı kateqoriyalar üzrə təsnifatlaşdırılır:**

1. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə əsasən müəyyən edilən Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyətinin ən yüksək dövlət orqanları, habelə yuxarı icra orqanı – Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən və icra səlahiyyətlərini həyata keçirən orqanlar, Azərbaycan Respublikasının Milli Məclisi, Ali konstitusiya ədalət mühakiməsi səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi **(Ali kateqoriya dövlət orqanları);**

2. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilən dövlət orqanları – Azərbaycan Respublikasının

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.19-21

Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, Azərbaycan Respublikasının Baş Prokurorluğu, Azərbaycan Respublikasının Hesablama Palatası, Məhkəmə-Hüquq Şurasının Aparatı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı **(1-ci kateqoriya dövlət orqanları);**

3. əsas səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Konstitusiya qanunları, Azərbaycan Respublikasının qanunları ilə və Azərbaycan Respublikasının Konstitusiyasının 113-cü maddəsi ilə müəyyən edilən dövlət orqanları – Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanı, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) Aparatı, Azərbaycan Respublikasının apelyasiya məhkəmələri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Aparatı, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyi, müvafiq icra hakimiyyəti orqanları, Milli Televiziya və Radio Şurasının Aparatı **(2-ci kateqoriya dövlət orqanları);**

4. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri və dövlət xidmətləri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) regional mərkəzləri, Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasının Aparatı, Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının Aparatı, ağır cinayətlər məhkəmələri, inzibati-iqtisadi məhkəmələr, hərbi məhkəmələr, Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu, Bakı

şəhər prokurorluğu **(3-cü kateqoriya dövlət orqanları);**

5. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü, 120-ci və 124-cü maddələri ilə və qanunla müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanları, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlar, rayon (şəhər) məhkəmələri, rayon (şəhər) prokurorluqları və hərbi prokurorluqları **(4-cü kateqoriya dövlət orqanları)**;

6. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 113-cü və 124-cü maddələri ilə müəyyən edilən dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların yerli bölmələri, müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndəlikləri **(5-ci kateqoriya dövlət orqanları)** [1].

### 7.3. Dövlət qulluğu vəzifəsi anlayışı

Azərbaycan Respublikasında dövlət qulluğu vəzifəsi "Dövlət Qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununun III fəslində öz əksini tapmışdır. Bu qanunun dövlət qulluğu vəzifəsi adlanan III fəslinin 9-cu maddəsində dövlət qulluğu vəzifəsinin anlayışı verilmişdir.

Dövlət qulluğu vəzifəsinin anlayışında qeyd olunur ki, **dövlət qulluğu vəzifəsi** dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir. Həmin vəzifəni tutan şəxsin səlahiyyət və funk-

---

[1] http://www.asan.az/az/content/blog/251/azerbaycan_ respublikasinin_qanunlari

siyalarının hüdudları həmin orqanın səlahiyyətindən asılı olaraq müəyyən edilir.

Məlumdur ki, dövlət qulluğunu müəyyən edən əsas əlamət onun dövlət vəzifəsinə bağlılığıdır. Hüquqi ədəbiyyatda vəzifə anlayışına çoxlu baxışlar mövcuddur. Bu anlayışlar bir-birinə yaxın olub əsas diqqət aşağıdakı əlamətlərlə səciyyələndirilir: vəzifə dövlət tərəfindən təsis edilir, dövlət orqanı strukturunda vəzifənin yerindən asılı olaraq vəzifə və hüquqlar verilir; orqanın ilkin struktur vahidi olub, orqanın vəzifələrinin yerinə yetirilməsi üçün yaradılır, özündə orqanın səlahiyyətlərinin bir hissəsini birləşdirir. Qeyd olunan əlamətlər vəzifənin hüquqi mahiyyətini əks etdirir.

Dövlət qulluğu vəzifəsi fəslində dövlət qulluğu vəzifəsinin anlayışından başqa 10-cu maddədə dövlət orqanlarında vəzifələrin təsnifatı, 11-ci maddədə inzibati və yardımçı vəzifələrin təsnifatı, 12-ci maddədə inzibati və yardımçı vəzifələrin təsnifat toplusu, 13-cü maddədə isə inzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri verilmişdir.

Qüvvədə olan "Dövlət Qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa görə dövlət qulluğu vəzifələrinin, funksiyalarının məzmunundan, səlahiyyətlərin mənbəyindən və tutulması üsullarından asılı olaraq **inzibati və yardımçı** vəzifələrə bölünür.

Dövlət orqanlarında dövlət siyasətinin formalaşdırılması qanunvericilik və başqa norma yaradıcılıq fəaliyyətini həyata keçirmək üçün Konstitusiya və başqa qanunvericiliklə **siyasi xarakterli dövlət vəzifələri** təsis edilir və dövlət qulluğu haqqında qanun onlara şamil edilmir.

**Siyasi xarakterli dövlət vəzifələrinin** siyahılarına Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Baş Nazir və onun müavinləri, Azərbaycan Respublikası məhkəmələrinin hakimləri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman), Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti

orqanlarının rəhbərləri və onların müavinləri, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri, sədr müavinləri, katibi və üzvləri, Azərbaycan Respublikası Hesablama Palatasının sədri, sədr müavini və auditorları, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri (başçıları), Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri, habelə hərbi qulluqçular daxildir.

Konstitusiyada bəzi siyasi vəzifələrin xüsusiyyətləri: AR Prezidentinin vəzifəsi (99-113 maddələrdə), Baş nazirin vəzifəsi (118-123 maddələr), Nazirlər Kabinetinin tərkibinə daxil olan vəzifələr (115-117, 121-122 maddələrdə) göstərilmişdir [1].

Respublikamızda **ali icra hakimiyyəti orqanı** funksiyasını prezident və onun İcra Aparatı, **yuxarı icra hakimiyyəti orqanı** funksiyasını respublika prezidenti tərəfindən təsdiq edilən Nazirlər Kabineti, **Mərkəzi icra hakimiyyəti orqanı** funksiyasını isə nazirliklər, dövlət komitələri və digər dövlət orqanları həyata keçirirlər. Respublikanın şəhər və rayonlarında isə bu funksiyanı prezident tərəfindən təyin edilən (yerli icra hakimiyyəti orqanı) icra hakimiyyəti başçıları həyata keçirirlər.

## 7.4. Dövlət orqanlarında vəzifələrin təsnifatı

Dövlət orqanlarında vəzifələr, həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq **inzibati və yardımçı** vəzifələrə bölünür.

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.25

**İnzibati vəzifələr** Ali-5-ci kateqoriya dövlət orqanları aparatları və bölmələri rəhbərlərinin, onların müavinlərinin, habelə dövlət qulluğunda çalışan mütəxəssislərin vəzifələridir. İnzibati vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir.

**Yardımçı vəzifələr** Ali-5-ci kateqoriya dövlət orqanlarında texniki işləri həyata keçirən dövlət qulluqçularının (kargüzar, makinaçı, kuryer, arxiv qeydiyyatçısı, liftçi, sürücü və s. işçilərin) vəzifələridir. Yardımçı vəzifə tutan şəxsin hüquqi statusu müvafiq orqanın səlahiyyətlərini müəyyən edən qanunvericilik aktları ilə, habelə vəzifə təlimatları ilə müəyyən edilir[1].

**Siyasi vəzifələri tutan şəxslərin** hüquqi statusu başqa qanunvericilik aktları ilə müəyyən olunur və bu "Dövlət qulluğu haqqında" Qanunda başqa hal nəzərdə tutulmayıbsa, bu Qanunun qüvvəsi onlara şamil edilmir.

Dövlət orqanlarının bölmələri onlara həvalə edilmiş funksiyalara görə **aparıcı** və **köməkçi bölmələrə** ayrılır.

İnzibati və yardımçı vəzifələrin təsnifat toplusunda **aparıcı bölmə anlayışı** – müvafiq dövlət hakimiyyət orqanlarının tapşırığı ilə onların funksiya və səlahiyyətlərini həyata keçirən, habelə həmin bölmələrin səlahiyyətlərinə aid edilmiş məsələləri özləri həll edən dövlət orqanlarının struktur vahididir.

**Köməkçi bölmələr anlayışı** isə müvafiq dövlət hakimiyyəti orqanlarının funksiya və səlahiyyətlərini həyata keçirməyə yardım edən, habelə aparıcı bölmələrin işinin təşkilinə kömək edən dövlət orqanlarının struktur vahididir.

---

[1] http://www.asan.az/az/content/blog/251/azerbaycan_respublikasinin_qanunlari

Qanunvericilikdə **nümunəvi** və **fərdi vəzifələr** anlayışı tətbiq olunur.

**Nümunəvi vəzifələr** əksər dövlət orqanları üçün eyni adı, eyni səlahiyyətlərə malik vəzifələri əhatə edir. Nümunəvi vəzifələrə - nazir, nazir müavini, komitə sədri, yerli icra hakimiyyəti başçısı, **inzibati vəzifələrə** isə dövlət orqanı aparatının rəhbəri, şöbə müdiri, bölmə müdiri və digər vəzifələr daxildir. Dövlət qulluğunda mütləq çoxluğu nümunəvi vəzifələr tutur. Bunun əsas səbəbi eyni mərkəzdən bütün dövlət orqanlarının ümumi və vahid əsaslarla yaradılması, səlahiyyət və strukturun müəyyən edilməsidir.

**Fərdi vəzifələr** az sayda olub bəzi orqanlarda yaradılır. Məslən, AR Prezidentinin İcra aparatının rəhbəri, AR Dövlət Müşaviri və s. göstərmək olar [1].

## 7.5. İnzabati və yardımçı vəzifələrin təsnifatı

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda inzibati və yardımçı vəzifələr **təsnifat kateqoriyalarına** bölünür[2].

**İnzibati vəzifələr** dövlət orqanlarında rəhbər işçilərə aid edilir.

**Yardımçı vəzifələr** isə dövlət orqanlarında texniki vəzifə tutan işçilərə aid edilir.

**İnzibati vəzifələrin** aşağıdakı təsnifatları vardır:

**İnzibati vəzifələrin ali təsnifatı** - Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005, S.30

[2] http://www.asan.az/az/content/blog/251/azerbaycan_
respublikasinin_qanunlari

Respublikası Prezidentinin Administrasiyasında Administrasiya rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin Aparat rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparat rəhbərinin vəzifəsi, Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparat rəhbərinin vəzifəsi, Azərbaycan Respublikası Dövlət müşavirlərinin vəzifəsi.

**İnzibati vəzifələrin birinci təsnifatı** - Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Administrasiya rəhbərinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparat rəhbərlərinin müavinləri vəzifələri, Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparat rəhbərinin müavini vəzifəsi, habelə həmin dövlət orqanlarında bölmə rəhbərlərinin vəzifələri; Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin və onların birinci müavinlərinin vəzifələri; 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri.

**İnzibati vəzifələrin ikinci təsnifatı** - Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında bölmə rəhbərinin müavini vəzifəsi, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında bölmə rəhbərinin müavini vəzifəsi; Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatında bölmə rəhbərinin müavini vəzifəsi; Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların rəhbərlərinin müavinlərinin vəzifələri; 1-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin müavinlərinin, bölmə rəhbərlərinin vəzifələri; Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin vəzifələri; müvafiq icra

hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin vəzifələri; müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavinlərinin vəzifələri.

**İnzibati vəzifələrin üçüncü təsnifatı** - Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Milli Məclisinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin aparatlarında mütəxəssislərin vəzifələri; Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən digər orqanların bölmə rəhbərlərinin, onların müavinlərinin və mütəxəssislərinin vəzifələri; Azərbaycan dövlətinin başçısının icra səlahiyyətlərini həyata keçirən orqanın Aparatında mütəxəssislərin vəzifələri; 1-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin müavinlərinin vəzifələri; 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin və onların müavinlərinin vəzifələri; Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları aparat rəhbərlərinin müavinlərinin və bölmə rəhbərlərinin vəzifələri; müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinin müavinlərinin vəzifələri.

**İnzibati vəzifələrin dördüncü təsnifatı** - 1-ci kateqoriya dövlət orqanlarının aparatlarında mütəxəssislərin vəzifələri; 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların müavinlərinin vəzifələri; Naxçıvan Muxtar Respublikasında 2-ci kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin müavinlərinin vəzifələri; müvafiq icra hakimiyyəti orqanı rəhbərinin müavinlərinin vəzifələri.

**İnzibati vəzifələrin beşinci təsnifatı** - 2-ci kateqoriya dövlət orqanlarının mütəxəssislərinin vəzifələri; Naxçıvan Muxtar Respublikasında 3-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanlarının aparat rəhbərlərinin vəzifələri; 3-cü kateqoriya dövlət orqanları bölmə rəhbərlərinin və onların

müavinlərinin vəzifələri; 4-cü kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin vəzifələri;

**İnzibati vəzifələrin altıncı təsnifatı** - 3-cü kateqoriya dövlət orqanlarının mütəxəssislərinin vəzifələri; 4-cü kateqoriya müvafiq icra hakimiyyəti orqanının bölmə rəhbərinin və onun müavininin vəzifələri; 4-cü kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların rəhbərlərinin müavinlərinin vəzifələri; 5-ci kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin rəhbərləri və onların müavinlərinin vəzifələri.

**İnzibati vəzifələrin yeddinci təsnifatı** - 4-cü və 5-ci kateqoriya dövlət orqanları – müvafiq icra hakimiyyəti orqanının, müvafiq icra hakimiyyəti orqanlarının yerli bölmələrinin, müvafiq icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanların, rayon (şəhər) məhkəmələrinin, rayon (şəhər) prokurorluqlarının və hərbi prokurorluqlarının, müvafiq icra hakimiyyəti orqanının tabeliyində olan orqanların, müvafiq icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin, onların yanında, tabeliyində olan orqanların yerli bölmələrinin mütəxəssislərinin vəzifələri; müvafiq icra hakimiyyəti orqanlarının inzibati ərazi dairələri üzrə nümayəndələrinin, onların müavinlərinin və mütəxəssislərin vəzifələri.

**Yardımçı vəzifələrin** aşağıdakı təsnifatı vardır:

1. yardımçı vəzifələrin **birinci təsnifatı** - Ali kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

2. yardımçı vəzifələrin **ikinci təsnifatı** - 1-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

3. yardımçı vəzifələrin **üçüncü təsnifatı** - 2 və 3-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

4. yardımçı vəzifələrin **dördüncü təsnifatı** - 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

Dövlət orqanlarının aparatları (və ya onların fəaliyyətini təmin edən qurumlar) və onların bölmələri Ali və 5-ci kateqoriya dövlət orqanlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş funksiya və səlahiyyətləri, habelə onların həyata keçirilməsi xüsusiyyətləri nəzərə alınaraq **təminedici və yardımçı** kimi təsnifləşdirilir.

Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

İnzibati və yardımçı vəzifələrin təsnifat toplusuna vəzifələrin təsnifatları və adları, ixtisas dərəcələri və vəzifələrin tutulması şərtləri haqqında məlumatlar daxil edilir. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu dövlət orqanlarının ştat cədvəllərinin yaradılması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsasdır. İnzibati və yardımçı vəzifələrin təsnifat toplusu Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

### 7.6. İnzibati və yardımçı vəzifələrin ixtisas tələbləri

İnzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri vəzifə iddiasında olan şəxsin həmin vəzifənin öhdəsindən gəlməsi üçün kifayət qədər səriştəsinin olmasını təmin edir. Belə ki, **inzibati vəzifə iddiasında** olan şəxsin müvafiq ali təhsili olmalıdır. Həmin şəxsin başqa ali təhsili olduqda, o, ixtisasını dəyişdirib iddiasında olduğu inzibati vəzifənin profilini öyrənməlidir.

**Yardımçı vəzifə iddiasında** olan şəxsin isə tam orta

təhsili olmalıdır.

Eyni zamanda inzibati və yardımçı vəzifələri tutmaq üçün əlavə tələblər qanunvericiliklə və vəzifə təlimatları ilə müəyyən edilir.

## Yoxlama üçün suallar:

1. *Dövlət orqanları anlayışı;*
2. *Dövlət orqanlarının təsnifatı;*
3. *Dövlət qulluğu vəzifəsi;*
4. *Dövlət orqanlarında inzibati vəzifələr;*
5. *Dövlət orqanlarında yardımçı vəzifələr;*
6. *Dövlət orqanlarında aparıcı və köməkçi bölmələr anlayışı;*
7. *Dövlət orqanlarında nümunəvi və fərdi vəzifələr anlayışı;*
8. *Siyasi xarakterli dövlət vəzifələrinin siyahısı;*
9. *İnzibati vəzifələrin təsnifatı;*
10. *Yardımçı vəzifələrin təsnifatı;*
11. *İnzibati və yardımçı vəzifələrin ixtisas tələbləri.*

# VIII FƏSİL

# DÖVLƏT QULLUQÇULARI VƏ MƏMURLARI

## 8.1. Dövlət qulluqçusu anlayışı və onun andı

Dövlət vətəndaşlarının ümumi mənafelərinə əsaslanan sosial təsisatdır. Dövlət hakimiyyətinin reallaşdırılması texnologiyası isə dövlət qulluğudur. Dövlət qulluğu dövlət mexanizmi olaraq, bütün dövlət orqanlarında və təşkilatlarında fəaliyyət və münasibətlərin məcmusu kimi dövlətin funksiyalarını həyata keçirir. Dövlət qulluğu dövlətin əsas sosial təsisatlarından biridir və dövlət qulluğunun sosial rolu, sosial statusu mövcud sosial-iqtisadi quruluşun xarakterindən, dövlətin tipindən, idarəetmə rejimindən, qulluqçuların kəmiyyət və keyfiyyət tərkibindən, bu qulluğun fəaliyyətinin xarakteristikasından, onun hüquqi tənzimlənməsindən asılıdır. Buna görə də dövlət qulluğu öz mahiyyəti etibarilə dövlətin funksiyalarının həyata keçirilməsinin sosial-inzibati təsisatıdır.

Bu təsisat təkcə idarəetməni həyata keçirmir. 0, vətəndaşların həyat və fəaliyyəti üçün müəyyən təminatlar, bütövlükdə cəmiyyətə təsir göstərən sosial standartlar və normalar işləyib hazırlayır, vətəndaşların daha ümumi və əsas tələblərinin ödənilməsini, keyfiyyətli həyat şəraitini təmin edir. Daha doğrusu, dövlət qulluğu tədricən sosialyönümlü təsisata çevrilir.

Statistik məlumatların təhlili göstərir ki, dövlət qulluqçularının cüzi bir hissəsi qanunvericilik hakimiyyətində, böyük əksəriyyəti isə icra və məhkəmə orqanlarında çalışırlar. "Dövlət qulluğu haqqında" Qanunda və onunla əlaqədar qəbul olunmuş aktlarda bu şəxslərin həm məsuliyyəti, həm onların seçilib yerləşdirilməsinə verilən əsas tələblər, həm yüksəksəviyyəli mütəxəssis kimi yetişməsi üçün şərait yaradılması, həm onlar

barəsində qoyulan məhdudiyyətlər, həm də sosial müdafiəsi məsələləri nəzərdə tutulmuşdur.

Dövlət qulluğunun ümumi prinsipləri və funksiyaları haqqında geniş diskussiyalar açmaq və müzakirələr aparmaq olar. Lakin nəzərə almalıyıq ki, dövlət qulluğunun əsas prinsip və vəzifələri respublikamızın Konstitusiyasında və adı çəkilən qanunda öz əksini geniş tapmış və ümumi istiqamətləri müəyyənləşdirilmişdir. Beləliklə, yeni əsrdə ölkəmizdə kadr siyasətinin müasir tələblərə uyğun aparılması üçün real zəmin formalaşmışdır.

Dövlət qulluqçusunun əsas keyfiyyətləri cəmiyyətin ümumi səviyyəsi və tələbləri əsasında formalaşır. Onun yaşadığı və yetişdiyi mühitdə hansı əhval-ruhiyyə hökm sürürsə, bu əhval- ruhiyyə onun fəaliyyətində və xarakterində özünü göstərir. Burada istər-istəməz kadr məsələlərinin həllinə və kadr siyasətinin aparılmasına nəzər salmaq lazım gəlir.

**Dövlət qulluqçusu** "Dövlət qulluğu haqqında" Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır.

İnzibati vəzifə tutan və hakimiyyət səlahiyyətləri alan dövlət qulluqçusu **dövlətdə vəzifəli şəxsdir**. İlk dəfə daimi dövlət qulluğuna qəbul edilmiş vətəndaş vəzifəsinin icrasına başlamamışdan əvvəl and içir.

Dövlət qulluqçusunun **andı** Azərbaycan Respublikası ilə dövlət qulluqçusu arasında açıq hüquqi borc və sədaqət münasibətlərini təsdiq edir. Andın məzmunu aşağıdakı kimidir:

«Azərbaycan Respublikasına sadiq olacağıma, onun Konstitusiyasına dönmədən əməl edəcəyimə, dövlət sirrini və xidməti sirri qoruyacağıma, dövlət qulluğunun mənə verdiyi hüquqları və üzərimə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, ancaq qanuna uyğun surətdə, var gücümlə və vətənin mənafeyi nami-

nə həyata keçirəcəyimə and içirəm».

Andiçmə təntənəli şəraitdə Azərbaycan Respublikasının Dövlət bayrağı altında Azərbaycan Respublikasının Konstitusiyasına əl basmaqla həyata keçirilir. Andiçmə bir dəfə olur. And içən dövlət qulluqçusu andın mətnini imzalayır və bu sənəd onun şəxsi işində saxlanılır. Dövlət qulluğunun ayrı-ayrı növlərində andın status xüsusiyyətləri Azərbaycan Respublikasının qanunvericilik aktlarında müəyyən edilir.

İnzibati vəzifələrdən fərqli olaraq yardımçı dövlət qulluğu vəzifəsinə qəbul edilənlər and içmirlər.

**Dövlət qulluqçusunun digər qulluqçulardan fərqi** ondadır ki, dövlət qulluqçusuna dövlət-hakimiyyət səlahiyyətləri verilməklə dövlət və onun orqanları adından və tapşırığı ilə fəaliyyət göstərir və ya bilavasitə və daimi olaraq müvafiq dövlət orqanlarının səlahiyyətlərinin yerinə yetirilməsində iştirak edir.

Dövlət qulluqçusunu **səciyyələndirən əlamətlər** onun sosial statusunda öz əksini tapır: [1]

**Birinci,** onların yerinə yetirdikləri əmək ictimai inkişafın, konkret təşkilatın və ictimai həyat fəaliyyətinin (ümumi münasibətlərin), milyonlarla insanın davranış və fəaliyyətinin tənzimlənməsində (özəl qarşılıqlı əlaqələrin nizamlanmasında) məqsədlərin və istiqamətlərin əsaslandırılmasında istifadə olunur;

**İkinci,** onların əməyi ən mürəkkəb idrak və ölçüb-biçməkdən, insanlara təsirdən ibarət olan intellektual, zəngin psixoloji, məsuliyyətli əməkdir;

**Üçüncü,** onların bütün qüvvəsi avtoritet və təminat verdikləri dövlət hakimiyyətində təzahür edir;

**Dördüncü,** dövlət qulluqçusunun biliyi və təcrübəsi bila-

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.33-34

vasitə istehsal dəyəri yaratmır, vətəndaşların fərdi dəyərini ödəmir, lakin ictimai münasibətlərin təkmilləşdirilməsini, ahəngliyini və səmərəliliyini təmin edən xüsusi mənəvi-maddi "məhsul" formasındadır;

**Beşinci,** dövlət qulluqçusunun yerinə yetirdiyi əmək yüksək professional olmaqla, məmurların hər birinə hazırlıq, şəxsi keyfiyyətləri, davranış və insanlarla təmasda sərt tələblər qoyur.

Beləliklə, dövlət qulluqçusu ictimai təşkilatlarda işləyən qulluqçulardan dövlət-hakimiyyət səlahiyyətlərinin olması ilə fərqlənir.

**Qulluqçuları fəhlələrdən fərqləndirən** əsas cəhətlər qulluqçu əməyini səciyyələndirən əlamətlərdir. Onlar bilavasitə maddi nemətlər yaratmır, maddi istehsal üçün şəraiti təmin edir, bir qayda olaraq, "qeyri-fiziki və əqli əməklə məşğul olub əməkhaqqı alan işçilərdir."

Dövlət öz mülkiyyətini yaratdığı strukturlar vasitəsilə istehsalat, elmi-texniki tərəqqi, xidmət və s. məsələləri bilavasitə idarə edir. Bu sahələrdə məşğul olan şəxslər müxtəlif ictimai əhəmiyyətli işləri yerinə yetirir və bunun müqabilində dövlətdən əməkhaqqı alır. Onlar birbaşa maddi nemətlər yaratmır, onlar istehsalın texniki-texnoloji və sosial əhəmiyyətli fəaliyyətini (təhsil və tərbiyə vermək, tibbi xidmət və s.) təmin edir. Bütün bu işlər cəmiyyətdə xüsusi sosial statusu olmaqla qulluqçu adlandırılır və inzibati hüququn subyektlərinin əsas qrupunu təşkil edirlər [1].

## 8.2. Dövlət qulluqçularının ixtisas dərəcələri, ixtisas dərəcələrinin verilməsi və onlardan məhrum edilməsi

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.33-34

Dövlət qulluqçusunun ixtisas dərəcəsi onun ixtisas səviyyəsini göstərir, dövlət qulluqçusuna inzibati vəzifə tutmaq, vəzifə maaşına əlavə haqq almaq və sosial təminatlardan istifadə etmək hüququ verir. "Dövlət qulluğu haqqında" Qanuna əsasən **inzibati vəzifəli dövlət qulluqçularına aşağıdakı ixtisas dərəcələri** verilir:

1. Həqiqi dövlət müşaviri., 2. birinci dərəcə dövlət müşaviri., 3. ikinci dərəcə dövlət müşaviri., 4. üçüncü dərəcə dövlət müşaviri., 5. dövlət qulluğunun baş müşaviri., 6. dövlət qulluğunun müşaviri., 7. dövlət qulluğunun kiçik müşaviri., 8. birinci dərəcə dövlət qulluqçusu., 9. ikinci dərəcə dövlət qulluqçusu., 10. üçüncü dərəcə dövlət qulluqçusu., 11. kiçik dövlət qulluqçusu

**Dövlət qulluqçusuna inzibati vəzifələrin təsnifatına uyğun olaraq, aşağıdakı ixtisas dərəcələri verilir[1]:**

1. inzibati vəzifələrin **ali təsnifatı üzrə** - həqiqi dövlət müşaviri, 1-ci dərəcə dövlət müşaviri və 2-ci dərəcə dövlət müşaviri;

2. inzibati vəzifələrin **birinci təsnifatı üzrə** - 1-ci, 2-ci və 3-cü dərəcə dövlət müşaviri;

3. inzibati vəzifələrin **ikinci təsnifatı üzrə** - 2-ci dərəcə dövlət müşaviri; 3-cü dərəcə dövlət müşaviri, dövlət qulluğunun baş müşaviri;

4. inzibati vəzifələrin **üçüncü təsnifatı üzrə** - dövlət qulluğunun baş müşaviri, dövlət qulluğunun müşaviri və dövlət qulluğunun kiçik müşaviri;

5. inzibati vəzifələrin **dördüncü təsnifatı üzrə** - dövlət qulluğunun müşaviri, dövlət qulluğunun kiçik müşaviri və 1-ci

---

[1] http://www.asan.az/az/content/blog/251/azerbaycan_respublikasinin_qanunlari

dərəcə dövlət qulluqçusu;

6. inzibati vəzifələrin **beşinci təsnifatı üzrə** - dövlət qulluğunun kiçik müşaviri, 1-ci dərəcə dövlət qulluqçusu və 2-ci dərəcə dövlət qulluqçusu;

7. inzibati vəzifələrin **altıncı təsnifatı üzrə** - 1-ci dərəcə dövlət qulluqçusu, 2-ci dərəcə dövlət qulluqçusu və 3-cü dərəcə dövlət qulluqçusu;

8. inzibati vəzifələrin **yeddinci təsnifatı üzrə** - 2-ci dərəcə dövlət qulluqçusu, 3-cü dərəcə dövlət qulluqçusu və kiçik dövlət qulluqçusu.

**Yardımçı vəzifələrdə çalışan dövlət qulluqçularına isə aşağıdakı ixtisas dərəcələri** verilir:

1. Dövlət qulluğunun baş referenti., 2. dövlət qulluğunun böyük referenti., 3. dövlət qulluğunun 1-ci dərəcə referenti., 4. dövlət qulluğunun 2-ci dərəcə referenti., 5. dövlət qulluğunun 3-cü dərəcə referenti., 6. dövlət qulluğunun kiçik referenti.

**Yardımçı vəzifələrin təsnifatına uyğun olaraq, dövlət qulluqçularına aşağıdakı ixtisas dərəcələri verilir**[1]**:**

1. yardımçı vəzifələrin **birinci təsnifatı üzrə** - dövlət qulluğunun baş referenti, dövlət qulluğunun böyük referenti, dövlət qulluğunun 1-ci dərəcə referenti;

2. yardımçı vəzifələrin **ikinci təsnifatı üzrə** - dövlət qulluğunun böyük referenti, dövlət qulluğunun 1-ci dərəcə referenti, dövlət qulluğunun 2-ci dərəcə referenti;

3. yardımçı vəzifələrin **üçüncü təsnifatı üzrə** - dövlət qulluğunun 1-ci dərəcə referenti, dövlət qulluğunun 2-ci dərəcə referenti, dövlət qulluğunun 3-cü dərəcə referenti;

4. yardımçı vəzifələrin **dördüncü təsnifatı üzrə** - dövlət qulluğunun 2-ci dərəcə referenti, dövlət qulluğunun 3-cü dərəcə

---

[1] http://www.asan.az/az/content/blog/251/azerbaycan_respublikasinin_qanunlari

referenti, dövlət qulluğunun kiçik referenti;

İxtisas dərəcələri "Dövlət qulluğu haqqında" Qanunun 16-cı maddəsinə müvafiq olaraq, dövlət qulluqçusunun **tutduğu vəzifəyə, qulluq stajına və ixtisas dərəcəsində qulluq müddətinə uyğun olaraq**, habelə **əvvəllər verilmiş ixtisas dərəcəsi nəzərə alınmaqla ardıcıl** verilir. Dövlət qulluqçusunun **qulluq stajına** 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də daxil edilir.

**İlk dəfə daimi dövlət qulluğuna qəbul** olunmuş şəxsə tutduğu vəzifənin inzibati təsnifatı üçün müəyyən edilmiş ən kiçik ixtisas dərəcəsi verilir.

**3-cü dərəcə dövlət müşaviri** və ondan yuxarı olan ixtisas dərəcələri Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü və 32-ci bəndlərində nəzərdə tutulmuş qaydada verilir. Bu ixtisas dərəcələri alan dövlət qulluqçusuna müvafiq hüquqi akt və vəsiqə verilir.

Dövlət qulluğunun baş müşaviri və ondan aşağı olan ixtisas dərəcələri müvafiq dövlət orqanının rəhbəri tərəfindən verilir.

İnzibati vəzifələrin ali təsnifatı istisna olmaqla, **birinci-ikinci təsnifat inzibati vəzifələri** tutan dövlət qulluqçusunun həmin təsnifat üzrə ixtisas dərəcəsi alması üçün həmin dövlət qulluğunda ən azı 10 il qulluq stajı, həmin təsnifata daxil olan vəzifədə azı 3 il qulluq stajı olmalıdır.

İnzibati vəzifələrin **üçüncü-altıncı təsnifat vəzifələri** tutan dövlət qulluqçusunun həmin təsnifat üzrə daha yüksək (növbəti) ixtisas dərəcəsi alması üçün müvafiq vəzifə də daxil olmaqla, həmin təsnifata daxil olan vəzifələrdə azı 4 il qulluq stajı olmalıdır.

İxtisas dərəcəsi verilərkən dövlət qulluqçusunun peşəkarlığı və idarəçilik təcrübəsi nəzərə alınır.

Müvafiq inzibati vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri çərçivəsində növbəti ixtisas dərəcəsi almaq üçün aşağıdakılar vacibdir:

**üçüncü-beşinci təsnifat** vəzifələri üçün – ixtisas dərəcəsində qulluq müddəti 3 il təşkil etməlidir;

**altıncı-yeddinci təsnifat** vəzifələri üçün – ixtisas dərəcəsində qulluq müddəti 2 il təşkil etməlidir.

**Müvafiq yardımçı vəzifələr üçün** müəyyən edilmiş ixtisas dərəcələri çərçivəsində növbəti ixtisas dərəcəsi almaq üçün aşağıdakılar vacibdir:

**birinci-ikinci təsnifat** vəzifələri üçün – ixtisas dərəcəsində qulluq müddəti ardıcıl olaraq 2 il təşkil etməlidir;

**üçüncü-dördüncü təsnifat** vəzifələri üçün – ixtisas dərəcəsində qulluq müddəti ardıcıl olaraq 1 il təşkil etməlidir.

Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

"Dövlət qulluğu haqqında" Qanunun 33.1.7-ci maddəsində nəzərdə tutulmuş hallarda (Maddə 33.1.7. Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda) dövlət qulluqçusu ona verilmiş ixtisas dərəcəsindən məhrum edilir və bu barədə şəxsin əmək kitabçasında müvafiq qeyd aparılır.

Bu gün dövlət qulluqçusu adlandırdığımız kadrlar cəmiyyətin həyatında çox məsələləri həll edir və yəqin ki, yaşadığımız yeni əsrdə də bu məsələ aktual olaraq qalacaqdır. Lakin yeni əsrin yeni tələbləri bütün sahələrdə olduğu kimi dövlət qulluğunda da özünü göstərəcəkdir. Bu cəhətdən cəmiyyətdə gedən kadr proseslərinin öyrənilməsi, onların istiqamətləndirilməsi böyük əhəmiyyət kəsb edir. Kadr proseslərinin həyata keçirilməsinin bir sıra obyektiv şərtləri, o cümlədən siyasi, iqtisadi, sosial və subyektiv amilləri vardır. Bütövlükdə, bunlar cəmiyyətin yetkinliyindən, dövlət orqanlarının təşkili mədəniyyətindən, bu orqanların elmin və praktikanın nailiyyətlərinə uyğun olaraq, kadr proseslərini istiqamətləndirmə imkanlarından, habelə işçilərin sosial statusundan və rolundan, onların işgüzarlıq və mənəvi keyfiyyətlərindən, həyat tərzindən, peşəkarlığının inkişafından ibarətdir. Bu mənada, kadr proseslərinin

məzmununun, spesifikasının, istiqamətinin, mərhələlərinin müəyyən edilməsində dövlət orqanlarının böyük rolu vardır və olacaqdır.

Kadr proseslərinin idarə olunmasının idarəetmə elminin digər sahələrindən fərqli olaraq öz texnoloji spesifikası vardır. Kadr proseslərinin idarə olunması mahiyyətcə cəmiyyətdə hakimiyyət bölgüsünün tənzimlənməsi, texnoloji cəhətdən isə kadr proseslərinin reallaşdırılması üçün şərait yaradılması, onun istiqamətləndirilməsi deməkdir.

Yeni əsrdə dövlət qulluqçusu aşağıdakıları özünə etalon hesab etməlidir: [1]

**Birincisi,** dövlət qulluqçusu peşəkar olmalı, cəmiyyətə xidmətə yönəlmiş müəyyən mənəvi mövqeyə malik olmalıdır. Belə adamları axtarıb tapmaq, onları formalaşdırmaq lazımdır.

**İkincisi,** dövlət qulluqçusu fəal həyat mövqeyi tutan, kollektivdə və sərt reqlamentləşdirilmiş inzibati mühitdə işlədiyini başa düşən şəxs olmalıdır. Dövlət qulluğu reqlamentləşdirilmiş fəaliyyətdir və heç də hamı işin belə xarakterinə dözə bilmir.

Xüsusi qeyd etmək lazımdır ki, dövlət qulluqçusunun peşəkarlığı və bu peşəkarlığın konstruktiv olması vacibdir. Peşəkarlığın qiyməti onun mənəvi istiqaməti ilə müəyyən olunur. Unutmaq olmaz kı, keyfiyyətli dövlət aparatı keyfiyyətli işçilərdən, yəni peşəkarlardan, mənəviyyatca saf, xalqına, dövlətçiliyə sədaqətli, işgüzar və zəhmətkeş adamlardan yarana bilər. Burada şəxsi münasibətlər və mənafelər deyil, ümumi mənafelər, dövlət mənafeləri üstün tutulmalıdır.

Dövlət qulluqçusunun mənəvi keyfiyyətlərindən danışarkən, ilk növbədə, onun şərəf və ləyaqəti göz önünə gəlir. Şərəf və ləyaqət əsrlər boyu insanların ən çox diqqət yetirdiyi məsələlərdən biri olmuşdur. Müxtəlif dövrlərin tanınmış filosofları və dövlət xadimləri bu məsələlərə xüsusi yer ayıraraq,

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu və yeni əsrin tələbləri. Bakı, 2004.- S.20-24

şərəfi vətəndaş şərəfinə, qulluq şərəfinə, hərbi şərəfə, kişi və qadın şərəfinə və s. bölmüş, onu qoruya bilən insanlara xüsusı hörmət bəsləmişlər.

İnsan harada və hansı vəzifədə işləməsindən asılı olmayaraq, onun üçün vətəndaşlıq şərəfi birinci dərəcəli əhəmiyyət kəsb edir. Bu, insanı öz Vətəninin mənafeyi naminə səy göstərməyə, onun sərvətlərini artırmağa, şöhrətini yüksəltməyə, dövlətin qanunlarına hörmətlə yanaşmağa, ictimai asayişi qorumağa, qocalara və uşaqlara qayğı, vətəndaşların zəif müdafiə olunan təbəqələrinə kömək göstərməyə sövq edir. Şəxsiyyət qarşısında belə tələblərin qoyulması demokratik, hüquqi dövlətin müddəalarından irəli gəlir.

Qulluq şərəfi kateqoriyasının əhəmiyyəti təkcə şəxsiyyətin özü tərəfindən dərk edilib qiymətləndirilmir. Dövlət qulluğu göz qabağında olduğundan dövlət qulluqçularının fəaliyyəti, onların peşəkarlıq, işgüzarlıq və şəxsi keyfiyyətləri daim ictimaiyyətin diqqət mərkəzindədir. Yəni qulluq şərəfi başqalarının nəzərində o deməkdir ki, müəyyən vəzifə tutan şəxs həqiqətən bunun üçün zəruri keyfıyyətlərə malikdir və bütün hallarda öz xidməti vəzifələrini dəqiq icra edir.

Etiraf etmək lazımdır ki, ictimai rəydə müasir məmurlar (qulluqçular) barəsində təsəvvürlər indi birmənalı deyildir. Cəmiyyətin bir qismi dövlət qulluqçusuna bürokrat kimi baxır və belə hesab edir ki, onların bir çoxu şəxsi mənafeyini və vəzifə ambisiyalarını üstün tutur. Bir qisim adam isə belə hesab edir ki, dovlət qulluqçuları vicdanla və davranışca qüsursuz insanlardır. Yaddan çıxarmaq olmaz ki, dövlət qulluqçusunun şərəf və ləyaqətini müəyyən edən amillərdən biri də onun prinsipiallığı, bir insan kimi öz mənliyinə hörmət etməsi, ikiüzlülük və s. naqis cəhətlərdən uzaq olmasıdır. Dövlət qulluqçusu şərəf və ləyaqət hissini uca tutursa, həmkarlarının nöqsan və qüsurlarını onlara cəsarətlə bildirməli, bu barədə açıq söhbət aparmalıdır. 0, bilməlidir ki, ləyaqətli insanlar məhz belə hərəkət edirlər. Şərəf sözü qulluqçu üçün abstrakt anlayış olmamalı, onun

gündəlik meyarına çevrilməlidir. Bu cəhət dövlət qulluqçusunun insani keyfiyyətlərindən biri olmalıdır və dövlət qulluğunda yüksək pillə tutan şəxslər qulluqçularda prinsipiallıq, öz şərəf və ləyaqətinə hörmət hisslərinin tərbiyə edilməsinə, onların arasında sağlam ab-hava yaradılmasına ciddi yanaşmalıdır [1].

## 8.3.Dövlət qulluqçusunun əsas vəzifələri və hüquqları

Dövlət qulluqçularının hüquq və vəzifələrini müəyyənləşdirən qanunlar demokratik ölkələrin əksəriyyətində çoxdan fəaliyyət göstərir və bu aktlar uğurla tətbiq olunur. Dövlət qulluqçusunun əsas hüquq və vəzifələri "Dövlət qulluğu haqqında" Qanunun müvafiq olaraq 18 və 19-cu maddələrində ifadə olunmuşdur.

Dövlət qulluqçusu əsas hüquq və vəzifələrini yerinə yetirməkdən ötrü öz fəaliyyətində humanizm, sosial ədalət və insan hüquqları **prinsiplərinə əsaslanan mənəvi normaları** rəhbər tutmalıdır. Dövlət qulluqçusu üçün peşəkarlıq, işgüzarlıq və digər keyfiyyətlərlə yanaşı mənəviyyat birinci sırada durmalıdır.

Mənəvi saflıq, vicdanlılıq və təmənnasızlıq dövlət qulluğunda məcburi **davranış qaydalarıdır.** Vəzifəli şəxsin heç bir yolla ələ alına bilməməsi onun qulluq fəaliyyətinin əsas şərtidir. Dövlət qulluğuna girmək və bu sahədə çalışmaq öz borcunu və məsuliyyətini dərindən başa düşməyi tələb edir. Dövlət qulluqçusu öz vəzifə borcunu vicdanla, ən başlıcası, şəxsi məsuliyyət hissi ilə yerinə yetirməlidir. Vəzifəsini dəqiq və tam yerinə yetirmək dövlət qulluqçusunun öz şərəf və ləyaqətini qoruması üçün ən yaxşı vasitədir [2].

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu və yeni əsrin tələbləri. Bakı, 2004.- S.20-24

[2] İsmayılov S. Azərbaycanda dövlət qulluğu və yeni əsrin tələbləri. Bakı, 2004, S.24-25

Dövlət qulluqçusunun **əsas vəzifələri** "Dövlət qulluğu haqqında" Qanunun 18-ci maddəsi ilə tənzimlənir. Bu qanuna görə vəzifədə olan dövlət qulluqçularının aşağıdakıları yerinə yetirmələri nəzərdə tutulmuşdur.

Dövlət qulluqçusu qanunvericiliyi və dövlət orqanlarının qəbul etdikləri başqa normativ hüquqi aktları həyata keçirməlidir. Rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrləri, sərəncamları və göstərişləri yerinə yetirməli, dövlət orqanında müəyyən edilmiş qulluq reqlamentinə riayət etməlidir. Başqa dövlət qulluqçularının işini çətinləşdirən, yaxud qulluq keçdiyi dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli, həmçinin vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı və öz səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etməlidir.

Lazım gəldikdə öz ixtisası hüdudunda rəhbərin göstərişi ilə əlavə iş görməli, dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə, o cümlədən dövlət qulluğuna xitam verildikdən sonra da saxlamalıdır.

Vəzifə borcunun yerinə yetirilməsi vaxtı daxil olan və vətəndaşların şəxsi həyatı, şərəfi və ləyaqəti ilə bağlı məlumatları gizli saxlamalı və qanunla nəzərdə tutulmuş hallar istisna edilməklə, belə məlumatların verilməsini tələb etməməlidir. Qulluq etdiyi orqanın rəhbərinə hər il öz gəlirləri və əmlak vəziyyəti haqqında maliyyə hesabatı verməli, orada əlavə gəlirlərin mənbəyini, növünü və məbləğini göstərməli, eyni zamanda qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada müvəqqəti olaraq başqa yaşayış yerinə köçməli, o yerdə qulluq keçməli və ya başqa vəzifələri icra etməlidir.

Dövlət qulluqçusu qanunvericilikdə müəyyən edilmiş hallarda və qaydada öz fiziki və əqli qabiliyyətinin və ya tapşırılan funksiyaların icrasına yararlı olmasının müəyyən edilməsi üçün tibbi komissiyalarda müayinədən keçməli, etik davranış qaydalarına əməl etməlidir.

Dövlət qulluqçusu təkcə öz vəzifəsini səylə yerinə yetirməklə kifayətlənməməlidir, yalnız tutduğu vəzifəyə qarşı olan hər hansı hücumlara deyil, həmçinin dövlətçiliyimizə, dövlətin siyasətini bilavasitə həyata kecirən yüksək vəzifəli şəxslərə qarşı olan hücumlara da cəsarətlə reaksiya verməli, fəal həyat mövqeyi nümayiş etdirməlidir. Əks təqdirdə, deməli, ya dövlət qulluqçusu öz vəzifəsini dəqiq yerinə yetirmir, ya da ki, onun vəzifəsi heç kəsə gərək deyil.

Müasir şəraitdə dövlət qulluqçusunun **hansı tələblərə cavab verməsi** də maraq doğuran məsələlərdəndir. Bir qayda olaraq, dövlət qulluqçusu idarəetmə işində təcrübəsi olan yüksək səviyyəli təhsilə malik səriştəli mütəxəssisdir. 0, hüquqi incəliklərə bələddir, işin qanunlar və hüquq əsasında irəliləməsinə imkan verən qərarlar qəbul edə bilir və yollar tapır. Bir cəhət çox vacibdir ki, vətəndaşların ona etdiyi müraciətlərə şübhə doğurmayan cavablar verə bilsin. Onun bütün hərəkətləri dəqiq və aydın olmalıdır. Təbiidir ki, bu da müvafıq qanunvericilik aktları ilə dəqiq müəyyənləşdirilməlidir. Dövlət qulluqçusu o zaman tam formalaşıb peşəkar və səriştəli mütəxəssisə çevrilə bilər ki, o, vəzifə pillələrində tədricən irəliləsin, işi hərtərəfli öyrənsin və yalnız öhdəsindən gələ biləcəyi işləri yerinə yetirsin.

Dövlət qulluqçusunun ən mühüm xüsusiyyətlərindən biri insan hüquqlarının qorunmasını və onların icrasını təmin etməkdən ibarətdir. İnsan haqlarının qorunmasında hakimiyyət orqanlarının, o cümlədən dövlət qulluqçularının üzərinə çox böyük vəzifələr düşür. Çünki hakimiyyət orqanları, hakimiyyət orqanlarında vəzifə daşıyan insanlar, vətəndaşlar insan hüquqlarının qorunması və təmin olunması üçün xüsusi məsuliyyət daşıyırlar [1].

---

[1] İsmayılov S. Azərbaycanda dövlət qulluğu və yeni əsrin tələbləri. Bakı, 2004.- S.25-26

Dövlət qulluqçusu aşağıdakı **hüquqlara** malikdir:

1. vəzifə borcunu yerinə yetirmək üçün dövlət orqanlarından, ictimai birliklərdən, müəssisə, idarə və təşkilatlardan müəyyən edilmiş qaydada lazımi informasiya və materiallar tələb etmək və almaq;

2. dövlət qulluqçusunu vəzifəyə təyin və vəzifədən azad etmək hüququna malik olan vəzifəli şəxsdən öz qulluq vəzifələrinin yazılı surətdə təsbit edilməsini və onların icrası üçün şərait yaradılmasını tələb etmək;

3. dövlət məvacibi almaq;

4. ixtisasının artması və qulluq vəzifələrinin yerinə yetirilməsinə münasibəti nəzərə alınmaqla qulluqda irəli çəkilmək və ya dövlət maaşının məbləğinin artırılması iddiasında olmaq;

5. elmi və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi ilə pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq;

6. əmanətlərdən (depozitlərdən), qiymətli kağızlardan, rentadan və icarədən gəlir götürmək;

7. ilk tələbdən öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməli olan rəylər və digər sənədlərlə tanış olmaq, habelə öz izahatlarının şəxsi işə tikilməsini tələb etmək;

8. şərəf və ləyaqətinə xələl gətirən məlumatları təkzib etmək üçün xidməti araşdırma aparılmasını tələb etmək;

9. müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarını və mənafeyini müdafiə etmək;

10. həmkarlar ittifaqlarında birləşmək;

11. qulluq keçdiyi dövlət orqanının rəhbərindən aldığı icrası məcburi olan göstəriş və ya əmrin qanuniliyi və ya dürüstlüyü dövlət qulluqçusunda şübhə doğurursa, həmin göstərişin və ya əmrin yazılı şəkildə ona verilməsini tələb etmək;

12. qanunvericilikdə başqa hal nəzərdə tutulmayıbsa və bu, dövlət qulluqçusu funksiyalarının icrası ilə bir araya sığmayan deyilsə, ictimai birliklərdə üzv olmaq;

13. qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət vəsaiti hesabına təhsil almaq və müvafiq təlim keçmək, habelə təhsil məqsədilə məzuniyyət almaq;

14. qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada məzuniyyətlər (sosial məzuniyyətlər, özünün və ya ailə üzvlərinin müalicəsi ilə əlaqədar və elmi məzuniyyətlər), özünün və ya ailə üzvlərinin əlilliyi, sağlamlıq imkanlarının məhdudluğu ilə əlaqədar pensiyalar və müavinətlər almaq.

## 8.4. Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər

"Dövlət qulluğu haqqında" Qanunun 20-ci maddəsində dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlərə əsasən dövlət qulluqçusunun aşağıdakılara ixtiyarı yoxdur:

1. dövlət orqanlarında əlavə ödənişli (əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada müvəqqəti əvəz edilməsi halları istisna olmaqla), heç bir seçkili və ya təyinatlı vəzifə tutmağa;

2. elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla, qulluq keçdiyi dövlət orqanı rəhbərinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmağa;

3. dövlət orqanının və ya yerli özünüidarə orqanının işləri üzrə üçüncü şəxslərin vəkili olmağa;

4. dövlət qulluğuna xitam verildikdən sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş müddət ərzində öz qulluq fəaliyyətinə aid olan və dövlət sirri və ya qanunla mühafizə edilən digər sirr olan məsələlər barədə informasiyadan üçüncü şəxslərin xeyrinə istifadə etməyə;

5. qulluq keçdiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getməyə;

6. qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməyə;

7. tətillərdə və dövlət orqanlarının işini pozan digər

hərəkətlərdə iştirak etməyə;

8. dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə.

9. Seçki komissiyasının həlledici səs hüquqlu üzvü dövlət qulluğunda ola bilməz.

10. Dövlət qulluqçusu bu maddənin tələblərinə zidd hərəkət etdikdə, əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, xəbərdarlıq aldıqdan sonra otuz gün ərzində o, dövlət qulluğuna, yoxsa başqa fəaliyyətə üstünlük verdiyini özü üçün müəyyən edərək, gəldiyi qərar barəsində qulluq keçdiyi dövlət orqanının rəhbərinə məlumat verməlidir[1] .

Dövlət qulluqçusunun ilk növbədə vətəndaş və insan olduğunu heç vaxt unuda bilmərik. Yəni qanunla müəyyənləşdirilən prinsiplərə və meyarlara insanın necə əməl etməsi onun aldığı tərbiyədən, təhsildən, mənəvi saflığından, vətənpərvərliyindən, vicdanından, öz işinə və davranışına məsuliyyətlə yanaşmasından, səmimiliyindən, şəxsi ədavət, paxıllıq, ikiüzlülük hisslərindən uzaq ola bilməsindən, şəxsi mənafelərini ümumi mənafelərə tabe etmək bacarığından və istəyindən asılıdır. Əgər dövlət qulluqçusu bu keyfiyyətlərə, tutduğu vəzifə üçün tələb olunan bilik səviyyəsinə və intellektual səviyyəyə malik deyilsə, zəhmətsevər və işgüzar deyilsə, onun dövlət qulluqçusu olmaq iddiası əbəsdir [2].

---

[1] Dövlət qulluğu haqqında sənədlər toplusu. Azərbaycan dilində. Bakı: Qanun, 2009.- S.19-20

[2] İsmayılov S. Azərbaycanda dövlət qulluğu və yeni əsrin tələbləri. Bakı, 2004.- S.25-27

## Yoxlama üçün suallar:

1. *Dövlət qulluqçusu anlayışı;*
2. *Dövlət qulluqçusunun andı;*
3. *Dövlət qulluqçusunu səciyyələndirən əlamətlər;*
4. *İnzibati vəzifəli dövlət qulluqçularına verilən ixtisas dərəcələri;*
5. *Yardımçı vəzifəli dövlət qulluqçularına verilən ixtisas dərəcələri;*
6. *Dövlət qulluqçusunun əsas hüquqları;*
7. *Dövlət qulluqçusunun əsas vəzifələri;*
8. *Dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər.*

# IX FƏSİL

# DÖVLƏT QULLUQÇULARININ SOSİAL MÜDAFİƏSİ VƏ TƏHSİLİNİN ARTIRILMASI

## 9.1. Dövlət qulluqçuları üçün təminatlar

"Dövlət qulluğu haqqında" Qanunun 21-ci maddəsində dövlət qulluqçuları üçün aşağıdakılara təminat verilir:

1. dövlət qulluqçusunun layiqli həyat səviyyəsini təmin edən dövlət məvacibi və digər ödənişlər;
2. lazımi qulluq şəraiti;
3. haqqı ödənilən məzuniyyət;
4. dövlət qulluqçularının və onların ailə üzvlərinin icbari tibbi sığortası;
5. təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçmə;
6. dövlət orqanları ləğv edilərsə və ya ştatlar ixtisara düşərsə, vəzifə maaşına və ixtisasa uyğun işədüzəlmə və ya dövlət orqanlarında tutduğu vəzifəyə uyğun vəzifə tutmaqda üstünlük;
7. pensiya təminatı və dövlət sosial sığortası;
8. qulluq vəzifələrinin icrası ilə əlaqədar olaraq qanunla müəyyən edilmiş qaydada sığorta;
9. icra edilən vəzifə öhdəliklərinin xarakteri nəzərə alınmaqla xidməti nəqliyyat və ya müvafiq kompensasiya almaq;
10. dövlət qulluqçusunun vəzifə öhdəliklərinin icrası ilə əlaqədar olaraq ona və onun ailə üzvlərinə qarşı törədilən zorakılıqdan, hədələrdən və təhqirlərdən dövlət qulluqçusunun və onun ailə üzvlərinin müdafiəsi.

Dövlət qulluqçusu "Dövlət qulluğu haqqında" Qanunda nəzərdə tutulmuş hallardan savayı yalnız öz razılığı ilə aşağı maaşlı vəzifəyə keçirilə bilər. Dövlət hakimiyyəti orqanlarının, habelə dövlət orqanları rəhbərliyinin tərkibinin dəyişməsi dövlət qulluğuna xitam verilməsi üçün əsas deyildir.

## 9.2. Dövlət məvacibi

Dövlət qulluqçusunun əməyinin ödənilməsi anlayışı ədəbiyyatda, iqtisadi və hüquqi aktlarda müxtəlif cür ifadə olunur. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin əməyin ödənilməsi normaları adlanan 154-cü maddəsində, «Dövlət qulluğu haqqında” Qanunun 22-ci maddəsində dövlət məvacibi anlayışı ifadə olunmuşdur.

Dövlət qulluqçusunun əməyinin ödənilməsi ya əmək-haqqı və ya dövlət məvacibi formasında həyata keçirilir. Ənənəvi olaraq istehsal sahələrində işləyənlərə pul ödənişi əməkhaqqı və qeyri-istehsal sahələrində – dövlət büdcəsindən maliyyələşən dövlət orqanları qulluqçularına isə dövlət məvacibi ifadələri altında həyata keçirilir. Hüquqi ədəbiyyatlarda və normativ aktlarda çox hallarda dövlət qulluqçusunun əməkhaqqı ifadəsi də işlədilir.

**Əməyin ödəniləmsi sahəsində aparılan islahatları** üç dövrə bölmək olar. [1].

**Birinci**, yenidənqurmaya qədərki dövr;

**İkinci,** yenidənqurmadan respublika müstəqillik qazandığı ilə qədərki dövr;

**Üçüncü,** müstəqillik qazandıqdan sonrakı dövr.

Dövlət qulluqçusunun əməyinin ödənilməsinin mahiyyəti və problemləri əməyə görə stimullaşdırma (həvəsləndirmə) vasitəsi ilə tətbiq edilirdi. **Stimullaşma** (lat. Stimulus., hərəkətə gətirmək, təkan vermək) anlayışı xaricdən oyatma, **motiv** isə daxildən oyatma kimi başa düşülür. Xaricdən oyatma şəxsiyyətin yaşaması və inkişafı üçün obyektiv tələbat yaranarkən baş verir.

**Stimul -** əməkhaqqı, mükafatdan başqa inandırma, tənbehetmə, ictimai təsir və s. özündə birləşdirən normaların

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.166-167

həyata keçirilməsini təmin edən hüquq vasitələrinin cəmidir. Əməyə görə stimullaşdırma öz maddi və mənəvi tələblərini təmin etməyə çalışan şəxsiyyətin marağını ifadə edir [1].

«Dövlət qulluğu haqqında» AR qanununda ilk dəfə olaraq dövlət qulluqçusunun məvacibi anlayışı tətbiq edilmişdir.

**Dövlət məvacibi** dövlət qulluqçusuna pul ilə ödənilən haqdır. Dövlət məvacibinin məbləği səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, tələb olunan peşəkarlıq səviyyəsindən, qulluq stajından asılıdır. **Dövlət məvacibi** vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən (dövlət qulluqçusunun ixtisas dərəcəsinə, qulluq stajına və s. görə verilən əlavələr) ibarətdir.

**İnzibati vəzifələrin 7-ci təsnifatı** üzrə dövlət qulluqçusunun maaşının məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə inzibati vəzifələr üçün müəyyən edilən minimum vəzifə maaşına bərabər tutulur.

**Yardımçı vəzifələrin 4-cü təsnifatı** üzrə dövlət qulluqçusunun maaşının məbləği Azərbaycan Respublikasının qanunvericiliyi ilə yardımçı vəzifələr üçün müəyyən edilən minimum vəzifə maaşına bərabər tutulur. Dövlət qulluqçuları üçün vəzifə maaşlarının məbləği dövlət qulluğu vəzifələrinin təsnifatına uyğun müəyyən edilir[2].

Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli, yaxud xüsusilə ağır olan dövlət orqanlarında vəzifə maaşları üçün **artıq əmsal** müəyyən edilir. Əmsalın müəyyən edilməsi qaydası, onun təyin edilməsi üçün əsas və onun məbləği Azərbaycan Respub-

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.166-167

[2] http://www.asan.az/az/content/blog/251/azerbaycan_respublikasinin_qanunlari

likasının müvafiq qanunu ilə müəyyən edilir. Dövlət qulluqçularının vəzifə maaşlarına Azərbaycan Respublikasının qanununa müvafiq surətdə yerli əmsallar müəyyən edilir.

«Dövlət qulluqçularının vəzifə maaşlarına **yerli əmsalların** müəyyən edilməsi haqqında» AR (31 may 2002-ci il) qanununa görə AR-in təbii iqlim şəraiti nəzərə alınmaqla, dövlət qulluqçularının vəzifə maaşlarına aşağıdakı **yerli əmsallar qəbul** edilmişdir.

1.Dəniz səviyyəsindən 1500 metrdən 2000 metrədək yüksəklikdəki yaşayış məntəqələrində fəaliyyət göstərən dövlət orqanlarında çalışan dövlət qulluqçularının aylıq vəzifə maaşlarına 1,2 həcmdə

2. Bu yüksəklik 2000 metrdən artıq olduqda isə 1,3 həcmdə yerli əmsal müəyyən edilir.

Dövlət qulluqçusuna hakimiyyət səlahiyyəti vermək barədə qərar qəbul edilməsi ilə eyni zamanda müvafiq səlahiyyətin icrasına görə onun üçün qanunvericiliklə müəyyən edilən məbləğdə **əlavə haqq** müəyyən edilir. Dövlət qulluqçusu üçün hakimiyyət səlahiyyətinin icrasına görə əlavə haqq təyin edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən edilir.

Dövlət qulluqçusuna **qulluq stajına görə xidmətin ikinci ilindən başlayaraq, əlavə haqq verilir** və həmin haqq qanunvericiliklə müəyyən edilmiş qaydada artırılır. Haqqın məbləği qanunvericiliklə müəyyən edilir. Qulluq stajı müddətindən asılı olaraq dövlət qulluqçusuna ödənilən əlavə haqq aylıq vəzifə maaşına nisbətən faizlə təyin olunur. **Təsdiq edilmiş faizlər aşağıdakı kimidir:**

a) 1 ildən 5 ilədək stajı olan dövlət qulluqçularına aylıq vəzifə maaşının 5%-i miqdarında.

b) 5 ildən 10 ilədək stajı olan dövlət qulluqçularına aylıq vəzifə maaşının 10%-i miqdarında.

c) 10 ildən 15 ilədək stajı olan dövlət qulluqçularına aylıq vəzifə maaşının 20%-i miqdarında.

d) 15 ildən yuxarı stajı olan dövlət qulluqçularına aylıq vəzifə maaşının 30%-i miqdarında. Həmin vəsait dövlət qulluq-

çusunun işlədiyi dövlət orqanı üçün dövlət büdcəsində nəzərdə tutulmuş əməkhaqqı fondu hesabına verilir.

Bu maddə Azərbaycan Respublikasının Baş naziri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının Baş naziri və onun müavinləri, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanının rəhbəri və onun müavinləri, yerli icra hakimiyyəti orqanının rəhbəri (başçısı) vəzifələrini tutan şəxslərə də şamil olunur.

Qaydalarda göstərildiyi kimi, burada dövlət qulluqçusunun tutduğu vəzifədə çalışdığı dövr, dövlət qulluqçusu digər dövlət qulluğu vəzifəsinə keçirildikdə və qəbul edildikdə, əvvəlki dövlət qulluğundakı **qulluq stajı**, dövlət qulluğu vəzifəsinə qəbul olunmuş şəxsin həmin vəzifədə **sınaq müddəti** bu stajın hesablanmasında əsas götürülür. Eyni zamanda, məhkəmə və ya müvafiq səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş məcburi işburaxma dövrü, vəzifəsi və əməkhaqqı saxlanmaq şərtilə, dövlət qulluqçusunun dövlət qulluğundan ayrıldığı və əmək qabiliyyətini müvəqqəti itirdiyi müddət və ödənişli məzuniyyət dövrləri də qulluq stajı hesablanarkən nəzərə alınır. Digər fasilələr qulluq stajına daxil edilmir.

Stajın hesablanmasını dövlət qulluqçusunun qulluq etdiyi dövlət orqanı həyata keçirir və yuxarıda qeyd etdiyimiz dövrlər nəzərə alınır. Eyni zamanda, respublikanın hüdudlarından kənarda olan iş dövrü ora daxil edilir. Stajın hesablanması üçün əsas sənəd dövlət qulluqçusunun əmək kitabçasıdır.

Bir cəhəti də qeyd etmək istərdim ki, yeni qaydalara uyğun olaraq, bundan sonra qulluq stajına görə verilən əlavə haqq orta əməkhaqqının hesablanması zamanı da nəzərə alınacaqdır.

"Dövlət qulluğu haqqında" Qanunda qeyd olunduğu kimi, bu qanun müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçilərinə şamil edilmir. Bu işçilərin qulluğu ilə bağlı məsələlər Azərbaycan Respublikasının Əmək

Məcəlləsi ilə tənzimlənir. Daha konkret desək, haqqında danışdığımız qaydalar yalnız "Dövlət qulluğu haqqında" Qanunun müddəalarının şamil edildiyi şəxslər barəsində tətbiq olunur.

## 9.3. Dövlət qulluqçularının pensiya təminatı

Dövlət qulluqçularının pensiya təminatı üçün əsas və onun qaydası bu “Dövlət qulluğu haqqında” Qanunun 23-cü maddəsinin müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən edilir.

Dövlət qulluqçusunun pensiyasının məbləği dövlət qulluğunda xidmət illərindən və dövlət məvacibinin məbləğindən asılıdır. Dövlət pensiyası verilməsi üçün lazım olan xidmət illərinin minimum həddi 5 ildir.

Müvafiq qanunvericiliyə uyğun olaraq pensiya yaşına çatmasına, əlilliyinə və ya sağlamlıq imkanlarının məhdudluğuna görə könüllü işdən çıxmış, dövlət qulluğunda xidmət illərinin minimum həddinə və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçusuna qanunvericiliklə müəyyən edilmiş miqdarda ömürlük müavinət təyin edilir.

Dövlət qulluqçusunun pensiyasının və müavinətinin məbləği fəaliyyətdə olan dövlət qulluqçusunun dövlət məvacibinin məbləğində olan sonrakı artımlara uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada yenidən hesablanır.

Dövlət qulluqçusu, yaxud pensiyaçı öldükdən sonra onun ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvlərinə pensiyanın müvafiq qanunvericiliklə müəyyən edilən faizi ödənilir.

## 9.4. Dövlət qulluqçularının mükafatlandırılması: vəzifə maaşlarına əlavə haqqın, yerli əmsalların müəyyən edilməsi və təltif olunması qaydaları

Dövlət məvacibinin əsas hissələrindən biri də mükafatlandırmadır. Mükafatlandırma dövlət qulluqçularının və kollektivin dövlət və ictimai təşkilatlar tərəfindən müsbət qiymətləndirilməsi kimi başa düşülür.

Mükafatlandırma ayrı-ayrı vətandaşlara və kollektivə işdə müvəffəqiyyətlər əldə etdiyini və davranışını müsbət qiymətləndirmə və bəyənilməyin xüsusi forması kimi dövlət, ictimai orqan və vəzifəli şəxslər tərəfindən tətbiq edilməsidir.

Dövlət qulluqçusunun vəzifə borclarını yerinə yetirərkən səylə çalışması hərtərəfli mükafatlandırılır. Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları qanunvericiliklə müəyyənləşdirilir.

AR Əmək məcəlləsində (157 - 6 maddəsi) **mükafat** – əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, işçinin maddi marağının artırılması məqsədilə əməkhaqqı sistemində nəzərdə tutulan qayda və formada verilən həvəsləndirici pul vasitəsidir.

AR "Dövlət qulluğu haqqında" Qanunda (24.1 maddəsi) dövlət qulluqçusunun vəzifə borclarını yerinə yetirərkən səylə çalışması hərtərəfli **mükafatlandırılır.**

Mükafatlandırma tədbirləri **maddi və mənəvi mükafatlandırma** ilə həyata keçirilir. Onların hər ikisi öz növbəsində kollektiv və fərdi, ümumi və xüsusi mükafatlandırma tədbirləri ilə həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin 24 avqust 2002-ci ildə təsdiq etdiyi «Dövlət qulluqçularının mükafatlandırılmasının növləri və qaydaları haqqında» Əsasnamədə dövlət qulluqçularının işinin nəticələrinə görə həvəsləndirmə kollektiv və fərdi mükafatlandırma ilə həyata keçirilir.

**Kollektiv mükafatlandırma** – kollektivin əməyinə verilən qiymətdir. Kollektiv mükafatlandırma aşağıdakı hal-

larda tətbiq edilir: a) dövlət orqanının fəaliyyətinin əsas istiqamətləri üzrə işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi; b) mühüm dövlət tapşırıqlarının dövlət orqanı tərəfindən vaxtında yerinə yetiriləmsinə görə; c) qanunvericiliklə müəyyən edilmiş Milli bayram günləri və digər əlamətdar hadisələrlə əlaqədar.

**Fərdi mükafatlandırma** - dövlət qulluqçusunun fərdi əməyinin qiymətləndirilməsidir. Dövlət qulluqçularının fərdi mükafatlandırılması aşağıdakı hallarda tətbiq edilir: a) vəzifə təlimatında nəzərdə tutulan vəzifələri vaxtında peşəkarlıqla yerinə yetirməsi, səmərəliləşdirici təkliflər verməsi, təşəbbüskarlıq göstərdiyinə; b) işdə yeni forma və metodların tətbiqinə, gənc mütəxəssislərə lazımi kömək göstərdiyinə; c) rəhbərliyin tapşırıqlarını vaxtında və keyfiyyətlə yerinə yetirdiyinə; ç) normativ hüquqi aktların layihələrinin hazırlanması və qəbul edilməsində fərqləndiyinə görə.

**Ümumi mükafatlandırma** tədbirləri əmək qanunvericiliyi ilə tənzimlənir, **xüsusi tədbirlərə** isə dövlət qulluqçularının konkret kateqoriyasının hüquqi statusunun xüsusiyyətlərinə uyğun hüquqi aktlarda nəzərdə tutulmuş mükafatlar daxil edilir.

Dövlət qulluqçularının xidmətdə peşəkarlıq səviyyəsinin artması və vəzifə borcuna və andına sədaqəti dövlət tərəfindən qiymətləndirilir ki, bu da dövlət qulluqçularının mənəvi mükafatlandırılmasına aiddir. Dövlət qulluqçularının **mənəvi mükafatlandırılmaları** orden, medal, fəxri adlar verilməklə həyata keçirilir. Onun xidmətlərinin dövlət tərəfindən təsdiq edilməsi «Vətənə xidmətə görə» ordeninin üç dərəcəsi, «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə, digər orden və medallarla təltif olunmasından, habelə Azərbaycan Respublikasının fəxri adlarını almasından ibarətdir. Dövlət qulluqçularının orden və medallarla təltif olunması və onlara fəxri adların verilməsi haqqında əsasnamələr və qaydalar qanunvericiliklə müəyyən edilir.

**Mənəvi mükafatlandırmaya,** eyni zamanda xüsusi adların, rütbələrin vaxtından əvvəl verilməsi, daha yüksək

dövlət vəzifəsinə keçirilməsi daxildir.

Dövlət qulluqçularının mükafatlandırılması qanunvericilikdə göstərilmiş orqanlar və vəzifəli şəxslər tərəfindən onlara verilmiş hakimiyyət səlahiyyətləri çərçivəsində və müəyyən olunmuş qaydalarla həyata keçirilir. Məsələn, mükafat və qiymətli hədiyyəni işə qəbul edən bilavasitə rəhbərin, orden və medallarla mükafatlandırma isə Konstitusiyaya görə AR Prezidentinin hüquqlarına daxildir. Dövlət mükafatları ilə təltifolunmanın qaydaları, təltifolunmanın əsasları, onun növləri, təltifolunma haqqında ərizə vermək qaydaları, dövlət mükafatının təqdim olunması və s. dövlət təltifi haqqında qaydalar Əsasnamələrlə tənzimlənir.

Dövlət qulluqçularının **maddi marağını** gücləndirmək məqsədilə qanunvericilikdə il ərzində **işin yekununa görə mükafat** verilməsi nəzərdə tutulur. Bu mükafatlandırma qulluqçunun aldığı əməkhaqqına, fasiləsiz iş stajına, qulluq fəaliyyətinin nəticələrinə və şəxsi əməyinə görə verilir [1].

## 9.5. Dövlət qulluqçularının əlavə təhsili

Dövlət qulluqçusunun əlavə təhsili fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir dövlət qulluqçusunun (o cümlədən stajçı kimi və sınaq müddətinə qəbul edilmiş şəxslərin) fasiləsiz təhsil almaq imkanını təmin edir. Dövlət qulluqçusunun əlavə təhsil aldığı müddət onun qulluq stajına daxildir.

Dövlət qulluqçusunun əlavə təhsil alması üçün aşağıdakılar əsasdır:

1. dövlət qulluğunda daha yüksək vəzifəyə təyin edilməsi;

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.178-181

2. dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilməsi;

3. dövlət qulluqçusunun attestasiyası və ya onun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi;

4. dövlət qulluqçusunun şəxsi təşəbbüsü.

4. Dövlət qulluqçusunun əlavə təhsil alması həmin dövlət orqanının rəhbəri tərəfindən müəyyən edilir.

5. Dövlət qulluqçusunun əlavə təhsili ixtisasartırma və yenidənhazırlanma qurumlarında, peşə-ixtisas təhsili müəssisələrində yaradılmış müvafiq strukturlarda, stajkeçmə və peşə hazırlığı kurslarında və bu sahə üzrə fəaliyyətinə xüsusi razılıq verilmiş digər müəssisələrdə qanunvericiliklə müəyyən olunmuş istiqamətlərdə həyata keçirilir.

6. Dövlət qulluqçusu əlavə təhsil almaq üçün xarici ölkələrə ezam edilə bilər.

7. Dövlət qulluqçusunun əlavə təhsili qulluqkeçmədən ayrılmaqla, qismən ayrılmaqla və ya ayrılmamaqla həyata keçirilir.

8. Dövlət qulluqçusunun əlavə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin, Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) aparatlarında, habelə 2-ci-5-ci kateqoriya dövlət orqanlarında ali hüquq təhsili tələb edən vəzifələrdə qulluq keçən dövlət qulluqçuları mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanının tədris-elm müəssisəsində peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilirlər [1].

---

[1] http://www.asan.az/az/content/blog/251/azerbaycan_respublikasinin_qanunlari

## Yoxlama üçün suallar:

1. *Dövlət qulluqçusu üçün təminatlar;*
2. *Dövlət qulluqçusunun dövlət məvacibi;*
3. *Dövlət qulluqçusuna məzuniyyətlərin verilməsi qaydası;*
4. *Dövlət qulluqçusunun vəzifə maaşına artıq əmsalın müəyyən edilməsi qaydası;*
5. *Dövlət qulluqçusunun vəzifə maaşlarına əlavə haqqın müəyyən edilməsi qaydası;*
6. *Dövlət qulluqçusunun qulluq stajı;*
7. *Dövlət qulluqçusunun təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçməsi;*
8. *Dövlət qulluqçusunun pensiya təminatı;*
9. *Dövlət qulluqçusunun maddi mükafatlandırılması;*
10. *Dövlət qulluqçusunun mənəvi mükafatlandırılması;*
11. *Dövlət qulluqçusunun kollektiv mükafatlandırma formaları;*
12. *Dövlət qulluqçusunun fərdi mükafatlandırma formaları.*

# X FƏSİL

# DÖVLƏT QULLUĞUNA QƏBUL OLMA

## 10.1. Dövlət qulluğuna qəbul edilmək hüququ və bu sahədə qoyulan məhdudiyyətlər

Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən vətəndaşların dövlət qulluğuna **qəbul edilmək hüququ** vardır. Hər hansı şəxs dövlət qulluğuna aşağıdakı hallarda **qəbul edilə bilməz**:

1. şəxsin fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilərsə;
2. məhkumluğu ödənilməmiş və ya götürülməmişsə;
3. bilavasitə tabeliyində və ya nəzarəti altında işləyəcəyi dövlət qulluqçusu ilə yaxın qohumluq və ya qudalıq (ər-arvadlar, onların valideynləri, qardaşları, bacıları, övladları) əlaqəsi olduqda;
4. barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olarsa;
5. qanunvericiliklə müəyyən edilmiş başqa hallarda.

Dövlət orqanında dövlət qulluğuna qəbul edilmək üçün müraciət etmiş şəxsin dövlət qulluğuna qəbul edilməsinin mümkün olub-olmaması qabaqcadan yoxlanılır. Yoxlamanın qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Şəxsi (ailə) həyatın təfsilatı yoxlanmamalıdır.

## 10.2. Dövlət qulluğuna qəbul olma qaydaları

Dövlət qulluğuna vətəndaşlar **müsabiqə** və ya **müsahibə** əsasında qəbul edilirlər[1].

**Müsabiqə** - müvafiq icra hakimiyyəti orqanı tərəfindən inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün elan edilməsidir. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elan edilməsinə yol verilmir. Müvafiq dövlət orqanı vakant olan vəzifələr barədə mütəmadi olaraq (ən azı ayda bir dəfə) müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.

Müsabiqədə iştirak etmək istəyənlər müsabiqə elan edilən gündən etibarən **30 gün** ərzində müvafiq icra hakimiyyəti orqanına müraciət edə bilərlər. Forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən müraciət elektron və ya kağız daşıyıcılar vasitəsilə göndərilə bilər.

Müsabiqə **test imtahanından** və **müsahibədən** ibarət olur. Müsabiqənin elan edilməsi, keçirilməsi və yekunlarına dair müvafiq qərarın qəbul edilməsi qaydası Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilir.

**Test imtahanından** müvəffəqiyyətlə çıxanlar sənədlərini **10 iş günü** ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edir və **müsahibəyə** buraxılırlar.

**Müsahibə** sənədlərin qəbulu başa çatdıqdan sonra **30 gün ərzində** keçirilir. Test nümunələri Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hazırlanır və təsdiq olunur.

Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər (Qa-

---

[1] http://www.asan.az/az/content/blog/251/azerbaycan_respublikasinin_qanunlari

nunvericiliklə başqa qayda nəzərdə tutulmadıqda) vakant vəzifəyə təyin edilmək üçün **5 iş günü** müddətində dövlət orqanının rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədlərdən birini seçərək, **bir il** müddətinə **stajçı** kimi qulluğa qəbul etməli və **vakant vəzifəyə təyin** etməlidir. Dövlət orqanının rəhbəri namizədlərin təqdim olunduğu gündən **10 iş günü** müddətində qəbul etdiyi müvafiq qərar barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.

**Staj dövründə** dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işini istiqamətləndirir, fəaliyyətinə nəzarət edir və staj müddəti qurtardıqdan sonra stajçının **sınaq müddəti** ilə dövlət qulluğuna qəbul edilməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir.

Qanunvericiliklə başqa qayda nəzərdə tutulmayıbsa, tövsiyə müsbət olarsa, **stajçı əmək müqaviləsi bağlamaq yolu ilə altı ay sınaq müddəti** ilə dövlət qulluğuna qəbul edilir. Əmək müqaviləsində sınaq müddəti ərzində qulluq keçmənin şərtləri müəyyənləşdirilir. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Sınaq müddəti ərzində əmək müqaviləsi pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri müqavilənin şərtlərinə uyğun olaraq, həmin şəxsin **daimi dövlət qulluğuna qəbul** edilməsi haqqında əmr verir və onunla müvafiq əmək müqaviləsi bağlayır. Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. "Dövlət qulluğu haqqında" Qanunda (28.6-cı maddəsində) nəzərdə tutulmuş staj və sınaq müddəti müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr üzrə müsahibə əsasında ilk dəfə dövlət qulluğuna qəbul edilən şəxslərə də şamil edilir.

Beləliklə, respublikamızda **daimi dövlət qulluğuna**

**qəbul aşağıdakı mərhələlərdən** keçilməsi ardıcıllığını və müddətini özündə əks etdirir:

**I mərhələ** dövlət qulluğuna stajçı kimi qəbul – bir il müddətində

**II mərhələ** dövlət qulluğuna sınaq müddətinə qəbul – altı ay müddətində

**III mərhələ** daimi dövlət qulluğuna qəbul

**Stajçı kimi qulluğa qəbul edilmiş şəxs** həmin müddətdə bu "Dövlət qulluğu haqqında" Qanunun 28-ci maddəsinə müvafiq olaraq yenidən müsabiqədən müvəffəqiyyətlə keçərək yeni vəzifəyə təyin edildikdə, əvvəlki vəzifədəki staj müddəti nəzərə alınır. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxs ("Dövlət qulluğu haqqında" Qanunun 28-ci maddəsinə müvafiq olaraq) yenidən müsabiqədən müvəffəqiyyətlə keçdikdə, əvvəlki sınaq müddəti nəzərə alınmamaqla, yenidən sınaq müddəti ilə vəzifəyə təyin edilir.

Daimi dövlət qulluğuna qəbul edilmiş və "Dövlət qulluğu haqqında" Qanuna (33.1-ci maddəsinə) uyğun olaraq dövlət qulluğuna xitam verilmiş şəxslər (yardımçı vəzifə tutmuş şəxslər istisna olmaqla) yenidən dövlət qulluğuna qəbul edildikdə, onlar barəsində **staj və sınaq müddəti tətbiq edilmir.** "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində **xaricdə təhsil almış şəxslər** müvafiq icra hakimiyyəti orqanında ehtiyat kadr kimi saxlanılır və qanunvericiliyə uyğun olaraq, həmin orqan bu şəxslərin **müsabiqədən kənar** dövlət qulluğuna qəbul edilməsi üçün müvafiq dövlət orqanına təqdimat verir. Daimi dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının adından müvafiq dövlət orqanının sənədi ilə təsdiq edilir.

## 10.3. İnzibati vəzifələrin tutulması mexanizmi

Qədim dövrdən məlum olan və hazırda da inzibati vəzifələrin tutulmasının aşağıdakı **dörd təşkilati - hüquqi**

üsulu mövcuddur. Bunlara **işəgötürülmə, təyinedilmə, seçilmə və müsabiqə də** aid edilir.

Dövlət vəzifələrinə **təyinolunma** üsulu ədəbiyyatlarda mərkəzləşdirilmiş hakimiyyəti və təkbaşına rəhbərliyi saxlamaq üçün əsas vasitə olduğu göstərilir. Müasir dövrdə Konstitusiya, qanunlar və normativ aktlara uyğun olaraq **təyinolunma** geniş tətbiq olunmaqla bir neçə formada aparılır.

**Birinci - birbaşa təyin olunmadır** ki, bu təyinolunmada dövlət orqanının vəzifəyə təyin olunması haqqında başqa orqanlarla razılaşdırılmadan aparılır. Bu qərar bilavasitə dövlət hüquq münasibətləri yaradır. Məsələn, AR Prezidenti AR Konstitusiyasının 109-cu maddəsinin 4, 13, 14-cü bəndlərində və 124-cü maddənin 2-ci bəndinə uyğun olaraq Respublika Nazirlər Kabinetinin üzvlərini, Mərkəzi İcra Hakimiyyəti orqanları rəhbərlərini, Prezidentin İcra Aparatının rəhbərini, Prezidentin səlahiyyətli nümayəndələrini, Yerli İcra Hakimiyyəti Başçılarını (YİHB) birbaşa təyin edir.

**İkinci -** təyinolunma haqqında qərar **başqa orqanlarla razılaşdırılmaqla və ya məsləhətləşdirilərək** həll edilir. Məsələn, AR Prezidenti Milli Məclisin razılığı ilə Respublikanın Baş Nazirini, baş prokuroru və b. vəzifələrə təyin edir (Konstitusiyanın 109 - 4.9 bəndləri). İcra hakimiyyəti başçılarının müavinləri Prezidentin icra aparatının rəhbəri ilə razılaşdırılmaqla təyin olunur.

**Üçüncü** – təyinolunma haqqında qərar **bir orqanın təqdimatına digər orqan_tərəfindən baxılıb** qəbul edilir. Bu qayda ilə Respublika Prezidentinin təqdimatına əsasən Respublika Milli Məclisi Respublika Konstitusiya Məhkəməsini, Respublika Ali Məhkəməsini, Respublika İqtisad Məhkəməsi hakimlərini, Mərkəzi Bankın İdarə heyəti üzvlərini vəzifəyə təyin edir (Konstitusiyanın 109 - 9.10 bəndləri). Nax.MR baş nazirini Respublika Prezidentinin təqdimatına əsasən Naxçıvan Ali Məclisi təyin edir. Muxtar Respublika Ali Məclisi sədrinin təqdimatı ilə Respublika Prezidenti

Naxçıvan Muxtar Respublikasında Yerli İcra Hakimiyyətlərinin Başçılarını təyin edir (Konstitusiyanın 140 – 2, 141 maddələri).

Azərbaycan Respublikasında dövlət vəzifələrinə təyinedilmə iki təşkilati formada – **kollegial və təkbaşına** formalarında aparılır.

**Kollegial formada** işə təyinolunma Milli Məclisin, Nazirlər Kabinetinin iclaslarında, Mərkəzi İcra orqanları kollegiyalarında həll edilir.

**Təkbaşına formada** təyinolunma geniş vəzifələr əhatə etməklə, bazar iqtisadiyyatına keçid şəraitində daha da genişlənir. Bu formada təyinolunma Mərkəzi və Yerli İcra hakimiyyəti orqanlarında, onların idarə və təşkilatlarında aparılır.

**Dövlət vəzifələrinə seçilmə** dövlət vəzifələrinin tutulmasının ikinci təşkilati hüquqi üsuludur. Müasir dövrdə əsasən ali siyasi vəzifələr, qanunverici orqan səsvermə yolu ilə formalaşır.

Azərbaycan Respublikasında xalq gizli səsvermə yolu ilə Respublika Prezidentini, Milli Məclisi və Nax.MR Ali Məclisini seçir.

Dövlət qulluğunun formalaşdırılmasının hüquqi təşkilati üsullarından biri də **müsabiqədir**.

**Müsabiqə** dedikdə bir neçə namizəd içərisindən müsabiqə yolu ilə boş vəzifələrin tutulması başa düşülür.

Azərbaycan Respublikasında **müsabiqə və müsahibə** yolu ilə inzibati vəzifələrin tutulması «Dövlət qulluğu haqqında» Qanunda öz əksini tapmışdır. Bu Qanunun 29-cu maddəsində inzibati vəzifələrin **ali - dördüncü** təsnifatlarına uyğun olan vəzifələrin tutulmasının **müsahibə** keçirilməklə və ya qulluqda yüksəliş yolu ilə həyata keçirilməsi qeyd olunur.

Azərbaycan Respublikası Prezidentinin 3 sentyabr 2001-ci ildə təsdiq etdiyi “İcra hakimiyyəti orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydaları" müsabiqə

vasitəsi ilə qəbulun həyata keçirilməsini, o cümlədən müsabiqənin necə və kim tərəfindən elan edilməsini, bunun üçün hansı sənədlərin təqdim edilməsini, müsabiqənin test imtahanları və şifahi söhbət əsasında keçirilməsini, müsabiqənin yekunlarına dair müvafiq qərar qəbul edilməsini və s. məsələləri tənzimləyir. İnzibati vəzifələrin təsnifatına uyğun olan vəzifələr boşaldıqda, müvafıq dövlət qulluğunu idarəetmə orqanı həmin vəzifələrin tutulması üçün müsabiqə elan edir və kütləvi informasiya vasitələrində elan verilir. Elanda boş inzibati vəzifənin adı, bu vəzifəni tutmaq istəyən vətəndaşlar qarşısında qoyulan tələblər, o cümlədən dövlət qulluğunda işləmək üçün lazım olan şərtlər göstərilir.

**Müsabiqədə iştirak etmək istəyən şəxslər** ərizə, şəxsiyyəti təsdiq edən sənədin surətini, kadrların şəxsi uçot vərəqəsini, avtobioqrafıya, təhsil haqqında sənədin surətini, əmək kitabçasının surətini, ixtisas dərəcəsini təsdiq edən sənədlərin surətini, sağlamlıq haqqında arayışı və dövlət qulluqçularının bəzi kateqoriyaları üçün qanunvericiliklə nəzərdə tutulmuş digər sənədləri təqdim edir.

Dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla) inzibati vəzifələrin **beşinci - yeddinci** təsnifatlarına uyğun olan vəzifələrin tutulması həmin dövlət orqanı rəhbərinin qərarı əsasında "Dövlət qulluğu haqqında" Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada **müsabiqə** və ya bu Qanunun 29.3-29.9-cu maddələrinə uyğun olaraq **müsahibə** yolu ilə həyata keçirilir.

Dövlət orqanının rəhbəri inzibati vəzifələrin **beşinci-yeddinci təsnifatlarına** uyğun olan vakant vəzifə yarandığı gündən **bir ay ərzində müsabiqənin, ümumi müsahibənin və ya daxili müsahibənin keçirilməsi barədə qərar qəbul etməlidir.** Müvafiq icra hakimiyyəti orqanı və müsabiqə (müsahibə) barədə qərar qəbul edən müvafiq dövlət orqanı həmin müsabiqə və müsahibələrin ədalətli, şəffaf və operativ keçirilməsini təmin etməlidirlər.

Dövlət qulluqçusu qulluq keçdiyi orqanda öz razılığı ilə aşağı vəzifəyə keçirilərkən, habelə tutduğu inzibati vəzifə təsnifatına uyğun olan, vəzifənin adı və qulluq funksiyası eyni olan vəzifəyə keçirilərkən bu maddənin müddəaları həmin dövlət qulluqçusu barəsində tətbiq edilmir. Dövlət qulluqçusu bu maddənin müddəaları tətbiq edilmədən digər dövlət orqanında tutduğu inzibati vəzifə ilə eyni təsnifatdan və ya aşağı təsnifatdan olan vəzifəyə həmin dövlət orqanları rəhbərlərinin qarşılıqlı razılığı ilə keçirilə bilər.

Müvafiq icra hakimiyyəti orqanında inzibati vəzifələrin **beşinci-yeddinci təsnifatlarına** uyğun olan vakant vəzifələrin tutulması həmin dövlət orqanı rəhbərinin qərarı əsasında ("Dövlət qulluğu haqqında" Qanunun 29.4-cü, 29.6-29.8-ci maddələrinə uyğun olaraq) yalnız **müsahibə** yolu ilə həyata keçirilir.

Dövlət orqanlarında (müvafiq icra hakimiyyəti orqanı istisna olmaqla) inzibati vəzifələrin **beşinci-yeddinci təsnifatlarına** uyğun olan vəzifələrin həmin dövlət orqanında və ya digər dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları, habelə **azı 5 il qulluq stajı** olan və dövlət orqanında inzibati vəzifələrdə çalışmış şəxslər tərəfindən tutulması **müsahibə** yolu ilə həyata keçirilir.

İnzibati vəzifələrin **beşinci-yeddinci təsnifatlarına** uyğun olan vəzifələrin tutulması məqsədi ilə dövlət orqanı rəhbərinin qərarı əsasında, ilk növbədə, həmin dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçularının iştirakını nəzərdə tutan **müsahibə (daxili müsahibə)** keçirilə bilər. Müsahibə "Dövlət qulluğu haqqında" Qanunun 29.4-29.9-cu maddələrinin tələbləri nəzərə alınmaqla, bu Qanunun 29.6-cı maddəsində nəzərdə tutulmuş qaydada keçirilir.

Bu maddənin ikinci hissəsinə uyğun olaraq keçirilən müsahibə nəticəsində müvafiq inzibati vəzifə tutulmadıqda,

dövlət orqanı rəhbərinin müvafiq qərarı əsasında "Dövlət qulluğu haqqında" Qanunun 29.4-29.9-cu maddələrinə uyğun olaraq bu maddənin birinci hissəsində nəzərdə tutulmuş digər şəxslərin iştirakını nəzərdə tutan **müsahibə (ümumi müsahibə)** və ya bu Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada **müsabiqə** keçirilə bilər.

Bu maddəyə uyğun olaraq müvafiq inzibati vəzifənin müsahibə yolu ilə tutulması həyata keçirildikdə qanunvericiliklə müəyyən edilmiş vakant vəzifələrin tutulmasının ümumi şərtlərinin tələbləri gözlənilməlidir.

**Müsahibədə** barəsində müsahibə elan edilən vəzifənin təsnifatından ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçən dövlət qulluqçuları, habelə ən çoxu iki təsnifat aşağı inzibati vəzifələrdə qulluq keçmiş şəxslər iştirak edə bilərlər.

**Barələrində intizam tənbehi tətbiq edilmiş dövlət qulluqçuları bir il ərzində müsahibəyə və müsabiqəyə buraxılmırlar.**

Bu maddənin birinci hissəsi məhkəmə hakimiyyəti orqanlarında inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vəzifələrin həmin orqanlarda qulluq keçən şəxslərin iştirakı ilə tutulmasına şamil olunmur.

Müsahibə müvafiq dövlət orqanı rəhbərinin yaratdığı komissiya tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada keçirilir. "Dövlət qulluğu haqqında" Qanunun 29.6-cı maddəsində nəzərdə tutulmuş komissiya müvafiq icra hakimiyyəti orqanının nümayəndəsi də daxil olmaqla, **üzvlərinin sayı üç nəfərdən az olmayan tərkibdə yaradılır.**

Müsahibə zamanı müsahibədə iştirak edən şəxsin bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, barəsində müsahibə elan edilən vəzifə üçün zəruri olan keyfiyyətləri yoxlanılmaqla, müvafiq vəzifəyə yararlılığı müəyyən edilir.

**Müsahibə zamanı aşağıdakı göstəricilər** nəzərə

alınmalıdır:

1. ixtisas dərəcəsi;
2. attestasiyanın nəticələri;
3. müvafiq vəzifənin tələblərinə uyğun olaraq təkrar hazırlıq keçilməsi və ixtisasın artırılması [1].

Müsahibənin nəticələrinə görə müvafiq inzibati vəzifənin tutulması barədə qərar qəbul edilir. Müsahibə nəticəsində müvafiq inzibati vəzifə tutulmadıqda, dövlət orqanı rəhbərinin həmin vəzifənin müsabiqə əsasında tutulması barədə qərarı əsasında "Dövlət qulluğu haqqında" Qanunun 28-ci maddəsində nəzərdə tutulmuş qaydada müsabiqə keçirilə bilər.

## 10.4. Dövlət qulluğunun şərtləri

Dövlət qulluğunda **iş vaxtı** həftədə 40 saatdır. Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qanunla müddəti qısaldılmış iş vaxtı müəyyən edilə bilər. Qulluq üçün zəruri olduqda dövlət orqanının rəhbəri müstəsna hallarda iş vaxtını ayda əvəzi ödənilmədən 5 saata qədər artıra bilər. İş vaxtı 5 saatdan çox artırılanda işlədiyi hər saata görə dövlət qulluqçusuna əlavə haqq ödənilməlidir.

İnzibati vəzifə tutan dövlət qulluqçusuna ildə bir dəfə 30 təqvim günü müddətində haqqı ödənilən **əsas məzuniyyət** verilir. Uzun illər işləməyə görə haqqı ödənilən əlavə məzuniyyət aşağıdakı qaydada verilir:

1. 5 ildən 10 ilədək əmək stajına görə - 2 təqvim günü;
2. 10 ildən 15 ilədək əmək stajına görə - 4 təqvim günü;
3. 15 ildən çox əmək stajına görə - 6 təqvim günü;

Dövlət qulluqçusu öz arzusu ilə və dövlət orqanı rəhbə-

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005, S.86-107

rinin razılığı ilə ödənişsiz məzuniyyətə göndərilə bilər.

**Xidməti ezamiyyətə** göndərilən dövlət qulluqçusu aşağıdakılarla təmin olunur:

1. mehmanxanada və ya xidməti yaşayış sahəsində yer, altı aydan çox müddətə ezamiyyətə göndəriləndə isə ayrıca xidməti mənzil sahəsi;

2. iş yeri, rabitə vasitələrindən istifadə etmək imkanı;

3. digər zəruri texniki xidmətlər və sosial-məişət xidmətləri, o cümlədən onu göndərən orqanın vəsaiti hesabına xidmətlər.

**Müvvəqqəti olaraq, başqa yerə qulluğa keçirilən** dövlət qulluqçusunun ailəsini özü ilə aparmağa ixtiyarı vardır. Ona müəyyən edilmiş yaşayış normalarına uyğun gələn məişət ləvazimatı ilə komplektləşdirilmiş xidməti mənzil verilir, habelə əvvəl qulluq keçdiyi yerdəki yaşayış sahəsi saxlanılır. Dövlət qulluqçusunun ailə üzvlərinə işə və ya təhsil müəssisəsinə düzəlməkdə kömək göstərilir, məktəbəqədər uşaq müəssisələrində yer verilir və lazım gəldikdə, onu göndərən orqanın vəsaiti hesabına haqqı ödənilən tibbi xidmət göstərilir. Müvəqqəti olaraq, başqa yerə qulluğa keçirilməklə bağlı olan başqa məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzim olunur.

**Yardımçı vəzifələr tutan** dövlət qulluqçularının əmək münasibətləri “Dövlət qulluğu haqqında” Qanunun müddəaları nəzərə alınmaqla Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir.

## 10.5. Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi

İnzibati vəzifə tutan dövlət qulluqçusunun **xidməti fəaliyyəti hər təqvim ilinin sonunda qiymətləndirilir.** Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin məqsədi onun il ərzində vəzifəsinin öhdəsindən gəlməsini,

tutduğu vəzifəyə dair tələblərin yerinə yetirilməsini qiymətləndirməkdən və işçinin gələcək inkişafını müəyyən etməkdən ibarətdir. Xidməti fəaliyyətin qiymətləndirilməsinin nəticələri dövlət qulluqçusunun attestasiyası zamanı nəzərə alınır.

**Dövlət qulluqçusunun** fəaliyyətinin qiymətləndirilməsi onun bilavasitə rəhbəri tərəfindən həyata keçirilir və onun **xidməti fəaliyyəti** aşağıdakı **meyarlar əsasında qiymətləndirilir**:

1. peşə bilikləri; 2. xidməti vəzifələrə münasibət; 3. təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı; 4. yaradıcılıq və təşəbbüskarlıq; 5. əmək intizamı; 6. iş təcrübəsi və onu bölüşmə; 7. kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər.

**Rəhbər işçilərin xidməti fəaliyyəti** ("Dövlət qulluğu haqqında" Qanunun 30-1.3-cü maddəsində göstərilənlərə əlavə olaraq) aşağıdakı **meyarlar əsasında qiymətləndirilir**:

1. təhlil və proqnozlaşdırma; 2. idarəetmə; 3. kollektiv daxilində nüfuz və ruhlandırmaq bacarığı; 4. komanda qurmaq bacarığı.

**Dövlət qulluqçusunun xidməti fəaliyyəti** aşağıdakı **şəkildə** qiymətləndirilir:

1. əla; 2. yaxşı; 3. kafi; 4. qeyri-kafi.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədlə rəsmiləşdirilir. Bu sənəddə dövlət qulluqçusunun fəaliyyəti bütün meyarlar üzrə qiymətləndirilir və bununla bağlı şərhlər verilir. Xidməti fəaliyyətin qiymətləndirilməsi barədə sənədə xidməti fəaliyyəti qiymətləndirilən dövlət qulluqçusunun rəyi əlavə edilir.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarına dair normativ aktlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri onun şəxsi işinə əlavə edilir.

## Yoxlama üçün suallar:

1. *Dövlət qulluğuna qəbul edilmək hüququ olmayan şəxslər;*
2. *Dövlət qulluğuna qəbulun formaları;*
3. *Dövlət vəzifələrinə təyin olunmanın formaları;*
4. *Dövlət hakimiyyəti orqanlarına seçkilərin formaları;*
5. *Dövlət qulluqçusunun stajkeçmə prosedurası;*
6. *Dövlət qulluqçusunun sınaq müddəti;*
7. *Dövlət qulluğuna müsabiqə əsasında qəbul;*
8. *Dövlət qulluğunda iş vaxtı norması və şərtləri;*
9. *Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi meyarları;*
10. *Dövlət qulluğunda çalışan rəhbər işçilərin xidməti fəaliyyətinin qiymətləndirilməsi meyarları.*

# XI FƏSİL

# DÖVLƏT QULLUQÇULARININ ATTESTASİYASI VƏ İRƏLİ ÇƏKİLMƏK HÜQUQU

## 11.1. Dövlət qulluqçusunun attestasiyası

**İnzibati və yardımçı vəzifələri** tutan hər bir dövlət qulluqçusu **beş ildə bir dəfədən** çox olmayaraq attestasiyadan keçirilməlidir. Attestasiya kollegial, obyektiv surətdə, müvafiq icra hakimiyyəti orqanının nümayəndəsinin və müstəqil mütəxəssislərin cəlb edilməsi ilə keçirilir. Attestasiya komissiyasının tərkibini müvafiq dövlət orqanının rəhbəri təsdiq edir.

**Attestasiya zamanı** dövlət qulluqçusunun peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri qiymətləndirilir və onun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyi barədə nəticə çıxarılır. **Attestasiyanın əsas məqsədləri** aşağıdakılardır:

1. dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi;
2. dövlət qulluqçusunun potensial imkanlarından istifadə etmək mümkünlüyünün aşkara çıxarılması, onun peşə səriştəliyini artırmağa stimullaşdırılması;
3. dövlət qulluqçusunun təcrübə, yenidənhazırlanma və ya ixtisasartırma keçməsinə zərurət dərəcəsinin müəyyənləşdirilməsi.

**Attestasiyanın keçirilməsinin müddətləri** və cədvəli müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmaqla müvafiq dövlət orqanı tərəfindən təsdiq edilir və attestasiyanın başlanmasına **ən geci 1 ay qalmış** attestasiyadan keçən dövlət qulluqçularının nəzərinə çatdırılır.

**Attestasiya komissiyasının üzvləri tərəfindən** dövlət qulluqçusuna yalnız tutduğu vəzifəyə, vəzifə təlimatına, ixtisasına dair, icra etdiyi işlər və onların nəticələri barədə, habelə tutduğu vəzifəyə uyğunluğunu müəyyən etmək üçün zəruri olan

əmək müqaviləsi ilə müəyyən edilmiş hüquqları, qulluq funksiyalarına aid olan məsələlərlə əlaqədar **suallar verilə bilər**. Attestasiya olunan dövlət qulluqçusunun siyasi baxışlarına və etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

Tutduğu vəzifədə **1 ildən az qulluq keçən,** habelə **staj və sınaq müddətində olan** dövlət qulluqçuları növbəti attestasiyadan keçirilmirlər.

**Uşağa qulluq etmək üçün məzuniyyətdə** olan dövlət qulluqçusu qulluq keçməsini davam etdirməyə başladıqdan sonra **bir ildən tez olmayaraq** attestasiyadan keçməlidirlər.

Attestasiyanın keçirilməsi üçün sədrdən, katibdən və azı digər üç komissiya üzvündən ibarət tərkibdə attestasiya komissiyası təsdiq edilir. Tərkibi vaxtaşırı dəyişən attestasiya komissiyasına yüksək ixtisaslı mütəxəssislər, elmi ekspertlər daxil edilə bilərlər.

Attestasiyadan keçməli olan hər bir dövlət qulluqçusuna attestasiyanın başlanmasına **ən azı 2 həftə qalmış** onun bilavasitə rəhbəri tərəfindən hazırlanmış **xidməti xasiyyətnamə** verilir və həmin dövlət qulluqçusu ona verilən xasiyyətnamə ilə tanış olmalıdır.

**Xasiyyətnamədə** dövlət qulluqçusunun xidməti fəaliyyətinə qiymət verilir, fərdi xüsusiyyətləri, güclü və zəif cəhətləri, keçən dövr ərzindəki işinin nəticələri göstərilir. Sonrakı attestasiyalarda komissiyaya habelə əvvəlki attestasiyanın attestasiya vərəqəsi təqdim edilir.

Dövlət qulluqçusu attestasiyadan keçirilərkən onun bilavasitə rəhbəri attestasiyaya dəvət edilə bilər. Attestasiya komissiyası attestasiyadan keçən dövlət qulluqçusunun fəaliyyəti haqqında onun məlumatını dinləyir və təqdim edilmiş materialları nəzərdən keçirir. Dövlət qulluqçusu üzrlü səbəb olmadan attestasiya komissiyasının iclasına gəlmədikdə, attestasiyadan keçirilməmiş hesab edilir və həmin dövlət qulluqçusu barəsində ("Dövlət qulluğu haqqında" Qanunun 25.2-ci maddəsində nəzərdə tutulmuş) intizam tənbeh tədbirləri tətbiq

edilə bilər. Dövlət qulluqçusu üzrlü səbəbdən attestasiya komissiyasının iclasına gəlmədikdə, attestasiyadan keçirilməmiş hesab edilir. Dövlət qulluqçusu üzrlü səbəb olmadan və ya üzrlü səbəbdən attestasiya komissiyasının iclasına gəlmədikdə, həmin dövlət qulluqçusu növbəti attestasiyadan keçməlidir.

Dövlət qulluqçusunun attestasiyasının nəticələri əsasında **attestasiya komissiyası aşağıdakı qiymətlərdən** birini verir:

1. tutduğu vəzifəyə uyğun gəlir;
2. işini yaxşılaşdırsa və komissiyanın tövsiyələrini yerinə yetirsə, bir ildən sonra təkrar attestasiyadan keçmək şərti ilə tutduğu vəzifəyə uyğun gəlir;
3. tutduğu vəzifəyə uyğun gəlmir.

Attestasiya komissiyası attestasiyanın nəticələri əsasında ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlərə görə mükafatlandırılması, irəli çəkilmək üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi, attestasiyadan keçən dövlət qulluqçularının müvafiq istiqamət üzrə əlavə təhsilə cəlb edilməsi, qulluq fəaliyyətinin, işinin nəticələrinin yaxşılaşdırılması, aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında tövsiyələr verə bilər. Bu halda komissiya irəli sürdüyü tövsiyələri əsaslandırmalıdır.

Dövlət qulluqçusunun fəaliyyətinə verilən qiymət və komissiyanın tövsiyələri attestasiyadan keçən dövlət qulluqçusunun iştirakı olmadan **açıq səsvermə** yolu ilə qəbul edilir.

**Attestasiya və səsvermə** attestasiya komissiyasının üzvlərinin ən azı **üçdə iki hissəsinin** iştirakı ilə keçirilir. Səsvermənin nəticələri səs çoxluğu ilə müəyyən edilir. Səslər bərabər olduqda, attestasiyadan keçən dövlət qulluqçusu tutduğu vəzifəyə uyğun gələn sayılır. Attestasiya komissiyasının üzvü olan dövlət qulluqçusu attestasiyadan keçərkən səsvermədə iştirak etmir. Attestasiyanın nəticələri səsvermədən dərhal sonra dövlət qulluqçusuna bildirilir.

**Attestasiyanın nəticələri (qiymət və tövsiyələr**) bir nüsxədə tərtib edilən, sədr, katib və attestasiya komissiyasının səsvermədə iştirak etmiş digər üzvləri tərəfindən imzalanan attestasiya vərəqəsinə yazılır. Attestasiyadan keçən dövlət qulluqçusunun **attestasiya vərəqəsi və xasiyyətnaməsi** onun şəxsi işində saxlanılır və onların bir surəti attestasiyadan keçən dövlət qulluqçusuna verilir.

Attestasiya komissiyasının verdiyi qiymət əsas götürülərək, tövsiyələr nəzərə alınmaqla və qüvvədə olan qanunvericiliyə uyğun olaraq, ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlər müqabilində mükafatlandırılması, dövlət qulluqçusunun irəli çəkilmək üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi, yuxarı vəzifəyə keçirilməsi, xidməti fəaliyyətlə bağlı müvafiq istiqamət üzrə əlavə təhsilə cəlb edilməsi, attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə uyğun gəlmədiyi aşkara çıxan dövlət qulluqçusunun aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında qərarlar dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri tərəfindən qəbul edilir.

Dövlət qulluqçusunun attestasiyadan keçdiyi gündən sonra **ən geci 2 ay müddətində** attestasiya komissiyasının verdiyi qiymət əsas götürülərək, tövsiyələr nəzərə alınmaqla və qüvvədə olan qanunvericiliyə uyğun olaraq ("Dövlət qulluğu haqqında" Qanunun 31.18-ci maddəsi) dövlət orqanının rəhbəri tərəfindən aşağıdakılar qəbul edilir:

- ayrı-ayrı dövlət qulluqçularının qazandıqları müvəffəqiyyətlər müqabilində mükafatlandırılması;
- dövlət qulluqçusunun irəli çəkilmək üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi;
- yuxarı vəzifəyə keçirilməsi;
- xidməti fəaliyyətlə bağlı müvafiq istiqamət üzrə əlavə təhsilə cəlb edilməsi;
- attestasiyanın nəticələrinə görə tutduğu vəzifəyə

uyğun gəlmədiyi aşkara çıxan dövlət qulluqçusunun aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi.

Bu müddət keçdikdən sonra attestasiyanın nəticələri əsasında dövlət qulluqçusunun aşağı vəzifəyə keçirilməsi və ya tutduğu vəzifədən azad edilməsi haqqında qərarlar qəbul edilə bilməz.

Dövlət qulluqçusunun üzrlü səbəbdən işə gəlmədiyi, ezamiyyətdə və məzuniyyətdə olduğu vaxt həmin **2 ay müddətinə** daxil edilmir. Dövlət qulluqçusu attestasiyanın nəticələrindən **7 iş günü müddətində** müvafiq icra hakimiyyəti orqanına **şikayət edə bilər.** Müvafiq icra hakimiyyəti orqanı şikayətə daxil olduğu gündən sonra 20 iş günü ərzində baxır.

Eyni zamanda dövlət qulluqçularının **attestasiyası** haqqında müddəalarda göstərilir ki, dövlət qulluqçusu attestasiyanın nəticələrindən də narazı qaldıqda, şikayət verə bilər. Yəni dövlət qulluqçusunun bu sahədə hüquq və səlahiyyətləri müəyyən edilmişdir. Şikayətin kimə verilə biləcəyi də konkret müəyyənləşdirilmişdir. Bu sahədə təbiidir ki, aparıcı orqan Dövlət Qulluğunun İdarəetmə Şurası olacaqdır. Çünki Şuranın Əsasnaməsində göstərilir ki, onun funksiyalarından biri də "Dövlət qulluğu haqqında" Qanunda nəzərdə tutulmuş hallarda dövlət qulluqçularının şikayətinə baxılması və dövlət qulluqçularına dair məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarət edilməsidir.

## 11.2. Dövlət qulluğunda irəli çəkilmək hüququ

Dövlət qulluqçularının karyerası "Dövlət qulluğu haqqında" Qanunla müəyyən edilmişdir. Təcrübədə məmurların dövlət qulluğunda irəli çəkilmək hüququna aşağıdakılar aid edilir:

1. Dövlət qulluğunda qulluqda yüksəliş yolu ilə irəli çəkilmə;
2. Dövlət qulluğunda müsahibə və ya müsabiqə

nəticəsində irəli çəkilmə.

Dövlət qulluğunda irəli çəkilmək hüququ dövlət qulluqçularının öz vəzifələrini müvəffəqiyyətlə və vicdanla yerinə yetirməsi, vakant vəzifə olması, habelə vakant vəzifənin tələblərinə uyğun olaraq əlavə təhsilalmanın nəticələri nəzərə alınmaqla həyata keçirilir.

### 11.3. Dövlət qulluğunda olmanın yaş həddi

Dövlət qulluqçusunun dövlət qulluğunda olmasının **yaş həddi 65-dir.** 65 yaşına çatmış dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq dövlət orqanının rəhbəri tərəfindən **hər dəfə 1 ildən çox olmayaraq uzadıla bilər**. Dövlət qulluqçusunun dövlət **qulluğunda olma müddətinin 5 ildən çox uzadılmasına yol verilmir.**

İnzibati vəzifələrin **ali - üçüncü təsnifatına** aid vəzifələrdə qulluq keçən dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq dövlət orqanının razılığı əsasında 5 ildən artıq müddətə uzadıla bilər.

"Dövlət qulluğu haqqında" Qanunda 65 yaşına çatmış dövlət qulluqçusunun dövlət qulluğunda olma müddətinin uzadılmasına yol verilən hallar aşağıdakılardır:

1. dövlət orqanına aid edilən sahədə dövlət qulluğunda olma müddəti uzadılmış dövlət qulluqçularının sayı həmin dövlət orqanının vahid sistemini təşkil edən qurumların **işçilərinin ümumi sayının 15 faizindən artıq ola bilməz**;
2. dövlət orqanının aparatının və tabeliyində olan qurumun çalışma müddəti uzadılmış işçilərinin sayı müvafiq olaraq onun aparatının və tabeliyində olan həmin qurumun işçilərinin sayının **2 faizindən artıq ola bilməz.**
3. dövlət orqanının aparatında və ya tabeliyində olan qurumunda dövlət qulluqçularının sayı 100 nəfərdən az olduqda, çalışma müddəti uzadılmış işçilərin sayı **iki ştat vahidinə qədər yuvarlaqlaşdırılır.**

4. dövlət qulluqçusunun dövlət qulluğunda olma müddətinin uzadılmasına onun razılığı əsasında yol verilir.

65 yaşına çatmış dövlət qulluqçusunun dövlət qulluğunda olma müddəti müvafiq dövlət orqanının rəhbəri tərəfindən **hər dəfə 1 il müddətində 5 ildən çox olmayaraq uzadılarkən** aşağıdakılar nəzərə alınır:

1. dövlət qulluğunda intizam tənbeh tədbirlərinin tətbiq edilməməsi;
2. elmi dərəcənin və ya elmi adın olması;
3. dövlət təltifi ilə təltif edilmə;
4. attestasiyadan üç dəfə müvəffəqiyyətlə keçmə.

## Yoxlama üçün suallar:

1. *Dövlət qulluqçularının attestasiyasının keçirilməsinin başlıca şərtləri və təşkili;*
2. *Attestasiyanın keçirilməsinin məqsədləri;*
3. *Attestasiya komissiyasının tərkibinin formalaşdırılması;*
4. *Attestasiyanın keçirilməsinin müddətləri;*
5. *Attestasiyanını nəticələrinin qiymətləndirilməsi;*
6. *Attestasiyanın nəticələrindən dövlət qulluqçularının şikayət vermək hüququ*
7. *Dövlət qulluğunda irəli çəkilmək hüququ*

# XII FƏSİL

# DÖVLƏT QULLUQÇULARININ MƏSULİYYƏTİ VƏ DÖVLƏT QULLUĞUNA XİTAM VERİLMƏSİ

## 12.1. Dövlət qulluqçularının məsuliyyəti

Hüquqi məsuliyyət dövlət vəzifəsinin struktur elementi olmaqla qulluqçularla dövlət orqanları arasında çoxsaylı əlaqələrin səmərəli həyata keçirilməsini təmin edən xüsusi ictimai münasibət olub, dövlət intizamını möhkəmlətmək, cəmiyyət və dövlətin bütün həyat sahələrində qanunçuluğa və hüquqi normalara riayət etmək üçün mühüm zəmindir.

Hüquq məsuliyyəti problemləri ümumi hüquq nəzəriyyəsində və hüquq elmi sahələrində mərkəzi yerlərdən birini tutur. Bu problemlərə aid hüquqi ədəbiyyatlarda çoxlu məqalələrin olmasına baxmayaraq, hüquqi məsuliyyətin vahid anlayışı, məsuliyyətin strukturu və sosial funksiyaları haqda vahid baxış yoxdur və mübahisəli məsələlər qalmaqdadır.

Hüquqşünas alimlərin çoxu hüquqi məsuliyyəti sosial məsuliyyətin **retrospektiv (neqativ)** aspektində, yəni keçmiş hərəkətlərinə, hüquq pozuntularına görə məsuliyyətdə görürlər. Onlar hüquq məsuliyyətinə qanuna zidd hərəkətlərə cavab verməyə borcluluq (və ya cavab vermək); yaxud müəyyən məhrumiyyətə məruz qalmaq, «sanksiya tətbiq etmək», «dövlətin məcburi tədbirləri» kimi baxırlar [1].

60-cı illərin sonlarında elmi ədəbiyyatda hüquqi mə-

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.135

suliyyətin **pozitiv aspekti** meydana gəlmiş və hüquqi məsuliyyət iki aspektdə – pozitiv (fəal perspektiv) və neqativ (retrospektiv) aspektlərdə göstərilməyə başlanılmışdır.

Azərbaycan Konstitusiyasında, qanunvericilik aktlarında, əsasnamələrdə, vəzifə təlimatlarında və digər normativ aktlarda hüquq məsuliyyətinin pozitiv aspektinə geniş yer verilir, yəni qulluqçuların vəzifələrini və qanunların şüurlu, yaradıcı yerinə yetirilməsi və s. məsuliyyətə cəlb edilməyə səbəb olan hərəkətlərə yol verməməsi əvvəlcədən xəbərdar edilir.

Hüquqi ədəbiyyatlarda məsuliyyətin **müxtəlif əsasları** göstərilir.

Onlardan **birincisi** – qanunlar hüquqi əsasdır, **ikincisi** – hüquq pozmalar, yəni intizam və inzibati xətalar, cinayət hərəkəti hüquqi məsuliyyətin mexanizmini hərəkətə gətirən faktiki əsasdır.

Hüquqi məsuliyyət yaranmasının əsaslarına görə obyektiv və subyektiv əsaslara bölmək olar.

**Obyektiv** əsaslara - törədilən ziyan faktına görə yaranan mülki hüquq məsuliyyəti aiddir. Burada dəymiş ziyan faktı məsuliyyətin obyektiv əsası, qanun normaları isə formal əsasdır.

**Subyektiv** əsaslarla – yalnız hüquq pozuntularında günaha görə məsuliyyət aiddir.

Hüquqi məsuliyyətin subyektlərinə görə **şəxsi məsuliyyətə** və **kollektiv məsuliyyətə** ayrılır:

Hüquqi məsuliyyətin **təsir üsullarına** görə **kompensasiya** və **repressivə** ayrılır.

**Kompensasiya** – dəymiş ziyanı ödəməyə istiqamətləndirilir.

**Repressiv** – cəza tətbiq etməklə həyata keçirilən üsuldur.

Hüquqi məsuliyyətin həyata keçirilməsi üçün **əsas prinsipləri qanunçuluq, ədalət, məqsədəuyğunluq və labüdlük** prinsipləridir.

**Qanunçuluq** prinsipi dedikdə – qanunların və müvafiq normativ aktların tələblərinin dövlət qulluqçuları tərəfindən qeyd-şərtsiz yerinə yetirilməsi başa düşülür.

**Ədalət** prinsipi başqa prinsiplərlə sıx əlaqədar olmaqla müəyyən tələblər qoyur. Bunlardan: cəza tədbirləri və tənbeh tətbiq edilərkən insan ləyaqətinin alçaldılmasının yolverilməzliyini, törədilmiş hüquq pozuntularının ağırlığına uyğun cəza tədbirləri tətbiq edilməsini göstərmək olar.

**Məqsədəuyğunluq** prinsipi – hüquq pozuntusu törətmiş cinayətkar hesab edilən tamamilə və ya müəyyən qədər sanksiyadan azad ola bilər. Günahkar şəxs vurulan ziyanı könüllü ödəyirsə, vurduğu ziyanı könüllü aradan qaldırırsa və günahlarına görə peşmançılıq keçirirsə, ona inzibati cəza və ya başqa cəza vermək məqsədəuyğundur.

**Labüdlük** prinsipi – hüquq pozan heç bir şəxs məsuliyyətdən kənarda qalmamalıdır. Bu və ya başqa hüquq pozuntusuna görə tez və operativ hüquq məsuliyyəti tədbirləri görülməlidir.

Dövlət hüquq məsuliyyəti onun etdiyi hüquq pozuntularının xarakterinə görə ənənəvi olaraq ona **intizam (xidməti), inzibati, maddi və cinayət** məsuliyyətləri tətbiq edilir.

**İntizam məsuliyyəti** – qulluqçu dövlət qulluğu qaydalarını (xidməti intizamını) pozduqda, yəni intizam xətasına yol verdikdə xidməti asılılıq qaydasında intizam təsirli tədbirlərin qəbul edilməsidir.

İntizam məsuliyyətini səciyyələndirən və başqa məsuliyyət növlərindən fərqləndirən müəyyən əlamətlər vardır:

a) İntizam məsuliyyyətinin əsası intizam xətasıdır;

b) İntizam xətasına görə intizam cəzası nəzərdə tutulur;

c) İntizam məsuliyyətini səlahiyyətli orqanlar (vəzifəli şəxslər) tabelik qaydası ilə tətbiq edirlər;

d) Bu orqanların (vəzifəli şəxslərin) səlahiyyət hüquqları qanunvericiliklə müəyyən edilir.

Dövlət qulluqçusu barəsində hansı intizam tənbehi tədbirlərinin müəyyənləşdirildiyini və bunların nəyə görə tətbiq edildiyini aydınlaşdırmaq lazımdır. Bildiyiniz kimi, qanunun müvafiq maddələrində dövlət qulluqçusunun vəzifələri və məsuliyyəti aydın göstərilmişdir. Umumiyyətlə, hər bir işçinin işdə yol verdiyi nöqsanlara, yaxud öz vəzifələrini düzgün yerinə yetirmədiyinə görə onun barəsində inzibati tənbeh tədbirləri bundan əvvəl də mövcud olmuşdur.

**Əmək məcəlləsində** (186-cı maddə) işçi əmək funksiyalarını tam və ya qismən yerinə yetirdikdə əmək müqaviləsi ilə müəyyən edilmiş vəzifələrini, müəssisədaxili **intizam qaydalarını pozduqda** ona töhmət, sonuncu xəbərdarlıqla şiddətli töhmət, aylıq əməkhaqqının ¼ məbləğindən çox olmamaq şərti ilə cəriməetmə, əmək müqaviləsini ləğvetmə nəzərdə tutulur.

Lakin, Əmək Məcəlləsinin müddəaları dövlət qulluğunda yardımçı vəzifələrdə işləyənlər üçün nəzərdə tutulduğuna görə digər dövlət qulluqçuları üçün belə tənbeh tədbirləri "Dövlət qulluğu haqqında" Qanuna (maddə 25) uyğun olaraq müəyyən edilir. Daha konkret desək, qanunun dövlət qulluqçularının məsuliyyətini müəyyən edən maddəsində göstərildiyi kimi, **dövlət qulluqçusu barəsində intizam tənbehi** tədbirləri dövlət qulluqçularına həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi, həmçinin qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur. Dövlət qulluqçularının əsas vəzifələrini müəyyən edən maddənin tələbləri pozularsa, onlara qarşı **töhmət** verilməsi, dövlət qulluqçusunun **bir il müddətinədək vəzifə maaşının 5%-dən 30%-dək azaldılması, həmin dərəcədən olan, lakin vəzifə maaşı aşağı olan işə keçirilməsi, daha aşağı təsnifatdan olan işə keçirilməsi, ixtisas dərəcəsinin bir pillə aşağı salınması, dövlət qulluğundan azad edilməsi kimi intizam tənbeh tədbirləri tətbiq oluna bilər.** Bu tənbeh növləri müvafiq dövlət qulluğunu idarəetmə

orqanının razılığı ilə dövlət qulluqçusunun işlədiyi dövlət orqanının rəhbəri tərəfindən tətbiq olunur. Bu heç də o demək deyildir ki, dövlət qulluqçuları barəsində təkcə intizam tənbehi tədbirləri tətbiq edilə bilər.

Dövlət qulluqçularının üzərinə qoyulan böyük vəzifələr və məsuliyyətlərlə bərabər, eyni zamanda yeni qanun dövlət qulluqçularının hüquqlarının qorunması məsələlərini də hərtərəfli əhatə edir. Lakin bu, heç də o demək deyildir ki, dövlət qulluqçularının özləri barəsində ədalətsizliyə yol verilə bilməz. Yəni, belə hallara hələ təsadüf edilir və "Dövlət qulluğu haqqında" Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 2001-ci il 3 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş **intizam tənbehi tədbirlərindən şikayət** verilməsi qaydası haqqında Əsasnamə" məhz belə hallara yol verilməsinin qarşısının alınmasına xidmət edir. Dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamədə belə şikayətlərin verilməsi üçün qoyulmuş müddətlər, təqdim edilməli sənədlər, bu şikayətlərə baxılma müddəti və digər məsələlər öz əksini tapır.

Unutmaq olmaz ki, qanuna görə, dövlət qulluqçusunun əsas hüquqlarından biri də onun barəsində qəbul edilmiş hər hansı qərara, lazım gələrsə, etiraz etmək, bu barədə yuxarı dövlət qulluğu orqanına, yaxud Dövlət Qulluğunun İdarəetmə Şurasına, həmçinin məhkəməyə müraciət etmək hüququ verilmişdir. Qanunda göstərildiyi kimi, dövlət qulluqçusunun ilk tələbdən öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməli olan rəylər və digər sənədlərlə tanış olmaq, habelə öz izahatlarının şəxsi işə tikilməsini tələb etmək, şərəf və ləyaqətinə xələl gətirən məlumatları təkzib etmək üçün xidməti təhqiqatlar aparılmasını tələb etmək, müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarını və mənafeyini müdafiə etmək hüququ vardır.

Əsasnamənin elə ikinci bəndində çox aydın göstərilmişdir ki, hər bir dövlət qulluqçusunun ona həvalə edilmiş vəzifələrin yerinə yetirilməməsinə, həmçinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlarla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə, barəsində tətbiq olunmuş intizam tənbehi tədbirindən şikayət etmək hüququ vardır.

Tətbiq olunmuş intizam tənbehi tədbirinin ləğv edilməsi üçün yuxarı dövlət qulluğunu idarəetmə orqanına şikayət verilməsi üçün 7 iş günü müddətində vaxt müəyyənləşdirilib. Dövlət qulluqçusunun xəstə olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu vaxt həmin müddətə daxil edilmir.

Yuxarı dövlət qulluğunu idarəetmə orqanının rəhbərinə şikayət yazılı şəkildə təqdim olunmalı və ərizəyə əmək kitabçasından çıxarış, intizam tənbehinin verilməsi haqqında əmrin surəti, tənbeh verilməzdən əvvəl dövlət qulluqçusundan yazılı şəkildə alınmış izahat əlavə olunmalıdır. Bu sənədlərin surətinin isə şikayət vermək istəyən qulluqçuya təqdim edilməsində heç bir maneə olmamalıdır. Yəni o, həmin sənədləri istədiyi vaxt işlədiyi dövlət orqanından ala bilər.

Digər şikayətlərdən fərqli olaraq, yuxarı dövlət qulluğunu idarəetmə orqanının rəhbəri tərəfindən belə şikayətlərə rəsmi daxil olduğu gündən sonra **10 iş günü günü ərzində** baxılmalıdır və intizam tənbehi tədbirinin ləğvi, yaxud qüvvədə qalması barədə müvafiq qərar qəbul edilməlidir.

Dövlət orqanının rəhbəri yuxarı dövlət qulluğunun idarəetmə orqanının qərarından narazıdırsa, o**,** Dövlət Qulluğunun İdarəetmə Şurasına yazılı şikayət verə bilər. Bu şikayətə də həmin orqanın qərarı və yuxarıda göstərilən sənədlər əlavə olunmalıdır. Dövlət Qulluğunun İdarəetmə Şurası məsələni hərtərəfli araşdıraraq yuxarı dövlət qulluğunun idarəetmə orqanının qərarının ləğvi, yaxud qüvvədə saxlanması barədə qərar qəbul edir. Bu qərarın icrası isə intizam tənbehi tədbirini tətbiq etmiş dövlət orqanı və yuxarı dövlət qulluğunun

idarəetmə orqanı üçün məcburidir.

Barəsində qərar qəbul edilmiş dövlət qulluqçusu Dövlət Qulluğunun İdarəetmə Şurasının qərarından narazı qalarsa, bu halda o, respublikanın qanunvericiliyinə uyğun olaraq məhkəməyə müraciət edə bilər. Burada bir məsələ də var. Əsasnamədə göstərilir ki, dövlət qulluqçusu intizam tənbehi verilərkən qanunvericiliyin tələblərinin, onun hüquqlarının pozulduğunu iddia edərsə, o, dövlət qulluğunun idarəetmə orqanlarına müraciət etmədən birbaşa məhkəməyə müraciət edə bilər.

Dövlət orqanının rəhbəri ilə dövlət qulluğunun idarəetmə orqanı arasında boşalmış inzibati vəzifənin tutulması üçün müsabiqə elan edilərkən, yaxud attestasiyanın nəticələri üzrə tövsiyələr verilərkən fikir ayrılıqları mümkün ola bilər. Bu məsələlərin tənzimlənməsi isə "İcra hakimiyyəti orqanlarında inzibati vəzifələrin tutulması ilə bağlı dövlət orqanının rəhbəri dövlət qulluğunun idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda, yaranmış fikir ayrılığının aradan qaldırılması Qaydaları" ilə həyata keçirilir. Belə hallarda Qaydalarda göstərildiyi kimi, yaranmış fikir ayrılığının aradan qaldırılması Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası tərəfindən həyata keçirilir.

"Dövlət qulluğu haqqında" Qanunda bildirilir ki, dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada **inzibati məsuliyyətə və cinayət məsuliyyətinə** cəlb oluna bilərlər.

**İnzibati məsuliyyət** – inzibati hüquqpozmaya yol verdiklərinə görə fiziki və hüquqi şəxslərə məhkəmələr, dövlət orqanları və vəzifəli şəxslər tərəfindən dövlətin müəyyən etdiyi inzibati tədbirlərin tətbiq edilməsidir.

**İnzibati cəzanın əsas növləri** aşağıdakılardır:

a) xəbərdarlıq;

b) cərimə;

c) inzibati hüquqpozmaları törətmiş və ya inzibati hüquqpozmaların bilavasitə obyektini əvəzsiz götürmək və ya müsadirə etmək;

ç) vətəndaşa verilmiş xüsusi hüquqdan məhrumetmə (nəqliyyat vasitələrinə idarəetməyə icazə verən hüquqdan məhrum etmə);

d) islah işlərinə cəlbetmə;

e) inzibati həbsetmə

**Maddi məsuliyyət** – qulluqçu dövlətə, təşkilata və vətəndaşa maddi ziyan vuran xəta etdikdə o, maddi məsuliyyətə cəlb edilir. Qanunvericiliyə görə dövlət qulluqçusu **məhdud** və ya **tam maddi** məsuliyyətə cəlb olunur.

**Məhdud maddi məsuliyyət** – vurulmuş maddi ziyanın bir aylıq əməkhaqqı məbləğində ödənilməsidir. Dövlət qulluqçusunun vurduğu maddi ziyan onun dövlət qulluğunda fəaliyyətini dayandırdıqdan sonra da maddi məsuliyyətdən azad etmir. Maddi məsuliyyət cinayət, inzibati və intizam məsuliyyəti ilə bir yerdə və ya ayrıca irəli sürülə bilər. Çox hallarda dövlət qulluqçusunun cinayət və ya intizam məsuliyyətinə cəlb olunması onun maddi məsuliyyətə cəlb olunması üçün şərait yaradır.

Ziyan vurmaqda təqsirkar olan dövlət qulluqçusu cinayət məsuliyyəti və digər məsuliyyətlərə cəlb edilməsindən asılı olmayaraq müəyyən olunmuş qaydada maddi ziyanı ödəməlidir.

Vəzifəli şəxs əmək münasibətləri prosesində əmək müqaviləsinə qanunsuz və əsassız xitam verilməsi nəticəsində məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi olduqda, işçinin əməkhaqqı ilə digər ödənişlər vəzifəli şəxs tərəfindən düzgün müəyyən edilmədikdə, habelə əsassız və qanunsuz olaraq verilmədikdə və b. hallarda vurulan ziyana görə **tam maddi** məsuliyyət daşıyır.

Dövlət qulluqçusunun qanunauyğun hərəkətləri nəticəsində dəymiş zərərin əvəzi **tam həcmdə** dövlət büdcəsi hesabına ödənilir.

**Cinayət məsuliyyəti** – cinayət qanunvericiliyinə uyğun olaraq, cinayət törədildiyi halda tətbiq edilir. Azərbaycan cinayət məcəlləsinin 14.1 maddəsində cəza təhdidi

altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və hərəkətsizliyin) təqsirli olaraq törədilməsi cinayət sayılır.

Cinayətin bəziləri yalnız vəzifəli şəxs tərəfindən edilə bilən **vəzifə cinayətidir,** yəni vəzifə səlahiyyətlərindən sui-istifadə etmək, qulluq səlahiyyətini aşmaq, səhlənkarlıq, rüşvət almaq, vəzifə saxtakarlığı, xidməti sirrləri yaymaq və s. görə məsuliyyətə cəlb olunurlar [1].

"Dövlət qulluğu haqqında" Qanunda (maddə 26) qanunsuz göstərişin yerinə yetirilməsi üstündə dövlət qulluqçusunun məsuliyyəti də müəyyən olunmuşdur. Belə ki, dövlət qulluqçusu öz hərəkətlərinin qanuniliyi üçün cavabdehdir. Rəhbər işçinin göstərişini qanunsuz sayan dövlət qulluqçusunun etirazına baxmayaraq, həmin rəhbər işçi öz göstərişini qüvvədə saxlayırsa və ondan yuxarı vəzifəli rəhbər işçi həmin göstərişi ləğv etmirsə, dövlət qulluqçusu məsuliyyətdən azad olunur.

## 12.2. Dövlət qulluğuna xitam verilməsi

Dövlət qulluğuna aşağıdakı əsaslarla xitam verilə bilər:

1. dövlət qulluqçusunun öz arzusu ilə;
2. dövlət orqanı ləğv edildikdə;
3. dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə;
4. qanunvericiliyin tələbləri pozularaq işə qəbul edildikdə;
5. attestasiya komissiyası tərəfindən peşəkarlıq, işgüzarlıq və mənəvi keyfiyyətləri səviyyəsinin kifayət dərəcədə olmadığına görə dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə verilmiş qiymət və tövsiyələr əsasında dövlət qulluqçusunun qulluq keçdiyi dövlət orqanının rəhbəri

---

[1] Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005.- S.138-157

tərəfindən müvafiq qərar qəbul edildikdə;

6. Dövlət qulluqçusuna intizam tənbeh məsuliyyəti tətbiq edilərək (maddə 25.2.6-ya uyğun olaraq) dövlət qulluğundan azad edildikdə;

7. Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda;

8. qanunvericilik və ya yerli özünüidarə orqanlarına seçildikdə, habelə hakim təyin edildikdə, əgər onlar həmin vəzifələrdən imtina etmədikdə;

9. qanunvericilikdə daha uzun müddət müəyyən edilməyibsə, əmək qabiliyyətinin fasiləsiz olaraq altı aydan çox müddətə tam itirilməsi ilə əlaqədar dövlət qulluqçusu əmək funksiyasını yerinə yetirə bilmədikdə;

10. məhkəmənin qanuni qüvvəyə minmiş ittiham hökmü və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş qərarı olduqda;

11. dövlət qulluqçusu vəfat etdikdə, habelə məhkəmə tərəfindən xəbərsiz itkin düşmüş hesab edildikdə və ya ölmüş elan edildikdə.

Dövlət qulluqçusu müvafiq qanunvericiliyə uyğun olaraq, pensiya yaşına çatmasına görə öz arzusu ilə dövlət qulluğundan çıxdıqda, ona qanunvericiliyə uyğun olaraq digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ümumi qaydada hesablanmış aylıq pensiyasının 6 misli məbləğində birdəfəlik haqq verilir və bu məbləğdən vergi tutulmur.

Dövlət orqanı rəhbərinin dövlət qulluğunu davam etdirmək barədə qərarı olarsa, dövlət qulluqçusu öz arzusu ilə dövlət qulluğundan çıxmaq barədə ərizəni verdiyi gündən **1 ay ərzində** dövlət qulluğunu davam etdirməlidir. Zərurət olduqda, həmin müddət dövlət orqanının rəhbəri tərəfindən əlavə olaraq 1 ay müddətinədək uzadıla bilər.

## Yoxlama üçün suallar:

1. *Hüquqi məsuliyyətin təsir üsulları;*
2. *Hüquqi məsuliyyətin həyata keçirilməsi üçün əsas prinsiplər;*
3. *Dövlət qulluqçusunun intizam tənbehi;*
4. *Dövlət qulluqçusunun maddi məsuliyyəti;*
5. *Dövlət qulluqçusunun cinayət məsuliyyəti;*
6. *Dövlət qulluğuna xitam verilməsi.*

“Dövlət qulluğu” fənni üzrə

**T E S T L Ə R**

(Tərtib edən: müəllif)

1. Dövlət aparatını nə formalaşdırır
   a) dövlət strukturları
   b) icra strukturları
   c) dövlət orqanları sistemi və onun ştatlı işçiləri
   d) icra hakimiyyəti orqanları və mütəxəssislər
   e) ictimai orqanların aparatları

2. Dövlət öz tarixi boyu cəmiyyətə münasibətdə hansı funksiyanı yerinə yetirir
   a) sosial funksiyasını
   b) iqtisadi funksiyanı
   c) təhlil funksiyasını
   d) idarəetmə funksiyasını
   e) ictimai funksiyanı

3. Aşağıdakılardan hansı dövlət hakimiyyətinin funksiyalarına görə tərkib hissəsidir
   a) inzibati və siyasi funksiya
   b) inzibati funksiya
   c) siyasi və ideoloji funksiya
   d) iqtisadi və humanitar funksiya
   e) heç biri

4. Siyasi rəhbərliyin dövlət qulluğundan fərqlənməsi praktikası kimin doktrinasına əsaslanır
   a) Əl Fərabinin
   b) Nəsirəddin Tusinin
   c) Vüdro Vilsonun
   d) Maks Veberin

e) Corc Buşun

5. Dövlət öz məqsəd və vəzifələrini hansı funksiyası vasitəsi ilə reallaşdırır

a) siyasi hakimiyyət
b) dövlət idarəetməsi
c) siyasi rəhbərlik
d) siyasi quruluş
e) heç biri

6. Aşağıdakı ölkələri illər üzrə dövlət qulluğu ilə əlaqədar qanunun yaranması ardıcıllığına uyğun sıralayın

a) Belarus Respublikası, Ukrayna Respublikası, Rusiya Federasiyası, Azərbaycan Respublikası
b) Rusiya Federasiyası, Azərbaycan Respublikası, Belarus Respublikası, Ukrayna Respublikası
c) Ukrayna Respublikası, Rusiya Federasiyası, Azərbaycan Respublikası, Belarus Respublikası
d) Rusiya Federasiyası, Belarus Respublikası, Azərbaycan Respublikası, Ukrayna Respublikası
e) Azərbaycan Respublikası, Rusiya Federasiyası, Belarus Respublikası, Ukrayna Respublikası

7. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu neçənci ildə qəbul olunmuşdur

a) 21 may 2000-ci il
b) 21 iyun 2000-ci il
c) 29 dekabr 2000-ci il
d) 21 iyul 2000-ci il
e) 21 avqust 2000-ci il

8. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu neçə maddədən ibarətdir

a) 37 maddə

b) 36 maddə
c) 34 maddə
d) 33 maddə
e) 35 maddə

9. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanunu neçə fəsildən ibarətdir
a) 8 fəsildən
b) 7 fəsildən
c) 5 fəsildən
d) 6 fəsildən
e) 9 fəsildən

10. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı neçənci ildə imzalanmışdır
a) 29 dekabr 2000-ci il
b) 21 iyul 2000-ci il
c) 28 mart 2000-ci il
d) 23 noyabr 2000-ci il
e) 26 iyun 2000-ci il

11. “Rusiya Federasiyasının dövlət qulluğunun əsasları haqqında” Qanunda dövlət vəzifələrini tutan şəxslərin dövlət hakimiyyət səlahiyyətlərinin xarakterinə və həcminə görə kateqoriyalarını tapın
a) “B”, “V”, “C”
b) “A”, “B”, “C”
c) “A”, “C”, “F”
d) “A”, “V”, “D”
e) “A”, “B”, “V”

13. Rusiya Federasiyasının “Dövlət qulluğunun əsasları haqqında” Qanunda “A” və “V” kateqoriya vəzifələri hansı

vəzifələrə aid edilir

a) dövlət qulluğunda ali dövlət vəzifələri
b) dövlət qulluğunda siyasi vəzifələr
c) dövlət qulluğunda dövlət vəzifələri (inzibati)
d) dövlət qulluğunda siyasi və ali dövlət vəzifələri
e) dövlət qulluğunda ictimai və ali dövlət vəzifələri

14. Dövlət qulluqçuları aşağıdakılardan hansı medallarla təltif edilir

a) “Şöhrət”
b) “Vətənə xidmətə görə”
c) “Tərəqqi”
d) “Dövlət qullugunda fərqlənməyə görə”
e) “İgidliyə” görə

15 . Dövlət qulluqçuları aşağıdakılardan hansı ordenlərlə təltif edilir

a) “Fədakarlığa” görə
b) “Dövlət qulluğunda fərqlənməyə görə”
c) “Tərəqqi”
d) “Şöhrət”
e) “Vətənə xidmətə görə”

16. “Dövlət qulluğunda fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununda aşağıdakılardan hansına görə dövlət qulluqçularına “Dövlət qulluğunda fərqlənməyə görə” medalı verilir

a) milli dövlət quruculuğu sahəsinə aid mühüm layihələrin hazırlanmasında və onların həyata keçirilməsində fəal iştiraka görə; dövlət orqanlarında vicdanlı fəaliyyətə və xüsusi xidmətlərə görə

b) Azərbaycan Respublikasına sadiqliyə görə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirməyə görə

c) dövlət qulluğunda səmərəli fəaliyyətə, yüksək peşəkarlığa və xüsusi nailiyyətlərə görə
d) milli dövlət quruculuğu işlərində xüsusi xidmətlərə görə
e) heç biri

17. Dövlət aparatını dövlət qulluğu ilə əlaqələndirən element hansıdır
a) dövlət qulluqçusu
b) dövlət borcu
c) dövlət vəzifəsi
d) dövlət fəaliyyəti
e) heç biri

18. Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin Fərmanı ilə "Dövlət idarəetmə sistemində islahatlar aparılması üzrə dövlət komissisiyası" hansı tarixdə yaradılmışdır
a) 29 dekabr 1998-ci il
b) 28 dekabr 1998-ci il
c) 26 dekabr 1998-ci il
d) 30 dekabr 1998-ci il
e) 27 dekabr 1998-ci il

19. "Siyasətnamə" əsərinin müəllifi kimdir
a) Mirzə Fətəli Axundov
b) Nəsirəddin Tusi
c) Nizami Gəncəvi
d) İmaməddin Nəsimi
e) Xacə Nizamülmülk

20. "Əxlaqi-Nasir" əsəri kimə məxsusdur
a) Məhəmməd Füzuli
b) Şah İsmayıl Xətai
c) Nəsirəddin Tusi
d) Molla Vəli Vidadi

e) Abasqulu Ağa Bakıxanov

22. Ərəb xilafətinin zəifləməsi nəticəsində IX-XI əsrlərdə Azərbaycanda yaranan dövlətlərdə idarəetmə sisitemi hansı münasibətlərə əsaslanırdı

a) patriarxal
b) kapitalist
c) quldarlıq
d) feodal
e) heç birinə

23. Aşağıdakılardan biri X əsrin ikinci yarısında mövcud olmuş Şəddadilər dövlətinin idarə olunmasına aid deyil

a) dövlətin başçısının mülki və hərbi hakim olaraq əmir titulu daşıması
b) vilayətləri şahzadələrdən və sülalə üzvlərindən təyin olunan naiblərin idarə etməsi
c) əsas diqqətin orduya verilməsi
d) dövlətin başçısının şah titulu daşıması
e) heç biri

24. Aşağıdakılardan biri XII əsrin əvvəllərində Azərbaycanda mövcud olmuş Atabəylər (1136-1225) dövlətinin idarə olunmasına aid deyil

a) hacibin hökmdarın şəxsi əmlakını idarə etməsi
b) dövlətdə ikinci simanın vəzir olması
c) vəzir tərəfindən divan məmurlarının vəzifəyə təyin edilməsi
d) dövlətin bütün maliyyə işlərinin vəzirin nəzarətində olması
e) dövlət başçısının şah titulu daşıması

25. Aşağıdakılardan biri Monqol istilasından sonra Azərbaycanda mövcud olmuş Hülakülər dövlətində istifadə olunmuş

bir sıra hərbi, mülki və s. anlayışlara aid deyil

a) bəlarquçi; b) bukavul; c) yurdçi; d) əmir; e) heç biri

26. Monqol istilasından sonra Azərbaycanda mövcud olmuş Hülakülər dövlətində dövlətin başçısı necə adlanırdı
a) xan; b) əmir; c) elxan; d) sultan; e) şah

27. Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurasının neçə üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir

a) 4; b) 8; c) 7; d) 5; e) 6

28. Dövlət qulluğuna qəbul olunmaq üçün test imtahanlarından müvəffəqiyyətlə çıxanlar sənədlərini neçə iş günü ərzində müvafiq icra hakimiyyəti orqanına təqdim edir və müsahibəyə buraxılır

a) 30; b) 20; c) 10; d) 40; e) heç biri

29. Dövlət qulluqçusunun attestasiya zamanı barəsində nəticə çıxarılmasına aid olmayanı tapın

a) peşəkarlığının qiymətləndirilməsi

b) dövlət qulluqçusunun etik davranışı və etiqadının qiymətləndirilməsi

c) işgüzarlığının qiymətləndirilməsi

d) mənəvi keyfiyyətlərinin qiymətləndirilməsi

e) dövlət qulluqçusunun tutduğu vəzifəyə uyğun gəlib-gəlməməsi

30. Hülakülər dövlətində ölkənin idarə olunmasında monqollar hansı sahədə üstünlüklərini qoruyub saxlamışdılar

a) vergi sahəsində

b) mülki idarə sahəsində

c) maliyyə sahəsində

d) hərbi sahədə

e) heç biri

31. Aşağıdakılardan biri Hülakülər dövlətində ölkənin ali orqanı sayılan qurultayın funksiyasına daxil olmayıb
a) sultanın seçkisi
b) dövlətin başçısı seçilir
c) vilayət hakimləri təyin olunur
d) mühüm dövlət məmurları təyin olunur
e) heç biri

32. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin mərkəzi dövlət aparatında sədrəzəm (baş sədr) kimlərə rəhbərlik edirdi
a) saray əyanlarına
b) hərbiçilərə
c) dövlət qulluqçularına
d) bütün müsəlman rühanilərə
e) maliyyə işləri ilə məşğul olanlara

33. Səfəvilər dövlətində mövcud olmuş Dövlət Şurasının tərkibi neçə nəfərdən ibarət olmuşdur
a) 12; b) 10; c) 14; d) 8; e) 6

34. Səfəvilər dövlətində şahın yanında məşvərətçi səslə dövlət aparatında yüksək mövqe tutan şəxslərdən və Azərban tayfalarının ən nüfuzlu əmirlərindən ibarət fəaliyyət göstərən qurum necə adlanırdı
a) qurultay
b) divan
c) məclis
d) əmirlik
e) dövlət şurası

35. Ərazisi iki hissəyə - divan vilayətlərinə və xassə vilayətlərinə, yəni dövlət torpaqlarına və şah ailəsinin mülklərinə

bölünən dövlət aşağıdakılardan hansıdır

a) Səfəvilər
b) Şirvanşahlar
c) Rəvvadilər
d) Sacilər
e) Ağqoyunlu

36. Səfəvilər dövlətində vəqfləri idarə edən dini təsisatın başında kim dayanırdı

a) dərviş; b) axund; c) şeyx; d) mürid; e) sədr

37. Aşağıdakılardan biri kadrların idarə edilməsi modelinə aid deyil

a) kadrların əlavə təhsili ilə məşğul olan model
b) kadrların qeydiyyatının aparılması ilə məşğul olan model
c) rifah modeli- burada kadrların idarə edilməsi şöbələrinin vəzifələrindən biri kimi işçilərin fiziki sağlamlığına diqqətin artırılması
d) işçilərin qabiliyyətlərinin üstün tutulmasına əsaslanan model
e) heç biri

39. Dövlət qulluğuna işə qəbulun neçə modeli mövcuddur

a) 3; b) 2; c) 4; d) 5; e) 6

40. Aşağıdakılardan biri dövlət qulluğuna işə qəbulun vəzifəyə əsaslanan sisteminə aid deyil

a) bütün vəzifələr üzrə müsabiqə keçirilir
b) əmək müqaviləsi Əmək məcəlləsinə əsaslanır
c) əmək müqaviləsi «Dövlət qulluğu haqqında» Qanunla tənzimlənir
d) özəl sektorda iş stajı yüksək qiymətləndirilir
e) heç biri

41. Aşağıdakılardan biri dövlət qulluğuna işə qəbulun karyera sisteminə aiddir

a) əmək müqaviləsi «Dövlət qulluğu haqqında» Qanunla tənzimlənir
b) əmək müqaviləsi Əmək məcəlləsinə əsaslanır
c) bütün vəzifələr üzrə müsabiqə keçirilir
d) özəl sektorda iş stajı yüksək qiymətləndirilir
e) heç biri

42. Azərbaycan Respublikasında dövlət qulluğuna işə qəbul hansı sistemə əsalanır

a) karyera sisteminə
b) vəzifəyə əsaslanan sistemə
c) xüsusi bir sistem yoxdur
d) heç birinə
e) rifaha əsaslanan sistemə

44. Qlobal dövlət idarəetməsində dəbdə olan və «müqayisəli təhlil» üçün dövlət təşkilatlarının özünü qiymətləndirilməsində istifadə olunan anlayış necə adlanır

a) kreativlik
b) innovasiya
c) menecment
d) bençmarkinq
e) heç biri

45. Dövlət qulluğunda təyinatlar aşağıdakılardan hansına əsaslanmalıdır

a) xidməti nailiyyətlərə
b) hec biri
c) dini şəbəkələrə
d) partiyalılığa

e) əqidəyə

46. Azərbaycan Respublikasında «Dövlət qulluğu haqqında» Qanunun tətbiqinə nəzarəti, dövlət qulluğunun normativ-metodiki təminatını, Azərbaycan Respublikasında dövlət qulluqçuları kateqoriyasına aid edilən şəxslərin siyahısının müəyyən edilməsini hansı qurum həyata keçirir

a) Milli Məclis

b) Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurası

c) Nazirlər Kabineti

d) Prezident Adminstrasiyası

e) Dövlət Qulluğu Məsələləri üzrə Komissiya

47. Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurasının tərkibi neçə nəfərdən ibarətdir

a) 17; b) 20; c) 16; d) 22; e) 18

48. Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurasının neçə üzvü Azərbaycan Respublikasının Prezidenti tərəfindən, neçə üzvü Azərbaycan Respublikası Milli Məclisinin sədri tərəfindən, neçə üzvü Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri tərəfindən təyin edilir

a) 8+4+6

b) 6+6+6

c) 7+6+5

d) 8+5+5

e) 7+7+4

49. Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurasının üzvləri Şurada hansı əsaslarla fəaliyyət göstərir

a) şəxsi təşəbbüs ilə

b) əmək müqaviləsi ilə

c) mülki müqavilə ilə

d) ictimai əsaslarla

e) tapşırıq müqaviləsi ilə

50. Azərbaycan Respublikasının Dövlət Qulluğunun İdarəetmə Şurasının qəbul etdiyi qərarların müvafiq dövlət qulluqçuları üçün məcburiliyi kimlər tərəfindən təmin edilir

a) Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri

b) Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikası Mərkəzi seçki komissiyasının sədri

c) Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Mərkəzi seçki komissiyasının sədri və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri.

d) Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin sədri və Azərbaycan Respublikasının baş naziri

e) heç biri

52. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu hansı tarixdə qüvvəyə minmişdir

a) 1 sentyabr 2004-cü ildə

b) 15 yanvar 2005-ci ildə

c) 29 mart 2005-ci ildə

d) 02 sentyabr 2004-cü ildə

e) 24 avqust 2004-cü ildə\

53. Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri kim tərəfindən vəzifəyə təyin edilir

a) Azərbaycan Respublikasının Baş Naziri tərəfindən

b) Azərbaycan Respublikasının Prezidenti tərəfindən

c) Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən

d) Mərkəzi Seçki komissiyasının sədri tərəfindən

e) Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın

Kollegiyası tərəfindən

55. Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Kollegiyasının üzvü olmayanı tapın

a) Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğu Məsələləri üzrə Komissiyasının aparat rəhbərinin katibi

b) Komissiyanın sədri

c) Komissiyanın müavini

d) Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluğu Məsələləri üzrə Komissiyasının sədri

e) heç biri

56. ABŞ-da dövlət qulluğu institutunun yaranması neçə mərhələyə bölünür

a) iki; b) üç; c) dörd; d) beş; e) altı

57. «Qənimət sistemi» hansı ölkənin dövlət qulluğu münasibətlərinə aid edilir

a) Azərbaycan; b) Rusiya; c) ABŞ ; d) Almaniya; e) Türkiyə

58. ABŞ-da dövlət qulluğu münasibətlərinin yaranmasının I mərhələsi hansı dövrü əhatə etmişdir və bu mərhələdə dövlət-qulluq münasibətləri necə tənzimlənmişdir

a) XIX əsrin ortalarına qədərki dövrü əhatə etmişdir və bu mərhələdə dövlət qulluğunun qanunvericilik əsasları olmamış, dövlət-qulluq münasibətləri siyasi adətlərlə - patronaj və «qənimət sistemi» ilə tənzimlənmişdir

b) XX əsrin ortalarına qədərki dövrü əhatə etmişdir və bu mərhələdə dövlət qulluğunun qanunvericilik əsasları formalaşmış, dövlət-qulluq münasibətləri siyasi-dini adətlərlə - patronaj və «qənimət sistemi» ilə tənzimlənmişdir

c) XIX əsrin ortaları - XX əsrin əvvəllərini əhatə etmişdir və bu mərhələdə dövlət qulluğunun qanunvericilik əsasları formalaşmış, dini adətlərlə tənzimlənmişdir

d) heç biri

e) XIX əsrin sonunu əhatə etmişdir və bu mərhələdə dövlət qulluğunun qanunvericilik əsasları formalaşmış, dövlət-qulluq münasibətləri «Ləyaqət sistemi»ilə tənzimlənmişdir

59. «Ləyaqət sistemi» ABŞ-da dövlət qulluğu münasibətlərinin yaranmasının hansı mərhələsinə aid edilir

a) I b) II c) III d) IV e) heç biri

60. ABŞ-da dövlət qulluğu münasibətləri ilk dəfə hansı qanunla tənzimlənmişdir

a) Hetç qanunu
b) Fulton qanunu
c) Pendelton qanunu
d) Patronaj qanunu
e) heç biri

62. ABŞ-da dövlət qulluğu münasibətlərinin yaranmasının II mərhələsinə aid olan Pendelton qanunu hansı sistemlə tənzimlənmişdir

a) Nailiyyətlər sistemi
b) Qənimət sistemi
c) Patronaj sistemi
d) heç biri
e) Ləyaqət sistemi

63. Dövlət aparatının yuxarı eşelonuna, ali və yuxarımaaşlı vəzifələrə prezidentə sadiq və yaxın adamların təyin olunması praktikası ABŞ bürokratiyasında dövlət vəzifələrinin komplektləşdirilməsinin hansı sistemi adlanır

a) patronaj sistemi
b) ləyaqət sistemi
c) qənimət sistemi
d) nailiyyətlər sistemi

e) heç biri

64. Endri Ceksonun ABŞ prezidenti seçilməsi ilə dövlət qulluğuna hansı sistem tətbiq edildi

a) qənimət sistemi
b) patronaj sistemi
c) ləyaqət sistemi
d) nailiyyətlər sistemi
e) heç biri

65. Amerika cəmiyyətinin üzləşdiyi səriştəsizlik, savadsızlıq və laqeydsizlik kimi acı nəticələrə dövlət qulluğunda hansı sistem səbəb olmuşdur

a) patronaj sistemi
b) qənimət sistemi
c) ləyaqət sistemi
d) nailiyyətlər sistemi
e) heç biri

67. ABŞ dövlət qulluğunda "Nailiyyətlər sisteminin" tətbiqinə hansı qanunun qəbul edilməsi ilə başlandı

a) Fulton qanunu
b) Hetç qanunu
c) Tetçer qanunu
d) Cekson qanunu
e) Pendlton qanunu

68. ABŞ-da 1883-cü ildə Pendlton qanununun qəbul olunması ilə dövlət qulluğunda edilmiş müsbətə doğru əhəmiyyətli dəyişikliklərə aşağıdakılardan biri aid deyil

a) dövlət qulluğunun müştərilərin mənafeyinə yönəldilməsi
b) dövlət qulluqçularının test imtahanlarından keçirilməsi
c) dövlət qulluqçularına vahid vəzifə sisteminin tətbiq edilməsi
d) dövlət qulluqçularına vahid məvacib sisteminin tətbiq

edilməsi

e) e) heç biri

69. Vudro Vilsonun müəllifi olduğu və ABŞ-da dövlət qulluğunun nəzəri konsepsiyasının əsasını qoymuş kitabın adı nədir

a) Amerika rejimində ictimai xidmət
b) Elmi idarəetmənin əsasları
c) İnzibatçılığın öyrənilməsi
d) Amerika demokratiyasında sivil xidmət
e) heç biri

71. ABŞ-da dövlət qulluqçularının siyasi fəallığını məhdudlaşdıran qanunu tapın

a) Pendlton qanunu
b) “Hetç” qanunu
c) Cekson qanunu
d) Tetçer qanunu
e) heç biri

73. Federal bürokratiyanın tezliklə və ciddi şəkildə yenidən qurulmasını öz siyasətinin başlıca prioritetlərindən biri hesab edən ABŞ prezidenti kim olmuşdur

a) C.Karter
b) R.Nikson
c) R.Reyqan
d) C.Buş
e) B.Klinton

74. Aşağıda göstərilənlərdən biri 1958-ci ildə ABŞ Konqresinin sərəncamı ilə formalaşmış, “dövlət qulluğunun etikası” adlanan sənədlə müəyyən olunmuş dövlət qulluğunda çalışan hər bir şəxsin əməl etməyə borclu olduğuna aid deyil

a) ABŞ-ın Konstitusiyasını və qanunlarını qorumaq, onların icrasından yayınan şəxsləri müdafiə etməmək

b) yüksək mənəvi prinsiplərə sadiq olmaq və dövlət mənafeyini şəxsi və partiya mənafeyindən üstün tutmagı

c) dövlət qulluğunda qənimət qalib gələnindir prinsipinin əsas götürülməsi

d) korrupsiya halları ilə üzləşdikdə onların aşkar edilməsi ilə onlara qarşı çıxmaq

e) heç biri

76. ABŞ-da 80-cı illərdə heyətin idarə edilməsində keçirilmiş inzibati islahatlar nəticəsində yaranan Federal Kadrlar İdarəsi və "Nailiyyətlər sistemi"nin Müdafiə Şurası hansı strukturun bazasında yaradılmışdır

a) Dövlət Departamentinin

b) Ali Rəhbərlər Xidmətinin

c) ABŞ-da hökumət etikası məsələri üzrə idarənin

d) Federal təhqiqatlar bürosunun

e) heç biri

77. Hansı ölkənin hüququnda məmur "hakimiyyətin mülki xidmətçisi kimi tanınır"

a) ingilis hüququnda

b) fransız hüququnda

c) alman hüququnda

d) rusiya hüququnda

e) amerikan hüququnda

78. İngiltərə dövlət qulluğunda peşəkar məmurların hazırlanması və idarəçiliyə cəlb olunması istiqamətində islahatlara başlanması üçün Staford Nortkotun İngiltərə parlamentinə təqdim etdiyi məruzə necə adlanırdı

a) Tetçer Məruzəsi

b) Fulton Məruzəsi

c) Nortkot-Trevelyan Məruzəsi

d) heç biri

e) Pendelton məruzəsi

79. “Növbəti addımlar”proqramının müəllifini tapın
a) M.Tetçer
b) Çarlz Edvard Trevelyan
c) R.Nikson
d) C.Karter
e) heç biri

80. Fransa dövlət qulluğuna xas olan spesifik xüsusiyyətlər ilə uzun illər ərzində formalaşan və kök salan konsepsiyanı tapın
a) qənimət
b) nailiyyətlər
c) karyera
d) heç biri
e) patronaj

81. Mahiyyətcə qapalı, özünəməxsus iyerarxiya və tabeçilik prinsiplərini əks etdirən, ciddi inzibatçılıq qaydalarına riayət olunması əsasında qurulan, eyni zamanda güclü mərkəzləşməyə meyilli bir sistem kimi özünü göstərən dövlət qulluğu hansı ölkəyə məxsusdur
a) İngiltərə
b) Fransa
c) İsveç
d) Yaponiya
e) heç biri

83. Fransa qanunvericiliyinə əsasən dövlət qulluğu vəzifələrinə beş şərt üzrə həyata keçirilən buraxılış qaydalarına aşağıdakılardan biri aid deyil
a) vəzifənin tələblərinə uyğun fiziki sağlamlıq
b) Fransa vətəndaşlığının və siyasi hüquqlarının olması

c) qanunlara riayət edilməsi və hərbi qulluqla bağlı qanunun tələblərinin yerinə yetirilməsi

d) Fransada yaşayan və bu ölkənin qanunlarına riayət edən əcnəbi vətəndaşlar

e) heç biri

84. Aşağıdakılardan biri Xruşovun Sovet hakimiyyətinə rəhbərliyi dövrü dövlət qulluğunda xarakterizə olunan müsbət əlamətlərə aid deyil

a) ölkədə "nomenklaturaya" əsaslanan idarəetmə sisteminə keçilməsi

b) Stalinin ölümü ilə cəza maşınının hərəkətinin dayandırılması və məmurlar sırasında formalaşmış "qorxu" hisslərinə son qoyulması

c) Məmurların geniş müstəqillik və sərbəstlik əldə etmələri

d) dövlət qulluğunda mütəmadi olaraq nisbi liberallaşma istiqamətində addımların atılması

e) heç biri

85. Sovet hakimiyyətində "Yenidənqurma" adlı islahatlar kursu aşağıdakılardan kimin sovet hakimiyyətinə rəhbərlik etdiyi dövrdə mövcud olmuşdur

a) Yeltsin

b) Brejnev

c) Xruşov

d) Lenin

e) Qarbaçov

87. Fransa dövlət qulluğuna qəbul üçün keşirilən "xarici" (və ya "təhsil") xarakterli müsabiqə kimlər üçün nəzərdə tutulur

a) dövlət qulluğunda müəyyən iş stajına malik olan məmurların vəzifədə irəli çəkilməsi üçün

b) dövlət qulluğuna ilk dəfə gələnlər üçün

c) dövlət qulluğunda işə qəbul olmaq üçün hazırlaşan tələbələrin sınaq imtahanı mərhələsindən keçmələri üçün

d) heç biri

e) dövlət qulluğunda müəyyən iş stajına malik olan məmurlar üçün

89. Aşağıdakılardan biri Fransa məmurlarının vəzifə öhdəliklərinə aid deyil

a) Məmurların dövlət qulluqçusu işindən başqa özəl sektorda fəaliyyətlə məşğul olmalarına şərait yaradılması öhdəliyi

b) Məmurların özlərini bütövlükdə dövlət qulluğuna həsr etməsi öhdəliyi

c) Məmurlara şəxsi maraqlardan kənarlaşmaq, dövlətə sadiq olmaq, məmur nüfuzuna xələl gətirməmək öhdəliyi

d) Dövlət qulluğunda məmurlar arasında subordinasiya öhdəliyi

e) Dövlət qulluğunda məmurlar arasında iyerarxiya öhdəliyi

90.“Siyasi” və “Fəxri” məmurlar hansı ölkənin dövlət qulluğuna aiddir

a) Fransa

b) İspaniya

c) Yaponiya

d) Çin

e) Almaniya

91. Alman məmurluğunun yaranması və inkişafı hansı tarixi dövlətə bağlıdır

a) Fransa

b) Almaniya Federativ Respublikası

c) Almaniya Demokratik Respublikası

d) Heç biri

e) Prussiya

92. “Şəxsi sədaqət və inam” əsasında dövlət qulluğuna seçim prinsipi aşağıdakı ölkələrdən birinə aiddir

a) Türkiyə
b) Yaponiya
c) Almaniya
d) Ukrayna
e) İngiltərə

93. Prussiya tarixi dövründə alman məmurları əsasən hansı kateqoriyadan seçilirdilər.

a) müəllim sıralarından
b) zabit sıralarından
c) həkim sıralarından
d) heç biri
e) hüquqşünas sıralarından

95. Vassallıq prinsipləri üzərində və hərbi strukturla qarşılıqlı əlaqəli dövlət qulluğu və dövlət idarəçiliyi olan ölkə hansıdır

a) Rusiya
b) Almaniya
c) Türkiyə
d) Azərbaycan
e) Fransa

96. Rusiyada dövlət qulluğunun və məmurluğun sistemli qaydada formalaşmasının əsasını qoyan I Pyotrun fərmanı necə adlanır

a) “Rütbəvermə qaydaları”
b) “Xidmət dərəcələri cədvəli”
c) “Məmur dərəcələri cədvəli”
d) “Qulluq dərəcələri cədvəli”
e) “Nailiyyət dərəcələri cədvəli”

98. Rusiyada XVIII əsrdə “Rütbəvermə qaydaları” adlı fərman aşağıdakılardan kimlərin hakimiyyəti dövründə verilmişdi

a) I Pyotrun və I Pavelin
b) I Pyotrun və Nikolayın
c) I Pavelin və Nikolayın
d) I Pyotrun və Aleksandrın
e) heç birinin

99. Rusiya dövlət qulluğunda təsis edilmiş manufaktur-müşavir vəzifəsi hansı sahədə çalışan şəxslər üçün nəzərdə tutulmuşdu

a) ağır sənayedə çalışan şəxslər üçün
b) yüngül sənayedə çalışan şəxslər üçün
c) ticarətlə məşğul olan şəxslər üçün
d) kənd təsərrüfatında çalışan şəxslər üçün
e) heç biri

100. Rusiyanın “Qulluq dərəcələri cədvəlinə” əsasən aşağıdakı alimlərdən dövlət qulluqçusu olanları tapın

a) akademiyanın professorları və fakültələrdəki doktorlar
b) akademiyanın professorları və fakültələrdəki elmlər namizədləri
c) akademiyanın dosentləri və fakültələrdəki elmlər namizədləri
d) akademiyanın dosentləri və fakültələrdəki doktorlar
e) heç biri

101. Rusiyada II Nikolayın çarlığı dövründə dövlət qulluğunda islahatlara başlanmasının təşəbbüskarı kim olmuşdu

a) L.E.Şepelyov
b) S.Y.Vitte
c) B.N.Çiçerin
d) B.O.Klyuçevcki
e) heç biri

102. Rusiyada 1917-ci il oktyabr inqilabından sonra yeni hakimiyyət strukturunun formalaşması ilə dövlət qulluqçularının kadr ehtiyyatı ilk növbədə hansı patiyanın üzvlərindən formalaşmışdı`

a) menşevik; b) kommunist; c) burjuaziya; d) heç biri; e) sosialist

103. SSRİ-nin yaradılması və formalaşması ilə Sovet hakimiyyətinin ilk illərində bünövrəsi qoyulmuş dövlət idarəçiliyinin əsas mənfi xüsusiyyətinə aid olanı tapın

a) bütün hakimiyyətin rəhbərin (hakim kommunist partiyası liderinin) əlində cəmlənməsi

b) dövlət qulluğunda məmur vəzifəsinə təyinatda demokratik dəyərlərə sadiq olan namizədlərə üstünlük verilməsi

c) ölkə başçısının seçilməsi üçün namizədlərin müxtəlif partiya sıralarından verilməsi

d) vahid partiyalılıqdan imtina edilməsi

e) heç biri

104. Məsul dövlət qulluqçuları üçün "Nomenklatura" kateqoriyası (ən vacib və əhəmiyyətli vəzifələrin siyahısı) aşağıdakılardan kimin sovet hakimiyyətinə rəhbərlik etdiyi dövrdə yaradıldı

a) Lenin; b) Stalin; c) Xruşov; c) Brejnev; e) Andropov

105. Dövlət qulluğunda mütəmadi olaraq nisbi liberallaşma istiqamətində atılan addımlar aşağıdakılardan kimin sovet hakimiyyətinə rəhbərlik etdiyi dövrdə mövcud olmuşdur

a) Xruşov; b) Qorbaçov; c) Brejnev; d) Stalin; e) Lenin

106. 60-cı illərin ortalarında Sovet hakimiyyətinə kimin rəhbərliyə gəlməsi ilə dövlət qulluğunun liberallaşmasına son qoyuldu

a) Andropovun; b) Xruşovun; c) Stalinin; d) Qorbaçovun; e) Brejnevin

107. Aşağıdakılardan biri Brejnevin Sovet hakimiyyətinə rəhbərliyi dövrü dövlət qulluğunda xarakterizə olunan mənfi əlamətlərə aid deyil

a) ölkədə "yenidənqurma" adlanan islahatlar kursunun tətbiqinin SSRİ-nin dağılmasına gətirib çıxarması

b) dövlət qulluğunda nisbi liberallaşma istiqamətində atılan addımlara son qoyulması və ölkədə "nomenklaturaya" əsaslanan idarəetmə sisteminə keçilməsi ilə 80-ci illərin ortalarına doğru bütün sahələri əhatə edən dərin böhranın yetişməsi

c) ölkədə partiya rəhbərliyinin güclənməsi ilə cəmiyyətin idarə olunmasında onun rolunun artırılması, nomenklatura vəzifələrinin siyahısının genişləndirilməsi, vəzifədə qalma müddətinin uzadılması

d) ətrafında vəzifəli məmurları birləşdirən stabil idarəçi qruplarının yaranması ilə idarəçilikdə neqativ halların dərin kök salması

e) heç biri

108. Azərbaycan tarixinin minillik dövrünü əhatə etdikdə X əsrdən başlayaraq XIX əsrədək (Azərbaycanın Rusiya tərəfindən işğalınadək) olan dövrlərdə bu ərazidə mövcud olan dövlətlərin idarə olunması hansı dövlətçilik formaları və prinsipləri üzərində qurulmuşdur

a) zərdüşt; b) xristian; c) yəhudi; d) heç biri; e) islam

110. XIX əsrin əvvəllərində Rusiyanın işğalı altına düşdükdən sonra Azərbaycanda dövlət idarəçiliyi və dövlət qulluğunda hansı üsul-idarə tətbiq olundu

a) xan; b) komendant; c) islam; d) heç biri; e) qəza

111. Şimali Azərbaycanda rus qoşunlarına müqavimət göstərmədikləri üçün idarəetmə sistemində mövcud olan xan üsul-idarəsi saxlanılan xanlığı tapın

a) Qarabağ
b) Gəncə
c) Bakı
d) Quba
e) Naxçıvan

114. XIX əsrin əvvəllərində Rusiyanın işğalı altında olan Azərbaycanın şəriət məhkəmələrinə kim başçılıq edirdi

a) sədrəzəm
b) hakim
c) şeyx
d) axund
e) qazi

115. Neçənci ildə çar Ön Qafqazda inzibati islahatlar barəsində qanun verərək komendant idarə-üsulunu ləğv etmiş, quberniyalar və onların nəzdində mahallar əvəzinə qəzalar yaradılmışdır

a) 1840; b) 1850; c) 1860; d) 1870; e) 1830

116. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 30-cu illərdə kadr siyasəti hansı deviz altında milli kadrların sıxışdırılması ilə həyata keçirilirdi

a) "sovetləşmə"
b) "beynəlmiləlçilik"
c) "kooperativləşdirmə"

d) "milliləşmə"
e) “xristianlaşma”

117. 1969-cu ildə kimin Azərbaycanda hakimiyyətə gəlməsi ilə milli kadrların yetişdirilməsi və dövlət strukturlarında yerləşdirilməsi siyasətinə prioritet istiqamət verildi
a) Heydər Əliyev
b) Mircəfər Bağırov
c) Kamran Bağırov
d) Nəriman Nərimanov
e) heç biri

118. Sovet hakimiyyəti qurulduqdan sonra 30-cu illər Azərbaycanda hansı hadisələrlə xarakterizə edilir
a) milli kadrların yetişdirilməsi
b) Repressiya
c) dövlət qulluğunda milli kadrların irəli çəkilməsi
d) heç biri
e) milli kadrların ixtisaslarının artırılması

119. 1917-ci ildə "Qulluq dərəcələri cədvəli" ləğv edildikdən sonra hansı ideyalara sədaqətlilik əsasında aşağıdan yuxarıya partiya, dövlət və ictimai təşkilatların bütün dərəcə və pillələrini əhatə edən kadrların seçilib yerləşdirilməsinin nomenklatur sistemi yarandı
a) tolerantlıq ideyalarına
b) millətlərin bərabərliyi ideyalarına
c) kommunizm ideyalarına
d) sovet vətəndaşı olmaq ideyalarına
e) heç biri

120. Müstəqillik qazandıqdan sonra Azərbaycanda müasir dövlət qulluğu sisteminin yaradıcısı kim olmuşdur
a) H.Əliyev

b) Ə.Vəzirov
c) A. Mütəllibov
d) Ə.Elçibəy
e) heç biri

121. 1998-ci ildə Azərbaycan Respublikasının Dövlət idarəçilik sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının yaradılması haqqında fərman kimin Azərbaycana rəhbərlik etdiyi dövrdə imzalanmışdır
a) H.Əliyev
b) İ.Əliyev
c) A. Mütəllibov
d) Ə.Elçibəy
e) heç biri

123. Dövlət orqanlarında vəzifələr təsnifatına görə neçə yerə bölünür
a) 5; b) 3; c) 4; d) 2; e) 6

124. "Dövlət qulluğu haqqında" Qanunda yardımçı vəzifələr neçə təsnifata bölünür
a) 4; b) 7; c) 2; b) 6; e) 5

126. Azərbaycan Respublikasında dövlət qulluğu sahəsində dövlətlə dövlət qulluqçuları arasında yaranan münasibətlərin və dövlət qulluqçularının hüquqi vəziyyəti ilə bağlı məsələlərin tənzimlənməsi aşağıdakılardan birinə aiddir
a) Dövlət qulluğunun məqsədinə
b) Dövlət qulluğunun vəzifəsinə
c) Dövlət qulluğunun funksiyasına
d) Dövlət qulluğunun hüququna
e) heç biri

127. Dövlət qulluğunun tərifinin düzgün variantını tapın

a) Dövlət qulluğu Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq dövlətin funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifələrini yerinə yetirməsidir

b) Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin məqsədlərinin və funksiyalarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifə səlahiyyətlərini yerinə yetirməsidir

c) Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq dövlətin məqsədlərinin həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz vəzifələrini yerinə yetirməsidir

d) Dövlət qulluğu Azərbaycan Respublikasının Konstitusiyasına və digər qanunvericilik aktlarına uyğun olaraq dövlətin hüquqlarının həyata keçirilməsi sahəsində dövlət qulluqçularının öz tapşırıqlarını yerinə yetirməsidir

e) heç biri

128. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu aşağıdakı variantlarda göstərilənlərdən birinə şamil edilmir

a) məhkəmə hakimiyyəti orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara

b) icra hakimiyyəti orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara

c) qanunvericilik hakimiyyəti orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara

d) Ordu sıralarında xidmət edən hərbi qulluqçulara

e) heç biri

129. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu prokurorluq, ədliyyə, milli təhlükəsizlik, müdafiə, fövqəladə hallar, sərhəd xidməti, daxili işlər, gömrük, vergi, xarici

işlər və feldyeger rabitəsi orqanlarının aparatında çalışan hansı şəxslərə (dövlət qulluqçusu olmayan işçilər- xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s. istisna olmaqla) şamil edilir

a) bu orqanların aparatında çalışan və hərbi və ya xüsusi rütbəsi olmayan şəxslərə

b) bu orqanların aparatında çalışan və hərbi və ya xüsusi rütbəsi olan şəxslərə

c) bu orqanların aparatında çalışmayan və hərbi və ya xüsusi rütbəsi olmayan şəxslərə

d) bu orqanların aparatında çalışmayan və hərbi və ya xüsusi rütbəsi olan şəxslərə

e) heç biri

130. Dövlət qulluğunun yaradılmasında mühüm əhəmiyyət daşıyan hüquq prinsipi hansı qanunvericilik aktları ilə müəyyən olunur

a) Konstitusiya və digər qanunvericilik aktları ilə

b) əsasnamələr ilə

c) təlimatlarla

d) tövsiyələrlə

e) vəzifə funksiyaları ilə

131. əsas səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsinin III hissəsinə əsasən müəyyən edilən Azərbaycan Respublikasının qanunvericilik, icra və məhkəmə hakimiyyətinin ən yüksək dövlət orqanları, habelə yuxarı icra orqanı – Azərbaycan dövlətinin başçısının fəaliyyətini bilavasitə təmin edən və icra səlahiyyətlərini həyata keçirən orqanlar, Azərbaycan Respublikasının Milli Məclisi, Ali konstitusiya ədalət mühakiməsi səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi neçənci kateqoriya dövlət orqanlarıdır

a) 4-cü kateqoriya dövlət orqanları

b) 2-ci kateqoriya dövlət orqanları
c) 3-cü kateqoriya dövlət orqanları
d) Ali kateqoriya dövlət orqanları
e) 5-ci kateqoriya dövlət orqanları

132. Aşağıdakılardan biri öz səlahiyyətinə görə 1-ci kateqoriya dövlət orqanlarının təsnifatına aid deyil
a) Məhkəmə-Hüquq Şurasının Aparatı
b) Naxçıvan Muxtar Respublikasının Ali Məclisi
c) Azərbaycan Respublikasının Hesablama Palatası
d) Azərbaycan Respublikasının Ali Məhkəməsi
e) Azərbaycan Respublikasının Milli Məclisi

133. "Dövlət qulluğu haqqında" Qanunun I fəslinin düzgün adlanan başlığını tapın
a) Dövlət qulluqçusu
b) Dövlət orqanları
c) Dövlət qulluğu vəzifəsi
d) Ümumi müddəalar
e) Dövlət qulluğu keçmə

134. Dövlət qulluğu vəzifəsi anlayışının düzgün variantını tapın

a) dövlət qulluğu vəzifəsi dövlət orqanının normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir. Həmin vəzifəni tutan şəxsin səlahiyyət və funksiyalarının hüdudları həmin orqanın səlahiyyətindən asılı olaraq müəyyən edilir.

b) Dövlət qulluğu vəzifəsi bu Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşlarının qulluğudur

c) dövlət qulluğu vəzifəsi ictimai təşkilatların normativ aktlarla müəyyən edilən struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir.

d) dövlət qulluğu vəzifəsi həmin vəzifəni tutan şəxsin səlahiyyət və funksiyalarının hüdudlarına müvafiq struktur quruluşu və ştat cədvəlinə uyğun olan ştat vahididir.

e) heç biri

135. Dövlət orqanlarında vəzifələr həmin vəzifələrin funksiyalarının məzmunundan, səlahiyyətlərinin mənbəyindən və tutulması üsullarından asılı olaraq neçə yerə bölünür

a) 5; b) 3; c) 4; d) 2; e) 6

136. "Dövlət qulluçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında" Azərbaycan Respublikasının 31 may 2002-ci il tarixli Qanununa görə Azərbaycan Respublikasının təbii iqlim şəraiti nəzərə alınmaqla dəniz səviyyəsindən 1500 metrdən 2000 metrədək yüksəklikdəki yaşayış məntəqələrində fəaliyyət göstərən dövlət orqanlarında çalışan dövlət qulluqçularının aylıq vəzifə maaşlarına hansı həcmdə yerli əmsal müəyyən olunur

a) 1,2 həcmdə

b) 1,3 həcmdə

c) 1,4 həcmdə

d) 1,5 həcmdə

e) 1,6 həcmdə

137. 4-cü və 5-ci kateqoriya dövlət orqanları inzibati vəzifələrin neçənci təsnifatına aiddir

a) Ali; b) 2; c) 6; d) 7; e) 4

138. Yardımçı vəzifələrin birinci təsnifatına aid olanı tapın

a) 2-ci və 3-cü kateqoriya dövlət orqanlarında texniki vəzifələr;

b) 1-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr;
c) Ali kateqoriya dövlət orqanlarında texniki vəzifələr;
d) 4-cü və 5-ci kateqoriya dövlət orqanlarında texniki vəzifələr
e) heç bir

139. Əksər dövlət orqanları üçün eyni ada, eyni səlahiyyətlərə malik olan vəzifələr necə adlanır
a) nümunəvi vəzifələr
b) fərdi vəzifələr
c) ictimai vəzifələr
d) hüquqi vəzifələr
e) funksional vəzifələr

140. İnzibati vəzifələrə aid olanı tapın
a) komitə sədri
b) nazir
c) baş direktor
d) dövlət orqanı aparatının rəhbəri
e) heç biri

141. İnzibati vəzifələrə aid olmayanı tapın
a) sektor müdiri
b) aparat rəhbərinin müavini
c) aparıcı məsləhətçi
d) şöbə müdiri
e) vitse-prezident

142. Dövlət qulluqçusunun tərifinin düzgün variantını tapın
a) Dövlət qulluqçusu bu Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) dövlət qulluğu vəzifəsini tutan və inzibati vəzifə üzrə dövlət qulluğna qəbul edilərkən Azərbaycan respublikasına sadiq

olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır

b) Dövlət qulluqçusu bu Qanunla müəyyən edilmiş qaydada dövlət qulluğu vəzifəsini tutan və inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır

c) Dövlət qulluqçusu bu Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız müəssisələrin sərbəst mənfəətindən verilə bilər) vəzifə tutan və inzibati vəzifə üzrə dövlət qulluğuna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır

d) Dövlət qulluqçusu bu Qanunla müəyyən edilmiş qaydada maaşlı (maaş yalnız dövlət büdcəsi vəsaitindən verilə bilər) inzibati vəzifə tutan və dövlət qulluğna qəbul edilərkən Azərbaycan Respublikasına sadiq olacağına and içən Azərbaycan Respublikasının vətəndaşıdır

e) heç biri

143. Aşağıdakılardan biri ilk dəfə daimi dövlət qulluğuna qəbul edilərkən vəzifəsinin icrasına başlamazdan əvvəl and içmir

a) məsləhətçi
b) sürücü
c) aparıcı məsləhətçi
d) baş məsləhətçi
e) heç biri

144. “Dövlət qulluğu haqqında” Qanuna əsasən dövlət qulluqçusunun qulluq stajına 1991-ci il oktyabrın 18-dək iş müddəti daxil edilən orqanlara aid olmayanı aşağıdakı tapın

a) partiya orqanları
b) dövlət orqanları
c) sovet orqanları
d) həmkarlar ittifaqlarının seçkili orqanları
e) heç biri

145. Dövlət qulluqçusuna dövlət pensiyası verilməsi üçün lazım olan xidmət illərinin minimum həddi neçə ildir.

a) 3; b) 4; c) 5; d) 6; e) 1

146. İnzibati vəzifələrin dördüncü-yeddinci təsnifat vəzifələri tutan dövlət qulluqçusunun həmin təsnifat üzrə daha yüksək (növbəti) ixtisas dərəcəsi alması üçün müvafiq vəzifə də daxil olmaqla, həmin təsnifata daxil olan vəzifələrdə azı neçə il qulluq stajı olmalıdır.

a) 4 il; b) 9 il; c) 3 il; d) 1 il; e) 2 il

147. Dövlət qulluqçularının"Dövlət qulluğu haqqında" Qanunla müəyyən edilmiş əsas vəzifələrinə aid olmayanı tapın

a) Başqa dövlət qulluqçularının işini çətinləşdirən, yaxud qulluq keçdiyi dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli

b) Rəhbərlərin öz səlahiyyəti hüdudunda verdikləri əmrləri, sərəncamları və göstərişləri yerinə yetirməli

c) vəzifə borcunu yerinə yetirmək üçün dövlət orqanlarından, ictimai birliklərdən, müəssisə, idarə və təşkilatlardan müəyyən edilmiş qaydada lazımi informasiya və materiallar tələb etmək və almaq;

d) vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxmalı və öz səlahiyyətləri hüdudunda onları qərəzsiz həll etməli

e) dövlət sirrini və qanunla mühafizə edilən digər sirri həmişə, o cümlədən dövlət qulluğuna xitam verildikdən sonra da saxlamalı

148. Dövlət qulluqçularına "Dövlət qulluğu haqqında" Qanunla müəyyən edilmiş məhdudiyyətlərə aid olanı tapın

a) təcrübə, yenidənhazırlanma və ixtisasartırma keçmə;

b) lazımi qulluq şəraiti;

c) haqqı ödənilən məzuniyyət;

d) dövlət qulluqçularının və onların ailə üzvlərinin icbari tibbi sığortası;

e) elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla işlədiyi dövlət orqanının rəhbərliyinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmaq

149. Dövlət qulluqçularına "Dövlət qulluğu haqqında" Qanunla müəyyən edilmiş təminatlara aid olanı tapın

a) qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində iştirak etməyə

b) qulluq keçdiyi dövlət orqanı rəhbərinə bildirmədən xarici ölkənin vəsaiti hesabına oraya getməyə

c) icra edilən vəzifə öhdəliklərinin xarakteri nəzərə alınmaqla xidməti nəqliyyat və ya müvafiq kompensasiya almaq

d) tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə

e) dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə və dövlət orqanlarının tabeliyindəki obyektlərdə dini mərasimlərin keçirilməsinə rəsmi xarakter verməyə

150. Dövlət qulluqçusuna ödənilən dövlət məvacibinin məbləği aşağıdakıların birindən asılı deyil

a) səlahiyyət həcmindən

b) ictimai nüfuzundan

c) məsuliyyət dərəcəsindən

d) tələb olunan peşəkarlıq səviyyəsindən

e) qulluq stajından asılıdır

“Dövlət qullugu fənni” üzrə testlərin

## CAVABLARI

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1)C | 21)A | 41)A | 61)C | 81)B | 101)B | 121)A | 141)E |
| 2)D | 22)D | 42)B | 62)E | 82)A | 102)B | 122)C | 142)A |
| 3)A | 23)D | 43)A | 63)A | 83)D | 103)A | 123)D | 143)B |
| 4)C | 24)A | 44)D | 64)A | 84)A | 104)B | 124)A | 144)D |
| 5)B | 25)D | 45)A | 65)B | 85)E | 105)A | 125)D | 145)C |
| 6)A | 26)C | 46)B | 66)A | 86)D | 106)E | 126)A | 146)A |
| 7)D | 27)E | 47)E | 67)E | 87)B | 107)A | 127)B | 147)C |
| 8)E | 28)C | 48)B | 68)A | 88)A | 108)E | 128)D | 148)E |
| 9)D | 29)B | 49)D | 69)C | 89)A | 109)C | 129)A | 149)C |
| 10)A | 30)D | 50)A | 70)A | 90)E | 110)B | 130)A | 150)B |
| 11)E | 31)A | 51)B | 71)B | 91)E | 111)A | 131)D | |
| 12)A | 32)D | 52)A | 72)C | 92)C | 112)A | 132)E | |
| 13)C | 33)A | 53)B | 73)A | 93)B | 113)B | 133)D | |
| 14)D | 34)E | 54)E | 74)C | 94)A | 114)E | 134)A | |
| 15)E | 35)A | 55)A | 75)C | 95)A | 115)A | 135)D | |
| 16)A | 36)E | 56)B | 76)B | 96)D | 116)B | 136)A | |
| 17)C | 37)A | 57)C | 77)A | 97)A | 117)A | 137)D | |
| 18)A | 38)A | 58)A | 78)C | 98)B | 118)B | 138)C | |
| 19)E | 39)B | 59)B | 79)A | 99)C | 119)C | 139)A | |
| 20)C | 40)C | 60)C | 80)C | 100)A | 120)A | 140)D | |

# ƏDƏBİYYAT


1. Dövlət qulluğu haqqında sənədlər toplusu. Bakı, Qanun-2009
2. Qəndilov S., Heydər Əliyev və dövlət idarəçiliyi, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu kitabında. Bakı, Azərnəşr, 2003
3. Rzayev Ə. Azərbaycan Respublikasında dövlət qulluğu: nəzəriyyə və praktika. Bakı: Elm, 2005
4. Rzayev Ə. Dövlət qulluğunun hüquqi əsasları. Bakı: Elm, 2011
5. İsmayılov S. Azərbaycanda dövlət qulluğu ənənələri və onun müasir durumu. Bakı: Ozan nəşriyyatı, 2004,
6. İsmayılov S. Azərbaycanda dövlət qulluğu və yeni əsrin tələbləri. Bakı, 2004
7. İsmayılov İ. Azərbaycanda dövlətçilik fikri oçerkləri. Bakı: Maarif, 1996
8. İsmayılov İ. Azərbaycanın XX əsrdə dövlətşilik siyasəti məsələləri. Bakı, 1995
9. Nuriyev Ə. Regional siyasət və idarəetmə. Bakı: Elm, 2004
10. Qarayev E. İrəvan xanlığı. 1747-1828. Bakı, “Avropa” nəşriyyatı 2010
11. Ronald Yanq, Ramazan Şabanov. Azərbaycanda müasir dövlət qulluğu modeli axtarışı: dünya təcrübəsi kontekstində. TACİS layihəsi çərçivəsində. Bakı, 2004
12. Ronald Yanq, Eldar Azadov. Dövlət idarəetməsində islahatlar: nailiyyətlər, problemlər, perspektivlər. TACİS layihəsi çərçivəsində. Bakı, 2005
13. Ronald Yanq, Gülzar Quliyeva. Azərbaycanda kadrların idarə edilməsinə müasir yanaşma. İnsan inkişafı. TACİS layihəsi çərçivəsində. Bakı, 2005
14. Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı: Elm, 1987

15. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasir. İkinci nəşr. Bakı: Elm, 1989
16. Qabusnamə. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1989
17. Bünyadzadə Z. Azərbaycan Atabəylər dövləti.Bakı1978
18. Bünyadzadə Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989
19. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993
20. Azərbaycan tarixi. Bakı : Çıraq, 2009
21. Seyidov M. XV yüzillikdə Azərbaycanda dövlət və hüquq. Bakı : Nurlan, 2004
22. Seyidov M. Qədim dövrdə və erkən orta əsrlərdə Azərbaycanda dövlət idarəçiliyinin və qanunvericiliyinin formalaşması. Bakı , 2008
23. Hacıyeva Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı: "Təhsil", 2007
24. Əliyev F.A, Əliyev M.M. Naxçıvan xanlığı. Bakı, Azərnəşr, 1996
25. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı, "Şərq-Qərb", 2007
26. А.Волфь. Кадровый менеджмент в местных органах управления. Государственная служба на рубеже веков. Зарубежный опыт реферативных журналов. М.: РАГС, 1998.
27. Буниятов. Государство Атабеков Азербайджана. Баку: Элм, 1978
28. Вакыханов А. Сочинения. Записки, письма. Баку, «Элм», 1983
29. Искендерова М. Бакинское ханство. Баку, 1999
30. Энциклопедический словарь работников кадровый службы. М.: Инфра-М, 1999
31. Оболонский А.В. Бюрократия для XX1 века? Модели Государственной службы., М, «Дело», 2002
32. Оболонский Н.В. Эволюция государственной службы в Великобритании. Государство и Право, 1996, №6

33. Государственная служба: политология. М., 1999
34. Государственная служба основных капиталистических стран. М., Наука, 1977
35. Государственная служба (комплексный подход). Под. ред. А.В.Оболонского. Учебник.М.:Дело, 1999
36. Государственная служба: энциклопедический словарь. Под ред. В.К.Егорова, И.Н.Барцица. М.: РАГС, 2008
37. Гриней Б. Введение в науку управления. М., 1969
38. Гришковец А.А. Правовое обеспечение государственной службы. М., 1988
39. Гербештейн С. Записки о московитских делах/ Новокомский П.Н. Книга о московитском посольстве. СПБ., 1098
40. Кареев Н. История западной Европы в новое время. Т.2. СПБ., 1904
41. Лунев В.Е. Советский государственный аппарат. М., Знание, 1972
42. Лависс и Рамбо. История XIX века. Т.1.М., 1905
43. Лобанов В.В. Служба высших руководителей в США/Государство и право.1996. №6.
44. Назаренко Н.Ю. Государственная служба Российской Федерации. Изд-во второе. М.: Экзамен, 2007
45. Пухт В. Немецкий солдат/Итоги второй мировой войны: Сб.статей. М., 1957
46. Peters B.G. The politiks of Bureaucracy. N.Y.L. 1984, Kamenka E. Bureaucracy. Oxford; Cambridge. 1989
47. Wilson W. The Study of Administration/ 1887. Political Science Quarteriy
48. htpp://www.unpan.org/dpepa_worldpareport_hr.asp
49. http://www.asan.az/az/content/blog/251/azerbaycan_respublikasinin_qanunlari

| | |
|---|---|
| **Няшриййатын мцдири** | ***Камил Щцсейнов*** |
| **Баш редактор** | ***Исмят Сяфяров*** |
| **Редактор** | ***Исабя Щцсейнова*** |
| **Корректор** | ***Rəhilə Cəbrayılova*** |
| **Kompyuter operatoru** | ***Тяраня Бахшялийева*** |
| **Dizayner** | ***Mehdi Quliyev*** |

**Səfərov R.A.**

**Dövlət qulluğu**

**-------------------------------------**

***Dərs vəsaiti***

***Çapa imzalanıb 14 . 01. 2014. Kağız formatı 60x84 1/16.***
***Həcmi 14,3 ç.v. Sifariş 5 . Sayı 300.***

**-------------------------------------------------------------------------**

***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***

---